**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

**2021, 2 (32)**

**BAKI-2021**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 2 (32), 2021

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# ВЛИЯНИЕ ОБРАЗОВАНИЯ НА ФОРМИРОВАНИЕ ТУРЕЦКОЙ ИНТЕЛЛИГЕНЦИИ В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА

**Агаева Натаван**
Институт востоковедения им. ак. З.Буниятова
n.aghaeva@gmail.com

**Ключевые слова:** *образование, XIX век, Османская империя, реформы, интеллигенция*

*Турецкая интеллигенция, которую мы встречаем со второй половины XIX века, была порождением тех ранних реформ, которые осуществлялись в первой половине столетия. Тогда, как известно, государство ставило себе задачу в первую очередь воспитание нового по-современному образованного чиновничества, способного решать задачи времени. Благодаря первым реформам образования уже к середине XIX века каждый турок был обязан отправить своего ребенка в школу, а государство брало на себя обязанность его обучить. Более того, со вступлением Османской империи в систему международных отношений понадобились новые знания, для чего молодых служащих отправляли заграницу. Именно из этого чиновничества в дальнейшем сформируется новая социальная прослойка, которая войдет в историю как первая турецкая интеллигенция.*

# THE IMPACT OF EDUCATION ON THE FORMATION OF THE TURKISH INTELLIGENTSIA IN THE FIRST HALF OF THE 19th CENTURY

***Agayeva Natavan***

**Key words:** *education, 19th century, the Ottoman Empire, reforms, intelligentsia*

*The Turkish intelligentsia, as a phenomenon that we meet since the second half of the 19th century, was the product of those early reforms that were carried out in its first half. Those years, as known, the state set itself the task of raising a new, modernly educated bureaucracy, capable of solving the problems of the time. Due to the first educational reforms, by the middle of the 19th century, every Turkish family was obliged to send their child to school, and the state took a responsibility to educate him. Moreover, with the entry of*

*the Ottoman Empire into the system of international relations, new knowledge was needed, for which young Ottomans were sent abroad. It is from this bureaucracy that in the future a new social stratum will be formed, which will be known in history as the first Turkish intelligentsia.*

## XIX ƏSRİN BİRİNCİ YARISINDA TƏHSİLİN TÜRK ZİYALI TƏBƏQƏSİNİN FORMALAŞMASINA TƏSİRİ

***Ağayeva Natəvan***

**Açar sözlər:** *təhsil, XIX əsr, Osmanlı İmperiyası, islahatlar, ziyalı təbəqəsi*

*XIX əsrin ikinci yarısında ortaya çıxan türk ziyalısı fenomeni əsrin birinci yarısında aparılan ilk islahatların məhsulu idi. O zamanlar dövlət öz qarşısına dövrünün problemlərini həll etməyə qadir olan yeni, müasir təhsilli bir bürokratiya yetişdirmək vəzifəsi qoymuşdu. İlk təhsil islahatları sayəsində XIX əsrin ortalarında hər türk ailəsi övladını məktəbə göndərmək məcburiyyətində qaldı və dövlət ona təhsil verməyi öz üzərinə götürdü. Bundan əlavə, Osmanlı İmperiyasnın beynəlxalq münasibətlər sisteminə daxil olması ilə gənc osmanlıların yeni biliklərə sahib olmalarına ehtiyac duyulduğundan onlar xaricə göndərilmişdi. Bu bürokratlardan meydana gələcək yeni bir sosial təbəqə gələcəkdə tarixə ilk türk ziyalısı olaraq düşməyə başladı.*

Хотя среди исследователей феномена интеллигенции нет абсолютного согласия во мнении о генезисе данного термина, все представленные определения этого явления сводятся так или иначе к тому, что под интеллигенцией в общем ее представлении следует понимать особую социальную «группу, функцией которой является производство, тиражирование, передача и хранение» идей и знаний [1,с.76]. Если изначально, в частности накануне Великой французской революции в XVIII веке, слово употреблялось для обозначения явления абстрактной «интеллектуальной способности» к мышлению, присущей человеку, где представления об идеальном человеческом обществе были основаны на идее «разума», то потом этим словом стала обозначаться общественная группа, которая являлась «главным носителем этой способности» [подробнее 2].

Русский историк XIX века Ключевский В.О., рассуждая о причинах возникновения такого общественного слоя, как интеллигенция, связывал их, прежде всего, с влиянием, «приходящим со стороны» и исторически обусловленным распространением «чужой» культуры: «Во многих

явлениях нашей жизни XVIII века резко обнаруживается западное влияние... Западная культура для нас вовсе не предмет выбора: она навязывается нам с силой физической необходимости» [3, с.19]. Другими словами, появление в XVIII веке новых знаний в промышленной, военной, медицинской, культурной и др. областях на западе вызывало необходимость их изучения и дальнейшего распространения в обществе для соответствия сложившимся в мире реалиям. В данном случае реакция общества на новшества и определяла нужду в возникновении подобной прослойки, как интеллигенция. Если общество принимало новшества самостоятельно, то трансформация происходила естественным путем и была органичной. Если же оно не видело необходимости в каких-либо изменениях, тогда из него выделялась группа, функцией которой было «разъяснить» широким массам пользу этих изменений и выступить посредником для их воплощения. Эта группа и получила название «интеллигенция».

Структура османского общества первой четверти XIX века мало отличалась от традиционной, из которой отчетливо выделялись несколько основных доминантных социальных групп - духовенство улема, войны янычары, придворные чиновники пашалар и крестьянство. Консервативное духовенство и янычары, крепко державшиеся за свои традиционные взгляды и устои, которые обеспечивали им уважение и высокое положение среди народа, очевидным образом, не подходили на роль «проводников» новых знаний, так как, с большой вероятностью именно «новые знания» были способны отнять у них те рычаги давления, которыми они влияли на общество. Так же, как не подходило на эту роль и крестьянство, которое находилось под сильным влиянием своего духовенства, и «новые знания» воспринимало враждебно.

Таким образом, при взгляде на османское общество начала XIX века можно предположить, что «проводниками» новых знаний на тот период могли выступать только лица, вышедшие из придворной среды, как это наблюдается при многих европейских дворах, когда интеллигенция начинает формироваться в основном из аристократов. Однако, так как в силу государственного устройства, при котором «Султан...имеет высочайшую власть...и властен в имении и жизни своих подданных, особенно государственных чиновников, которых он без суда отрешает или казнит» [4, с.16] и все подданные государства равноценно считаются его слугами - «кул», в Османской империи потомственной аристократии не было, то наиболее приближенной к ней по характеру выполняемых функций социальной группой могли считаться пашалар. Именно представители данного сословия были первыми отправлены в зарубежные страны для приобретения «новых знаний». «Путешествия за границу

только стали развиваться в XVIII столетии, лишь к концу его сделавшись почти обязательными для людей высшего круга, как средство закончить образование, расширить умственный кругозор и приобрести бо́льшую «людскость»»» [5, с.5]. С возвращением из этих путешествий пашалар привозили с собой сведения, которые желали применить в собственной стране. И единственным средством с массовым эффектом на то время им казалось образование.

Если проследить историю развития образования в Османской империи, то можно заметить, что оно традиционно в империи в общем понимании этого явления было связано с двумя типами учреждений: государственными и частными образовательными институтами. И если частные образовательные институты представляли собой группы детей, которых учили в основном чтению Корана и законам религии в мечетях, библиотеках и домах высокопоставленных государственных чиновников-филонтропов, то государственные институты включали в себя «мектеб» и «медресе». «Мектебы предназначались преимущественно для лиц, в дальнейшем служивших на придворных, административных и военных должностях, тогда как обучение в медресе было характерно для представителей простого народа, желающих получить духовные и юридические знания» [6, с.5].

Одним из ведущих институтов образования для чиновников и придворных с XV вплоть до начала XIX века считалась основанная султаном Мурадом II Дворцовая школа – Эндерун (*Enderunmektebi)*, где готовили специалистов в области военного и гражданского управления. Эта школа была целенаправлено создана для воспитания будущих военачальников и государственных чиновников. На заре открытия данной школы для успешной карьеры государственного деятеля достаточной считалась лишь способность читать и писать, и тех, кто овладевал данной способностью, награждали титулом «эфенди», однако позже, к началу XIX века от них потребовались более обширные и разносторонние знания. Тогда, из-за отсутсвия необходимой образовательной базы «новые знания» приходилось приобретать самостоятельно. Американский исследователь Среднего Востока Родерик Дэвисон в своих исследованиях реформ Танзимата отмечает: «Умение читать и писать безусловно являлось достижением, принимая во внимание сложность языка и систему каллиграфии, в особенности запутанность официального стиля, загруженного арабской и персидской терминологией и часто стремящегося к изящности фразы в ущерб ясности... Но лучше всех были образованы эфенди, занимающиеся самообразованием; они впитывали знания из прочитанного и пережитого, а также из дискуссий, проводимых в некоторых интеллектуальных салонах Стамбула» [7, с.32-33].

Именно из таких «воспитанников Эндеруна вышло большое количество ранних реформаторов» [8, с.22]. Садык Рифат-паша и Мустафа Решид-паша в научной литературе представлены, как основные инициаторы реформ Танзимата. Они были одними из первых «профессиональных турецких дипломатов» [9, с.6] своего времени, долгое время пробывших в Европейских странах и перенявших «новые знания», в последствии позволившие им воспитать ту социальную прослойку, которая получила название «айдын» (“aydın”)-«просвещенные» (ред.- «айдын»-термин, употребляемый в туркоязычной научной литературе для обозначения представителей интеллигенции). В частности, «наиболее выдающийся из них - Мустафа Решид-паша, бывший послом в Париже и Лондоне и назначенный в 1837 г. министром иностранных дел» [10, с.382], «дни безработицы (ред. - предшествующие назначению в 1827 году в дворцовую канцелярию) не проводил праздно. Он читал различные книги, занимался историей и, размышляя над событиями современности, старался расширить свои знания и кругозор» [11, с.44].

Таким образом, самостоятельное чтение и беседы позволяли пройти первую ступень на пути формирования турецкой интеллигенции: эти занятия помогали приобретать те «новые знания», так необходимые для формирования нового типа османского человека. А для осуществления задуманного нужны были соратники, в воспитании которых Мустафа Решид-паша принимал непосредственное учатие. Он был из тех чиновников высшего ранга, кто оказывал покровительство молодым воспитанникам министерства иностранных дел, активно содействуя их «современному» развитию. Для этого он подготовил и представил на рассмотрение султану проект отправки заграницу определенного числа чиновников и послов в различные европейские страны. Так, «многих молодых турок направляют в западные страны в качестве сотрудников посольств или для обучения военному делу и гражданским специальностям» [12, с.84].

С приобретенными знаниями эти студенты возвращаются в страну, и начинают внедрять их во все сферы жизни общества, способствуя его культурной трансформации. Например, одним из таких бюрократов, отправленных зарубеж по этой программе, являлся «основатель турецкой литературы в западном понимании слова» писатель Шинаси, который был «отправлен в Париж изучать финансы» [13, с.5]. По возвращении,Шинаси стал активно заниматься публицистикой, издавал собственные газеты, был автором первых театральных пьес и борцом за распространение светских наук, а также реформатором османского языка. Его творчество оказало влияние на ряд литературных деятелей того времени, способствуя изменению облика османской литературы и культуры в целом. Таким

образом, «как собщает историограф Османской империи Лютфи, в то время ясно увидели, что правильное течение дел зависело от воспитания и использования Высокой Портой способных, знающих чиновников» [14, с.80]. И отныне осуществленная в 1830 году первая отправка будущих студентов зарубеж к 1835 году приобрела характер государственной политики [15, с.14].

Однако, бюрократическая среда была не единственной, из которой вышли представители турецкой интеллигенции. Как писал итальянский философ и политический деятель Антонио Грамши, который также размышлял над процессом формирования интеллигенции, нет такой сферы человеческой деятельности, из которой не могла бы сформирваться интеллигенция, «так как сложно исключить из нее любое интеллектуальное вмешательство»: «Всякий человек, наконец, за пределами своей профессии развивает некоторую интеллектуальную деятельность, является «философом», художником, человеком с определенными вкусами, разделяет определенное мировоззрение, имеет определенную сознательную линию морального поведения, следовательно, играет определенную роль в поддержании или изменении мировоззрения, то есть в пробуждении нового образа мыслей» [16, с.461-462].

В Османской империи второй четверти XIX века очередной средой, после бюрократической, способной привести к «пробуждению нового образа мыслей» стала среда военная. «Империя, которая носила милитаристский характер и причиной всех своих териториальных, экономических и социальных потресений, позорных поражений на фронте видела армию» [17, с.1] первой реформированию подвергла военную область. Стали открываться новые учебные заведения, где преподавались практические знания в области геометрии, тригонометрии, баллистики и черчения. Данные военные учебные заведения составили превосходную основу для дальнейшего развития гражданского образования в империи. Из выпускников первых школ созывались преподаватели для будущих учебных заведений. «Барон де Тотт образовал, впрочем, для турецкого флота несколько офицеров, сведущих в начальных правилах геометрии и способных измерить секстантом высоту солнца. Потом это училище было совершенно забыто...Султан Махмуд в первом порыве своих преобразований возобновил морское училище...Старые ученики де Тотта сделались профессорами и принялись опять за забытые проблемы катетов и гипотенузы» [18, с.215-216].

Позже, вышеупомянутые школы выпускали первоклассных специалистов, чьи знания, впоследствии, применялись не только в военной, но и в мирной жизни. Множество выпускников этих школ во второй половине XIX века участвовали в строительстве промышленных

предприятий, установке телеграфной сети, строительстве железных дорог. На основе их опыта были открыты Телеграфная школа (*Telegraf mektebi)*и Промышленная школа *(Sanayi mektebi).* В 1874-75 году первая Школа гражданской инженерии (*Mülkiye Mühendis mektebi*) была основана, как ветвь Имперского Университета (*Darülfünun-ı Sultani).*

В 1839 году была открыта Имперская школа медицины (*Mekteb-i Tibbiye-i Adliye-i Şahane)*, ранее носившая название Медицинская школа (*Mekteb-i Tibbiye*), состоявшая из слияния двух школ – Имперской медицинской школы (*Tıphane-i Amire*) и Имперской школы хирургии (*Cerrahhane-i Amire*), основанных, соответственно, в 1827 и 1832 годах [подробнее 19]. В 1866 году была открыта Школа гражданской медицины (*Mekteb-i Tıbbiye-i Mülkiye*).

Так, реформа образования, появление новых школ, получение знаний в области «светских» наук, общение с иностранными преподавателями, более того регулярные поездки чиновников заграницу обеспечили приток большого объема «новых знаний» в страну. Однако, существующие социальные условия препятствовали их распространению среди широких масс. Эту обязанность взяла на себя группа людей, вошедшая в историю как первые турецкие реформаторы. Именно их усилиями и с поддержки султана Махмуда II им удалось воспитать по-новому образованную группу молодых чиновников, которую впоследствии будут называть первой турецкой интеллигенцией.

## Литература

1. Уваров П.Б. Дети хаоса. Исторический феномен интеллигенции. М., 2005.
2. Плотников Н.С. Появление русской интеллигенции. Лекция 3. Журнал «Арзамас», 2018.
3. Ключевский В.О. Неопубликованные произведения. М., «Наука», 1983.
4. Турецкая империя в древнем и нынешнем ее состоянии, или Описание разных народов, обитавших в Турции: их нравы, обычаи, вероисповедание, правление, государственные доходы, достопамятности городов, число жителей и войск в нынешнем их состоянии, и проч. [Без автора] Москва, типография П. Кузнецова, 1829.
5. Сивков К.В. Путешествия русских людей за границу в XVIII веке. «Энергия», СПб., 1914.
6. Ergin Osman. Türkiye Maarif Tarihi. Cilt 1. İstanbul, 1977.
7. Davison R.H. Reform in the Ottoman Empire 1856-1876. Princeton University Press, 1963.

8. Shaw Stanford J., Shaw, EzelKural. History of the Ottoman Empire and Modern Turkey: Volume 2, Reform, Revolution, and Republic: The Rise of Modern Turkey 1808-1975. Cambridge University Press, 1977.
9. Дулина Н.А. Садык Рифат-паша и его проекты реформ в 30-е годы XIX в. Тюркологический сборник 1979. «Наука», М., 1985.
10. Новичев А.Д. Гюльханейский хатт-и шериф 1839 г. и его внешнеполитический аспект. Тюркологический сборник 1972. М., «Наука», 1973.
11. Kaynar Reşat. Mustafa Reşit Paşa ve Tanzimat. Ankara, 2010.
12. Новичев А.Д. Борьба между реформаторами и консерваторами а период Танзимата (1839-1853). Тюркологический сборник 1973. М., «Наука», 1975.
13. Tanziman Edebiyatı. Hayat Sağlık ve Sosyal Hizmetler Vakfı, Ankara Şübesi, Edebiyat Araştırmaları Koordinatörlüğü. Aralık, 2017.
14. Дулина Н.А. Изменения в османской дипломатии (30-е годы XIX в.). Тюркологический сборник 1973. «Наука», М., 1975.
15. Erdoğan Aynur. Osmanlı'da yurt dışı eğitim ve modernleşme. İstanbul, 2016.
16. Грамши А. Избранные произведения: в 3-х томах. Том 3: Тюремные тетради. Москва, 1959.
17. Ünal Tahsin. Harp Okulu Tarihi. Ankara, 2001.
18. Базили К. Очерки Константинополя. Часть вторая. СПб., 1835.
19. Ágoston Gábor, Bruce Masters, *Encyclopedia of The Ottoman Empire* (New York, "Facts On File, Inc.", 2009)

# 1920-Cİ İLLƏRDƏ AZƏRBAYCAN SSR-DƏ HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ KURSUN RESPUBLİKANIN DAXİLİ HƏYATINA TƏSİRİNƏ DAİR

***Ənvər Fəttah oğlu Məmmədov***
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
mammadovanvar1969@mail.ru

**Açar sözlər:***Azərbaycan, sovet hakimiyyəti, sosial-iqtisadi, daxili həyat, kustar*

*Təqdim olunan məqalədə Azərbaycan SSR-in sosial-iqtisadi vəziyyəti, xüsusilə də kustar istehsalın durumu, Sovet hökuməti tərəfindən 1920-ci illərdə həyata keçirilmiş tədbirlər kontekstində araşdırılır. Məqalədə sovet hakimiyyət orqanlarının həyata keçirdiyi tədbirlərin Azərbaycan SSR-də yaratdığı ağır sosial-iqtisadi durumdan bəhs olunur. Gətirilən faktlar belə qənaətə gəlməyə əsas verir ki, bu zaman kustar sənətkarlığın ayrı-ayrı sahələri ilə yanaşı xalçaçılıq da ciddi tənəzzül keçirmişdir. Sənətkarların sovet hakimiyyət orqanları tərəfindən sıxışdırılması, onların müxtəlif ağır vergilərlə yüklənməsi, bəzi sənət sahələrində çalışanların bəhs olunan dövrdə baş vermiş çıxışlarda yaxından iştirak etməsinə səbəb olmuşdur. Məqalədə 1930-cu il Nuxa-Zaqatala üsyanının timsalında sənətkarların baş vermiş çıxışlarda iştirakına dair arxiv sənədlərinə söykənən maraqlı faktlar gətirilir.*

## О ВЛИЯНИИ ПРОВОДИМОГО В АЗЕРБАЙДЖАНСКОЙ ССР СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО КУРСА В 1920-х ГОДАХ НА ВНУТРЕННЮЮ ЖИЗНЬ РЕСПУБЛИКИ

***А.Ф. Мамедов***

**Ключевые слова:***Азербайджан, советская власть, социально-экономическая, внутренняя жизнь, кустарь*

*В представленной статье рассматривается социально-экономическое положение Азербайджанской ССР в целом, и кустарное производства, в частности, в контексте осуществляемых в 1920-х годах советской властью мероприятий. Приведенные факты свидетельствуют, что в первой половине указанного десятилетия отдельные отрасли кустарного ремесленничества, в том числе и ковроткачество, переживали серьезный упадок. Притеснение органами власти кустарей и ремесленников, обложение их разными непосильными налогами вызывали рост социального недовольства, что приводило к*

*активному участию означенных категорий населения в антисоветских выступлениях. В статье во многом впервые приводятся уникальные факты из архивных документов, свидетельствующие об участии кустарей в Нухинско-Закатальском восстании 1930 года.*

## ON THE INFLUENCE OF THE SOCIO-ECONOMIC COURSE IN THE AZERBAIJAN SSR IN THE 1920S ON INTO THE INTERNAL LIFE OF THE REPUBLIC

**A.F Mammadov**

**Key words:** *Azerbaijan, Soviet power, craft, social-economic, inner life, handicraftsman*

*The presented article examines the socio-economic situation of the Azerbaijan SSR as a whole, and artisanal production, in particular, in the context of the events carried out by the Soviet government in the 1920s. The above facts indicate that in the first half of the decade, certain branches of artisanal crafts, including carpet weaving, were in serious decline. The oppression by the authorities of artisans and handicraftsmen, their imposing various excessive taxes caused an increase in social discontent, which led to the active participation of these categories of people in anti-Soviet protests. For the first time the article presents unique facts from archival documents, testifying to the participation of artisans in the Nukha-Zagatala uprising of 1930.*

Bəlli olduğu kimi, Birinci dünya müharibəsi, ardından milli münaqişələr, vətəndaş müharibəsi, mövcud sosial-iqtisadi əlaqələrin qırılması və s. səbəblər üzündən o dövrdə Azərbaycan xalq təsərrüfatı dərin böhran yaşamaqda idi. Bu böhran sovet hakimiyyətinin ilk illərində də davam etmiş və hətta bəzi sahələrdə daha dərin səciyyə almışdı. Tənəzzül iqtisadiyyatın bütün sahələrini sarımışdı. Qeyd etmək yerinə düşər ki, milliləşdirmədən sonra ilk vaxtlar Azərbaycanın neft sənayesində böhran daha geniş miqyas kəsb etmişdi. Məsələn, əgər 1920-ci ilin aprelində 17,2 milyon pud neft çıxarılmışdısa, iyunda bu rəqəm 14,9 milyon puda, sentyabrda isə 10,8 milyon puda enmişdi. İyunda 6,9 milyon pud neft hasilatına qarşı sentyabrda emal 4,8 milyon puda qədər azalmışdı [7,s.25].

Azərbaycanın kənd təsərrüfatında yaranmış vəziyyət sənayedən geri qalmırdı. Əkin sahələri 1914-cü illə müqayisədə 1921-ci ildə 965500 hektardan 560600 hektara enmiş - yəni 42% azalmışdı [10, s.44-45]. Taxıl əkinləri 1914-cü ildə 781 min hektardan 1921-ci ildə 506 min hektara, texniki bitki sahələri

121 min hektardan 9 min hektara, pambıq sahələri 115 min hektardan 4 min hektara, çəltik sahələri 47 min hektardan 30 min hektara düşmüşdü [4, s.6].

Maldarlığa da ciddi ziyan dəymişdi. İribuynuzlu mal-qaranın sayı 1914-cü ildəki 1 milyon 480 mindən 1921-ci ildə 635 minədək, atların sayı 153 mindən 101 minədək, qoyunların sayı 1,166 milyondan 866 minədək, sağmal inəklərin sayı 808 mindən 242 minədək azalmışdı [4, s.8-9]. Belə fəlakətli azalmanın səbəbləri müharibələr, yoluxucu xəstəliklər və s. ilə yanaşı, həm də ərzaq sapalağı ilə əlaqədar köçərilər tərəfindən mal-qaranın İrana sürülməsi idi. Bəhs olunan dövrdə maldarlıqda 40% azalma qeydə alınmışdı [8, s.29].

Azərbaycan kənd təsərrüfatının texniki təchizatı da son dərəcə primitiv idi. 1921-ci ilin məlumatlarına əsasən, kəndli təsərrüfatlarından yalnız 9%-də dəmir kotan, 2%-də dəmir dırmıx, 27%-də ağac xış var idi. Kəndli təsərrüfatlarının 64%-də ümumiyyətlə, torpaq becərmə alətləri qeydə alınmamışdı [9, s.142]. Kəndlilərin 1920-ci il 5 may dekretinə əsasən aldıqları torpaqlar kənd təsərrüfatı alətlərinin çatışmazlığı səbəbindən becərilməmiş qalmışdı. O da vurğulanmalıdır ki, Azərbaycan kəndliləri sadəcə təsərrüfat dağınıqlığından deyil, həmçinin sənaye istehsalının fəlakətli dərəcədə tənəzzülündən də əziyyət çəkirdilər.

Vəziyyəti ağırlaşdıran amillərdən biri də hərbi kommunizm siyasəti idi. Geniş kəndli kütləsi ərzaq sapalağının ləğvini və öz məhsulunun artığından sərbəst surətdə yararlanmağı istəyirdi. Vətəndaş müharibəsi sona çatsa da, kənddə vəziyyət daha da mürəkkəbləşmişdi.

O dövrdə sovet dövləti qarşısında iki seçim dururdu: ya artıq yeni hərbi-siyasi şəraitə cavab verməyən hərbi kommunizm kursunu davam etdirmək, bununla da həm əhalinin mütləq əksəriyyətini təşkil edən kəndlilərlə daimi savaş vəziyyətində olmaq, həm də ölkənin düşdüyü fəlakətli iqtisadi vəziyyətə seyrçi qalmaq; ya da kəndlini həvəsləndirməyi və sərbəst iqtisadiyyata xas bəzi digər tədbirləri ehtiva edən yeni sosial-iqtisadi kursa rəvac verməklə ölkənin təsərrüfat həyatını canlandırmaq. Bəlli olduğu kimi, V.Lenin vəziyyəti dəyərləndirərək, öz seçimini ikinci strategiya üzərində etmişdi.

Çanaq vergisinin ömrü isə az oldu. Belə ki, o əvvəla, ərzaq vergisinə keçid forması kimi düşünülmüşdü. İkincisi isə, bu tədbir bəslənilən ümidləri doğrultmadı, respublikada yığılan çanaq nəzərdə tutulduğundan az oldu. Qəzaların çoxunda məhsul qıtlığı, yığımın təşkilində yol verilən nöqsanlar, nəqliyyat çatışmazlığı "çanağın" kifayət qədər səmərəli olmamasının əsas səbəbləri idi.

1921-ci ilin martında olmuş Rusiya Kommunist (bolşeviklər) Partiyasının X qurultayı kəndlini həvəsləndirməyi və sərbəst iqtisadiyyata xas bəzi digər tədbirləri ehtiva edən Yeni İqtisadi Siyasətə (YİS) keçid haqqında qərar qəbul etdi. İqtisadi siyasətdə əsas dəyişikliklər, ərzaq sapalağının ərzaq vergisi ilə əvəzlənməsindən əlavə, xırda və orta sənayenin denasionalizasiyasını və ya icarəyə verilməsini, kənd təsərrüfatının və kustar-mədən kooperasiyasının,

xırda-əmtəə sektorunun fəaliyyət sərbəstliyinin bərpasını nəzərdə tuturdu. Obyektivlik naminə qeyd etmək lazımdır ki, Yeni İqtisadi Siyasət çərçivəsində atılan addımlar, kəndlini öz əməyinin məhsuldarlığında maraqlı etdiyindən, kənddə müəyyən qədər irəliləyişə təkan vermişdi.

1927-ci ilin sonu – 1928-ci ilin əvvəllərində meydana çıxmış taxıl tədarükü böhranı, kollektivləşdirmənin sürətlə və radikal tədbirlərlə həyata keçirilməsi zərurətini aktuallaşdırmaqla yaranmış vəziyyət, sənayeləşmənin də taleyini təhlükə altına alırdı. Ölkəni çörəklə təmin etmək zərurəti, eyni zamanda da sənayeləşmə üçün gərəkli maşın və avadanlığın xaricdən alınması üçün tələb olunan vəsaitin isə məhz taxıl satışı hesabına əldə olunması bolşevik hakimiyyətini bu məsələdə son dərəcə radikal addımlar atmağa sövq edirdi.

Qolçomaqlara qarşı yürüdülən siyasətdə yol verilən zorakılıqlar da bəhs olunan dövrdə kustar sənətkarlığın vəziyyətini gərginləşdirən amillərdən idi. Hakimiyyət orqanları qolçomaq siyahılarını özlərinin təsbit etdiyi meyarlarla tərtib edirdilər ki, bu da faktiki olaraq qolçomaq adı altında istənilən təşəbbüskar kəndlinin fiziki cəhətdən məhv edilməsinə gətirib çıxarırdı. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin qolçomaq təsərrüfatlarının üzərinə fərdi qaydada vahid kənd təsərrüfatı vergisinin qoyulmasına dair qərarına görə muzdlu əməyin tətbiqini zəruri edən sahələr istisna olmaqla (həmin sahələrdə də tətbiq olunan muzdlu əməyin həcmi müəyyən olunmuş həddi keçməməli idi), sistemli şəkildə kənd təsərrüfatı işləri, kustar sahələr və müəssisələrdə muzdlu əməkdən istifadə edən təsərrüfatlar qolçomaq təsərrüfatı hesab olunur və onların üzərinə fərdi qaydada vahid kənd təsərrüfatı vergisi qoyulurdu.

Muzdlu əməyin tətbiq olunduğu günlərin sayının il ərzində aşağıda müəyyən olunmuş həddi keçməyən təsərrüfatlar fərdi qaydada vahid kənd təsərrüfatı vergisindən azad olunurdu. Abşeron yarmadasındakı taxılçılıq təsərrüfatlarında muzdlu əməkdən ildə 35 günə qədər istifadə oluna bilərdi. Düzən, dağlıq və dağətəyi rayonlarda bu hədd ildə 40 günə, suvarılan torpaqlarda isə 50 günə qədər müəyyən olunmuşdu. Muzdlu əməyin tətbiqi bağçılıq və üzümçülük təsərrüfatlarında, eləcə də, Lənkəran, Masallı və Astara rayonlarının çəltikçilik təsərrüfatlarında ildə 75 günü (keçmiş Gəncə quberniyasının üzümçülük təsərrüfatlarında bu hədd ildə 150 gün müəyyən olunmuşdu), pambıqçılıq təsərrüfatlarında 150 günü, qeyri-pambıqçılıq rayonlarının çəltikçilik təsərrüfatlarında 50 günü (pambıqçılıq rayonlarında çəltik becərən və muzdlu əmək tətbiq edən təsərrüfatların üzərinə tətbiq etdiyi muzdlu əməyin ölçüsündən asılı olmayaraq, fərdi qaydada vahid kənd təsərrüfatı vergisi qoyulurdu), tütünçülük təsərrüfatlarında isə ildə 200 günü keçməməli idi.

Əhalinin narazılığının əsas səbəblərindən biri də onlardan toplanan çoxsaylı vergilərin ağırlığı idi. Bu məsələdə də Cənubi Qafqazda ən ağır

vəziyyət Azərbaycanda olmaqla, müsəlmanların, türklərin vəziyyəti xüsusilə dözülməz idi. Belə ki, 1926-27-ci təsərrüfat ilində adambaşına düşən verginin miqdarı Ermənistanda 2 rubl 23 qəpik, Gürcüstanda 2 rubl 25 qəpik, Azərbaycanda isə 3 rubl 60 qəpik idi. Azərbaycanda varlı kəndlilərin 45,62%-i vergiyə cəlb olunduğu halda, Gürcüstanda bu rəqəm 35,13%, Ermənistanda isə 23,25% idi [5, 55-58]. Vergiyə cəlb olunanların içərisində kustar sənət sahələri ilə məşğul olan sənətkarlar da kifayət qədər var idi.

Əhalinin üzərinə düşən ağır vergi növlərindən biri də vahid kənd təsərrüfatı vergisi idi. Bu vergi üzrə əvvəlki illər üçün yığılmış borcun 69 min rubl təşkil etməsi onun məbləğinin Azərbaycan SSR-də 1926-1927-ci təsərrüfat ili üçün əvvəlki ildəki 3476 min rubldan 3154 min rubla azaldılmasına səbəb olmuşdu. Bu məbləğin də ödənilməsi mümkün olmadıqda onun miqdarı 2800 min rubla endirilmişdi [1, s.19-20]. Vahid kənd təsərrüfatı vergisindən Nuxa-Zaqatala qəza əhalisinin cəmi 55%-i azad edilmiş, yerdə qalan 45%-i isə hakimiyyət orqanlarının fikrincə "yararsız", "antisovet ünsür" olmaqla, onlar bu vergi ilə yüklənmişdilər.

Kəndlilər ümumi kənd təsərrüfatı vergisi ilə yanaşı 13-ə qədər əlavə vergi də ödəyirdilər. Onlardan toplanan su vergisi isə kəndlilərin fikrincə, daha ağır olmaqla, hətta suvarma əkinçiliyinin mövcud olmadığı kəndlərdən də zorla su vergisi toplayırdılar. Nuxa qəzasında su vergisinin miqdarı ailə başına 30-40 rubl təşkil edirdi. Sənətkarlardan toplanan verginin miqdarı isə çox vaxt onların əmlakının dəyərindən 2-3 dəfə artıq olurdu [11, s.965].

Bəhs olunan dövrdə yaranmış sosial-iqtisadi tənəzzül, xammal çatışmazlığı, eləcə də bolşevik hakimiyyətinin yeritdiyi iqtisadi siyasət sənətkarlığın bir çox sahələrinin fəaliyyətində tənəzzülə səbəb olmuşdu. Həmin dövrün sənədlərindən bəlli olur ki, bəhs olunan dövrdə Nuxada kustar sənətkarlıq tənəzzül keçirdiyindən, sənətkarların iqtisadi durumu son dərəcə acınacaqlı idi. Məhz bu səbəbdən sənədlərdə qeyd olunur ki, bu bölgədə 1930-cu ildə baş vermiş üsyan iştirakçılarının içərisində vəziyyəti kifayət qədər acınacaqlı olan, gəlirinin 60-70 faizə qədərini vergi şəklində verməyə məcbur edilən kustar sənətkarlar da az deyildi. Daimi xammal çatışmazlığından əziyyət çəkən kustarlar vergi və mükəlləfiyyətləri ödəmək üçün istehsal alətlərini və ev əşyalarını satmaq məcburiyyətində qalırdılar. Bu da təsərrüfatın bu sahəsinin getdikcə tənəzzülə uğramasına səbəb olurdu [3, s.108].

Sovet dövrü tarixi ədəbiyyatında molla-qolçomaq iğtişaşı kimi təqdim olunmuş Nuxa-Zaqatala qəzasında baş vermiş xalq hərəkatının sosial bazasına gəldikdə, qeyd etmək lazımdır ki, bu üsyan əhalinin demək olar ki, bütün təbəqələrini əhatə etmişdi. O dövrün rəsmi sənədlərində qeyd olunur ki, Nuxa-Zaqatala qəzasında baş vermiş üsyan zamanı molla-qolçomaqlarla yanaşı ortabablar, yoxsul və muzdurların bir hissəsi, eləcə də xammal çatışmazlığı səbəbindən ilin yarıdan çoxunu işsiz, bununla da maaşsız qalmalı olan Nuxa

ipəkçilik fabrikinin fəhlələri də qoşulmuşdular [2, s.125-145]. Bu barədə Qızıl Ordu komandanlığının hesabatında göstərilirdi: "Üsyançıların tərkibi rəngarəngdir – ora banditlər, qolçomaqlar, dükançılar və onlar tərəfindən təhrik edilmiş ortabab, yoxsul-muzdur kütləsi daxildir" [11, s.86].

1930-cu il Şəki üsyanının tədqiqatçısı H.Manaflının bu barədə arxiv sənədlərinə istinadən verdiyi məlumata diqqət edək: "Şəkidə mövcud olan kəndlilər, halvaçı, çarıqtikən, papaqçı, dabbaq, toxucu kimi sənətkarlar, gündəlik çörəyini çətinliklə qazanan baqqallar, xırda alverçilər, inqilabdan qabaq ali təhsil almış ziyalılar, məhəllə məscidlərinin mollaları, İstanbul, Bağdad, Tehran, Qahirə darülfününün ilahiyyat fakültələrini bitirmiş ruhanilər və başqaları sovet hakimiyyətinin düşməni sayılırdılar. İnqilabdan qabaq Məkkə, Kərbəla, Məşhəd ziyarətlərinə gedib hacı, məşədi, kərbəlayı ləqəbi daşıyanlar da, ərəb, fars dilini bilən, Quranı oxuyan, namaz qılan, oruc tutanlar da bu siyahıya salınırdılar. Məscidlər bağlandı, xalqın məscidlərə verdiyi minlərlə xalı-xalça müsadirə edilərək kimlərəsə verildi. Məscidlərin minarələri söküldü..." [6, s.29].

Nəticə olaraq qeyd etmək lazımdır ki, sovet hakimiyyətinin ilk dönəmindən bolşevik hakimiyyətinin sosial-iqtisadi sahədə həyata keçirdiyi tədbirlər yerlərdə daxili həyatın müxtəlif sahələrində davam edən tənəzzülü daha da dərinləşdirmişdi. Bu baxımdan sənətkarlığın düşdüyü ağır durum xüsusi olaraq qeyd olunmalıdır. Azərbaycanın şimal-qərb bölgəsində baş vermiş müqavimət hərəkatı iştirakçılarının sosial tərkibinə diqqət etdikdə aydın olur ki, Nuxa-Zaqatala qəzasında baş vermiş üsyan zamanı din xadimləri və qolçomaqlarla yanaşı ortabablar, yoxsul və muzdurların bir hissəsi, eləcə də xammal çatışmazlığı səbəbindən ilin yarıdan çoxunu işsiz, bununla da maaşsız qalmalı olan Nuxa ipəkçilik fabrikinin fəhlələri də qoşulmuşdular.

## Ədəbiyyat


1. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), iş 5345.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 231, iş 25.
3. Bünyadzadə D. Azərbaycanın kənd təsərrüfatının yüksəldilməsi (VI Ümumazərbaycan Şuralar qurultayına məruzə, aprel, 1929). Bakı: Azərnəşr, 1929, 80 s.
4. İsaxanlı H.A. Qafqazda Sovet terroruna qarşı 1928/30-cu illər silahlı müqavimət hərəkatı haqqında // "Qafqazda Sovet totalitarizmi (20-30-cu illər)" mövzusunda elmi konfransın materialları. Bakı, 6-7 noyabr 1998-ci il. "Xəzər Universitəsi" nəşriyyatı, 1998. s. 55-58
5. Manaflı H. Şəki üsyanı. Bakı, Zaman, 2000, 109 s.

6. Nəzərli T. İpəkçiliyin inkişafı yeni islahatlar tələb edir. “Azərbaycan” qəzeti, 2013, 16 avqust.- S. 10
7. История СССР с древнейших времен до наших дней. В 12 томах. Т. VIII. М., Наука, 1967, 726 с.
8. Обзор деятельности правительства за 1925 и 1926 гг. Отчет V-му Всеазербайджанскому съезду Советов. Баку, Издание Управления делами Совнаркома и ВЭС'а, 1927, 408 стр.
9. Обзор деятельности правительства за 1927 и 1928 гг. Отчет VI Всеазербайджанскому съезду Советов. Баку, Издание Управления делами Совнаркома и ВЭС'а, 1929, 464 стр.
10. Резолюции и постановления съездов Советов Азербайджанской ССР (1921-1937 гг.). Баку: Издательство АН Азерб. ССР, 1961, 200 стр.
11. Российский Государственный Военный Архив(РГВА), ф. 25873, оп. 1, д. 1206.

# AZƏRBAYCAN SSR-DƏ NEFT SƏNAYESİ (1946-1950-Cİ İLLƏR)

*Əzət Nazim qızı Dadaşova*
*Bakı Dövlət Universiteti*
ezet_000@mail.ru

**Açar sözlər:** neft, müharibə, Azərbaycan, iqtisadiyyat, neftçilər

İkinci Dünya müharibəsi bir çox sahələrə ziyan vurdu. Onlardan biri də neft sahəsi idi. Bu cür problemləri aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirilirdi.Məqalədə neft hasilatını yüksəltməyin həlledici şərtlərindən olan neft quyularının qazılması üzrə işlər aparmaq, geoloji-kəşfiyyatları genişləndirmək, yeni neft yataqlarının kəşfi və istifadəyə verilməsi işində SSRİ hökumətinin qərarı ilə "Azneftkəşfiyyat" Birliyinin yaradılması, Azərbaycanın neft-qaz sektoruna kibernetika üsulları və kompüter texnologiyasının tətbiq olunması, Azərbaycan alimlərinin, neftçilərinin gərgin əməyi sayəsində dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlanması kimi məsələlər təhlil edilir.

## НЕФТЯНАЯ ПРОМЫШЛЕННОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ ССР (1946-1950)

*Азат Дадашова*

**Ключевые слова:** нефть, война, Азербайджан, экономика, нефтяники

Вторая мировая война нанесла ущерб многим отраслям. Важнейшим из этих отраслей был нефтяной сектор.Были приняты определенные меры по устранению этих проблем. Одним из ключевых условий увеличения добычи нефти было расширение бурения нефтяных скважин. Для расширения геологоразведочных работ, открытия и ввода в эксплуатацию новых нефтяных месторождений решением правительства СССР был создан союз «Азнефтьразведка». Методы кибернетики и компьютерные технологии были применены в нефтяной и газовой промышленности Азербайджана. Благодаря упорной работе ученых и нефтяников Азербайджана, впервые в мире именно в Азербайджане началась добыча нефти в открытом море.

# OIL INDUSTRY IN THE AZERBAIJANI SSR (1946-1950)

***Azat Dadashova***

**Keywords:** oil, war, Azerbaijan, economy, oilmen

The Second World War caused damage to many areas. The most important of these areas was the oil sector. Certain measures were taken to eliminate these problems. One of the key conditions for increasing oil production was to expand the drilling of oil wells. The "AzneftExploration" Union was established by the decision of the USSR government to expand geological exploration work, discover and put into operation new oil fields. Cybernetics methods and computer technology were applied to the oil and gas sector of Azerbaijan. Thanks to the hard work of Azerbaijani scientists and oil workers, for the first time in the world, offshore oil production began in Azerbaijan.

**Giriş:** Odlar diyarı olan vətənimiz Azərbaycanda çox qədim zamanlardan neftdən istifadə edilmişdir. Bu gün də ictimai həyatımızın bütün sahələrində: siyasi, iqtisadi, elm və təhsil, qeyri neft sahələrinin inkişafında milli sərvətimiz olan neft mühüm əhəmiyyət kəsb edir.İkinci Dünya müharibəsində Azərbaycan nefti müstəsna rol oynamışdır.İkinci Dünya müharibəsi ərəfəsində SSRİ-nin neftemalı həcminin 71,5%-i, aviabenzinin 80%-i Azərbaycanın payına düşürdü[2,s.22]. İkinci Dünya müharibəsində Azərbaycanın xidmətlərini yüksək qiymətləndirən Nikolay Baybakov demişdir: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir". 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23.5 milyon tonu Azərbaycanın payına düşürdü [6]. Bu illərdə Azərbaycan ittifaq fonduna 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları göndərmişdir[2,s.22]. Sovet Ordusunun qələbəsində Bakı neftçilərinin və alimlərinin xidmətləri yüksək olmuşdur. Neftemalı zavodlarında nəinki neft məhsulları, o cümlədən müharibə ehtiyaclarını ödəmək üçün trotil, xromil, azot turşusu, xlor-sulfanol turşusu, tibb üçün gips, natrium sulfid, və s. istehsal olunmuşdur. Neftayıranlar sovet ordusunu yanacaqla təmin etməklə müharibədə dönüşü və qələbəni təmin etmişlər.

**Neft sahəsində yüksəliş.** Müharibə bir çox sahələrə ziyan vurdu. Bu sahələrdən ən əsası neft sahəsi idi. Bu problemləri aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirilirdi. Neft avadanlığının təmiri və ehtiyat hissələrinin hazırlanması, habelə yeni növ cihazların istehsalı geoloji-kəşfiyyat işlərinin genişləndirilməsi neft hasilatının çoxalmasına kömək edirdi.1946-cı ildə bütün neft emalı və təmizləyici qurğular əsaslı təmir olunurdu.1946-cı ildə

Azərbaycanda iqtisadiyyatın yenidən qurulması başa çatdırıldı, respublika sənayesi ümumi məhsulunun həcmi 1940-cı il səviyyəsinin 80 faizinə çatdı [1,s.9].

SSRİ xalq təsərrüfatının bərpası və daha da inkişaf etdirilməsinə dair dördüncü beşillik (1946-1950-ci illər) plana 1946-cı il martın 18-də SSRİ Ali Sovetinin birinci sessiyasında baxıldı. 1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik planda sənayenin və kənd təsərrüfatının inkişafını müharibədən əvvəlki səviyyəyə yüksəltmək və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürüldü. İlk beşillik planda (IV beşillik - 1946-1950-ci illər) respublikanın məhsuldar qüvvələrinə, xalq təsərrüfatına müharibənin vurduğu ziyanı aradan qaldırmaq, onun iqtisadi potensialını artırmaqla sərvətlərdən daha geniş faydalanmaq üçün münasib maddi və sosial imkanlar yaratmaq vəzifələri müəyyən edildi. Bu iqtisadi siyasət sonrakı illərdə də davam etdirildi.

Ölkənin xalq təsərrüfatının yeni texnika ilə təchizatı neft məhsullarına tələbatı artırdı. Buna görə də Azərbaycanın neft sənayesinin bərpa və inkişafı diqqət mərkəzində idi.Sənayenin bərpası və inkişafının güclü təkanverici sosialist yarışları idi ki, bununda əvvəlində neftçilər gedirdilər. 1946-cı ilin mayında onlar neft hasilatı üzrə, həmin ilin və bütöv beşilliyin planını qabaqcadan yerinə yetirilməsi uğrunda neftçilər Ümumittifaq yarışının təşəbbüskarı kimi çıxış etdilər. Bu yarışı başlayanlar Bibiheybətdəki neft trestinin üçüncü mədəninin fəhlə, mühəndis, texnik və qulluqçuları oldu.Dördüncü beşillik planın dövründə sosialist yarışının xarakter cəhəti ondan ibarət idi ki, istehsalat qabaqcıllarının yaradıcı fəaliyyət formaları müxtəlif idi və onların nailiyyətləri tez yayılırdı. Bu yarışda yenilik ondan ibarət idi ki, ayrı-ayrı fəhlələr illik və beşillik planı vaxtından qabaq yerinə yetirmək üçün şəxsi öhdəliklər götürürdülər.Dördüncü beşillik planın və neftçilərin plandan əlavə tapşırıqlarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün sənayedə texniki tərəqqi, onun ən yeni texnologiyalarla təchizi vacib şərt idi. İstehsal texnologiyasını fasiləsiz olaraq təkmilləşdirən neft emalı zavodlarının işçiləri neft emalını daha effektiv aparmağa nail olurdular. Katalitik proseslərin tətbiqi və yanacaq istehsalında digər mütərəqqi metodların tətbiqi neft emalında yenilik idi. 1946-cı ildə katalitik krekinq zavodu işə salındı və tikintisinə Böyük Vətən müharibəsi dövründə başlamış krekin qurğusunun bərpası başa çatdı. Bu mühəndislər V.Əliyev, R.İsmayılov, P.Puçkovin qrupunun layihəsi üzrə aparıldı və bu iş Dövlət mükafatına layiq görüldü. Beşilliyin ilk üç ilində neft emalı işçiləri plandan əlavə yüz min tonlarla açıq rəngli məhsul və yağ verdilər. Bir çox zavodların qabaqcıl kollektivləri əsl əmək qəhrəmanlığı nümunəsi göstərərək, beşilliyin üçüncü ilində özlərinin beşillik istehsal planlarını yerinə yetirdilər.

Bununla bərabər bütövlükdə neft sənayesi geridə qalırdı. “Azneft” birliyi neft hasilatı üzrə 1948-ci ilin planını yerinə yetirməmişdi. Bunun əsas səbəbi geoloji kəşfiyyat işlərinin geri qalması, mədənlərin maddi texniki bazasının zəifliyi, yeni istismar üsullarının qeyri-qənaətbəxş tətbiqi idi. Belə görünürdü ki, sosializm yarışının rəhbərliyində formalizm bürokratizm elementləri var idi ki, bununda nəticəsində qabaqcılların təcrübəsi geniş neftçi kütləsinə çatmırdı. 1948-ci ilin 25-28 yanvarında keçirilən Azərbaycan Kommunist Partiyasının XVII qurultayı qarşıya aşağıdakı vəzifələri qoydu: hər bir fəhlə, müəssisə və istehsal sahəsi planın yerinə yetirilməsinə nail olsun, mədənlərin maddi texniki bazası gücləndirilsin, geoloji kəşfiyyat işləri gücləndirilsin, dəniz neft yataqlarının kəşfiyyatı artırılsın. 25 mart 1949-cu ildə Bakıda SSRİ neft sahəsi işçilərinin həmkarlar ittifaqının qurultayı keçirildi. Qurultay fəhlə, MTS və qulluqçulara müraciət edərək, əməyin məhsuldarlığının artırılmasını, məhsulların maya dəyərinin aşağı salınması və keyfiyyətinin yaxşılaşmasını, dördüncü beşilliyin vaxtından qabaq yerinə yetirilməsini vəzifə kimi qarşıya qoydu. Müharibə illərində neftemalı qurğuları demək olar ki, mənəvi və fiziki cəhətdən aşındığından, sonrakı illərdə qeyri-qənaətbəxş işləməyə başlamışdı. 1947-ci ildə termiki krekinq qurğusunun yenidən qurulması prosesi başa çatdırıldı. 1950-ci ildə termokrekinq qurğularında avtobenzinlərin istehsalı 1945-ci ilin səviyyəsinə çatdırıldı. İndiki “Azərneftyağ” zavodunun tərkibinə daxil olan V.Sturua adına NEZ-də avtobenzinlərin istehsalı daha da yüksək keyfiyyətlə emal olunmağa başlanıldı və bütün öhdəçiliklər yerinə yetirilirdi [2,s.23].Azərbaycan alimlərinin təklif etdikləri layihələrə görə aşqarlar qurğusu inşa edildi (1947). Burada istehsal olunan aşqarların hesabına sürtkü yağlarının və digər neft məhsullarının donma temperaturu aşağı salındı [3, s.19].

Respublikada fəaliyyətsiz olan quyuların bərpası hərəkatı genişlənirdi və burada da komsomolçular və bütün gənclər fəal iştirak edirdilər. 1948-1950-ci illərdə komsomolçuların təşəbbüsü ilə 2800 fəaliyyətdə olmayan quyu bərpa edilmişdi. Sürətli qazma işləri daha geniş miqyas alırdı. İldən–ilə neftçilər daha rekord surətlər tətbiq etməyə başladılar. Orconikidze neftin qazma ustası M.Aşurbəyovun təşəbbüsü ilə Azərbaycan qazmaçıları arasında peşələrin bir-birini əvəzlənməsi sayəsində kompleks qazma biriqadalarıgeniş yayılmağa başladı.

Qazmaçılar elektrik montyoru çilingər və s. peşələrinə yiyələndilər ki, bununlada həm dövlət vəsaitinə qənaət edilmiş oldu, həm də ixtisaslı fəhlələrin işi yüngülləşdi. Buruqların qazılması işi sürətləndi. Kompleks briqadaların yaradılması onların təsərrüfat hesabına keçməsi və qarşılıqlı qrafikin tətbiqi fərdi sosializm yarışının geniş vüsət almasında ciddi addım idi. Bütün bunlar ustanın rolunun artmasına, artan neft hasilatı qrafikinin artıqlaması ilə yerinə yetirilməsində, hər bir briqada üzvünün şəxsi məsuliyyətinin yüksəlməsinə,

istismarda olan quyuların artımına, daxili ehtiyacların maksimum istifadə olunmasına, əmək məhsuldarlığının daima artırılmasına gətirib çıxardı.

Neft hasilatını artırmaq üçün yeni neft yataqlarının kəşfinə və istismarına böyük ehtiyac var idi. Gürgan-dəniz və Gəncə rayonu (1947-1948-ci illər), Hövsan və Umbakı (1948-1950-ci illər), Neft daşları (1950-ci il), Darvin bankası (1950-1951-ci illər) kimi yeni neft və qaz yataqları kəşf edilmiş və sənaye üsulu ilə işlənmək üçün istifadəyə verilmişdi. Neft hasilatını yüksəltməyin həlledici şərtlərindən biri neft quyuları qazılması üzrə işləri genişləndirmək idi.Sənayenin texniki səviyyəsini artırmaq üçün istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması vacibdir. Bu sahədə daha yaxşı nəticələrə nail olan elektroenergetika sisteminin müəssisələri idi. Beşilliyin dördüncü ilində onlar bu sahədə əhəmiyyətli dərəcədə irəliləmişlər. Belə ki, elektrik stansiyalarındakı istehsal prosesləri avtomatlaşdırılmış avtomatikanı təsərrüfatda tətbiq etmişlər.

Neft emalı zavodlarında da avtomatikanın tətbiqi genişləndi. Nəzarət ölçmə funksiyalarını və bir qədər texnoloji prosesləri avtomatlaşdırmağa imkan verən cihazlar tətbiq edildi. Sovet texnikalarının nailiyyətləri dəniz yataqlarının uğurlu şəkildə mənimsənilməsinə imkan verirdi. Bu zaman yataqların turbin qurğusu vasitəsilə qazılması böyük rol oynayırdı.Qazma ustası olan Ağa Neymətulla qazma-mühəndisləri ilə birgə yüzilliklər ərzində dənizdə yataqların qazılaraq aşkarlanmasını işləyib hazırladı. Xəzərin təlatümlü suları ilə mübarizə aparan və digər çətin şərtlər altında işləyən neftçilər yüz tonlarla neft hasil edirdilər. Onlar 1950-ci ildə 1949-cu illə müqayisədə neftin hasilatını yüksətdilər. 1949-1950-ci illərdə dəniz sənayesində neftin hasilatı nəzərə çarpaçaq dərəcədə yüksəldi.

Geoloji-kəşfiyyat işlərini genişləndirmək, yeni neft yataqlarının kəşfi və istifadəyə verilməsi işində SSRİ hökumətinin qərarı ilə 1947-ci ilin sonunda "Azneftkəşfiyyat" Birliyi yaradıldı. Azərbaycanın neft mədənlərində turbin qazması getdikcə daha çox tətbiq edildi. Bu, neftçilərə turbin üsulu ilə maili istiqamətdə quyular qazmağa imkan verdi. Bu təşəbbüs Azərbaycan neftçilərinin bütün sovet neft sənayesinin inkişafına böyük töhfəsi idi. Yeni texnikanın tətbiqi, quyuların istismar rejiminin yaxşılaşdırılması neft hasilatının artmasına kömək edirdi.

Azərbaycan neft sənayesinin inkişafında Xəzərdə neft yataqlarının kəşfi və istifadə edilməsi çox önəmli hadisə oldu. Dördüncü beşillikdə nəinki Abşeronda, həmçinin respublikanın digər rayonlarındada yeni neft yataqlarının kəşfiyyatına başlanıldı. Dəniz neft yataqları əsasən Xəzərdə geniş şəkildə yayılmışdı.İlk dəfə olaraq 1946-cı ildə dənizin dibində geoloji kəşfiyyat işlərinin aparılmasına başlandı. Bu işlər Azərbaycan Elmlər Akademiyasının neft ekspedisiyaları tərəfindən aparıldı. Bu işlərin gedişi əsasında çətin sistem olan dəniz yataqlarının geoloji kəşfiyyatının əsası qoyuldu. Neft yataqlarının

öyrənilməsində əsas rolu 1948-ci ildə dənizdə neft yataqları estekadalarının tikilməsi tuturdu, onlara xüsusi təşkil olunmuş dəniz ətrafının proyeksiya olunması institutu rəhbərlik edirdi.

Azərbaycan alimlərinin, neftçilərinin gərgin əməyi sayəsində dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlandı. 1949-cu ilin fevralında qasırğalı bir havada məşhur qazma ustası M.Kaveroçkinin briqadası açıq dənizdə Neft Daşlarına çıxdı. Son dərəcə mürəkkəb və çətin şəraitdə neftçilərin qazdığı kəşfiyyat quyusu 1949-cu il noyabrın 7-də 942 m dərinlikdən fəvvarə vurdu [4,s.30]. Bu tarixi dövr 1949-cu ildə dəniz yataqlarının geniş istismarı ilə yeni mərhələyə qədəm qoydu. 1949-cu ildə Xəzərdə Qara Daşlarda qazılan ilk quyunun fontan vurması Azərbaycanın, həm də dünya neft tarixində dəniz şelfindən hasilatın başlanğıcı kimi yadda qaldı.

Neft Daşları şəhər tipli qəsəbədir və Bakının Pirallahı rayonunun ərazisinə daxildir. Abşeron yarımadasının 42 km-də, cənubi-şərqdə yerləşən bu qəsəbə dənizin dibinə bərkidilmiş metal dirəklərin üstündəki estakadada dəniz səthindən bir neçə metr hündürlükdə tikilib. Neft Daşlarında qazma işlərinə ilk dəfə 1948-ci il noyabrın 14-də hava şəraiti pis olan bir gündə başlanmışdı. Azərbaycan geoloqu Ə.Əliyev və buruq üzrə mütəxəssis, 1947-ci ildə yaranmış “Azneftkəşfiyyat” – təşkilatının rəhbəri S.Orucov olan kiçik bir gəmi (“Pobeda”) adacıqlara yaxınlaşdı və mütəxəssislər kiçik bir adaya düşdülər. Onlar burada ilk burğu qurğusunu və burğuçular briqadası üçün cəmi 14 kv.m olan evcik tikdilər [4, s.29]. Mixail Kaveroçkin 1949-cu il noyabrın 7-də neft verən ilk quyunu həmin bu sahədə qazmışdır. 1949-cu ildən burada 1940 quyu qazılmışdır ki, 160 mln ton neft, 12.3 mlrd kub metr qaz əldə edilmişdir. Hər gün Neft Daşlarında 5-6 yeni quyu qazılır və bunların hərəsinin ilk dövrdə sutkada 15-16 ton neft vermək imkanı olub [4, s.29].

Həmin il dənizdə neft-qaz hasilatını təmin edəcək əlahiddə qurum “Azərdənizneft” tresti təsis edildi. Dəniz neft yataqlarını mənimsəmək üçün “Azneft” Birliyi nəzdində “Dəniz qazma” Tresti yaradıldı. 1949-cu il mayın 7-də SSRİ Nazirlər Soveti “Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfini və işlənməsini üzən vasitələrlə təmin etmək haqqında” xüsusi qərar qəbul etdi [1,s.97]. Dəniz mədənlərinin yaradılması və inkişafında “Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfi və işlənilməsi üzrə işlərin təşkilini yaxşılaşdırmaq tədbirləri haqqında” SSRİ Nazirlər Sovetinin 1949-cu il 31 oktyabr tarixli qərarının böyük əhəmiyyəti oldu. Dəniz neft yataqlarının işlənilməsini gücləndirmək və bu işə rəhbərliyi yaxşılaşdırmaq məqsədilə 1950-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə yeni neft Birliyi– “Azdənizneft” yaradıldı. Dəniz neft yataqlarından istifadə etmək üçün dünya təcrübəsində ilk dəfə dənizdə neft-mədən estakadaları tikildi.

Azərbaycanın neft-qaz sektoruna kibernetika üsullarının və kompüter texnologiyasının neft-qaz sənayesi məsələlərinə geniş və planlı tətbiqi

respublikamızda ilk dəfə 50-ci illərin əvvəllərində Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunda (Azər DNSETLİ) "Neft-mədən elektronikası və elektromaddiləşdirmə laboratoriyası"nda başlanmışdır [5,s.22]. EM-markalı elektrik modelinin alınıb istifadəyə verilməsilə (1952), demək olar ki, ölkəmizdə elektron hesablama maşınlarının (EHM) elm və texnikanın istehsalata tətbiqinin bünövrəsi qoyulmuşdur. Belə ki, 50-ci illərdən başlayaraq Mişovdağ, Kürovdağ, Neft Daşları, Qarabağlı, Kürsəngi, Səngəçal-dəniz-Bulla-dəniz kimi yataqların işlənməsinin texnoloji sxemləri və layihələrinin tərtibilə bağlı xeyli məsələ həll olunmuş, işlənmənin əsas göstəriciləri təyin edilmiş və proqnozlaşdırılmışdır. Bu sahədə Azərbaycanın görkəmli alimləri Böyükağa Əzimovun, Yusif Əmənzadənin və digər tədqiqatçıların xidmətləri diqqətəlayiqdir [5,s.22]. Neft sənaye müəssisələrində yenilikçilər arasında yeni metodların geniş şəkildə yayılması üçün əməyin aparıcı metodlarını öyrədən məktəblər təşkil edilmişdi ki, orada dərsləri ən yaxşı yenilikçi neftçilər aparırdı. Yalnız 1950-ci il ərzində burada 14 min fəhlə təhsil almışdı.İkinci Dünya müharibəsi bir çox sahələrə ziyan vurmuşdur. Bu sahələrdən ən əsası neft sahəsi idi. Bu problemləri aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirilirdi. Bütün bunlarla yanaşı, SSRİ dövlətinə Azərbaycanın verdiyi ən böyük fayda o olmuşdur ki, İkinci Dünya müharibəsində-faşizmin bəşəriyyət üçün ən böyük təhlükə kimi meydana çıxıb bütün ölkələrə və xalqlara meydan oxuduğu zaman, Avropanı, demək olar ki, tamamilə işğal edəndən sonra, işğalçı ordularla Şərqə doğru irəliləyən zaman məhz Azərbaycan neftçilərinin, Azərbaycan xalqının hasil etdiyi neft,ondan alınan müxtəlif məhsullar o dəhşətli müharibədə tankların, təyyarələrin, avtomobillərin işləməsi və s. üçün, demək olar ki, əsas şərt idi. O illərdə Azərbaycan SSRİ-də hasil edilən neftin 75 faizini verirdi. Bu da faktdır ki, dəfələrlə müxtəlif səviyyələrdə etiraf edilib ki, əgər Azərbaycan nefti, ağır müharibə şəraitində Azərbaycan xalqının, Azərbaycan neftçilərinin qəhrəmanlığı olmasaydı, alman faşizminin qarşısını almaq çox çətin olardı.

**Nəticə:** Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları, böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar.Respublikamızda son illərdə neft sənayesində çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər əldə olunmuşdur. Beləliklə, 1994-cü il sentyabrın 20-si imzalanmış və müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks edən ilk beynəlxalq neft sazişi iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoydu ki, onun da praktiki nəticələri göz qabağındadır. Ondan sonra neft-qaz kəmərləri inşa edilməyə başladı. Bakı-Novorossiysk kəməri yenidən quruldu. Bakı-Supsa kəməri 1999-cu ildə işə salındı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi.Həmin tarixdən başlayaraq görülən işlər bugünkü və gələcək nəsillərə xidmət

edir. Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmlənməsində neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və neftçilərin əməyini yüksək qiymətləndirərək Ümummilli liderimiz Heydər Əliyev hər il sentyabrın 20-si Azərbaycan Respublikasında "Neftçilər günü"nün peşə bayramı kimi qeyd olunması haqqında fərman imzalamışdır[7].

## ƏDƏBİYYAT

1.Azərbaycan tarixi VII cilddən,VII cild Bakı 2008, s.693.
2.Əliyev M., Hüseynov A., Hüseynova Ü., Kərimov K., Neft-qaz sənayesinin iqtisadiyyatı və idarə edilməsi Bakı 2016, s.554 .
3.Hacızadə E. Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli (monoqrafiya) Bakı "Elm"-2002, s.263 .
4.Prezident kitabxanası. İnzibati-ərazi vahidləri s.255 .
5.Rüstəmov P. Müasir idarəetmə sistemində innovasiyalı yanaşma (Azərbaycan neft-qaz sənayesinin timsalında) Bakı 2015, s.167 .
6.az.wikipedia.org/wiki/Azərbaycanda_neft_sənayesi
7.https://lib.aliyev-heritage.org/az/5187693.html

# XƏZƏR HÖVZƏSİNİN ENERJİ RESURSLARININ İSTİFADƏSİ AZƏRBAYCAN-TÜRKMƏNİSTAN MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ

***Məmmədli Günay Xəqani qızı***
Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik Akademiyası
gunay_memmedli@mail.ru

**Açar sözlər:** *Xəzər, neft, Türkmənistan, Azərbaycan, bölgə, enerji resursları*

*Müasir dövrdə Azərbaycan və Türkmənistan arasında əlaqələrin şəkil və formatının dəyişməsi olduqca mühüm hadisələrdən sayıla bilər. 2021-ci il yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdimuhammədovun arasında video zəng bir sıra diplomatik yeniliklərə səbəb oldu. Azərbaycan və Türkmənistan prezidentləri arasındakı video konfrans zəngi*

*Xəzər dənizinin mərkəzində təxminən 30 illik mübahisə və gərginliyin ortadan qalxması ilə nəticələndi. Nəhayət Azərbaycan və Türkmənistan Xəzər dənizində iki ölkə arasında təxminən bərabər məsafədə yerləşən mübahisəli karbohidrogen yataqlarını birgə işlətməyə razı oldular. Bu, həm Xəzər hövzəsi enerji resurslarının istismarında, həm də türk dünyası arasında əlaqələrin xarakterinə ciddi şəkildə təsir edən bir amildir. Məhz bütün bunlar Xəzər hövzəsinin enerji resurslarının istifadəsinin Azərbaycan-Türkmənistan münasibətləri kontekstində tədqiqini zəruri edir.*

# ИСПОЛЬЗОВАНИЕ ЭНЕРГЕТИЧЕСКИХ РЕСУРСОВ КАСПИЙСКОГО БАССЕЙНА В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНСКО-ТУРКМЕНИСТАНСКИХ ОТНОШЕНИЙ

***Мамедли Гюнай Хагани кызы***

**Ключевые слова**: *Каспий, нефть, Туркменистан, Азербайджан, регион, энергетические ресурсы*

*Недавнее изменение формы и формата отношений между Азербайджаном и Туркменистаном можно считать очень важным событием. В последние дни видеозвонок между президентом*

*Азербайджана Ильхамом Алиевым и президентом Туркменистана Гурбангулы Бердымухамедовым вызвал ряд дипломатических новшеств. Видеоконференция между президентами Азербайджана и Туркменистана сняла противоречия и напряженность. После почти 30-летних переговоров Азербайджан и Туркменистан договорились о совместной разработке спорных углеводородных месторождений в Каспийском море примерно на равных расстояниях между двумя странами. Это фактор, который серьезно влияет как на использование энергоресурсов в Каспийском бассейне, так и на характер отношений между тюркским миром. Все это вызывает необходимость изучения использования энергоресурсов Каспийского бассейна в контексте азербайджано-туркменских отношений.*

## USE OF ENERGY RESOURCES OF THE CASPİAN BASIN İN CONTEXT OF AZERBAШJANİ-TURKMENİSTAN RELATİONS

***Mamedli Gunay Khagani kızı***

**Keywords**: *Caspian, oil, Turkmenistan, Azerbaijan, region, energy resources.*

*The recent change in form and format of relations between Azerbaijan and Turkmenistan can be considered a very important event. In the last days, a video call between the President of Azerbaijan İlham Aliyev and the President of Turkmenistan Gurbanguly Berdimuhamedov caused a series of diplomatic innovations. The video conference between the presidents of Azerbaijan and Turkmenistan has provoked controversy and tension. After almost 30 years of negotiations, Azerbaijan and Turkmenistan agreed on the joint development of disputed hydrocarbon fields in the Caspian Sea, approximately at equal distances between the two countries. This is a factor that seriously affects the use of energy resources in the Caspian Basin, as well as the nature of relations between the Turkic world. All this calls for the need to study the use of energy resources in the Caspian Basin in the context of Azerbaijani-Turkmen relations.*

**Giriş.** Azərbaycan və Türkmənistan arasında nəzərə çarpan qarşılıqlı anlaşma və razılaşma formatı geosiyasi məkanda ən mühüm hadisələrdən hesab edilə bilər. Bu, Xəzərin enerji resurslarının istifadəsinin optimallaşdırılmasına, eyni zamanda türk dövlətləri arasında yaxınlaşmanın güclənməsinə, böyük ehtimalla, müsbət təsir edəcəkdir. Xüsusilə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın dünyada və bölgədə əhəmiyyəti və təsir gücü bir qədər də

artdı. Artıq Azərbaycanla güc üsulu ilə danışmağın mümkünsüzlüyü bəlli oldu. Bunun əsas amillərindən biri də Türkiyə ilə əlaqələrimizin yüksək səviyyəsi idi. Azərbaycan və Türkiyə əslində türk dünyası birliyi istiqamətində birgə çalışmalara başladılar. Maraq cəlb edən odur ki, Azərbaycanla Türkmənistan arasında mühüm razılaşmanın əldə edilməsi məhz Ermənistanda və erməni siyasi dairələrində qorxu ilə qarşılandı. Ermənilər hələ uzun illər öncə Azərbaycan-Türkmənistan əlaqələrində istilənmədən qorxaraq belə yazırdılar: "Azərbaycan əlaqələrini inkişaf etdirməklə həm ixracı artırır, həm də hərbi xərclərinin artırılması istiqamətində gəlir mənbəyi əldə edir" [5]. Beləliklə, biz görürük ki, Azərbaycan-Türkmənistan əlaqələrinin gücləndirilməsi olduqca vacibdir. Bu məsələnin öyrənilməsi isə elmi-nəzəri və əməli aktuallıq kəsb edir. Bunun üçün ilk növbədə Türkmənistanın iqtisadi və siyasi gücünü təhlil etmək lazımdır.

**Türkmənistanın iqtisadi və geosiyasi əhəmiyyəti.**Türkmənistan Mərkəzi Asiya regionunda mühüm ölkədir. Əvvəla, Türkmənistanın Qazaxıstandan üstünlüyü Aşqabadın xarici siyasətinin konkret aparılması ilə müəyyən edilir. Bura beynəlxalq təşkilatlara qoşulmaqdan imtina etmək və bitərəfliyi qorumaq, nəticədə - dövlətlərlə yalnız ikitərəfli münasibətləri qorumaq prinsipi daxildir. Xarici siyasətin mahiyyətinin bu xüsusiyyəti bir çox dövlətlər üçün çox cəlbedicidir. Türkmənistanın karbohidrogen ehtiyatlarına gəlincə [6], bu dövlətin OPEC-ə görə dünyanın təbii qaz ehtiyatlarının 4,9% -nə sahib olduğunu qeyd etmək lazımdır. Nəticədə, enerji ixracatına görə, Türkmənistanın hazırda davamlı inkişaf edən bir iqtisadiyyatı var. Türkmənistan Cənubi Asiyanı qazla tam təmin edə bilər. Bu gün Çin Türkmənistan üçün ən böyük ticarət tərəfdaşı olaraq qalır. Təsadüfi deyil ki, hər iki dövlət 2014-cü ildə dostluq və əməkdaşlıq müqaviləsi bağlayıblar.

Eyni zamanda, Türkmənistan Çin ilə ikitərəfli münasibətlərdə iqtisadi maraqlarla yanaşı, başqa məqsədlər də güdür. Çin ilə strateji tərəfdaşlığın uğurlu inkişafı sayəsində Türkmənistan bu və ya digər şəkildə tədricən Rusiya Federasiyasından uzaqlaşır. Bu vəziyyətdə ÇXR-də özünün enerji siyasətinin uğurla davam etməsi gözə çarpan siyasi subtekstə malikdir. Əgər 1991-ci ildə Türkmənistanda xeyli sayda Rusiya hərbi bazası vardısa, indi 20 ildən çox vaxt keçdikdən sonra Türkmənistan nəinki hərbi bazaların sayını azaltdı, həm də rus hərbçilərinin mövcudluğunu şübhə altına aldı. Aşqabadın belə bir inamlı mövqeyi ilk növbədə enerji siyasətində qazanılan uğurlar ilə izah olunur. Türkmənistan iqtisadiyyatı üçün eyni dərəcədə əhəmiyyətli rol oynayan İran-Türkmənistan münasibətlərinə də diqqət yetirilməlidir. Güclü ikitərəfli əlaqələrin təməli 1990-cı illərdə, Tehran və Aşqabad arasında Karpej-Kurt-Kui qaz kəmərinin inşası ilə bağlı razılıq əldə edilməklə qoyuldu. Bu vəziyyətdə hər iki dövlət üçün böyük imkanlar açılır. İran Türkmənistan qazının Türkiyə və Fars körfəzi ölkələrinə nəqlində vacib bir iştirakçı olmaq fürsəti qazanır,

Türkmənistan ixrac üçün daha bir böyük imkan əldə edir. Bundan əlavə, Rusiya-Türkmənistan münasibətlərində əvvəllər qeyd olunan problemlərə də ciddi təsir göstərir. Karbohidrogen ehtiyatlarının ixracı üçün alternativ bir variantın olması Türkmənistana Rusiya Federasiyası ilə bərabər səviyyəli bir dialoq aparmağa imkan verir.

Beləliklə, Türkmənistanın enerji siyasəti təkcə iqtisadi deyil, həm də siyasi baxımdan əhəmiyyətlidir. İqtisadi baxımdan Aşqabadın əsas vəzifəsi təbii qazın ixracını artırmaqdır, Çin, İran və Rusiyadan əlavə, bütün Cənubi Asiyanı qazla təmin edə bilən bir qaz kəmərinin tikintisi layihəsi Türkmənistan hökuməti tərəfindən getdikcə aktuallaşır. Bundan əlavə, Türkmənistan təkcə Orta Asiya regionunda deyil, bütün dünyada mühüm geosiyasi oyunçu olmağa səy göstərir. Burada Türkmənistan üçün əsas məqsəd Rusiyadan mümkün qədər uzaqlaşmaqdır ki, bu da Mərkəzi və Cənubi Asiya ölkələri ilə əlaqələrin daha da inkişaf etdirilməsinə kömək edə bilər [7,s.77].

**Azərbaycan-Türkmənistan əlaqələrinə icmali baxış.** Azərbaycan-Türkmənistan arasında əlaqələrin strateji mahiyyəti daim diplomatlar və siyasi şərhçilər tərəfindən qeyd edilmişdir. Türkmənistanla münasibətlər Azərbaycanın xarici siyasətinin ən vacib istiqamətlərindən biridir. İki ölkə xalqlarının eyni etnik mənşəyə, mədəniyyətə və dinə sahib olmaları, əsrlər boyu dostluq və mehriban qonşuluq şəraitində yaşamaları münasibətlərin inkişafı üçün həm zərurət, həm də sağlam bir zəmin yaradır. Son illərdə ikitərəfli münasibətlərin inkişaf dinamikasını müsbət xarakterizə etmək olar. Hazırda iqtisadi, humanitar, nəqliyyat və digər sahələrdə çox yaxşı nəticələrlə qarşılıqlı maraq doğuran sahələrdə uğurlu əməkdaşlıq həyata keçirilir. Ancaq eyni zamanda, bu nəticələrin hələ ölkələrimizin potensialına uyğun səviyyədə olmadığını düşünürük və bu istiqamətdə birgə səyləri artırmağımız lazımdır [2,s.5].

1992-ci ilin iyununda Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlərin qurulmasına baxmayaraq, karbohidrogen ehtiyatları ilə zəngin olan iki türk dövləti arasında siyasi əlaqələr formal xarakter daşıyırdı. İki ölkə arasındakı siyasi münasibətlərdəki soyuqluğa Türkmənistanın Xəzər dənizindəki bir sıra Azərbaycan yataqlarına iddiası səbəb olmuşdu. Bu soyuqluq Transxəzər qaz kəməri layihəsinin o vaxt həyata keçirilməsinə imkan vermədi.

Çıraq və Azəri yataqlarında hasilat başlayanda Azərbaycan-Türkmənistan münasibətləri kəskin şəkildə pisləşdi. İki ölkə arasındakı münasibətlər S.Niyazovun vəfatından sonra (2006-cı il) yaxşılaşmağa başladı, baxmayaraq ki, 2009-cu ildə Q.Berdimuhammedov hələ də Çıraq və Azəri yataqlarının mülkiyyət məsələsini beynəlxalq arbitraja yönəltmək niyyətində idi.

2007-ci ildə Q.Berdimuhammedovun hakimiyyətinin ilk ilində Türkmənistan Kipr şirkəti Buried Hill-ə Serdar (indiki Dostluq) yatağının

işlənməsi üçün lisenziya verdi və şirkət seysmik kəşfiyyata başladı, lakin Türkmənistan və Azərbaycan bütün işləri təxirə salmağı qəbul etdilər.

Qurbanqulu Berdimuhammedov Türkmənistanda hakimiyyətə gəldikdən sonra iki ölkənin liderləri arasında bir çox istiqamətlərdə ardıcıl bir dialoq başlandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28-29 Noyabr 2008-ci il, 21-22 Noyabr 2018-ci il və 10 Oktyabr 2019-cu il tarixlərində Türkmənistana rəsmi səfərlər etdi. Bu səfərlər iki ölkə arasındakı əlaqələrin inkişafında xüsusi rol oynadı. Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci ilin noyabr ayında Türkmənistana rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin daha da möhkəmlənməsinə mühüm töhfə verdi. Səfər Azərbaycan ilə Türkmənistan arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına əhəmiyyətli təsir göstərmişdir. Görüşlərdə ikitərəfli münasibətlərin bütün aspektləri, regional sabitlik və təhlükəsizlik, həmçinin terrorizm, ekstremizm, separatizm, mütəşəkkil cinayətkarlıq və narkotik ticarətinə qarşı birgə səylər müzakirə edildi. Digər səfərlərdə də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev türkmən həmkarını türk dövlətləri, xüsusən də Azərbaycanla sağlam münasibətlərin qurulmasına təşviq edirdi.

Türkmənistan Prezidenti Qurbanqulu Berdimuhammedov 19-20 May 2008-ci il, 18 Noyabr 2010-cu il, 12 iyun 2015-ci il, 8-9 Avqust 2017-ci il, 25 Oktyabr 2019-cu il, 11 Mart 2020-ci il tarixlərində Azərbaycana səfər etdi. Bu səfərlər bu yaxınlarda imzalanmış razılaşma üçün hazırlıq mərhələsi idi [4].

Nəhayət, 21 yanvar 2021-ci ildə Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti Türkmənistanın Aşqabad şəhərində, Xəzər dənizindəki Dostluq sahəsinin karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı və işlənməsinə dair Anlaşma Memorandumu imzaladılar. Memorandumu Azərbaycan və Türkmənistan Prezidentləri İlham Əliyev və Qurbanqulu Berdimuhəmmədovun iştirakı ilə video formatda həyata keçirdilər [1].

**Nəticə.** 21 yanvar 2021-ci ildə Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti Türkmənistanın Aşqabad şəhərində, Xəzər dənizindəki Dostluq sahəsinin karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı və işlənməsinə dair Anlaşma Memorandumun imzalanması olduqca mühüm bir siyasi və iqtisadi hadisədir. Bu, bölgədə gərginliyin azalmasına və iqtisadi əməkdaşlığın güclənməsinə gətirib çıxaracaqdır. Eyni zamanda, artıq yeni dünya düzənində türkdilli dövlətlərin siyasi çəkisinin artmasına kömək edəcəkdir. Təbii ki, türkdilli dövlətlərin bu istiqamətdə fəaliyyətinin əsas aparıcı iki dövləti Azərbaycan və Türkiyədir. 44 günlük müharibə zamanı Azərbaycanın hərbi gücünü ortaya qoyması və onun haqlı davasında Türkiyənin siyasi dəstəyi geosiyasi müvazinəti bizim xeyrimizə dəyişdi. Bölgə ölkələri, o cümlədən Türkmənistan da bunu nəzərə aldı. Türkmənistan türk dövləti olsa da, burada güclü erməni diasporu vardır. Ancaq diplomatik gedişlərimiz bu amili də zərərsizləşdirdi. Azərbaycan və Türkmənistan arasında imzalanan bu

memorandum gələcəkdə yeni iqtisadi əməkdaşlıq formatı qurmaq baxımından da vacibdir. Türkmənistan qazının Cənub Qaz Dəhlizi layihəsinə daxil edilməsi bu istiqamətdə Türkmənistana əlavə gəlirlər gətirə bilər. Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini artıra və Azərbaycanın bu istiqamətdəki gəlirlərinin daha da artmasına təkan verə bilər.

Beləliklə, bu razılaşma tarixi əhəmiyyətə malik iqtisadi və siyasi dividentləri özündə ehtiva edən bir razılaşmadır. Bu istiqamətdə fəaliyyətin davam etdirilməsi Xəzər hövzəsində əməkdaşlığın xarakterini müsbətə doğru bir qədər də dəyişir. Həmçinin, Rusiyanın və İranın bəzi hallarda manipulyasiya imkanlarını azaldır.

## ƏDƏBİYYAT


1. Azərbaycanla Türkmənistan arasında Xəzərdə “Dostluq” yatağının birgə işlənməsinə dair Memorandum imzalanıb. https://apa.az/az/xarici_siyaset/Azrbaycanla-Turkmnistan-arasinda-Xzrd-Dostluq-yataginin-birg-islnmsin-dair-Memorandum-imzalanib-625462
2. Məhərrəmova T. Azərbaycanla Türkmənistan arasında əməkdaşlıq iqtisadi rifaha, təhlükəsizliyə və mədəni inkişafa xidmət edir. // Kaspi. - 2019.- 21 avqust. - № 150/2. - S. 5.
3. Cəfərli R. Azərbaycan-Türkmənistan münasibətləri sürətlə inkişaf edir. // Azərbaycan.-2008.-5 dekabr.-S.1.
4. Məmmədov Z. "Dostluq" yatağı: İqtisadi inkişafın, Azərbaycanla Türkmənistan arasında dostluq və qardaşlığın simvolu – TƏHLİL. https://apa.az/az/siyasi_xeberler/Dostluq-yatagi-Iqtisadi-inkisafin-Azrbaycanla-Turkmnistan-arasinda-dostluq-v-qardasligin-simvolu-colorredTHLILcolor-625530
5. АрутюнянС.Изменение ситуации на каспии. Перспектива азербайджано-туркменского энергетического сотрудничества. http://www.noravank.am/rus/articles/security/detail.php?ELEMENT_ID=2650
6. Федоров Ю.Е. Туркменские газовые игры // Индекс безопасности. 2010. Т. 16. № 2 (93). С. 73-86.
7. Икрамов С.Т. Энергетическая политика Центральноазиатских стран // Теории и проблемы политических исследований. 2018. Том 7. № 5А. С. 73-80., с.77-78

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ ERKƏN METALLURGİYA VƏ METALİŞLƏMƏNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

***Leyla Rüstəmova***
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
leyla.rustamova84@gmail.com

**Açar sözlər**: *Qədim metallurgiya, metal emalı, Gəncə-Qazax bölgəsi, mis filizi, əmək alətləri*

*Məqalədə Gəncə-Qazax bölgəsinin Böyük Kəsik, Poylu, Mentəştəpə, Soyuqbulaq, Həsənsu, Babadərviş, Xocaxan, Uzun Rəmə, Xoşbulaq, Şəmkirçay və digər arxeoloji abidələrindən tapılan erkən metallurgiyanın inkişaf mərhələlərini əks etdirən nümunələrin təhlilindən bəhs olunur.Bu artefaktların nəinki Azərbaycan, eləcə də Cənubi Qafqaz arxeologiyası və tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb etdiyi göstərilir.*

*Son illər bölgənin arxeoloji abidələrində aparılan qazıntılar nəticəsində tədqiq edilən əraziyə xas olan metallurgiya və metalişləməyə dair xeyli nümunələr və faktlar əldə edilib. Xüsusilə, Eneolit və İlk Tunc dövrünə aid edilən (e.ə.V-III minilliklər) abidələrdən zəngin metal əşyaların tapılması bölgədə məskunlaşan qədim tayfaların metallurgiya və metalişləmə sənətinəsahib olmasının birbaşa göstəricisidir.*

*Azərbaycan tarixində erkən metallurgiyanın və metalişləmənin meydana çıxdığı ərazilərdən biri olan Gəncə-Qazax bölgəsinin haqqında bəhs olunan dövrünü əhatə edən abidələrin metal məmulatının tədqiqi arxeologiya elminin aktual məsələlərindən biridir.*

# STAGES OF DEVELOPMENT OF EARLY METALLURGY AND METALWORKING IN THE TERRITORY OF AZERBAIJAN

***Leyla Rustamova***

**Keywords:** *Ancient metallurgy, metal processing, Ganja-Gazakh region, copper ore, labour tools*

*Analysis of early metallurgical samples found in BoyukKesik, Poylu, Menteshtapa, Soyugbulag, Hasansu, Babadervish, Khojakhan, Uzun Rama, Khoshbulag, Shamkirchay and other archeological monuments of the Ganja-Gazakh region in the article, shows that these artifacts are of great importance*

*not only in the study of archeology and history of Azerbaijan but also in the study of the South Caucasus.*

*As a result of excavations carried out in the archeological monuments of the region in recent years, many examples and facts on metallurgy and metalworking specific to the studied area have been obtained. In particular, the discovery of rich ancient metal objects and manufacturing tools from the monuments of the Chalcolithic and Early Bronze Ages (V-III millennia BC) is a direct indication of the existence of metallurgy and metalworking in the ancient tribes inhabiting this region.*

*The study of metal products of monuments of the Ganja-Gazakh region, one of the areas of early metallurgy and metalworking in the history of Azerbaijan, covering the period in question, is one of the urgent issues of archeological science.*

## ЭТАПЫ РАЗВИТИЯ РАННЕЙ МЕТАЛЛУРГИИ И МЕТАЛЛООБРАБОТКИ НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА

***Лейла Рустамова***

**Ключевые слова:** *Древняя металлургия, металлообработка, Гянджа-Газахский район, медная руда, орудия труда.*

*В статье рассматриваетсяэтапы развития ранней металлургии и анализ ранних металлургических образцов, найденных в БеюкКесик, Пойлу, Ментештепе, Союгбулаг, Хасансу, Бабадервиш, Ходжахан, Узун Рама, Хошбулаг, Шамкирчай и других археологических памятниках Гянджа-Газахского региона показывает, что эти артефакты имеют большое значение не только в изучение археологии и истории Азербайджана, а также изучение Южного Кавказа.*

*В результате раскопок, проведенных в археологических памятниках региона в последние годы, было получено много примеров и фактов по металлургии и металлообработке, характерных для исследуемой территории. В частности, обнаружение богатых древних металлических предметов из памятников эпохи энеолита и ранней бронзы (V-III тыс. до н.э.) является прямым указанием на существование металлургии и металлообработки у древних племен, населявших этот регион.*

*Изучение металлических изделий памятников Гянджа-Газахского района, охватывающего рассматриваемый период, является одной из актуальных проблем археологической науки.*

**GİRİŞ.** Metaldan istifadə ibtidai icma cəmiyyətinin ən böyük nailiyyətlərindən biri olub. Belə ki, insanlar minilliklər boyu istifadə olunmuş daş və sümük kimi nümunələri çox geridə qoyan, yeni yüksək xassəli bir materialı - metalı əldə ediblər. Metaldan əmək alətlərinin hazırlanması və onların təsərrüfata tətbiqi təkcə məhsuldar qüvvələrin deyil, həmçinin mövcud cəmiyyətdə digər istehsal sahələrinin texniki imkanlarının artmasına böyük təkan verib. Müxtəlif metal əmək alətlərinin istehsalı və tətbiqi daş, ağac, sümük, dəri və digər xammal növlərindən istifadəni xeyli asanlaşdırıb.

Metaldan istifadə vərdişlərinin yaranması məhsuldar qüvvələrin inkişafına mühüm təsir göstərməklə yanaşı, cəmiyyətin inkişafında və təkamülündə böyük rol oynayıb. Belə ki, metalın kəşf olunması cəmiyyətin ictimai quruluşunun inkişafı və yenilənməsinə təsir edən əsas amillərdən biridir. Təbiidir ki, ev sənətkarlığı şəraitində buna nail olmaq çətin idi. Metallurgiyanın yaranması ixtisaslaşmış sənətkarlığın əmələ gəlməsinə səbəb olub.

Azərbaycan tarixində mühüm əhəmiyyət kəsb edən e.ə. V-III minilliklərə aid ilkin metal istehsalı dövrü abidələrinin tədqiqi tərəfimizdən xronoloji ardıcıllıqla verilir. Bu dövr Azərbaycan ərazisində ilkin metallurgiyanın yaranması və mərhələlərə bölünməsi baxımından da elmi əhəmiyyət kəsb edir. Sistemli şəkildə tədqiqata cəlb edilən, erkən metal istehsalı əlamətlərini özündə əks etdirən qədim yaşayış yerləri və qəbir abidələrinin öyrənilməsi bu günün aktual məsələlərindəndir. Bu araşdırmaların nəticəsi olaraq, həm e.ə. V-III minilliklərə aid qədim abidələrin lokallaşdırılması problemi sahəsində müəyyən yeniliklər ortaya qoyulmuş, həm də onların dövrü haqqında xronoloji baxımdan elmi nəticələr əldə edilmişdir.

Bölgənin metal istehsalı dövrü abidələrində aparılan arxeoloji qazıntı və tədqiqat işləri zamanı əldə olunan metal məmulatının təsnifatı və ayrı-ayrılıqda öyrənilməsi əhalinin e.ə. V-III minilliklərdə məşğuliyyəti, təsərrüfat həyatı barədə yeni elmi fikir söyləməyə şərait yaradır. Bölgənin erkən maldar və əkinçi tayfalar tərəfindən məskunlaşma ilə bağlı ərazilərdən biri olduğunu nəzərə alsaq, ilkin metal istehsalı dövründə təsərrüfat həyatı və sənətkarlığın inkişaf mərhələlərinin mühüm əhəmiyyətə malik olmasının şahidi olarıq. Çünki, erkən metallurgiyanın yaranması, xammal mənbələri, metallurgiyanın istehsal vasitələri, istehsalın texniki üsulları, erkən metal nümunələri və s. məsələlərin öyrənilməsi hələ də arxeologiya elmində tədqiqata ehtiyacı olan sahələrdəndir. Erkən metallurgiyanın yaranması və inkişafına mədəni-iqtisadi əlaqələrin təsiri, digər tərəfdən metallardan bu ticarət əlaqələrində istifadə aktual problem mövzular olaraq qalır.

Gəncə-Qazax bölgəsində erkən metallurgiya və metalişləmə ilə bağlı tədqiqatlar XIX əsrin sonu - XX əsrin əvvəllərinə təsadüf edir (A.A.İvanovski, E.Resler, V.A.Skinder və b.). XX əsrdə tədqiqatlar bir qədər də genişlənir. A.A.İyessen[1], İ.R.Səlimxanov[2], Q.S.İsmayılzadə, V.H.Əliyev[3],

M.N.Rəhimova[4], N.Ə.Müseyibli[5], T.İ.Axundov, B.Lyonnet, B.M.Cəlilov[6; 7], bu məqalənin müəllifi [8] və digərlərinin nəşr etdirdiyi elmi əsərlərdə bölgədə qədim metallurgiya və metalişləmə ilə bağlı bir sıra mühüm elmi məsələlərə geniş yer verilmişdir. Bu tədqiqatlar nəticəsində Gəncə-Qazax bölgəsinin ilkin metal istehsalı dövrü abidələri kompleks şəkildə sistemləşdirilmiş, bölgənin erkən metallurgiyasının xammal mənbələri və qədim dağ-mədən işi izləri müəyyən edilərək, filiz yataqlarının yayıldığı ərazilər, həmçinin ilkin metallurgiya və metal istehsalında tətbiq edilən texnoloji üsullar və istehsal vasitələri müəyyənləşdirilmiş, aşkar olunan metal məmulatının dövrlər üzrə tipoloji təsnifatı verilmiş, ilkin metallurgiyanın inkişaf mərhələləri müəyyən olunmuş,qəlib forması, kürə, butə, metalişləmə emalatxanası və s. istehsal vasitələrinə əsaslanaraq erkən metallurgiya və metalişləmənin yerli xarakter daşıdığı təsdiq edilmişdir.

Tədqiqatçılar [9,s.5-14] qeyd edir ki, Azərbaycanda və Cənubi Qafqazda Eneolit və İlk Tunc dövrü metallurgiyası üç mərhələdən keçmişdir. Birinci mərhələ misdən hazırlanmış kiçik əşyalarla xarakterik olmuşdur. İkinci mərhələdə təmiz mislə bərabər, tərkibinə mərgümüş və ya az miqdarda nikel ərintisi qatılmış, süni yolla hazırlanmış alətlərə rast gəlinir. Üçüncü mərhələ e.ə. IV minilliyin ortalarından başlayaraq Kür-Araz mədəniyyəti dövrünü əhatə edir ki, bu mərhələdə metallurgiya tərəqqi edərək, tuncdan çoxsaylı alətlərin yaranmasına şərait yaratmışdır [9, s.12]. Sonrakı mərhələlər Orta Tunc, Son Tunc və Erkən Dəmir dövrlərini əhatə edir ki, bu zaman yerli sənətkarlar artıq daha mükəmməl, çoxkomponentli əmək alətləri və silahlar hazırlamağı bacarmışlar.

Təbii ki, erkən metallurgiya və metalişləmədən bəhs edilirsə, hər şeydən əvvəl xammal mənbələrinimüəyyənləşdirmək lazımdır. Belə ki, tədqiq edilən ərazidə metallurgiyanın meydana çıxması və inkişafı üçün yerli filiz yataqlarının olması vacib amillərdən biri sayılır. Həmçinin filiz yataqlarının müəyyən edilməsi və istismarı, filizin tərkibindən asılı olaraq ərimə zamanı əsas elementi əldə etmək, yerli enerji mənbələrinin mövcudluğu-meşə massivi, yəni ağac kömürünün mənbəyi qədim metallurgiya sənayesinin inkişafına zəmin yaradan mühüm faktordur.

Azərbaycan ərazisində aparılan geoloji və arxeoloji qazıntılar nəticəsində burada kifayət qədər metal filizi yatağının olduğu müəyyən edilib. Geoloji tədqiqatlar göstərir ki, mis, polimetal, mərgümüş-sürmə yataqları və təzahürləri nöqteyi-nəzərindən respublika ərazisində iki coğrafi zona mövcuddur: Kiçik Qafqaz (Kür-Araz çayları arası) vəBöyük Qafqazın cənub ətəyi. Azərbaycan ərazisində mis filizinin daha zəngin olduğu əsas rayonlar Kiçik Qafqaz sıra dağlarını əhatə edir ki, onların da böyük bir qismi Gəncə-Qazax bölgəsində mərkəzləşir. Bundan fərqli olaraq, Böyük Qafqaz sıra dağlarında mis filizi yataqlarına daha az rast gəlinir. Qafqaz ərazisində məlum olan mis yataqları aşağıdakı kimi xarakterizə olunur: Şimali Qafqaz ərazisində

Terek çayının yuxarı axarı, Qafqazın cənub ətəklərində yuxarı Rioni rayonu, Balakən-Kaxeti rayonunun cənub ətəkləri, Acarıstanın Türkiyə ilə sərhədi və Çorox rayonun böyük hissəsi, Borçalı rayonu, Alaverdi rayonu, Dilican rayonu, Gədəbəy-Gəncə rayonu, Tərtər çayının yuxarı hissəsi, Zəngəzur-Mehri rayonu. A.A.İyessen qədim metallurgiyaya aid əsərində göstərilən mis yataqlarına daha üç rayon - Cənubdan Zəngəzurla qonşu olan Cənubi Azərbaycanın Qaradağ rayonu, Acarıstanın davamı olan Çorox bölgəsi və Türkiyə ərazisindəki Trabzonu əlavə etmişdir[1, s.31-32].

Beləliklə,yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlirik ki, Qafqaz ərazisində mis yataqlarının yayıldığı ərazi çox geniş olub və bu da qədim metal istehsalçıları olan yerli əhalinin tələbatını tam ödəməyə imkan verib.

A.A.İyessenin fikrincə, bəzi rayonlarda mis yataqlarının daha zənginliyi, təbii olaraq, misin böyük həcmdə istehsalına zəmin yaradırdı. Belə ki, Qara dəniz boyu rayonlar – Acar, Çorox və Trabzon, mərkəzi cənubi Qafqaz – Borçalı, Alaverdi, Dilican, Gədəbəy-Gəncə, Qarabağ və nəhayət Zəngəzur – Mehri və Qaradağ-Araz ətrafı rayonlar böyük metal istehsal mərkəzlərinə çevrilə bilərdi.Tədqiqatçı 1935-ci ildə Qafqazda mis filizi yataqlarından bəhs edərkən, 1917-ci ilin məlumatlarını əsas götürərək, burada 410 mis yatağı olduğunu qeyd edir. Bu mis yataqlarından 309-u Cənubi Qafqazda, o cümlədən 135-i Azərbaycanın qərb bölgələrində olmaqla, Borçalı, Allaverdi, Dilican, Gəncə və Qarabağda mövcud idi[1, s.32-33].

Gəncə-Qazax bölgəsində qədim istismar izləri olan digər mis yataqları Gədəbəy rayonu ərazisində, Misdağ dağında qeydə alınıb. Rayonun Slavyanka kəndi yaxınlığında "Göy uçurum" ərazisindən tapılanazurit təzahürü böyük marağa səbəb olub. Çox da böyük olmayan bu filiz mədəni öz rəngarəngliyi ilə diqqəti cəlb edir. Ərazisi 1 ha olan bu təzahür 3 horizontal şaxtada aşkara çıxarılıb.Bittibulaq mis-mərgümüş filiz yataqları isə Slavyanka kəndindən təxminən 5 km şimal-qərbdə yerləşir. Mis-sürmə-mərgümüş minerallarından ibarət olan Bittibulaq filiz yatağının tərkibindəki enarqitin kimyəvi analizinin nəticələri belədir: - Cu-47.68%, As-18.53%, Pe-1.22%, S-37.43%[10, s.8].

Tovuz rayonu ərazisində dörd ədəd mis filizi yatağı mövcuddur: Böyük-Qışlaq, Quşçu-Səfərli, Cırdaxan və İtqırılan.Digər mis filiz təzahürləri Göygöl rayonu ərazisində, Şəhriyar kəndindən 2 km aralıda, Laçın rayonu ərazisində Xırmanlar kəndi yaxınlığında, Goranboy rayonunda Buzluq, İncəçayın yuxarı axarında, Qızılarxac dağında, Tövlədərə yarğanında yerləşir [1, s.212,215]. Yuxarıda göstərilənlərdən əlavə bir çox digər filiz yataqları da mövcuddur.

Beləliklə, bu qənaətə gəlmək olar ki, Azərbaycan, o cümlədən Gəncə-Qazax bölgəsində erkən metallurgiyanın yaranması və inkişafı üçün lazım olan mis-tunc bazası kifayət qədər olmuşdur.

İlk metal olan misin kəşfi ilə insanların maddi istehsalında əsaslı dəyişikliklər baş verir - onlar ilk dəfə olaraq daha möhkəm, təkmilləşmiş alətlər

düzəltməyə nail olurlar. Bəzi bölgələrdə bu mərhələ nisbətən tez, digərlərində isə gec başlamışdı. Məlum olduğu kimi, ilk dəfə mis əşyalar qədim Şərq ölkələrində meydana gəlib. Azərbaycan metal istehsalını çox erkən mənimsəmiş ölkələr sırasına daxildir.

Gəncə-Qazax bölgəsində tədqiq olunan, erkən metal istehsalı nümunələri aşkar edilən yaşayış yerləri müxtəlif ölçülü hündür təpələr formasında olub, şirin su qaynaqlarının yaxınlığında yerləşib. Bu dövrün yaşayış məskənlərinə düzən və dağətəyi ərazilərdə təsadüf edilir. Onların sırasına Eneolit və İlk Tunc dövrünə aid Qarğalartəpəsi, Mentəştəpə, Böyük Kəsik, Poylu, Babadərviş, Xocaxan və s. yaşayış yerləri, Soyuq Bulaq, Xoşbulaq, Göygöl, Şəmkirçay kurqanları, Həsəncu qəbir abidəsi və b. daxildir.

**NƏTİCƏ.** Gəncə-Qazax bölgəsində Eneolit və İlk Tunc dövrünə aid abidələrdən zəngin qədim metal əşyaları və istehsal alətlərinin tapılması, bu bölgədə məskunlaşan tayfalarda erkən metallurgiya və metalişləmənin mövcudluğunu göstərir. Arxeoloji abidələrdən tapılan erkən metallurgiya nümunələri nəinki Azərbaycan, eləcə də bütün Qafqaz ərazisində ən qədim nümunələrdəndir.

Metal əşyaların spektral və kristalloqrafik analizləri, erkən metalişləmə zamanı müxtəlif texniki üsullardan istifadə edildiyini göstərir. Metallurgiyada qəlib formalarından istifadə bu sahədə ciddi dəyişiklik yaratmışdır. Arxeoloji qazıntılardan əldə edilən xəncər, balta, dördtilli biz və s. nümunələr tökmə sənətində dərin dəyişiklik olduğunu göstərir. Belə ki, metallurgiyanın sonrakı inkişaf mərhələlərində metal tökmə sənətində yeni texnikanın mənimsənildiyi üzə çıxır və metal əşyaların hazırlanmasında açıq modellərdən qapalı metal tökmə üsuluna keçid özünü büruzə verir.

Metallurgiya və metalişləmənin erkən mərhələsinə aid edilən faktlara əsasən demək olar ki, e.ə.V-III minilliklərdə bu ərazidə filizin əldə edilməsindən və ilkin emalından başlayan mürəkkəb bir proses metal əşyaların-əmək alətlərinin, silah və bəzək nümunələrinin hazırlanmasına qədər davam etmişdir.

## Ədəbiyyat

1. Иессен А. А. К вопросу о древнейшем металлургии меди на Кавказе //Изв.ГАИМК, М.- Л.: 1935, вып. 120, с. 7-216.

2. Селимханов И.Р. Древнейший металл Азербайджана. Баку:1986,15 с.

3. İsmayılov Q.S., Əliyev V.H. Babadərviş qədim yaşayış yerində qəbir abidələri // AMEA-nın Xəbərləri. Bakı: Elm, 1972, №2, s.38-51.

4. Рагимова М.Н. Из истории использования свинца, в древнем и средневековом Азербайджане. Баку: Элм, 1978, 99 с.

5. Müseyibli N.Ə. Böyük Kəsik Eneolit dövrü yaşayış məskəni. Bakı: Nafta-Press, 2007, 227s.

6. Ахундов Т.И., Гасанов А.М., Джалилов Б.М. Историко-аналитическая характеристика металла из курганов некрополя СоюгБулаг и поселения Гейтепе // Вестник Института ИАЭ, РАН Даг. Н.Ц. 2007, с. 51-55.

7. Джалилов Б.М., Гусейнов М.М. Древнее поселение Ходжахан / Сборник материалов Международной научной конференции Раннеземледельческие культуры Кавказа, посвященной 60-летию открытия памятника Кюльтепе в Азербайджане. Баку: 2012, с. 250-263.

8. Рустамова Л.М.История изучения памятников периодаран негометалла в Гянджа-Газахском регионе // «Гілея» Науковый Вісник, Випуск, 85 (№ 6), Киів, 2014, с.135-138; *Yenə onun:* Gəncə-Qazax bölgəsinin Eneolit dövrü metal istehsalı abidələri. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, Bakı, 2011, № 2, s.30-35.

9. Нариманов И.Г., Джафаров Г.Ф. О древнейшей металлургии меди на территории Азербайджана. СА, № 1, 1990, с. 5-14.

10.Эфендиев Г.Х. Гидротермальный рудныйком плекссеверо-восточный части Малого Кавказа. Баку: АН Азерб.ССР, 1957, 345 с.

11.Геология Азербайджана: в 8-ми томах, т.6, Баку: АН Азерб. ССР, 1961, 367 с.

# XƏZƏR-RUS MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN

***Məhərrəm Əhmədov***
**AMEA Tarix İnistututu**
Meherrem.6096@gmail.com

**Açar sözlər:**Azərbaycan, Xəzər, Rusiya, siyasət, əlaqələr.

Xəzər Xaqanlığı ilə Rusiya knyazlığı arasında hərbi-siyasi, ticarət və iqtisadi əlaqələr 9-10-cu əsrlərdə Şərqi Avropa tarixində mühüm mərhələlərdən biridir. Dövrünün ən güclü dövlətlərindən olan Xəzər Xaqanlığı ən uzunömürlü türk imperiyalarından biridir. IX-X əsrlər imperiyanın süqutu dövrü kimi xarakterizə edilə bilər. Məhz bu dövrdə Rusiya siyasi arenaya qədəm qoydu. Aralarındakı əlaqələr bütün bölgəyə siyasi və coğrafi təsir göstərdi. Müəllif məqalədə Xəzər-Rusiya münasibətlərini təhlil edir və bölgədəki digər qüvvələrin roluna diqqət çəkməyə çalışır.

## ХАЗАРСКО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ И АЗЕРБАЙДЖАН

***Магеррам Ахмедов***

**Ключевые слова**: Азербайджан, Хазары, Россия, политика, отношения

Военно-политические, торгово-экономические отношения между Хазарским Каганатом и Русским княжеством - один из важных этапов в истории Восточной Европы IX-X веков. Каспийский каганат, одно из самых могущественных государств своего времени, - одна из самых долгоживущих тюркских империй. IX-X века можно охарактеризовать как период упадка империи. Именно в этот период Россия вышла на политическую арену. Отношения между ними оказали политическое и географическое влияние на весь регион. В статье автор анализирует Хазарско-российские отношения и старается привлечь внимание к роли других сил в регионе.

## KHAZAR-RUSSIAN RELATIONS AND AZERBAIJAN

***Maharram Ahmedov***
**Keywords:** Azerbaijan, Khazars, Russia, politics, relations

In the IX-X centuries, military-political and economic-trade relations between the Khazar Khaganate and the Russian Principality (Kingdom) are one of the important stages in the history of Eastern Europe.The Khazar Khaganate, one of the most powerful states of its time, is one of the longest-lived Turkic empires. The IX-X centuries can be characterized as a period of collapse of the Khazar Khaganate. Meanwhile, Russia appeared in the political arena. The relations between Khazar Khaganate and the Russian Principalityhad a political and geographical impacts on the overall region. Azerbaijan, which borders the Khazar Khaganate from the south had been affected by the consequences of these relations. In this article, the author analyzes the Khazar-Russian relations and tries to draw attention to the influence of other forces in the region.

**Giriş.** Xəzər-rus münasibətləri IX-X əsr Şərqi Avropa tarixinin ən mühüm mərhələlərindən biridir. Həmin əsrlərdə yeni bir dövlət formalaşaraq zəifləmiş Xəzər xaqanlığının məhv olmasındayaxından iştirak etmişdir. IX əsrin ikinci yarsından X əsrin ikinci yarısınadək Xəzər xaqanlığı və ruslar arasındakı münasibətlər Azərbaycanada təsirsiz keçməmişdir.Rusların 913 və 945 ci illərdə Azərbaycan torpaqlarına hücum etməsi, məhz, Xəzər-Rusiya münasibətlərinin nəticələrindən biri idi.

Xəzər-Rusiya münasibətlərindən bəhs edərkən bu dövlətlərin tarixinə qıssa şəkildə toxunmaq zərurəti yaranır. Xəzər xaqanlığı 651-ci ildə Qərbi Türk xaqanlığının süqutu nəticəsində meydana çıxan türklərin yaratdığı uzunömürlü imperiyalardan biridir. Dövlət, Türk xaqanlığının qurucu sülalərindən olan Aşina sülaləsi tərəfindən yaradılmışdır. O az bir vaxtda Şərqi Avropanın ən qüdrətli dövlətinə çevrilmiş, yüz ildən çox Ərəb xilafətinə qarşı vuruşaraq, Şərqi Avropanı ərəb istilasından xilas etmişdir.

Rus dövlətinin tarixinə baxsaq, bu dövlətin IX əsrin ortalarından tarix səhnəsinə çixdığını görərik. Rus knyazlığı şərqi slavyan xalqlarını ətrafında birləşdirən bir dövlətdir. Dnestr və Dnepr çayları arasında yaşayan antlar, şərqi slavyanların əcdadları hesab edilir [12, s.261]. Bəzən rus və slavyan anlamları bir-birini tamamlamır. Belə ki, qədim mənbələrdə qeyd edilir ki, «ruslar bir adada yaşayırlar. Adanı üç günə gəzmək olar. Onlar öz hökmdarlarını xaqan adlandırır. Ruslar tez-tez slavyanlara hüçum edərək, onları qarət edib, əsir götürüb, bulqar və xəzərlərə satırlar. Hücum etdikləri ərazilərə gəmi ilə gedirlər. Allahlarına insan və at qurban edirlər [7, s.31].

Onların başçılarını xaqan adlandırması bizim üçün əsas faktorlardandır. Xaqan kəlməsi nə skandinavlara, nə də slavyanlara aid deyil. Məlum olduğu kimi, bəzi şərqi slavyan qəbilələri xəzərlərə xərac verirdi. Bəzi slavyan qəbilələri Xəzər xaqanlığının nüfuz dairəsində yaşayır və onlara xərac verirdilər. Rusiya və digər ölkələrin tədqiqatçılarının fikrinə görə, Rusiya knyazlığı yaranarkən xəzərlərin dövlətçilik ənənələrindən faydalanmışlar. O

cümlədən, skandinavların da Rus dövlətinin yaranmasında mühüm rol oynadıqları bildirilir. Təsadüfi deyil ki, rusiyaşünaslıqda normançılıq və slavyançılıq mühüm cərəyanlardandir. XVIII-XX əsrlərdə Rusiya tarixşünaslığında slavyan və normançı cərəyanlar arasında kəskin elmi mübahisələr mövcud olmuşdur. Birincilərə görə, Rus dövlətini slavyanlar yaratmışdır. Yuxarıda adı keçən xalqların bu dövlətin yaranmasında heç bir rolu olmamışdır. Əksinə, onlar Rusiya dövlətinin inkişafına mane olmağa çalışmışlar. Slavyançılar sovet tarixşünaslığında daha fəal olmuşlar. «Sovet tarixşünaslığı kosmopolitizimlə mübarizə zəminində, Rus dövlətinin yaranmasındaskandinavların rolunu bir quldur dəstəsinin hiylə yolu ilə, qısa müddətdə Kiyevi tutmaları kimi dəyərləndirərək, bu fikrə kölgə salmağa çalışırlar. Xəzərlər Rus dövlətinin inkişafını buxovlayan parazit ölkə elan edilir. Bu fikrin daşıyıcılarına görə, ruslar orta Dneprdə yaşayan qəhrəman bir xalqdır. Onlar xəzərləri məhv edib, skandinavları qovaraq, slavyanları onların zülmündən azad etmişlər» [12, s 272].

Xəzər-rus münasibətləri ən az tədqiq olunan məsələlərdəndir [16, s.461]. Bizə görə, bunu şərtləndirən bir neçəamil vardır. Birinci, Xəzər-rus münasibətləri haqqında yetərincə məlumat yoxdur. İkinci, Ərəb və Bizans imperiyası ilə müqayisədə, xəzərlərə münasbət bulqar, peçənək, oğuz, alan, macarlara münasibətdən keyfiyyətcə fərqlənməmişdir. Təbiidir ki, rus tədqiqatçılar dövlətçilik maraqlarından çıxış edərək, çox zaman xəzərlərin tarixdəki rolunu kiçiltməyə və Kiyev Rus dövlətinin qüdrətini şişirtməyə çalışmışlar. Biz onların bu yanaşmasını xəzərlərin mədəniyyəti, etnik kimliyi, təsərrüfat həyatı, dövlətçilik fəaliyyətinin tədqiqi və təhlilinə nəzər yetirdikdə, tam görə bilirik. Onlara görə, xəzərlər qılınc tutmaqdan başqa, heç nəyi bacarmamışlar. Kiyev Rus dövləti isə yarandığı bir gündən həyatın bütün sahələrinə istiqamət vermişlər.

Xəzər–rus münasibətlərini təhlil edilərkən, rusların xarici siyasəti və o dövrdə Şərqi Avropadakı ictimai-siyasi vəziyyət tam nəzərə alinmalıdır. Əks təqdirdə, tərəflərin gücünü dəyərləndirə bilmərik. Ərəb-xəzər hərbi-siyasi münasibətləri sona çatdıqdan və Xəzər xaqanlığında Yəhudi dini hakim ideologiyaya çevrildikdən sonra, Şərqi Avropa regionunda dövlətlərarası münasibətlərdə müəyyən dəyişikliklər meydana çıxdığını görmək olar. Xəzər xaqanlığında etno-siyasi münasibətlərdə tarazlıq itirdi. Xaqanlığa tabe olan xalqlar müəyyən azadlıqlarını qorumaqda idi. Onların öz hakimləri var idi və onlar zaman-zaman bu müstəqillikdən istifadə edərək, mərkəzi hakimiyyətlə razılaşmadan, xarici siyasətlərini müəyyənləşdirirdilər. Regionda geosiyasi vəziyyətin ziddiyyətli olması, xaqanlıqda Yəhudi dininin qəbul edilməsi, bütpərəst əhaliyə təzyiqlər imperiya daxilində sosial-siyasi böhrana gətirib çıxardı [12,s.251]. Xəzərlərin daxili siyasətində itiqrarsızlığı, hərbi baxımdan zəifliyi, Bizans imperiyasının sərhəd toxunulmazlığına təhlükə yaradırdı. Şərqi

Avropada yaranmaqda olan siyasi gücləri nəzarətdə saxlamaq çətinləşirdi. Orada yaranan siyasi mərkəzlərlə ayrı-ayrılıqda hesablaşmaq lazım gəlirdi. Xəzərlərin hakim təbəqəsinin Yəhudi dinini qəbul etməsi, İslam dini ilə müqayisədə Bizans imperiyasının maraqlarına qismən uyğun olsa da, sonralar Bizans və xəzərlər arasında dini zəmində münaqişələrə səbəb oldu. Şərqi Avropada güclü siyasi mərkəzin mövcud olması Bizans imperiyasının xarici siyasətinə uyğun idi. Bunun Xəzər xaqanlığı olması, Bizansın mənafeyinə daha da münasib idi. Birincisi, onlar arasında uzun zamandan bəri hərbi ittifaq var idi. İkincisi, onlar arasında siyasi baxımdan ixtilafa səbəb olacaq məsələ yox idi. Buna görədə, Xəzər xaqanı peçeneqlərdən qorunmaq üçün Sarkel qalasının tikintisində imperator Feofildən (829-842) kömək istədikdə, bu müraciət müsbət qarşılandı. Bu qala köçəri tayfaların hücumlarından qorunmaq məqsədilə tikilmişdi [10, s.536-37]. Qala Volqa və Don çaylarının maksimum yaxınlığında yerləşirdi. Bu, Volqa–Xəzər ticarət yolu ilə Yaxın Şərqə gedən rus tacirlərindən gömrük vergisi almaq və onlara nəzarət etmək baxımından əhəmiyyətli bir qala idi [3, s.178]. Peçeneqlərin Şərqi Avropada görünməsi siyasi balansı dəyişmiş oldu. Onlar oğuzların təzyiqi nəticəsində, yerləşdikləri Elba və Yaik hövzəsini tərk edərək, Don və Dunay arasında yerləşən madyarları hazırki Macarıstan ərazisinə sıxışdırdılar [16, s.461]. Məlum olduğu kimi, madyarlar xəzərlərin əsas müttəfiqlərindən biri idi. Onların yerlərini tərk etməsi bu hadisələrə xəzərlərin laqeyidliyi, sonralar Xəzər xaqanlığının əleyhinə yönəldi.

Rusların 860-cı ildə Konstantinopola hücum edib, onu mühasirəyə alması, Bizans–rus münasibətlərinin siyasi xarakterini dəyişdi. Ruslar bununla Avropa siyasi meydanına çıxdı. Bizans imperiyası rusları siyasi bir güc kimi qəbul etməyə məcbur oldu [14,s.48-49]. Artıq mənbələr IX əsrin ikinci yarısnda yeni siyasi gücün meydana çıxdığını yazırlar [8,s.197]. Qeyd etməliyik ki, ruslar Konstantinopola hücum edərkən Bizans imperiyasında təhlükəsizlik problemləri mövcud idi. Düzdür, M.İ.Atamonov iddia edir ki, «860-cı ildə ruslar Konstantinopola hücum edərkən çox güclü idi» [5, s.492]. Əsl həqiqətdə isə, Bizans imperatoru 40 minlik ordu ilə Kiçik Asiyaya səfər etmişdi. Onlar 860-cı ildə pavlikanlarla mübarizə edirdilər. Pavlikanlar ərəblərin Kiçik Asiyaya hücumunu dəstəkləyirdilər. Digər tərəfdən, Konstantinopoldakı donanma piratlarla mübarizə etmək üçün Krit adalarına getmişdi. Məlum olur ki, şəhər müdafiəsiz vəziyyətdə idi. Görünür ki, Bizans hakimiyyəti rusları önəmli güc kimi qəbul etmirdilər və ya onların hücum edəcəklərinə ehtimal etməmişlər. Çox güman ki, Bizans ordusunda muzdlu rus döyüşçüləri arasında casuslar olmuş və onlar şəhərin müdafiəsiz olduğunu xəbər vermişlər. Bu hücum sülh müqaviləsi ilə başa çatdı. Bizans öz ənənələrinə sadiq qalaraq ruslar arasında Xristian dinini yaymaq məqsədilə bu müqavilədən istifadə etməyə başlamışdı. Bu müqavilədən sonra rusların Xəzər dənizi sahillərinə

hücumlar haqqında məlumatlar var. M.İ.Artamonov bildirir ki, rusların ticarət drujinaları bəzən quldurlar kimi hərəkət edirdilər. 864-884-cü illərdə Xəzər dənizi sahillərinə hücumlar məhz onların hücumlarıdır [5, s 409]. Bu hücumlar davamlı olaraq baş vermişdir [13, s.66]. Maraqlıdır ki, rusların Xəzər sahillərinə hücumları müxtəlif vaxtlarda baş versə də, bu yürüşlər Bizans-rus müqaviləsindən sonra baş vermişdir. Onlar bu hücumları həyata keçirərkən Xəzər xaqanlığının nəzarəti altındakı ticarət yollarından istifadə etmişlər.

Tarixi məlumatlar sübut edir ki, ilk hücum zamanında Xəzər-Rus münasibətləri yaxşı olmuşdur. 861-ci ilin yanvar ayında Kril və Mefodya qardaşları Xersona gəlmişlər. Mümkündür ki, bu səfər diplomatik əhəmiyyət daşımışdır. Rusların Konstantinopola hücumu, Krımdakı Bizans ərazilərini qorumaq üçün xəzərlərlə ittifaqı yenidən möhkəmləndirməyi tələb edirdi [14, s.63]. Xəzər və rusların maraqlarının kəsişdiyi yer Kiyev idi. Kiyev polyanların yaşadığı ərazi idi və onlar xəzərlərə xərac verirdi.Digər tərəfdən, 862-874-cü illərdə slavyanlar və Avropa vikinqlərin hücumuna məruz qalırdı [6, s. 230]. Bəzi məlumatlara görə, saviyanların özləri vikinqləri Novqorod şəhərinə dəvət etmişlər. Onlar sloven, krivic və digər slavyan tayfalarının istəyi ilə gəlmişlər. Bu dəvət xəzərlərdən qorunmaq məqsədi güdmüşdür [12, s.278].Xəzərlər üçün əsas təhlükə mənbəyi peçeneqlər idi. Ruslar xəzərlərin peçeneqlərlə mübarizəsindən istifadə edərək, xəzərlərə xərac verən slavyan ərazilərini ələ keçirirdilər.

IX əsrin sonlarında slavyanlar Kiyev ətrafında birləşməyə başladılar. Tanınmış Amerika xəzərşünası D.M. Dunlop rusların Kiyev şəhərini tutması hadisəsini aşağıdakı şəkildə təsvir edir:«860-cı illərdə macarlar peçeneqlər tərəfindən Dnepr çayının qərb sahilinə kimi sıxışdırıldılar. Bu, xəzərlər üçün güclü geri çəkilmədir. Rusların Kiyev şəhərini asanlıqla ələ keçirməsini də bununla izah etmək olar» [4, s.251]. Kiyev knyazı Oleqin drujinası varyaq, cud, slavyan, merya, bes və kriviclərdən təşkil olunmuşdu. OnlarRus adlanırdı. 884-885-ci illərdə Oleq severyan, radimic, drevlyan, polyan, ulic və vyatic tayfalarını özünə tabe etdi [8,s.207]. Xəzərlərin nəzarətində qalan yeganə slavyan qəbiləsi viyatiçlər idi [5, s.495]. Göründüyü kimi, Kiyev knyazlığının əraziləri genişlənirdi, onların bu səyləri Xəzər xaqanlığının siyasi və iqtisadi maraqlarının əleyhinə idi. Xəzərlərə xərac verən slavyan qəbilələri tədricən nəzarətdən çıxırdı. Bundan başqa, rusların müvəffəqiyyəti yeni istəkləri özüilə gətirirdi. Ruslar tədricən xəzərlərin nəzarətində olan ticarət yollarına nəzarəti ələ keçirməyi arzulayırdı. O zamanın şərtləri və rusların gücü buna imkan vermirdi. Lakin Şərqi Avropa siyasətində mühüm yeri olan xəzərlər əvvəlki nüfuzlarını itirirdilər. Ruslar Xəzər xaqanlığının əsas rəqibinə çevrilirdilər [12,s.261].

IX əsrin sonu-X əsrin birinci yarısında Kiyev Rus dövlətinin əsas vəzifəsi slavyan torpaqlarını birləşdirib, onun sərhədlərini möhkəmləndirmək

olmuşdur. Rusiya tədqiqatçılarına görə, ruslar həmin zamanlar hərbi və iqtisadi baxımdan güclü inkişaf etmişdilər. Onların əsas rəqibləri qərbdə Bizans imperiyası, şərqdə Xəzər xaqanlığı idi. Onlar Xəzər xaqanlığı torpaqlarına cənubdan Qara və Azov dənizi, şimaldan orta və yuxarı Volqadan keçirdilər. Onlarin İtil şəhərində böyük koloniyaları var idi.

Qeyd edilməlidir ki, Rusiya tarixçiləri yerli-yersiz Kiyev Rus dövlətinin gücünü şişirmək istəyirlər. Nəzərə almaq lazımdır ki, Xəzər xaqanlığı dini və etnik zəmində mübarizələr nəticəsində gücünü tükədirdi. Əvvəllər olduğu kimi, xaqan 300 minlik ordu ilədüşmənin qarşısına çıxmaq iqtidarında deyildi. Sarayı və ticarət yollarını 12 minlik muzdlu qvardiya qoruyurdu. Xəzərlərin ən güvənli yeri cənub sərhədi idi. Təbiidir ki, bu, xəzərlərin qüdrətindən qaynaqlanmırdı. Ərəb xilafəti zəifləyərək, əvvəlki qüdrətini itirmişdi. İmperiya çoxlu sayda dövlətə parçalanmışdı. Həmin dövlətlər xəzərlərə qarşı müharibə etmək iqtidarında deyildi. Şimal-qərbdə bulqarlar xəzərlərdən asılı olsalarda, müstəqilliyə can atırdilar. Qərbdə xəzərlərin qonşuları Xəzər xaqanlığının məhvində böyük rol oynamış pəçənəklər idi. Şimali Qafqazda əsas güc olan alanlar xəzərlərə tabe olsada, onlarda müstəqil olmaq üçün münbit şərait axtarırdılar.

Şərqi Avropada ön mövqeyə çıxmaq üçün ruslar Bizans imperiyası, Xəzər xaqanlığı və pəçənəklər arasında manevr etməkdə idilər. Bizans və Xəzər siyasi münasibətləri yaxşı deyildi. Bizans hər zaman sülh müqavilələri ilə sərhədinin təhlükəsizliyini qorumağa çalışmışdır. Bununla yanaşı hər zaman istənilən fürsətdə yeni ərazilər işğal etməyə və ya itirdiyi torpaqları geri qaytarmağa hazır olmuşdur. Bizans xəzərlərə qarşı alanlardan istifadə etməyə çalışırdı. Alanlar Cənubi Qafqaza keçid olan Dəryal keçidinə nəzarət edirdi. Onlar yuxarı Kubanda lazlar və abxazlarla qonşu idi. Həmin bölgələr Bizansın nəzarətində idilər. 917-ci ildə alanların bir hissəsi patriarx Nikolay Mistikin missioner fəaliyyəti nəticəsində xristianlaşdırıldı. Alaniyanın Qafqazda mühüm geostrateji mövqeyi var idi. VIII əsrin ortalarından alanlar xəzərlərin tabeliyinə keçmişdilər [12, s.217].

**Rusların Azərbaycana hücumunda xəzərlərin mövqeyi.** Ruslar Konistantinapola hücum edib, Bizansla müqavilə bağladıqdan sonra, 911/ 12 – ci ildə Xəzər dənizi sahillərinə hücum etdi. M.İ.Artamonova görə, bu dəstə varyaq-ruslardan təşkil olunmuşdur. Bizansa qarşı hücumdan sonra, həmin dəstə Rusiya knyazı tərəfindən buraxılmışdır. Həmin nəzarətsiz dəstə xəzər sahillərinə hücum etdi. Əgər, bu dəstə Rusiya knyazını təmsil etmirdisə, 500 gəmi, 50 min əsgər kimə məxsus idi. 50 minlik dəstənin siyasi vəziyyəti də sual doğurur. Məlumdur ki, bu hücum, Xəzər xaqanının məlumatı və icazəsi sayəsində baş vermişdir. Onlar, Xəzər xaqanlığının nəzarət etdiyi ticarət yolundan itifadə etmişlər. Lakin bu hadisənin izah edərkən, tədqiqatçılar fərqli mülahizələr irəli sürmüşlər. Bəzi tədqiqatçılara görə, rusların Xəzər dənizi

sahillərinə hücumunu xəzərlər təşkil etmişlər. Bəzi tədqiqatçılara görə, bu hücum Bizans-Rus arasındakı sülh müqaviləsinin nəticəsində baş vermişdir. Ruslar Bizansın maraqlarına uyğun olaraq, xilafət ərazilərinə hücum etmişlər. Xəzər xaqanlığının hücuma mane olmamasının əsas səbəbi isə, rusların gücü qarşısında acizliyi idi. Qeyd olunmalıdır ki, bütin fikirlərin məntiqi əsasları vardır. Lakin Xəzər xaqanlığı Kiyev Rus dövlətilə müqayisədə heç də gücsüz deyildi, əksini iddəa etmək olar. İkinci, Ərəb xilafəti parçalanıb zəiflədiyi üçün Bizansa qarşı təhlükə deyildi. Üçüncü, Xəzər xaqanlığı və Ərəb xilafətinin subyektləri arasında ticarət əlaqələri yüksək səviyyədə idi. Xəzər xaqanlığının əsas gəlir mənbəyi ticarət gəlirləri idi. Ruslar Azov dənizindən Don çayının mənsəbinə oradan Volqa çayına keçib, Xəzər dənizinə çıxmışlar [10, s.551]. Ruslar bu ticarət yoluna yaxşı bələd idilər. Lakin bu, ticarət yox, hücum xarakterli idi. Şirvan hökmüdarı Əli b. Heysəm b. Məhəmməd müqavimət göstərsədə qalib gələ bilmədi [2, s .206]. Bu hücumda 500 gəmi və hər bir gəmidə 100 əsgər var idi [1, s.280].

O zaman, xəzərlərin rusların hücümunda maraqları nə idi? L.N.Qumliov bildirir ki, Samani dövləti şiələrin dəstəklədiyi deyləmlilərə qalib gəldi. Onları Elbrus dağlarının ətəklərinə doğru sıxışdırdılar. Deyləmliləri tam məğlub etmək üçün, onları sahildən mühasirəyə almaq vacib idi. Bu isə, Xəzər hakimiyyətini ticari maraqlarına təhlükə yaradırdı. Xəzər xaqanlığı və Samani dövlətinin donanması yox idi. Xəzər xaqanı Benyamin rusları dəvət edə bilərdi. Lakin ruslar qarşıya qoyulan vəzifənin öhdəsindən gələ bilmədilər. Xəzər xaqanına yaxın olan sünnü Sacilər dövlətinin ərazisinə, Şirvan və Bakiya hücum edib, şərtləri pozdular [6, s.226]. Bu qənaətə gəlmək olar ki, bu hücumu xəzərlər təşkil etmiş, rus əsgərləri qarşıya qoyulan vəzifənin öhdəsindən gəlməməklə bərabər, sünnü Sacilər dövləti ərazisinə hücum edərək, talan və qətillər törətmişlər. Qarşılığında Xəzər xaqanlığının müsəlman qvardiyası onları cəzalandırmışdır. Rusların bu səssizliyi isə onların günahkar olması və ya gücsüzlüyü ilə izah oluna bilər. Bəzi tədqiqatçıların onları nəzarətsiz hərbi birləşmə adlandırmasınında arxasında bu dayana bilər. Əks halda, bu səsizliyin izahı verilməlidir. Əslində rusların hücumu Xəzər xaqanlığının ümumi maraqlarına zidd idi [5, s.515].

Digər bir məlumata görə, 912-ci ildə Əli b.Heysəm b. Məhəmməd əl-Bab hakimilə razılığa gələrək, bütpərəstlərin yaşadığı Şandana hücum etmişlər. Bu hücum məğlubiyyətlə sonuclanmışdır. Əli b.Heysəm b. Məhəmməd və əl-Bab hakimi olmaqla 10 min əsgər əsir düşmüşdü. Onlar xəzər, sərir və şandanlılar arasında bərabər sayda bölünmüşlər. Sərirlilər əsirləri qarşılıqsız azad etmişlər, Xəzər və şandanlılar əsirləri satmışlar [11, s.48]. Digər ehtimal, bu hücumun qarşılığında Xəzər xaqanı rusları bu hücuma təşviq edərək, müsəlmanları cəzalandırmaq istəmişdir. Sonra qonşuluq simasını qorumaq üçün, müsəlman qvardiyası vastəsilə onları məhv etmişdir. Məlum olduğu

kimi, Xəzər xaqanlığının silahlı birləşməsi musəlman türk əsgərlərdən təşkil olunmuşdu. Qvardiyanın hakimiyyət qarşısıda tələb qoymuşdur ki, müsəlmanlara qarşı onlardan istifadə olunmamalıdır. Əgər, Xəzər xaqanlığı ruslara hücum icazəsi vermişsə, bu hücumun tərəfidir və şərt pozulmuşdur. Bu hücumdan sonra ruslar yenidən Azərbaycan ərazisinə hücum etmişlər.Onlar 913-cü ildə istifadə etdiyi yolla Cənubi Qafqaza hücüm etdi [5, s 505]. Onlar, Şimali Azərbaycandakı ən varlı şəhərlərdən olan Bərdəni ələ keçirdilər. Təbiidir ki, Bərdə haqqında onlarda kifayət qədər məlumat var idi. Bərdə təkcə Qafqazda deyil, Yaxın Şərqin inkişaf etmiş zəngin şəhərlərindən biri idi. Şəhər müqavimət göstərsə də, ruslar şəhəri ələ keçirdilər. Mərziban b. Məhəmməd 30 min ordu ilə şəhəri almaq istəsə də, məğlub oldu [15, s.68]. Yerli əhalinin müqavimətlə bərabər şəhərdə xəstəliyin yayılması, rusların 945-ci ilin avqustun 12-də Bərdəni tərk etməsinə səbəb oldu [1, s.281].

Qeyd edək ki, Xəzər xaqanlığında daxili və xarici problemlərin olmasına baxmayaraq, Kiyev Rus dövlətindən gücsüz deyildi. Əgər, bu qüvvələr Rusiya dövlətinin nəzarətindən kənara çıxmışsa, demək ki, Rusiya dövləti tam formalaşmayıb. Bu hücumun nəticələrinə gəlincə, hücumdan sonra şərq gümüşünün Şərqi Avropaya gəlməsini təmin edən Xəzər-Qafqaz ticarət yolu bərpa olunmadı. Rusların Xəzər xaqanlığının nüfuz dairəsinə hücumu və xəzərlərin rus ticarətini bloklaması üst-üstə düşür [12, s.281]. Ancaq xəzərlər bu hücumdan istədiklərini əldə etmədilər. Onlar, rusların provakasiyalarının əsirinə çevrildilər. Bu hadisələrdən sonra Bizansın fəallaşmasını, Bizans-Xəzər münasibətlərinin kəskinləşməsini görürük.

**Xəzər-rus münasibətlərində Bizans və digər amillər.** Bizans xəzərlərə qarşı ruslar və alanlardan istifadə etməyə başlayır. Xəzərlər zəiflədikcə, Bizans imperiyası və Ərəb Xilafəti ilə dini zəmində qarşıdurmaya getdikcə, yeni formalaşmaqda olan Rus dövləti münbit vəziyyətdən istifadə edərək, xəzərlərin tabeliyindəki əraziləri ələ keçirirdi. Oğuz və pəçənəklərin xəzərlərə düşmən münasibətində olması ruslarınhərəkət azadlığına imkan yaradırdı. Rusların əsas hədəfi mühüm ticarət yollarını ələ keçirmək idi [12, s.279]. X əsrin ilk yarısında Xəzər xaqanlığının xarici siyasəti çox ziqzaqlı idi. 922-ci ildə Dər əl-Bəybunacda müsəlmanlar tərəfindən sinaqoq dağıdıldı. B.N.Zaxoderə görə, Dər əl-Bəybunac Xorəzm və ya Cürcanda yerləşirdi [7, s.162]. Buna cavab olaraq, İtil şəhərində məscidin minarəsi dağıdıldı və müsəlmanlar təzyiqə məruz qaldı. Maraqlı budur ki, həmin il Xəzər xaqanlığının vassalı Bulqar xanı Almuş İslam dinini qəbul edərək, Abbasi xəlifəsi Muqtədir Billaha (908-932) elçi göndərdi. Almuş xan xəlifədən İslam dinini təlim etmək üçün alimlər və Xəzər xaqanlığından qorunmaq üçün qala tikintisinə maddi qaynaq istədi. Onun arzusu müsbət qarşılandı və bir heyət Bulqar xanlığına göndərildi. Digər tərəfdən, Bizansın təşviqləri sayəsində xristian dinini qəbul edən alanlar, Xəzər xaqanlığına qarşı üsyan etdilər. 930-cu ildə baş verən bu üsyan Xəzər xaqanı

Aoron tərəfindən yatırıldı. O, alanları nəzarətdə saxlamaq üçün oğlu İosifi alan hökmdarının qızı ilə evləndirdi [12, s.216].

Bizans imperatoru Roman Lekopinin (919-944) hakimiyyəti zamanında yəhudilər təqiblərə məruz qalırdılar. Bu, Xəzər xaqanlığında əks reaksiya doğururdu. Xəzər-yəhudi əlyazmasında qeyd olunur ki, “Zülmkar Roman Lekopin tərəfindən yəhudilər qovulduqda, xəbər mənim ağama çatdı. O, çoxlu sayda sünnət olunmayanları öldürdü” [9, s.117]. Təbiidir ki, bu hadisə Bizansda böyük əks-səda doğurdu. Xəzərləri cəzalandırmaq üçün ideal həmlə rusları onlara qarşı müharibəyə təşviq etmək idi. Çünki, ruslar və peçeneqlər ittifaq halında idi.

Bu hadisələrdən çıxış edərkən, görünür ki. mübarizə Bizans və Xəzər xaqanlığı arasında gedirdi. Rus knyazlığı hər iki qüvvə arasında gedən mübarizənin əl dəyənəyi idi. Xəzər xaqanlığı daxilində ziddiyyətlər, xarici siyasətlərində səhvləri yeni yaranan Rusiya dövlətinin mənafeyinə uyğun idi. Xəzər xaqanlığı ətrafındakı bütün qüvvələr onlara düşmən idi. Bizans–Rus müharibəsi rusların məğlubiyyəti ilə nəticələndikdən sonra, xəzərlər onların Xəzər sahili ərazilərə hücumuna imkan yaratdı. Xəzərlər ruslardan təkcə Bizansa qarşı deyil, müsəlmanlara qarşı istifadə edirdilər [6, s.227]. İqor bu döyüşdən qayıtdıqdan sonra, drevlyanlardan xərac almaq istəyərkən, qətl edildi [12, s.289]. 945-ci ildə hakimiyyəti onun xanımı Olqa ələ keçirdi [6, s.247]. O, 946-cı ildə drevlyanların üsyanını yatırdı və üsyançıları sərt şəkildə cəzalandırdı [14, s.272].

Xəzər xaqanlığı tədricən öz ərazilərini itirməkdə idi. Rusiya tədqiqatçısı Xəzər xaqanlığını qısa şəkildə belə təsvir edir: «möhkəm iqtisadi əsas, parlaq mədəniyyət, güclü mərkəzi hakimiyyətlə müxtəlif etnik gücləri ətrafında birləşdirən böyük dövlət dağıldı. Ondan balaca parazit xanlıq qaldı» [13, s.69].

965-ci ildə Kiyev Rus knyazı Svyatoslavın başçılığı altındakı ordu Xəzər xaqanlığı ərazisinə hücum etdi. O, Sarkel və İtili ələ keçirdi. Xəzər xaqanlığına xərac verən yeganə slavyan qəbiləsi vyatiçlərin ərazisi ələ keçirildi. Ruslar hücum edərkən oğuzlar və peçeneqlər də xəzərlərin üzərinə hücum etmişdilər [8, s.268-270]. 965-ci il qələbəsindən sonra Xəzər xaqanlığının nəzarətindəki bulqar, burtas, subar, mordva, çeremes, vyatiç, severyan, polyan, Şimali Qafqaz, Krım, Dnestr və Karpata qədər Qara dəniz sahillərıəldən çıxmış oldu. Svyatoslav Xəzər xaqanlığı ərazilərini işğal etsədə, onları öz ərazisinə qatmağa cürət etmədi. Aşağı Volqada möhkəmlənmək, oraya slavyanları köçürməyi mənasız hesab etdi. Rusların ətrafında güclü köçəri hərbi dövlətlər var idi. Ruslar qarşısında Orta Asiya və Cənubi Qafqaza yol açılsa da, onların hücum etməyə gücü çatmadı [16, s.472].

**Nəticə**: Xəzər xaqanlığı ilə Rusiya münasibətləri tarixi Azərbaycan tarixi baxımından böyük əhəmiyyət daşıyır. Bu münasibətlər tədqiq olunsada, tam öyrənilməyib. Tədqiqatlar çox zaman dövlət və milli maraqlar çərçivəsində

aparılıb. Çox zaman bir tərəfin gücünün şişirdilməsi üçün digərinin gücü təkzib olunub. Gəldiyimiz nəticə budur ki, Xəzər xaqanlığının Kiyev Rus dövlətinin zərbəsi ilə məhv olması, rusların gücündən yox, xəzərlərin gücsüzlüyündən qaynaqlanırdı. Xəzər xaqanlığında Yəhudi dininin yaranması hakimiyyətin yəhudi əsilli elitanın əlinə keçməsinə və Xəzər elitasının hakimiyyət idarəçiliyindən uzaqlaşdırılmasına səbəb oldu.Yeni hakimiyyət qrup maraqlarından çıxış edərək, milli və dini zəmində qarşıdurmaya yol açırdı. Hakimiyyətin xarici siyasətdəki səhvləri, ordu quruculuğunda köklü dəyişiklik iqtisadi tənəzzülə səbəb oldu. Xəzər xaqanlığının məhvinin əsas səbəbi yuxarıda qeyd olunanlar və xəzərlərin Xəzər xaqanlığını artıq özünün hesab etməməsindən qaynaqlanırdı. Təhlillər göstərir ki, ruslar birbaşa Xəzər xaqanlığının rəqibi olmamışlar. Onların Xəzər xaqanlığının məhvindəki rolu oğuzların, peçeneklərin rolundan artıq deyildir.O regiondakı əsas güc mərkəzi Bizans imperiyası və Xəzər xaqanlığı olmuşdur.

## Ədəbiyyat


1. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Bakı: Azərnəşr, 1994, 680 s.
2. Bunyadov Z.M., Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s.
3.Əsədov F. Xəzərlər və Azərbaycan, Bakı: “Elm və təhsil”,2018, 240 s
4. Dunlop D.M. Hazar Yahudi Tarihi. İstanbul: Selinqe yayınları, 2008, 304 s. İngilizceden çeviren Zahide Ay.
5. Артамонов М.И. История Хазары.СПб: Лань, 2001, 668 с.
6. Гумилев Л.Н. Древняя Русь иВеликая Степь, Москва: Мысль, 1987, 764с.
7. Заходер Б.Н. Каспийский свод сведения о восточной Европы, Москва: Наука, 1962, 279 .
8. Ивик Олег, Ключников Владимир. Хазары. Москва: Ломоносов, 2015, 336с.
9. Коковцев П.К. Еврейско-Хазарская переписка в X в. Ленинград: 1932, 134 с.
10. Кудряшов К.В. О местонахождение хазарского города Саркела/ Известия Аккад. Наук СССР серия история и философия Т- IV, №16, 1947, с 536-556
11. Минорский В.Ф. История Ширвана и Дербенда, Москва: 1963, 265 с
12. Петрухин В.Д, Равский Д.С. Очерки истории народов России в древности и ранним средневековое. Москва: Языки русской культур, 1998, 384 с

13. Плетнева С.А. Хазары Москва: Наука, 1986, 96с
14. Сахаров А.Н, Дипломатия древней Руси: IX–первая полвина X в.Москва: Мысль, 1980, 358 с.
15. Якубовский А.Ю, Ибн Мискавейх о походе руссов на Берде. В 322=943/45 Византийский времени 1926, Т XXIV, с 63-92.
16. Якубовский А.Ю, О Русско –Хазарсих и Русско – Кавказских отношенях в -10вв. Известия АН. СССР Серия истории философии, Том III №5,1946, с 461-472.

# МЕСТО И РОЛЬ АЗЕРБАЙДЖАНА В СОВЕТСКО-ИРАНСКИХ СВЯЗЯХ В 1970- НАЧАЛЕ 1980-Х ГОДОВ

***Мамедова Илаха Магеррам гызы***
Западно-Каспийский университет
Ilashka_90@mail.ru

**Ключевые слова:** *Азербайджанская ССР, Иран, СССР, отношения, политика*

*В 1970-1980-е годы участие Азербайджанской ССР в советско-иранских отношениях, в основном, охватывало гуманитарную сферу. Оно проводилось в рамках деятельности общества дружбы и культурных связей с зарубежными странами, находило выражение в обмене опытом научных и культурных достижений, организации мероприятий, в которых участвовали мастера культуры, искусства, выдающиеся ученые. Имело место также участие азербайджанских специалистов в реализации между двумя странами крупных экономических проектов. При этом в силу существующих запретов участие Азербайджана в советско-иранских отношениях не переходили в плоскость тесных контактов между простыми гражданами-азербайджанцами двух стран. Новый теократический режим Ирана, как и прежний шахский, не был заинтересован в этом, понимая какие политические катаклизмы могут ожидать страну в случае нового национального пробуждения в Южном Азербайджане, как не раз это было в недавнем прошлом.В целом, в этом не было заинтересовано и советское руководство, которое рассматривала своего южного соседа удобным плацдармом для распространения различных антисоветских происков запада.*

*После Исламской революции 1979 года положение азербайджанцев Ирана не претерпела никаких изменений по сравнению с прежним шахским режимом. По-прежнему азербайджанцы не обладали правом автономии на своих исторических территориях. Им не разрешали открывать школы и издавать газеты на родном языке, против наиболее активных правозащитников и представителей интеллигенции власти проводили репрессии. В Азербайджанской ССР информация о событиях в Южном Азербайджане была строго дозированной и крайне скудной, поскольку советские спецслужбы держали под жестким контролем информационное пространство. В основном такая информация могла просочиться от тех, близкие родственники которых пострадали от*

*шахского и теократического режима, сумели покинуть страну, перебравшись в Советский Азербайджан. В Азербайджане чувство сопричастности с борьбой своих соотечественников по ту сторону Аракса находило выражение на страницах литературных и исторических произведений, в ходе редких поездок деятелей азербайджанской культуры в Иран.*

## 1970 - 1980-Cİ İLLƏRİN ƏVVƏLLƏRİNDƏ SOVET-İRAN MÜNASİBƏTLƏRİNDƏ AZƏRBAYCANIN YERİ VƏ ROLU

***İlahə Məmmədova***

**Açar sözlər:** *Azərbaycan SSR, İran, SSRİ, əlaqələr, siyasət*

*1970-80-ci illərdə Azərbaycan SSRİ-in Sovet-İran münasibətlərində iştirakı əsasən humanitar sahəni əhatə edirdi. Xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin fəaliyyəti çərçivəsində həyata keçirilmiş, elmi və mədəni nailiyyətlərdə təcrübə mübadiləsində, mədəniyyət, sənət ustalarının və görkəmli alimlərin iştirak etdiyi tədbirlərin təşkilində öz ifadəsini tapmışdır. İki ölkə arasında böyük iqtisadi layihələrin həyata keçirilməsində azərbaycanlı mütəxəssislərin iştirakı da olmuşdur. Eyni zamanda, mövcud qadağalar üzündən Azərbaycanın Sovet-İran münasibətlərindəki iştirakı iki ölkənin adi Azərbaycan vətəndaşları arasında sıx təmaslar müstəvisinə keçmədi.İranın yeni teokratik rejimi, əvvəlki Şah rejimi kimi, Cənubi Azərbaycanda yeni bir milli oyanış olması halında ölkənin hansı siyasi kataklizmləri gözləyə biləcəyini anlayaraq bununla maraqlanmadı, çünki bu, yaxın keçmişdə bir dəfədən çox olmuşdu. Ümumiyyətlə, cənub qonşusunu Qərbin müxtəlif antisovet məkrlərinin yayılması üçün əlverişli tramplin sayan Sovet rəhbərliyi də bununla maraqlanmadı.*

*1979-cu il İslam İnqilabından sonra İran azərbaycanlılarının mövqeyi əvvəlki Şah rejimi ilə müqayisədə heç bir dəyişiklik yaşamadı. Əvvəlki kimi, azərbaycanlılar tarixi ərazilərində muxtariyyət hüququndan istifadə etmirdilər. Məktəb açmağa və ana dilində qəzet buraxmağa icazə verilmədi; səlahiyyətlilər ən fəal insan haqları müdafiəçilərinə və ziyalı nümayəndələrinə qarşı repressiyalar həyata keçirdi. SSRİ-nin xüsusi xidmət orqanları məlumat məkanını ciddi nəzarət altında saxladığı üçün Azərbaycan SSR-də Cənubi Azərbaycanda baş verən hadisələr barədə məlumatlar olduqca az idi.Əsasən bu cür məlumatlar yaxın qohumları şah və teokratik rejimdən əziyyət çəkən, Sovet Azərbaycanına köçərək ölkəni tərk etməyi bacaranlardan əldə edilə bilər. Azərbaycanda, Arazın o tayındakı soydaşlarının mübarizəsinə qarışmaq hissi*

*ədəbi və tarixi əsərlərin səhifələrində, Azərbaycan mədəniyyət xadimlərinin İrana nadir səfərləri zamanı ifadə edilirdi.*

## PLACE AND ROLE OF AZERBAIJAN IN SOVIET-IRANIAN RELATIONS IN THE 1970s AND EARLY 1980s

***Ilaha Mammadova***

**Keywords:** *Azerbaijan SSR, Iran, USSR, relations, politics*

In the 1970s-1980s, the participation of the Azerbaijan SSR in Soviet-Iranian relations mainly covered the humanitarian sphere. It was carried out within the framework of the activities of the society for friendship and cultural ties with foreign countries, found expression in the exchange of experience in scientific and cultural achievements, the organization of events in which masters of culture, art, outstanding scientists participated. There was also the participation of Azerbaijani specialists in the implementation of large economic projects between the two countries. At the same time, due to the existing prohibitions, Azerbaijan's participation in Soviet-Iranian relations did not pass into the plane of close contacts between ordinary Azerbaijani citizens of the two countries.The new theocratic regime of Iran, like the previous Shah's, was not interested in this, understanding what political cataclysms the country could expect in the event of a new national awakening in South Azerbaijan, as it happened more than once in the recent past. In general, the Soviet leadership was not interested in this either, which considered its southern neighbor a convenient springboard for the spread of various anti-Soviet intrigues of the West.

After the Islamic Revolution of 1979, the position of the Azerbaijanis of Iran did not undergo any changes in comparison with the previous Shah's regime. As before, the Azerbaijanis did not enjoy the right of autonomy in their historical territories. They were not allowed to open schools and publish newspapers in their native language; the authorities carried out repressions against the most active human rights defenders and representatives of the intelligentsia. In the Azerbaijan SSR, information about the events in South Azerbaijan was strictly metered and extremely scarce, since the Soviet special services kept the information space under tight control. Basically, such information could leak from those whose close relatives suffered from the shah's and theocratic regimes, managed to leave the country, moving to Soviet Azerbaijan.In Azerbaijan, the feeling of involvement with the struggle of their compatriots on the other side of the Araks found expression in the pages of

literary and historical works, during the rare trips of Azerbaijani cultural figures to Iran.

В 1970-е годы отношения между СССР и Ираном были неоднозначными. Хотя Иран вел проамериканскую политику, СССР поддерживал экономические связи с шахским режимом. В развитии экономических отношений двух государств, активное участие принимали и азербайджанские специалисты.

На основе советско-иранского договора 1963 года по использованию приграничной реки Аракс, Бакинский институт Гидропроект разработал проект гидроэлектростанции, мощностью 100 тыс. квт. часов электроэнергии в год, обеспечивающий Муганскую степь орошением и Ардабильский район дешевой энергией. Азербайджанские специалисты Р.Асланов, Ф.Кулиев, И.Касумов, А.Тагиев, К.Юсифов, А.Рзаев, А.Бабаев, М.Алиев, Т.Ахмеев, А.Рачилин и другие проделали большую работу по подготовке иранских кадров – сварщиков, бульдозеристов, шоферов, мотористов, грейдеристов, слесарей и прочих. При помощи азербайджанских специалистов – А.Агаев, Г.Алиев, Я.Алескеров, С.Касумов, Ш. Масталиев, А.Надиров, Т.Зейналов, Ш.Ширалиев, Т.Зейналов, Ф. Эйвазов был разработан второй проект гидроэлектростанции на реке Аракс – Худаферин общей мощностью в 600 млн. квт. часов в год.

Сданное в июне 1971 года гидросооружение на реке Аракс способствовал орошению 83 тыс. га земель в Иране. Сооружение было спроектировано сотрудниками Бакинского отдела Всесоюзного научно – исследовательского и проектно-изыскательного института «Гидропроект» имени С.Я.Жука [12,с.27]. Также сотрудники института «Бакгидропроект» спроектировал второй комплекс гидроузла (электростанция Худаферин и каскад «Гыз галасы»). Строительство началось в 1981 году под руководством директора института «Бакгидропроект» Р.И. Байрамова [6,с.5].

Целью приезда иранской делегации в Азербайджан 21 мая 1971 года во главе с сенатором А. Джаханбани было урегулирование пограничных и финансовых вопросов, связанных со строительством гидроузла «Аракс» и Мильско-Муганской водозаборной плотины [1, оп.57, д.122, л.105-106]. Вскоре после этого, 25 сентября 1971 года Шах Ирана Махомед Реза Пехлеви посетил советско-иранский гидроузел «Аракс». Шаха сопровождали Министр водного хозяйства и энергетики Ирана Вахиди, Министр сельского хозяйства Рухани, Генеральный директор организации водного хозяйства и энергетики Иранского Азербайджана Суфи, группа сенаторов, членов Меджлиса и др. На

гидроузле Шаха встречали руководящие работники министерства энергетики и водного хозяйства Ирана и иранские специалисты, принимавшие участие в строительстве гидроузла. В церемонии встречи приняли участие и азербайджанские специалисты Асланов Р.К. – начальник Араксгидростроя, Гамидов Р.А. и Наджафкулизаде И.Г. – заместители начальника Араксгидростроя, Босовкий Л.М. – директор Бакгидропроекта, Кулиев Ш. – переводчик. Во время посещения гидроузла, шах длительное время беседовал с нашими специалистами. Обращаясь к Босовскому, шах сказал: «Я рад видеть, что проект, который мы с вами обсуждали несколько лет тому назад, сейчас претворен в жизнь и полностью себя оправдывает. Я только что побывал на Мильско – Муганской плотине и убедился, что мы там сможем орошать 60 тыс.га. Земли там хорошие. Уже в этом году мы получили очень большую пользу от гидроузла «Аракс». Урожай пшеницы достиг 38 центнеров с каждого гектара, чего раньше никогда не бывало из-за недостатка воды[1]». Далее сказал, что сооружение гидроузла «Аракс» и Мильско - Муганской плотины советскими усилиями советских и иранских специалистов и рабочих является самым лучшим проявлением доброжелательности и дружбы обоих народов и приносит им большую просьбу, я надеюсь, что наше сотрудничество на Араксе будет продолжаться и дальше, и мы начнем строить Худаферинский гидроузел. Шах отметил, что «Худаферин» почти вдвое больше гидроузла «Аракс» по емкости водохранилища и в 3-4 раза по мощности ГЭС, и он принесет большую пользу. Обращаясь к Асланову, Шах поблагодарил в его лице всех советских специалистов и рабочих за хорошо построенные сооружения. Далее Шах осмотрел помещение Главного щита Управления и машинный зал иранской ГЭС, беседовал с эксплуатационным персоналом, выйдя из здания, осмотрел общий вид на плотину и ГЭС с нижнего бьефа. Прощаясь с нашими специалистами, он сказал, что сооружения произвели на него самое благоприятное впечатление, и он высоко оценивает усилия советских специалистов и рабочих и благодарит их за хорошую работу. Ответили, что сооружения построены совместно иранскими и советскими специалистами и рабочими, поблагодарили за высокую оценку и за посещение гидроузла [1, оп.58, д.219, л.64-67].

Азербайджанские специалисты оказывали помощь иранскому народу в проведении газопровода от юга к северу и обеспечение северных районов газом. Руководил проектом Ф.Шарифов. До этого газ в Иране сжигался в факелах, теперь же газ стали экспортировать

[1] Урожай пшеницы в среднем в Иранской Мугани был 10-12 центнеров с га.

Западные государства обещали Ирану построить металлургический завод в Исфагане, но затем решили, что в Иране нет условий для строительства завода, так как было выгодно продавать свой металл по дорогой цене. СССР оказал содействие строительству завода, что способствовало экономию денег Ирану и обеспечило работой иранцев, а также создала возможность для развития новых отраслей индустрии. АзССР не только выполнял заказы на оборудования для строительства, но и посылал своих специалистов на помощь. Также АзССР обеспечивал перевозки оборудования из Ирана в СССР через Каспийское море. Исфаганский металлургический завод давал 100% всего производства стали в Иране [10, с.25].

За исследуемый период, АзССР всегда находился в центре внимания иранских делегаций. По приезду в СССР, они обязательно выражали желание побывать и в Азербайджанской ССР.

9 декабря 1970 года шахиня Ирана Фарах Пехлеви прибыла в Азербайджанскую ССР. Во время визита ее сопровождали мать шахини - Фарида Диба, фрейлина шахини – Бану Диба и другие. С нашей стороны делегацию встретили представители общественности. В честь шахини от имени Президиума Верховного Совета был дан прием, а после состоялся концерт мастеров искусств республики, где пели Муслим Магомаев, Рашид Бейбутов, Зейнаб Ханларова и другие. Но ее больше интересовал город. Шахиня вместе с делегацией посетили Азербайджанский Академический театр оперы и балета имени М.Ф.Ахундова, школу № 190, Азгосконсерваторию имени У.Гаджибекова, Общество дружбы и культурной связи с зарубежными странами, ознакомились с достопримечательностями города. 11 декабря иранская делегация вместе с шахиней Фарах Пехлеви вылетели в Тегеран [1, оп. 57, д.104, л.157,159,161,163-170].

6 августа 1971 г. В АзССР прибыл министр здравоохранения Ирана Манучехр Шахголи [1, оп.58, д.165, л.4], а с 9 по 11 августа 1971 г. в Баку прибыла иранская правительственная делегация во главе с председателем Правления национальной нефтяной компании г-ном Экбалем [1, оп.58, д. 219, л. 34-35].

В СССР по приглашению Правительства СССР находился Министр финансов Ирана Джамшид Амузгар с супругой Улрик. 6 февраля 1972 года они прибыли в Баку сроком на один день. На встрече присутствовали с азербайджанской стороны Лемберанский А.Д., Бахшалиев Б.Г., Таирова Т.А., Ахмедов К.А., Салахов Д.Г.Татлиев С.Б.Джеваншир Д.А. Гости посетили НГДУ им. Серебровского, Академию наук республики, где они побеседовали с президентом Академии. В честь гостей был устроен прием

от имени правительства АзССР с участием мастеров искусств. На следующий день гости вылетели в Москву [1, оп. 59, д.59, л.239-242].

6 апреля 1972 года в АзССР прибыл министр высшего образования и науки Ирана Хоссейна Казем-заде с супругой [1, оп. 59, д. 111, л. 179-180]. Во время визита гостей принял Министр высшего и среднего образования АзССр Алиев К.Г., Председатель Совета Министров республики Ибрагимов А.И. Также гости посетили НГДУ им. Серебровского, Азербайджанский институт нефти и химии им. М.Азизбекова, Академию наук Республики, ознакомились с достопримечательностями города, просмотрели балет «Семь красавиц» в театре оперы и балета имени М.Ф.Ахундова. В период пребывания в Республике гостей постоянно сопровождал Мустафаев С.М. – зам.министр высшего и среднего специального образования АзССР.

25 июля 1974 года в Баку прибыл представитель иранской фирмы «Трико-централ» Карачоллу Гулам Саханд для подписания контакта по приграничной торговле республики с Ираном [1, оп. 62, д. 115]. Во время пребывания Карачоллу в Баку были организованы встречи с писателями и работниками торговли, также гость посетил комбинат им. Ленина и швейную фабрику им. Володарского.

Баку также являлась центром проведения переговоров между СССР и Ираном о поставки газа из Ирана в СССР. В связи с этим с 16 по 25 февраля 1975 года в АзССР находилась делегация Иранской национальной газовой компании во главе с ее техническим директором Гаджави [1, оп.62, д. 115]. Переговоры между советской и иранской сторонами были проведены в помещении Управления Уполномоченного МВТ при Совете Министров АзССР. На переговорах с азербайджанской стороны присутствовали: Мурадалиев З.Д. – начальник отдела внешнеэкономических связей Совета Министров АзССР, Баширзаде А.Б. – уполномоченный Минвнешторга СССР при Совете Министров АзССР, Халафбеков Н.Х. – начальник отдела внешнеэкономических связей Госплана республики, Абдуллаев А.М. – директор объединения «Азтрансгаз», Рагимов А.Р. – заместитель директора объединения «Азтрансгаз», сотрудники Союзгазэкспорта МВТ СССР и объединения «Грузтрансгаз» и другие. Во время визита гости также ознакомились с достопримечательностями города, побывали в музее Истории, музее ковра, посетили Дворец Ширваншахов, НГДУ им. Серебровского, побывали в Агдаше, где ознакомились с газокомпрессорной станцией, в Шемахе, где посетили астрофизическую обсерваторию. Очередной приезд делегация Иранской национальной газовой компании пришелся 26 марта - 4 апреля 1975 года. От азербайджанской на встрече присутствовали: Абдуллаев А.М. – представитель объединения «Азтрансгаз». На этой

встрече были согласованы: объем поставок газа на второй квартал 1975 года, время остановок газопровода для ремонтно-профилактических работ, работа систем связи между диспетчерскими центрами.

В исследуемый период заметно расширились добрососедские экономические, научно-технические и культурные связи Азербайджана с Ираном. Благодаря упорному труду руководителя республики Гейдара Алиева, АзССР превратился в центр проведения различных международных мероприятий. Проведение таких мероприятий в Баку, позволяло ознакомить зарубежные делегации с достижениями Советского Азербайджана и успехами республики.

До конца 1960-х годов культурные связи АзССР с Ираном были слабыми. После прихода к руководству республикой в 1969 году, Гейдар Алиев проделал большую работу для развития двухсторонних связей. 24 июля 1970 года Бюро ЦК КП Азербайджана принял постановление «О мероприятиях по усилению внешнеполитической пропаганды на Иран», в котором подробно были описаны недостатки в информационно-пропагандистской работе на Иран.Для устранения недостатков, постановление обязывало министерства выполнить решения ЦК КП Азербайджана от 1 марта 1966 года и от 20 февраля 1968 года об улучшении внешнеполитической пропаганды и информационно-пропагандистской работы за рубежом [1, л. 96-100].

Плодотворную работу по укреплению культурных и научных связей с Ираном вели также азербайджанские ученые. Большое внимание изучению проблем Ирана уделял Институт стран Ближнего и Среднего Востока Академии наук Азербайджанской ССР. Министерство культуры и информации Ирана пригласило делегацию Азербайджанского общества дружбы и культурной связи с зарубежными странами посетить Иран в марте 1978 года. Приглашение передало Генеральное консульство Ирана в городе Баку [1, оп.57, д.75, ед. хр. 137]. В составе делегации были председатель Президиума Азербайджанского общества дружбы и культурной связи с зарубежными странами Наби Хазри, народный артист СССР Рашид Бейбутов, профессор Азгосуниверситета Гулу Халилов.

Также многие иранские поэты и писатели принимали участие в юбилейных торжествах выдающихся представителей азербайджанской культуры М.А. Сабира, М.Ф. Ахундова, Дж. Мамедкулизаде, творчество которых широко известно в странах Востока. В Азербайджане издавались произведения иранских поэтов и писателей - Фирдоуси, Саади, и азербайджанских писателей – Саиба Тебризи и Шахрияра и других. Была опубликована четырехтомная "Антологии литературы Южного Азербайджана" под редакцией академика Мирзы Ибрагимова [9,с.26]. Кроме того, на факультете востоковедения Азербайджанского

государственного университета готовились специалисты по иранской филологии и переводчики персидского языка. Академик М.А.Усейнов выступил в 1974 году на международном конгрессе известных архитекторов в г. Исфагане (Иран) на тему: «Сочетание элементов древней Иранской архитектуры с современной архитектурой» [7, ед.хр.62, л.50]. Работники азербайджанского радио и телевидения расширили контакты и обмен опытом радио и телевидения с зарубежными коллегами. В 1970 году в Баку находились заместитель генерального директора Иранского радио и телевидения Гамид Саид и директор Иранского телевидения Ясин Аль-Баку [7, ед.хр.56, л.64].

В этот период большое внимание уделялось развитию книготорговли, книгоиздательским связям и межбиблиотечному обмену. Так, за 1970 год книгоэкспортный отдел «Азеркитиба» отправил в зарубежные страны 13.770 экз.книг на сумму 10.949 руб., при плане 6 тысяч рублей [7, ед.хр.62, л.6]. Одним из крупнейших заказчиков на продукцию «Азеркитаба» являлся Иран. С представителем Иранской книготорговой фирмы «Азеркитаб» заключил договор о поставке в Иран около 5 тыс.экз. книг [7, ед.хр.62, л.6].За период 1971-1973 годов фундаментальная библиотека Академии наук Азербайджанской Республики и Республиканская библиотека им. М.Ф.Ахундова направили в библиотеки Ирана более 900 книг и журналов, а из Ирана получено 563 книги и журнала [7, ед.хр.75, л.68].

ЦК КП Азербайджана 14 апреля 1978 года принял постановление о проведении в городе Баку V сессии Межправительственной советско-иранской комиссии по научно – техническому сотрудничеству [1, оп.65, ед. хр. 140, пар.1-г]. Научно-техническое сотрудничество СССР с Ираном осуществлялось на основе Соглашения, подписанного 25 февраля 1971 года, и охватывало следующие области: науку и высшее образование, сельское и лесное хозяйство, охрану окружающей среды, сейсмологию и сейсмостойкое строительство, здравоохранение и медицину, документацию и научно-техническую информацию. Наиболее активно сотрудничество развивалось в области предотвращения загрязнения вод Каспийского моря. Соглашение вступило в силу 29 июня 1971 года [11,с.191].

После революции в Иране и создания Исламской Республики Иран, новые власти стали вести нейтральную внешнюю политику и стали опираться на линию «не Восток, не Запад». Восток, по их мнению, означал коммунизм, а Запад империализм. Шиитское руководство рассматривало коммунизм на примере Советского Союза как режим, в котором преобладает антиисламская идеология. Но с другой стороны, Иран был заинтересован в поддержании экономических отношений с

СССР, а СССР, в свою очередь, пытался включить Иран в сферу своего влияния.

С приходом к власти в Иране теократического политического режима фактически под религиозной оболочкой проводилась прежняя политика паниранизма. Данная политика вновь, как и при шахском режиме, ограничивала политические и культурные права азербайджанского населения. Начались репрессии против противников нового режима в Южном Азербайджане.

После победы исламской революции в отношениях между одним из авторитетных религиозных деятелей Ирана Шариат – Мадари и духовным лидером нового политического режима имама Хомейни возникли разногласия. Шариат - мадари имел азербайджанские корни. Его, в основном, поддерживала группа «Пишгаман» («Разведчики»), образовавшаяся в Тебризском университете, которая состояла из студентов и рабочих, пытавшихся установить в Иранском Азербайджане местную автономию [8,с.144-145]. В декабре 1979 г. в Тебризе прошли массовые демонстрации, выдвинувшие требование предоставления автономии азербайджанцам и другим этническим меньшинствам Ирана [8,с.211]. В марте-апреле 1982 года иранское правительство напало на сторонников отставных генералов-оппозиционеров генерал-полковника Афшари и аятоллы Шариат - мадари, проживавших в Восточном Азербайджане. Целью оппозиции было начать восстание в Тебризе, а затем расширить его, чтобы убить имама Хомейни. Однако правительство распустило группу. 28 членов группы были расстреляны в Тебризской тюрьме без следствия и суда. Усилились репрессии против оппозиции. Все это усиливало рост недовольство новым режимом в Иране [13, с.100].

События в Южном Азербайджане после Исламской революции 1979 года имели отклик и в Азербайджанской ССР. В своем вступлении на VII съезде писателей республики, состоявшемся в Баку в 1981 года, Гейдар Алиев подчеркнул важность сотрудничества с азербайджанскими писателями из Южного Азербайджана и «пропаганды их произведений в республике и за рубежом» [4,с.2]. Он высоко оценил творчество поэта Сулеймана Рустама, заявив, что «тема Южного Азербайджана и борьба его народа за свое социальное и национальное освобождение занимает видное место в творчестве поэта» [5,с.1]. Комментируя произведения Балаша Азероглу, Г.Алиев также заявил, что в его «произведениях мы часто сталкиваемся с темой южного Азербайджана: он отражает мечты и чаяния его многомиллионного народа» [5,с.1]. Высоко оценив произведения Мирзы Ибрагимова, Алиев охарактеризовал его книгу «Gələcək gün» как изображение «Движения за революцию в Южном Азербайджане и борьба за национальную и социальную независимость»

[2,с.67]. В четвертом томе Азербайджанской Советской энциклопедии, опубликованной в 1980 г., в статье «Иранский Азербайджан» говорилось: «Bax, Cənubi Azərbaycan» («Смотри, Южный Азербайджан») [3,с.513].

## Литература

1. АДП УДП АР ф.1
2. Азербайджан, 1981, № 10
3. Азербайджанская советская энциклопедия, том 4, 1980
4. Бакинский рабочий, 14 июня 1981 года
5. Бакинский рабочий, 12 декабря 1981 года
6. Вышка, 2 июля 1980 года
7. ГААР, ф.28,оп.12
8. Жигалина О.И. «Этносоциальная эволюция иранского общества», Москва, 1996, 263 с.
9. Зеркало, 15 мая 2010 года
10. Международная жизнь, 1983, №1
11. Сборник действующих договоров, соглашений и конвенций, заключенных СССР с иностранны мигосударствами, вып. XXVII, Москва, 1974 год
12. Kənd həyatı, 1968, № 8
13. Shaffer B. «Borders and Brethren: Iran and the challenge of Azerbaijani identity», Belfer Center for Science \international Affairs John F. Kennedy School of Government Harvard University Cambridge, Massachusetts, 2002, p. 255.

**UOT 94 (479.24)**

# AZƏRBAYCANDA DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI ƏRƏFƏSİNDƏ İTTİFAQ RƏRBƏRLİYİNİN XALQ HƏRƏKATINA QARŞI MÜBARİZƏSİ

***Əzizova Rübabə Yasin***
Sumqayıt Dövlət Universiteti
ezizova-r@mail.ru

**Açar sözlər:** *xalq, müstəqillik, dövlət, tarix, süqut, bərpa, demokratik, siyasi*

*Məqalədə göstərilir ki, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda baş verən hadisələrin əsas yekunu xalqımızı dövlət müstəqilliyinin bərpasına daha da yaxınlaşdırdı. Azərbaycanın dövlət müstəqilliyinin bərpasına aparan yolun hər bir addımının, hadisəsinin yenidən araşdırılması, müvafiq nəticələrin çıxarılması hüquqi demokratik dövlət quruculuğunun perspektivlərinin müəyyən edilməsi baxımından mühüm siyasi əhəmiyyət daşıyır. Məqalədə Azərbaycanın dövlət müstəqilliyinin bərpasına aparan yolun son mərhələsinin diqqətdən kənarda qalmış və ya az tədqiq edilmiş bəzi məsələlərinə nəzər salınmış, bəzi qənaətlər söylənilmişdir. Bildirilir ki, müstəqilliyimizə qarşı yönələn bütün cəhdlərin qarşısı yalnız o halda alına bilər ki, bütün xalq milli mənsubiyyətindən asılı olmayaraq dövlət müstəqilliyimizin toxunulmazlığı ideyası ətrafında vahid cəbhədə birləşə bilsin.*

# БОРЬБА СОЮЗНОГО РУКОВОДСТВА ПРОТИВНАРОДНОГО ДВИЖЕНИЯ НАКАНУНЕ ВОССТАНОВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

***Азизова Рубабе Ясинь***

**Ключевые слова:** *народ, независимость, государство, история, распад, восстановление, демократическое, политическое*

*В статье указывается, что основные итоги событий, произошедших в Азербайджане накануне распада СССР, приблизили наш народ к восстановлению государственной независимости. Важно пересмотреть каждый шаг и событие на пути восстановления государственной*

*независимости Азербайджана, сделать соответствующие выводы, определить перспективы построения демократического государства, основанного на верховенстве закона. Этотакже имеет политическое значение. В статье рассматриваются некоторые из наиболее запущенных или малоизученных вопросов завершающего этапа на пути восстановления государственной независимости Азербайджана и делаются некоторые выводы. Утверждается, что все попытки против нашей независимости могут быть предотвращены только в том случае, если все люди, независимо от национальности, смогут объединиться на едином фронте вокруг идеи нерушимости нашей государственной независимости.*

## STRUGGLE OF THE UNION LEADERSHIP AGAINST THE POPULAR MOVEMENT ON THE EVE OF THE RESTORATION OF THE STATE INDEPENDENCE OF AZERBAIJAN

***Azizova Rubabe Yasin***

**Keywords***: people, independence, state, history, disintegration, recovery, democratic, political*

*The article states that the main results of the events that took place in Azerbaijan on the eve of the collapse of the USSR brought our people closer to independence. It is important to reconsider every step and event on the way of restoring the state independence of Azerbaijan, to draw appropriate conclusions, to determine the prospects for building a democratic state based on the rule of law. It also has political implications. The article examines some of the most neglected or poorly studied issues of the final stage on the path of restoring the state independence of Azerbaijan and draws some conclusions. It is argued that all attempts against our independence can be prevented only if all people, regardless of nationality, can unite on a united front around the idea of the inviolability of our state independence.*

**Giriş.** 1991-ci ilin 18 oktyabrında Azərbaycanın dövlət müstəqilliyi bir əsrdə ikinci dəfə bərpa edildi. Həmin tarixi andan bizi 30 ilə yaxın bir müddət ayırır. O hadisədən keçən hər bir gün, il bir daha sübut edir ki, bu yolda tökülən qan, çəkilən əzab-əziyyətlər əbəs olmamışdır. Əgər xalqımız özü özünün taleyinə sahib çıxmasaydı, bu günkü qüdrətli Azərbaycan yəqin ki, olmazdı. Azərbaycan müstəqilliyini barpa etməsəydi, 30 ilə yaxın erməni işğalında olan

torpaqlarımızı azad edə bilməzdi. 44 günlük Vətən müharibəsinin ikinci mərhələsində Milli Ordunun rəşadəti, ərazi bütövlüyümüzün bərpa edilməsi çox böyük tarixi, siyasi nailiyyət, uğur oldu. Məhz Azərbaycanın dövlət müstəqilliyinin bərpası bu tarixi qələbəmizə yol açmış oldu.

SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda baş verən hadisələrin əsas yekunu xalqımızı dövlət müstəqilliyinin bərpasına daha dayaxınlaşdırdı. Sonda çoxdan gözlənilən tarixi hadisə baş verdi.

Bu tarixi nailiyyət haqqında bu günə qədər çoxlu tədqiqatlar aparılmış, monoqrafiyalar, məqalələr yazılmışdır. Lakin SSRİ-nin süqutu ərəfəsindəki illərdə elə vaxtlar, hətta günlər olmuşdur ki, baş verən hadisələr, proseslər əvvəlki onillərlə müqayisədə daha əhəmiyyətli, yaddaqalan olmuşdur.

Yaşadığımız günlərdə Azərbaycanın dövlət müstəqilliyinin bərpasına aparan yolun hər bir addımının, hadisəsinin yenidən tədqiqi, araşdırılması, onlardan müvafiq nəticələrin çıxarılması hüquqi demokratik dövlət quruculuğunun perspektivlərinin müəyyən edilməsi baxımından həm elmi, həm də mühüm siyasi əhəmiyyət daşıyır.

Məqalədə Azərbaycanın dövlət müstəqilliyinin bərpasına aparan yolun son mərhələsinin diqqətdən kənarda qalmış və ya az tədqiq edilmiş bəzi məsələlərinə nəzər salınmış, bəzi qənaətlər söylənilmişdir.

**20 yanvar faciəsinin müstəqillik uğrunda hərəkata təsiri.** 1990-cı ilin əvvəllərindən başlayıb bizi müstəqilliyə aparan azadlıq mübarizənin son iki ilə yaxın müddəti xalq hərəkatının daha mütəşəkkil xarakter alması ilə müşahidə olunurdu. Hərəkat mütəşəkkil olduqca, mövcud rejim gah sosial-iqtisadi problemlərin həllinə diqqət yönəltməyə, gah da idarəçilik sistemində müəyyən dəyşikliklər etməyə çalışırdı. Rejimin birbaşa Moskvadan idarə edilən siyasəti birbaşa milli azadlıq hərəkatına hər vasitə ilə mane olmağa, onun təsirin heçə endirməyə yönəlmişdi.

Əgər Moskva və onunla əlbir olan rejim bu məqsədlə ilk vaxtlar daha çox Dağlıq Qarabağda seperatçıların özbaşınalıqlarının qarşısını almamaqla respublika daxilində siyasi sabitliyi pozmağa çalışırdılarsa, bir az keçmiş daha iyrənc və təhlükəli vasitələrə keçildi. Bu vasitələr arasında daha ağır, kəskin, qeyri – insanı olan məhz 20 Yanvar faciəsinin törədilməsi oldu.

20 yanvar faciəsinin nəticələri müəyyənləşdirildikdən sonra məlum olmuşdu ki, *"sovet qoşunlarının təcavüzü nəticəsində, bir gün ərzində Bakıda 137 nəfər öldürülmüş, 700-dək insan yaralanmış, 800-dən çox adam qanunsuz həbs edilmişdi. Öldürülənlər arasında 5 millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Həlak olanlar arasında yetkinlik yaşına çatmayanların, qadınların, qocaların, şikəstlərin də olması bir daha sual doğururdu ki, Qorbaçov və ətrafındakıların "millətçi ekstremistlər" adlandırdıqlarıbunlar idimi?"* [11].

Yanvar faciəsinin tarixi-siyasi əhəmiyyəti çoxdur və ona bu gün də diqqət yetirilməsi, mahiyyətinin, nəticələrinin anlaşılması dövlət müstəqilliyinin bərpası, onun qorunub saxlanılması və möhkəmləndirilməsinin yeni perspektivləri baxımından olduqca əhəmiyyətlidir. Digər tərəfdən məhz 20 Yanvar faciəsi Azərbaycanın dövlət müstəqilliyinin bərpasına aparan yolu bir qədər də yaxınlaşdırmış oldu.

**Mərkəzin yeni itaətkar təmsilçisi.** Moskva 20 yanvar faciəsi zamanı "*respublikadan gizlincə qaçmış Ə.Vəzirovun yerinə hakimiyyət uğrunda mübarizədə bütün vasitələrdən istifadə edərək qalib gəlmiş Ayaz Mütəllibovu yanvarın 24-də Azərbaycan KP MK-nın birinci katibi seçdirdi.Yerlərdə kommunistlərin hakimiyyəti ordununköməyi ilə yenidən bərpa edildi*" [5].Yanvar faciəsindən sonra *"1990-cı ilin mayın 18-də Ali Sovetin sessiyasında Moskvanın "gözləntilərini" artıq doğrultmuş A.Mütəllibovun Azərbaycan Respublikasının ilk prezidenti seçilməsi"* də gözlənilməz hadisə demək deyildi [9,s.19].

1990-cı ilin yaz və yayında respublikanın ictimai-siyasi həyatında bir neçə yadda qalan əhəmiyyətli hadisələr də baş verdi. Bunların ümumi məzmunu hakimiyyətin demokratik qüvvələrin təzyiqləri qarşısında geri çəkilərək əvvəllər mümkün sayılmayan bəzi güzəştlərə getməsi idi. O cümlədən, 1991-ci il 21 mayda *"28 may - 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yarandığı gün - Azərbaycan dövlətçiliyinin bərpasıgünü elan edildi"* [12]. Bunun ardınca üçrəngli bayrağımız parlament binası üzərində dalğalandı.

Qarabağ hadisələrinin gedişində respublikada və yerlərdə idarəçilik orqanların formalaşmasında bəzi dəyişikliklər edilmişdi. Əvvəllər Azərbaycan KP-nın rayonlardakı yerli partiya komitələrinin birinci katibi vəzifəsi faktik və real rəsmi idarə orqanı idi. Siyasi islahatların gedişində prezident vəzifəsi postunun təsis edilməsindən sonra yerlərdə rayon icra hakimiyyətlərinin başçısı və onun aparatı təşkil olundu. Hətta rayonlarda hər iki quruma eyni adamın başçılıq etməsi də adi qəbul edilirdi.

Eyni sözləri respublika prezidenti haqqında da demək olar. A.Mütəllibov respublika partiya təşkilatının birinci şəxsi olarkən, bəhs etdiyimiz sessiyada həm də prezident vəzifəsinə seçildi və *"1991-ci ilin avqustunda dövlət çevrilişinə cəhd adı verilən siyasi şoudan sonra Azərbaycan KP-nınburaxılmasına qədər"* [13, s.277] hər iki vəzifəni icra edirdi.

Qeyd edək ki, may sessiyasındakı prezident seçkiləri demokratik qaydada keçirilməyərək yenə də əvvəlki illərin formal seçki proseduruna bənzəyirdi. Deputatların əksəriyyətinin rayon partiya təşkilatlarının başçılarından, digər partiya-sovet və təsərrüfat kadrlarından ibarət olduğu bir şəraitdə başqa nəticə gözləmək də mümkün deyildi.

Seçkilərin gedişi göstərdi ki, azsaylı formal müşahidəçilər seçkiləri təmtəraqlı sözlərlə yeni siyasi islahatların qələbəsi kimi təqdim etsələr də,

əvvəlki illərdə olduğu kimi, seçki məntəqələri çox yerdə boş idi, seçici fəallığı son dərəcə az olmuşdu.

**Milli azadlıq hərəkatının lideri.** H.Əliyev 1990-cı ilin iyulun 20-də Bakıya qayıtdıqdan sonra siyasi təcrübəsindən istifadə edərək iqtidara Dağlıq Qarabağ probleminin aradan qaldırılması üçün öz yardımını, xalqın bütün qüvvələrinin bu məqsəd ətrafında səfərbər edilməsini təklif etsə də, həm iqtidar, həm müxalifət cəbhəsindəki müəyyən qüvvələr bu böyük şəxsiyyətin kölgəsində qalacaqlarındanmı, siyasi qısqanclıqdanmı, ya da başqa əsassız səbəblərdən bunu istəmədilər. Bu səbəbdən də Bakıdan Naxçıvana qayıtmağa məcbur olan H.Əliyev Naxçıvan MSSR və Azərbaycan SSR-in deputatı kimi həmin günlərdə bir çox səmərəli işlərin təşəbbüskarı oldu və onlara başçılıq etdi. "*Ümummilli lider Naxçıvanda əhali qarşısında çıxışında, yerlərdə sadə insanlarla görüşlərində Dağlıq Qarabağ probleminin həlli, respublikanı düşdüyü ağır sosial-iqtisadi durumdan çıxarmaq yolları haqqında fikirlərini bir daha bəyan etdi"* [8].

Burada bir məsələ haqqında öz qənaətimizi bildirmək istərdik. Əgər AXC-nin elan edilməsinin ardınca *"hökumət 1918-ci ilin iyunun 16-da Tiflisdən Gəncəyə köçdükdən sonra"* [7, s.138] azadlıq hərəkatı, istiqlal bayrağı Gəncədən Bakıya gəlmişdisə, indi məhz H.Əliyevin çağırışları və təşəbbüslərindən sonra həm azadlıq, həm də müstəqillik rəmzi olan üçrəngli bayrağımızın Bakıya yolu məhz Naxçıvandan başladı.

*"Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin sədri seçilməsi"*[8] belə deməyə əsas verir ki, həmin dövrdə onun Naxçıvana gəlişi ilə milli azadlıq hərəkatının mərkəzi də Bakıdan Naxçıvana keçdi və bu hərəkatın dəyişməz lideri də məhz Heydər Əliyev oldu. Heydər Əliyevin əsil və mübariz vətəndaşlıq mövqeyi, Azərbaycanın müstəqilliyi uğrunda ölkə parlamentinin tribunasından etdiyi qətiyyətli çıxışlar, ümummilli problemlərin həllinə xidmət edən səmərəli təklifləri onu tezliklə milli azadlıq hərəkatının gerçəkliderinə çevirdi.

H.Əliyevin birbaşa təşəbbüsü nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nın fəaliyyətinin dayandırılması, onun bütün strukturlarının ləğv edilməsi haqqında qərar qəbul edilməsinə nail olundu. O, müdrik, uzaqgörən siyasəti ilə xalqın azadlıq mübarizəsini istiqamətləndirdi. *"1990-cı il noyabrın 17-də Naxçıvan parlamenti onun sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "Sovet Sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi"* [5]. Bütün bunlar böyük siyasi uzaqgörənliyin nəticələri idi.

**Respublika Ali Sovetinə 1990-cı il seçkiləri.**1990-cı ildə siyasi həyatda yadda qalan, cəmiyyətdəki vəziyyətə təsir gücünə görə xüsusi fərqli olan daha bir hadisə respublika Ali Sovetinə seçkilər kampaniyası oldu. Həmin ilin oktyabrın 14-də baş tutan alternativ əsaslarla keçirilməsi nəzərdə tutulan seçkilərdə 360 deputat mandatı uğrunda mübarizə iqtidarla müxalifətdə olan qüvvələrin qarşıdurmasının, sonuncuların demokratiya uğrunda mübarizəsinin növbəti sınağı oldu. *"1990-cı ilin sentyabın 30-da və oktyabrın 14-də keçirilmiş seçkilər Azərbaycanda ilk çoxpartiyalı seçkilər idi. Seçkilərdə kommunistlər 360 deputat mandatından 280-ni, Azərbaycan Xalq Cəbhəsi 45-ni, bitərəflər isə 20-ni əldə etdilər"* [2].

Seçkilərin nəticələri haqqında birmənalı danışmaq düz olmazdı. Əvvəlki seçkilərlə müqayisədə namizədlərin yaş, peşə fəaliyyəti, siyasi baxışları baxımından fərqlərin olması Azərbaycan cəmiyyəti yeniliklər demək idi.

Demək olar ki, ilk dəfə alternativ namizədlər olmaqla keçirilən bu seçkilərdə bəzi siyasi partiyaların, o cümlədən AXC-nin bir neçə namizədi deputat mandatı qazana bilsə də, korpusun böyük bir hissəsi sovet dönəmində olduğu kimi seçkilərdə hakimiyyətin namizədləri seçkilərin nəticələrinin saxtalaşdırılması, elektoratın ələ alınması və digər qeyri-qanuni təsirlərin nəticəsində parlamentə yol tapa bildi.

Hər bir halda deputat korpusunun, qismən olsa belə, təzələnməsi, dünənə kimi xalq hərəkatını, meydan hərəkatı qəhrəmanlarının xalqın hüquq və maraqlarını qanunvericilik yolu ilə təmsil etmək imkanı əldə etməsi siyasi əhəmiyyəti ilə bərabər, sözsüz ki, ötən 2 ilin siyasi hadisələrinin, xalq hərəkatının gedişi nəticəsində baş vermişdir.

Dəyişilmiş respublika rəhbərliyinin mövqelərini tənqid edən xalq hərəkatının, yeni yaranmış ictimai-siyasi cəmiyyətlərin təmsilçiləri olan deputatlar-İ.Qənbər, T.Qarayev, E.Məmmədov və başqalarının sessiyalardakı çıxışları xalq hərəkatının gedişində səslənən çağırışların, irəli sürülən tələblərin parlament tribunasında və yığıncaqlarında indi daha qətiyyətli və konkret səslənməsi demək idi.

**Yeni ittifaq müqaviləsi ətrafında siyasi oyunlar.** Təəssüf ki o vaxtkiAzərbaycan rəhbərliyi ittifaq miqyasında gedən proseslərin hansı istiqamətlərdə cərəyan edəcəyini nəzərə ala bilmirdi. 1990-cı ildə ətrafında siyasi ehtirasların qızışdığı məsələlərdən biri də M.Qorbaçovun guya ittifaq müqaviləsinin yeni redaksiyasına, ittifaqın qalıb-qalmamasına münasibət bildirilməsi və digər müzakirələrin aparılması idi. M.Qorbaçovun 1990-cı il noyabrında yeni ittifaq müqaviləsinin imzalanması ilə guya dağılmaqda olan ittifaqı xilas etmək cəhdləri əslində siyasi manevr olaraq onu dağıtmaq prosesini daha da sürətləndirmişdi.

Həmin vaxt ittifaqdakı mövcud siyasi ab-hava yaxın vaxtlarda ciddi dəyişikliklərin labüdlüyündən xəbər verirdi. Siyasi həyatda Kommunist

Partiyasının aparıcı rolu, onun digər siyasi qüvvələr üzərindəki üstün mövqeyi hələ də qalmaqda idi. Mərkəzdən başlayaraq, Bakıya da gəlib çatan demokratikləşmə prosesinin gedişində partiyanın fəaliyyətində yenilənmiş siyasi-iqtisadi şəraitə uyğun iş prinsiplərinin olmaması bir çox məqamlardan xəbər verirdi. Ənəsası, aydın oldu ki, respublika partiya təşkilatı, onun rəhbərliyi nə başlanmış ümum siyasi islahatların, nə də cəmiyyətin bütün sahələrində baş verən proseslərin önündə gedib onları idarə etmək imkanlarına sahib durmamışdı.

Bu cür ətalətli mövqe M.Qorbaçovun təklifi ilə guya yenilənmiş siyasi ittifaqa, yeni ittifaq müqaviləsi hərəkatına münasibətdə özünü bir daha göstərmiş oldu. Belə ki, digər müttəfiq respublikalarda bütün siyasi qüvvələr tərəfindən hakim marksist-leninçi ideologiyasının məngənəsindən çıxmaq, cəmiyyətdə normal, ahəngdar inkişafa nail olmaq çağırışları səsləndirildiyi halda, respublika partiya təşkilatı hadisələrin siyasi axarında ən axırda dayanaraq mühafizəkar mövqelərin əsarətindən qurtara bilmirdi.

Bunun nəticəsi idi ki, SSRİ-nin qalib qalmaması adı ilə keçirilən referendumda iştirak etməkdən açıq imtina edən, yaxud məsələyə müəyyən şərtlər daxilində baxmağa çalışan bəzi müttəfiq respublikaların adları çəkilsə də, Azərbaycanın adı burada da eşidilmədi.

**1991-ci il martın 17-də referendumu və Azərbaycan.** SSRİ Xalq Deputatlarının IV qurultayında ittifaq müqaviləsi ətrafında mövqelərin qətiləşməsi üçün *"1991-ci il martın 17-dəreferendum keçirilməsi qərarı qəbul edildi və bu baş tutdu"* [14, s.127]. Xalq hərəkatının və digər millətçi qrupların nisbətən güclü olduğu, öz hökumətlərinin mövqeyinə təsir imkanları geniş olan Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan respublikalarında referendumun keçirilməsindən imtina edilsə də, *"Azərbaycan bu referendumda iştirak etmişdi və iştirakçıların 93,3 faiz seçici ittifaqın qalması leyhinə səs vermişdi"* [14, s.140].

Yenə də seçki sistemində əvvəlki illərin "ənənələrinin" hələ də qaldığı şəraitdə keçirilən *"bu kampaniyada guya seçicilərin 75 faizinin seçki məntəqələrinə gəlməsi, onların 93 faizinin ittifaqın qalması lehinə səs vermələri elan olunmuşdu*" [8]. Müqayisə üçün deyək ki, bu göstərici yalnız Mərkəzi Asiya respublikalarından geri qalaraq guya səsverənlərin ittifaqın qalması tərəfdarı olduğunu göstərməyə xidmət edirdi. Lakin bu, reallığa uyğun gəlmirdi.

Respublika rəhbərliyi heç cür anlaya, bu fikri yaxına buraxa bilmirdi ki, istər sonu yaxınlaşan ittifaqda, istərsə də onun ali idarəçilik orqanı, başlıca siyasi qüvvəsi kimi öz təsirini hələ də saxlaya bilən Sov.İKP sıralarında hadisələrin önündə, arxasınca itaətkarcasına getdiyi mühafizəkar qüvvələr yox, M.Qorbaçovun özünün və yaxın ətrafının dairəsi çıxış edir.

**Azərbaycan avqust hadisələri günlərində.** 1991-ci ilin avqust günlərində SSRİ-nin süqutunun son aylarının başlanğıcı sayılan daha bir siyasi şouda və

onun ətrafında baş verənlərdə Azərbaycan rəhbərliyinin yenə də çevik reaksiya vermək bacarığında olmadını bir daha aydın oldu. Belə ki, yeni ittifaq müqaviləsinin imzalanması ərəfəsində M.Qorbaçovun gizlicə hazırladığı senari əsasında *"1991-ci ilin avqustun 19-da səhər saat dörddə SİTA SSRİ-nin bir sıra bölgələrində fövqəladə vəziyyət tətbiq olunduğunu elan etdi. Fərman əsasında SSRİ-nin vitse-prezidenti G.Yanaev SSRİ prezidentinin vəzifələrini öz üzərinə götürdü"* [14, s.149]. Fərmanda Dövlət Fövqəladə Vəziyyət Komitəsinin (QKÇP) yaradılmasından və hakimiyyətin ona keçməsindən bəhs edilirdi. Bu gözlənilməz hadisəsiyasi vəziyyətidaha da gərginləşdirdi.

Çox təəssüf ki, hadisənin mahiyyətcə dövlət çevrilişi olmasına qiymət verməyən, ümumiyyətlə belə bir hadisənin SSRİ-nin siyasi sisteminin dayaqları olan təhlükəsizlik sisteminin vəziyyəti kifayət qədər nəzarətə saxladığı bir vaxtda Rusiya Federasiyası və bəzi müttəfiq respublikalarda rəhbərlik səviyyəsində, ictimai-təşkilatlar, siyasi partiyalar tərəfindən hadisənin pislənildiyi halda, Azərbaycan rəhbərliyi "komitəçiləri" müdafiə etməklə, bir daha öz mühafizəkar mövqelərini nümayiş etdirdi.

Həmin günlərdə Azərbaycandakı siyasi partiyaların əksəriyyəti bu antikonstitusyon hadisəni pisləməklə, ittifaq üzrə bu mövqeni müdafiə edən siyasi qüvvələr, demokratik təsisatlar və digər qüvvələrlə həmrəylik nümayiş etdirdi.

1991-ci ilin yayında Moskvada komitəçilərin məğlubiyyətindən sonrakı *"hadisələr siyasi həyatda cərəyan edən proseslərə və A.Mütəllibovun mövqeyinə daha çox təsir göstərirdi"* [13,s.265].

**Xalq hərəkatının iki yeni uğuru.** Həmin günlərdə H.Əliyevin də deputatlar korpusunda olması, onun müstəqillik uğrunda mübarizənin son mərhələsində xalqı tək buraxmaması milli-azadlıq mübarizəsinin gedişinə yeni bir ab-hava gətirmiş oldu.

*"1991-ci ilin fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasının gündəliyi müzakirə olunan məsələlərin rəngarəngliyi, taleyüklü xarakter daşıması ilə fərqlənirdi"* [5]. Müzakirələrin əsas istiqaməti olaraq respublikadakı dərin böhranın, Dağlıq Qarabağ probleminin səbəbləri, onların aradan qaldırılması üçün cəmiyyətdə milli vəhdətə, birliyə nail olmağın zərurliyi haqqında geniş danışılsa da, lakin əməli olaraq bir nəticəsi olmadı.

Sessiyada H.Əliyevin ittifaq və respublika rəhbərlərinin ünvanlarına söylədiyi kəskin tənqidlər həqiqətdə sovet rejiminin, onun liderlərinin Azərbaycana qərəzli münasibətinə qarşı ittihamnamə demək idi.

Sessiyanın gedişində demokratik qüvvələrin, xalq hərəkatının təkidli tələblərinin nəzərə alınmasının nəticəsi kimi respublikanın adından *"sovet, sosialist sözlərinin götürülməsi adi bir hadisə olmayaraq, artıq Azərbaycan cəmiyyətində yaranmış yeni siyasi reallığın əksi, nəticəsi demək idi. Həmin*

*gündən dövlətimizin adı dəyişdirilərək, "Azərbaycan Respublikası" adlandırıldı"* [5].

**Demokratik qüvvələrin fəallaşması.** Respublika rəhbərliyindən, onun təmsil etdiyi Azərbaycan KP-dən fərqli olaraq, cəmiyyətin digər qütbündə siyasi dəyişikliklərin, islahatların sürəti cəmiyyətdəki yeniləşmə prosesinə həmahəng idi. Əgər 1991-ci ilin ortalarına qədər AXC, demək olar ki, ən çox üzvləri olan, yeganə mütəşəkkil siyasi təşkilat idisə, indi vəziyyət bir qədər dəyişmişdi. AXC daxilində milli azadlıq hərəkatının perspektivlərinə və yeni şəraitə uyğunlaşması məsələlərinə fərqli mövqelərdən yanaşan yeni siyasi qruplar yarandı. Bunlar Azərbaycan cəmiyyətinin gələcək siyasi spektrinin yeni cizgilərini təşkil edəcək siyasi partiyaların rüşeymləri idi.

Qeyd etməliyik ki, yeni siyasi partiyaların yaranmasına başlayan ilk təşəbbüs qrupları AXC-nin öz daxilində formalaşmışdı. *"Bu düşərgədə Vətəndaş Həmrəyliyi Partiyası (VHP), Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP), Ümid Partiyası, Böyük Quruluş Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası və digərləri təmsilolunurdu"* [1,s.121].Bütün bunlar cəmiyyətdə baş verən liberal-demokratik hərəkatın nəticələri kimi də dəyərləndirilə bilər.

Qeyd etməliyik ki, həmin günlərdə həm xalq, həm də siyasi hərəkatın aparıcı qüvvələri və liderlərinin müəyyən edilməsi vəzifəsi qarşıya çıxdı. Əgər xalq H.Əliyevi hərəkatın şəriksiz lideri kimi görürdüsə, siyasi partiyaların blokunda bunu demək çətin idi. Yeni yaranan siyasi partiyalarını təcrübəsizliyi, geniş xalq kütlələrinin hansı siyasi partiyanın ardınca gedəcəyini seçməkdə tərəddüd etməsi, yaxud bunu istəməməsi və digər səbəblər üzündən hələlik bunların heç biri aparıcı siyasi partiya rolunu oynaya bilmirdi.

**Tarixi əhəmiyyətli sənəd.** Demokratik qüvvələrin təkidlərindən sonra 1991-ci il avqustun 30-da Ali Sovetin növbədənkənar sessiyasında gərgin müzakirələrdən sonra *"Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edildi* [6, s.3]. Bununla yanaşı, parlamentdə qəbul olunmuş qərarda Azərbaycanın dövlət müstəqilliyinin konstitusion əsaslarını yaratmaq üçün Konstitusiya Aktının hazırlanması nəzərdə tutulurdu.

Konstitusiya Aktı Azərbaycanda on illərlə davam edən, gah dayanan, gah başlayan və davam edən milli azadlıq hərəkatı tarixində meydana çıxmış vacib proqram xarakterli mühüm sənəd idi və o xalqımızı 1920-ci ildən sonra gözlədiyimiz müqəddəs amala daha bir addım yaxınlaşdırdı. Sessiyanın bu münasibətlə qəbul etdiyi sənədin mətnində eyni adda Konstitusiya qanununun 2 həftə ərzində hazırlanması haqqında daha bir qərar qəbul edildi. Doğrudur, qanun layihəsinin hazırlanması, texniki, bəlkə də digər səbəblərdən ləngisə də, nəhayət *"oktyabrın 18-də Ali Sovet növbəti sessiyasında qanun qəbul edilməsi"* xalqımıza çoxdan gözlənilən tarixi onu yaşatdı [3]. 1920-ci ildə itirilmiş dövlət

müstəqilliyimizin yenidən bərpası xalqımızın tarixində ən əlamətdar hadisələrdən biri demək idi.

**Azərbaycan KP-nın buraxılması.** Lakin həmin günə qədər, yəni qalan ay yarım ərzində daha bir neçə siyasi əhəmiyyətli yeniliklər baş verdi. Azərbaycan Respublikası prezidenti A.Mütəllibov 1991-ci ilin sentyabrın 14-də xalq içərisində yox vəziyyətində olan siyasi nüfuzunu bərpa etmək məqsədi ilə daha bir addım atdı. Həmin gün artıq fəaliyyəti formal xarakter daşıyan,*"dövlətin idarəçilik sistemində lüzumsuz qurum olan Azərbaycan KP-nın buraxılması haqqında fərman verildi"* [13, s.280].

Bu, əslində, diqqətə ya rəğbətə layiq olacaq ciddi bir siyasi hadisə deyildi. Azərbaycanda partiya sıralarının kütləvi şəkildə tərk edilməsi hələ qanlı 20 yanvar faciəsindən sonra başlanmış və xalqın əksəriyyətinin daha bu partiyaya, onun təbliğatına inanmadığının əyani sübutuna çevrilmişdi. Azərbaycan KP Moskvanın filialı kimi çoxdan əhali arasında nüfuzunu itirmiş və xüsusi ilə də respublikada prezident vəzifəsinin təsis edilməsindən sonra bütün siyasi təsir və əvvəlki qüdrətindən məhrum olaraq, artıq bir quruma çevrilmişdi. 14 sentyabr fərmanı sadəcə ildən çox davam edən gərəksizliyin, lüzumsuzluğun, əhalinin etimadını itirməyin yalnız rəsmiləşdirilməsindən başqa bir şey deyildi.

**Hakimiyyətin növbəti geri çəkilmə addımı.** Həmin günlərdə yadda qalan başqa bir hadisə yenilənmiş siyasi durumda xalq arasında nüfuzu tamamilə aşağı düşmüş hakimiyyətin demokratik qüvvələrlə razılaşaraq öz ömrünü bir qədər də uzatmaq naminə növbəti geri çəkilmə addımı idi. Belə ki, 1991-ci ilin oktyabrın 3-də A.Mütəllibovun təşəbbüsü ilə baş tutan hakimiyyət və müxalifət liderlərinin "dəyirmi stolu"nun növbəti raundunda siyasi proseslərin gedişində tərəflərin birgə fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə "Milli Şura yaradılması haqqında razılıq əldə olundu[5].

Bu, xalq hərəkatının iştirakçıları olan siyasi qüvvələr, partiya və cəmiyyətlər dairəsində birmənalı qarşılanmasa da, hər bir halda hakimiyyətin xalq hərəkatının tələbləri qarşısında geriçəkilməsi addımı kimi sonuncunun nüfuzunun artmasından xəbər verirdi.

Bu addımı demokratik qüvvələr cəbhəsinin də geri çəkilməsi kimi qəbul edənlər də az deyildi. Bu fikrin doğruluğunu təsdiq edən digər hadisə özünü çox da gözlətmədi. Respublika Ali Sovetinin sessiyasında "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" qanunun qəbul olunması həmin siyasətçilərin narahatlığını bir daha təsdiq etdi [10]. Həmin qanuna əsasən prezidentə əlavə səlahiyyətlər verilməsi, indi onun Konstitusiyaya əlavələr, düzəlişlər etmək səlahiyyətlər əldə etməsi qanunverici hakimiyyətə paralellilik kimi də qiymətləndirilirdi.

Elə həmin vaxt prezident aparatının təşkili, yerlərdə yeni icra hakimiyyəti vəzifələrinin müəyyən edilməsi, bəzi sosial-iqtisadi xarakterli güzəştlər mövcud rejimin əhali arasında nüfuzunu artırmağa yönəlsə də, lakin bu baş vermədi.

Real siyasi qüvvə yenə də xalq hərəkatının gedişində nüfuzları getdikcə artan demokratik cəbhə və onun liderləri idi.

**Dövlət müstəqilliyinin bərpası.** *"1991-ci ilin oktyabrın 18-də dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya qanunun qəbul edilməsindən dərhal sonra Azərbaycanın müstəqilliyinin dünya birliyi tərəfindən tanınması prosesi başlanır. İlk olaraq Türkiyə, sonra Pakistan və Rumıniya Azərbaycanın müstəqilliyini tanıdılar. Bu, böyük siyasi əhəmiyyət kəsb edirdi"*[4].

Başqa bir mühüm hadisə Ali Sovetin sessiyasında oktyabrın 30-da qəbul edilmiş "Milli Şura haqqında" qanuna dəyişikliklər edilməsi idi. Qanunun ilk variantında Milli Şurada 72 yerdən cəmi 30-nun müxalifətçi deputatlar üçün ayrılmasındannarazılıqların artmasının nəticəsində daha bir addım da geriləyən rəhbərlik noyabrın 26-da Ali Sovet Milli Şura haqqında qanuna yenidən baxdı və bu şuranın səlahiyyətlərini məhdudlaşdıran bəzi maddələri dəyişdirdi. *"Paritet əsasda 25 nəfər "demblok" nümayəndələrindən və 25 nəfər başqa deputatlardan ibarət Milli Şura yaradıldı"*[5].

Noyabrın 14-də Moskva yaxınlığında Novo-Oqaryova adlı yerdə Azərbaycan da daxil olmaqla 7 respublika liderlərinin görüşündə yeni dövlətlərarası birliyin yaradılmasını nəzərdə tutan "Suveren Dövlətlər İttifaqı" haqqında müqavilənin təklif edilən variantından imtina edildi və*"tərəflər yalnız ilin sonuna qədər vahid bir konfederal dövlətin yaradılacağı haqqında Sazişi imzalamaqbarədə razılığa gəldilər"* [14, s.154].

Bu, o demək idi ki, M.Qorbaçovun gözləntiləri özünü doğrultmadı. Bu, faktik olaraq ittifaqın qalacağını şübhə altına aldı. Bu artıq müstəqillik ideyalarının artıq real sezmələrini göstəririd i.

*"1991-ci ilin dekabrın 8-də üç slavyan respublikasının – Rusiya Federasiyası, Ukrayna və Belorus respublikalarının ittifaqdan çıxdıqlarını bəyan etmələri"* [15, s.36] və Müstəqil Dövlətlər Birliyini yaratmaları faktiki olaraq "M.Qorbaçovun hakimiyyətinin əvvəllərindən başlamış siyasi oyunun məntiqi nəticəsi kimi SSRİ-nin süqutu demək idi.

Azərbaycanın müstəqilliyi bununla da qəti şəkildə bir daha rəsmiləşərək "dönməz", "əbədi" oldu. Bu hadisə xalqın tarixində yeni parlaq, azad, sərbəst inkişaf dövrünün - "müstəqillik dövrü"nün əvvəli demək idi.

**Nəticə.** Yaşadığımız dünya, yaxın və uzaq sərhədlərimizdə baş verən hadisələr dövlət müstəqilliyimiz üçün yeni təhdidlərin tam aradan qaldırılmadığını, yeni təhlükələrin qaynaqlarının qaldığını görməyə, duymağa sövq edir. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin son mərhələsində 3 minə yaxın şəhidlərimizin olması ərazi bütövlüyümüzün bərpa edilməsinin necə böyük çətinliklərlə qazanıldığını bir daha göstərdi. Dövlət müstəqlliyinin bərpasına aparan son 5-6 illik gərgin siyasi mübarizə dövrü, ondan keçən 30 illik dövr bizi hər an sayıq olmağa, baş verəcək təhlükəli anları irəlicədən görüb, qarşısının alınmasını çox vacib vəzifə kimi müəyyən edir.

Araşdırdığımız proses və hadisələrdən nəticələr çıxarılması bir daha göstərir ki, dövlətçiliyimizə, müstəqilliyimizə qarşı yönələn bütün cəhdlərin qarşısı yalnız o halda alına bilər ki, bütün xalq kimliyindən, peşəsindən, milli mənsubiyyətindən asılı olmayaraq milli maraqlarımızın aliliyi, dövlət müstəqilliyimizin toxunulmazlığı ideyası ətrafında vahid cəbhədə birləşə bilsin.

Yanvar faciəsi, qalib gəldiyimiz 44 günlük Vətən müharibəsi belə bir gerçəkliyi də aydınlaşdırdı ki, beynəlxalq aləmdə Azərbaycan haqqında həqiqətlərin yayılması, ümumilikdə Azərbaycanın tanınması, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün çox ciddi işlər göstərməliyik.

## ƏDƏBİYYAT:

1.Aloyeva K.T. Azərbaycan Respublikasının siyasi sistemində bloklaşma proseslərinin çoxpartiyalı demokratiyanın formalaşmasına təsiri məsələləri // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. №4. 2015. - s.115-124.
2.Azərbaycan SSR Ali Sovetinə seçkilər (1990).[Elekrton resurs] / URL: https://www.wikiwand.com/az/Az%C9%99rbaycan_SSR_Ali_Sovetin%C9%99_se%C3%A7kil%C9%99r_(1990) [müraciət tarixi: 12.05.2016]
3.Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı. 18 oktyabr 1991-ci il.[Elekrton resurs] / URL: http: // www.e-qanun.az/framework/6693 [müraciət tarixi:05.12.2018]
4.Azərbaycanın taleyini dəyişən gün - 18 oktyabr.[Elekrton resurs] / URL: https://demokratik.az/18097-azerbaycanin-taleyini-deyishen-gun-18-oktyabr.html [müraciət tarixi: 18.10.2018]
5.Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanılması.[Elekrton resurs] / URL:
http://republic.preslib.az/az_a3.html [müraciət tarixi: 16.08.2017]
6.ElmanoğluS.Milli müstəqilliyə aparan şərəfli yol //Azərbaycan. 2009. - 14 mart. - s.3.
7.Əmrahov M.İ. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. ADPU. Bakı: 2009. -371 s.
8.Həsənov, Əli. 18 oktyabr Müstəqillik haqqında Azərbaycan Respublikasının Konstitusiya Aktının qəbuluna dair 5 tezis //Səs. - 2019. - 18 oktyabr. - s.5.
9.Qasımlı Musa. Azərbaycanın müstəqilliyinin 20 ili: xarici siyasətin formalaşması (1991-2003)// Ayna.- 2011.- 10 sentyabr.- s.19.
10.Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikasının Qanunu. 8 oktyabr 1991-ci il.[Elekrton resurs] / URL:
http://www.e-qanun.az/framework/6679[müraciət tarixi: 19.11.2016]

11.1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı.[Elekrton resurs] / URL:http://www.e-qanun.az/framework/8820[müraciət tarixi: 28.04.2017]
12.XX əsrin 90-cı illərində milli-azadlıq hərəkatının gedişində iqtidar - AXC sövdələşməsi/ [Elekrton resurs] / URL: https://sesqazeti.az/news/kivdf/326007.html[müraciət tarixi: 24.10.2016]
13.Агаев Расим, Али-ЗадеЗардушт. Азербайджан: конец второй республики. 1988-1993гг. Баку: 2006. - 615 с.
14.Безбородов А., Елисеева Н., Шестаков В.Перестройка и крах СССР. 1985-1993 гг - СПб.: Норма. 2010. - 216 с.
15.Юнусов А. Карабах: Прошлое и настоящее. Институт мира и демократии. Баку:2005. - 45 s.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2021, 2 (32), s.74-81

# RUSİYA İŞĞALI ƏRƏFƏSİNDƏ ŞİMALİ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

***Vidadi Umud oğlu Umudlu***
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
E-mail: v.umudlu@yahoo.co.uk

**Açar sözlər:** *Türkiyə tarixçiləri, Şimali Azərbaycan, siyasi vəziyyət, çar Rusiyası, işğal ərəfəsində*

*Rusiya işğalı ərəfəsində Şimali Azərbaycanda baş verən tarixi hadisələrin müxtəlif aspektlərdən tədqiqi və öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Öz mürəkkəbliyi ilə seçilən bu dövrün həm siyasi, həm də digər yönlərdən araşdırılması qardaş Türkiyə tarixşünaslığında da zaman-zaman tədqiqiqat mövzusuna çevrilmiş, mövzu ilə bağlı sanballı əsərlər yazılmışdır. Geniş təhlillər əsasında yazılan bu araşdırmalarda işğal ərəfəsindəki mövcud durum, xanlıqlardakı siyasi vəziyyət, qonşu dövlətlərlə münasibətlər öz əksini tapmışdır.*

*XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycandakı siyasi vəziyyətin əsas xüsusiyyətləri mərkəzləşmiş dövlətin mövcud olmaması, xanlıqlar arasındakı siyasi ixtilaflar, habelə qonşu dövlətlərin Azərbaycana qarşı təcəvüzkar siyasətindən ibarət idi. Ölkəni birləşdirmək uğrunda bəzi xanlıqların apardığı mübarizə uğursuz olmuş və nəticədə Şimali Azərbaycan işğalla üz-üzə qalmışdır. Bu dövrdə Şimali Azərbaycanın siyasi həyatında baş verən hadisələr Türkiyə tarixcilərinin əsərlərində də geniş təhlil olunmuşdur.*

## POLITICAL SITUATION IN NORTHERN AZERBAIJAN ON THE EVE OF THE RUSSIAN OCCUPATION IN THE HISTORIOGRAPHY OF TURKEY

***Vidadi Umud oglu Umudlu***

**Key words:***Turkish historians, North Azerbaijan, political situation, tsarist Russia, on the eve of theoccupation*

*It is of great importance to study the historical processes from different sides taking place in Northern Azerbaijan on the eve of the Russian occupation. The study of this period, which is distinguished by its complexity, both politically and in other respects, has become the subject of research in fraternal Turkish historiography from time to time, and significant works have been written on the subject. These studies, written on the basis of extensive analysis,*

*reflect the current situation on the eve of the occupation, the political situation in the khanates, and relations with neighboring countries.*

*The main feature of the political situation in Northern Azerbaijan at the beginning of the 19th century was the absence of a centralized state, political disputes between the khanates, as well as the aggressive policy of some neighboring countries towards Azerbaijan. The struggle of some khanates for the unification of the country failed, and as a result, Northern Azerbaijan faced occupation. The events that took place in the political life of Northern Azerbaijan during this period are widely analyzed in the works of Turkish historians.*

## ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ НАКАНУНЕ РОССИЙСКОЙ ОККУПАЦИИ В ИСТОРИОГРАФИИ ТУРЦИИ

***Видади Умуд оглу Умудлу***

**Ключевые слова:***Турецкие историки, Северный Азербайджан, политическая ситуация, царскаяРоссия, накануне оккупации*

*Имеет важное значение исследовании исторические процессы с разных сторон, происходящие в Северном Азербайджане накануне российской оккупации. Изучение этого периода, отличающегося своей сложностью как в политическом, так и в других отношениях, время от времени становилось предметом исследований братской турецкой историографии, и на эту тему были написаны значительные работы. Эти исследования, написанные на основе обширного анализа, отражают текущую ситуацию накануне оккупации, политическую ситуацию в ханствах и отношения с соседними странами.*

*Главной особенностью политической ситуации в Северном Азербайджане в начале 19 века было отсутствие централизованного государства, политические споры между ханствами, а также агрессивная политика некоторых соседних стран в отношении Азербайджана. Борьба некоторых ханств за объединение страны провалилась, и в результате Северный Азербайджан оказался перед оккупацией. События, происходившие в политической жизни Северного Азербайджана в этот период, широко анализируются в трудах турецких историков.*

**Giriş.** XIX əsrin başlanğıcında Azərbaycannda mərkəzləşmiş dövlətin formalaşmaması, çoxsaylı kiçik dövlət qurumlarının mövcudluğuna gətirib çıxardı. Nəticədə Azərbaycanın siyasi müstəqilliyi təhlükə altına düşdü və

cənuba doğru irəliləməyi planlaşdıran çar Rusiyasının əlinə əvəzolunmaz bir fürsət keçdi. Düzdür, Rusiya imperiyası nəyin bahasına olursa olsun Azərbaycanın şimal hissəsini işğal edərək, öz sərhədlərini Araz çayına qədər uzatmağı nəzərdə tuturdu. Yəni Azərbaycanda siyasi birlik və mərkəzləşmiş dövlət olsa da, Rusiya yəqin ki, bu planından əl çəkmək fikrində deyildi. Buna baxmayaraq, siyasi birliyin mövcud olduğu güclü bir dövləti işğal etmək Rusiya üçün elə də asan başa gəlməyəcəkdi.

Tədqiq olunan dövrdə Azərbaycanda mövcud olan xanlıqların bir araya gələrək güclü bir dövlət halında birləşməməsi türk tarixçilərinin də diqqətini özünə cəlb etmiş və işğalın əsas səbəblərindən birinin də məhz ölkədə feodal pərakəndəliyin mövcud olmasından qaynaqlandığını irəli sürmüşlər. Türkiyəli müəlliflər işğal ərəfəsində belə vəziyyətin mövcud olmasını çox acınacaqlı hal hesab etmişlər. Göründüyü kimi, əksər türk müəlliflər işğal ərəfəsində Azərbaycanın kiçik dövlət qurumlarına parçalanmasının yolverilməz olduğunu qeyd edir, bunun ağır nəticələrə səbəb olacağının qaçılmaz olduğuna əminliklərini ifadə edirdilər. Əlbəttə həmin dövrdə nəinki parçalanmanın qarşısını almaq mümkün olmadı, hətta xanlıqlar arasındakı ixtilaflar böyüyərək ərazilərimizin işğalınatəkan vermiş oldu.

Məqalədə Türkyə tarixçilərindən Mehmet Saray, Naki Keykurun, Cemal Gökçe, Mustafa Aydın, Müfit Sadık Bilge və digərlərinin XIX əsrin başlanğıcında Cənubi Qafqaz, o cümlədən Şimali Azərbaycanla bağlı araşdırmalarından istifadə olunmuşdur. İşğala qədər Azərbaycandakı siyasi vəziyyət, qonşu dövlətlərlə münasibətlər, eləcə də çar Rusiyasının Cənubi Qafqazdakı işğalçılıq siyasətihaqqında fikirlər öz əksini tapmışdır. Məqalədə yeri gəldikcə arxiv sənədlərindən də istifadə olunmuşdur.

**İşğal ərəfəsində Şimali Azərbaycanda siyasi vəziyyət.** Azərbaycanla tarixinin fəal araşdırıcılarından olan Mehmet Saray “Yeni Türk Cumhuriyetleri Tarihi” adlı əsərində XVIII əsrin sonu- XIX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş xanlıqlar sistemindən, Qacarların ölkəni birlədirmək uğrunda apardığı mübarizədən, Rusiya və Osmanlıların bölgədəki maraqlarından və eləcə də çar Rusiyası tərəfindən Şimali Azərbaycanın işğal olunmasından geniş şəkildə bəhs etmiş və bu barədə ilkin qaynaqların verdiyi məlumatları da türk oxucusunun diqqətinə çatdırmışdır [13,s.149]. İşğal ərəfəsindəki Azərbaycandakı siyasi pərakəndəlikdən bəhs edən tarixçi N.Keykurun, Azərbaycan xanlıqlarının işğal ərəfəsində öz aralarında birlik qura bilməməsinin onların tək-tək rus imperializmi tərəfindən ələ keçirilməsinə gətirib çıxardığını qeyd etmişdir [8, s.5]. Bununla yanaşı, bəzi mənbələrdə xanlıqların ümumim təhlükəyə qarşı birlikdə hərəkət etdiklərini qeyd edirlər. Misal olaraq, “Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri” adlı sənədlər toplusunda xanlıqlarla bağlı deyilir ki, Azərbaycan xanlıqları, ruslar, iranlılar və onların bölgədəki

tərəfdarlarından gələ biləcək təhlükələrə qarşı ümumiyyətlə birlikdə hərəkət edirdilər.Osmanlı dövləti də bu birliyin davam etməsi üçün səy göstərirdi.Ancaq bəzən müstəsna hallar da olur və Azərbaycan xanlıqları arasında qarşıdurmalar baş verirdi.Belə ki, bir xanlığın güclənərək digərlərindən üstün olmağa başladığı zaman bəzi digər türk xanlıqları gürcü xanlıqları ilə münasibətlərini yaxşılaşdırır və digərlərinə qarşı gürcülərlə ittifaq bağlayırdılar [12, s.56-57].

Tarixçi C.Yücel qeyd edir ki, 1801-ci ildə ruslar "himayə" bəhanəsi ilə Cənubi Qafqaza-Gürcüstana soxulduqları zaman, Azərbaycan xanlıqlar dörünü yaşayırdı [19, s.77-78]. H.Oktayın fikrincə, Azərbaycanın xanlıqlara parçalanması və bu xanlıqların öz aralarında mübarizə aparmaları rusların Qafqaz üzərindən planlarını həyata keçirməsi üçün əlverişli bir fürsət olmuşdu. Sonra müəllif yazır: "Xanlıqlar modern dövlət qurma müddətinin şərtlərini lazımınca dəyərləndirməmiş, şəhər dövlətləri kimi çıxılmaz dalana dirənmişlərdi" [11,s.379-392]. Azərbaycanın işğal ərəfəsində çoxsaylı xanlıqlara və daha kiçik dövlət qurumlarına parçalanmasının doğurduğu ağır nəticələrindən bəhs edən digər bir türk tarixçisi M.Yıldızın fikrincə xanlıqlar arasındakı ziddiyyətlərdən doğan bu böyük fəlakətin acı nəticələrini vaxt keçdikcə anlayan Azərbaycan türkləri öz yurdlarını, tarixin, taleyin ağrılı oyunlarından, rusların zülmündən qorumaq və ondan xilas olmaq üçün qəhramancasına mübarizə aparsalar da baş vermiş fəlakətdən qurtula bilmədilər [18,s.79].

Göründüyü kimi,türkiyəli tarixçilər işğal ərəfəsində xanların bir araya gələ bilməməsinin ciddi səhv olduğunu və bunun çox keçmədən ağır nətəcələrə gətirib çıxardığını qeyd emişlərdir. Azərbaycan uzun müddət müstəmləkə zülmü altında inləmiş və bu səhvlərin düzəldilməsi isə bir neçə əsrlərin hesabına başa gəlmişdir.

Tarixçi M.Aydın Rusiya, Osmanlı, İran Qacar xanədanı arasında sıxışıb qalan Cənubi Qafqazın güç mübarizələrinin mərkəzi olduğunu göstərmiş və bu üç dövlətlə müqayisədə çox zəif xanlıqların meydana gəlməsinin bölgədə hökmranlıq uğrunda gedən mübarizənin ağırlaşmasına səbəb olduğunu qeyd etmişdir [1].Tarixçi A.Çay Rusiya işğalı qarşısında Azərbaycan xanlarının tamamilə tək qaldığını, Osmanlı imperiyasının regiondakı hadisələrə müdaxiləsinin mümkün olmadığını, eyni zamanda İranda hökm sürən Qacar sülaləsinin də Rusiyanın işğalı qarşısında uğur qazanmadığını qed edir [5, s.106]. Tarixçi M.Aydına görə Osmanlı və İranın ətrafındakı ən böyük təhlükə bu iki ölkə torpaqlarını öz ərazisinə daxil etmək mövzusunda heç bir tərəddüdü olmadığını hər fürsətdə sübut edən Rusiya imperatorluğu idi. Eyni dinin iki zidd fraksiyasını mənimsəmiş olmanın səbəb olduğu tarixi düşmənçilik, Osmanlı və İranı uzun müddətli müharibələrə və sərhəd qarşıdurmalarına təhrik edərkən,

artıq qapıya dayanan ümumi bir düşmənin olması, daha praqmatik siyasətin həyata keçirilməsini diktə etməkdə idi [1, s.6].

Rusiya işğalı ərəfəsində Osmanlı dövləti ilə Qacarlar arasındakı münasibətlər heç də yaxşı olmayıb, işğalçıların maraqlarına uyğun şəkildə davam etməkdə idi. İranda özünü şah elan edən Fətəli xanın, Osmanlı dövləti tərəfindən tanınması üçün elçi göndərildiyi, ancaq Osmanlı tərəfindən şahlığı tanınmayıb elçinin də etimadnaməsi olmadığından veriləcək cavabda "Şah" ləqəbinin yazılmasının sərfı-nəzər edilərək uygun bir cavab verilməsi üçün tezliklə elçi göndərilməsi nəzərdə tutulmuşdu [2, HAT, 6720]. Bu dövrdə həm Fətəli xan, həm də IAleksandr Cənubi Qafqazı ələ keçirmək siyasətini yenidən həyata keçirmək niyyətində idilər. Bunun üçün əsas səbəb Gürcüstanda mövcud olan qeyri-sabit siyasi vəziyyət idi [2, HAT, 1743]. Arxiv sənədlərindən aydın olur ki, hələ 1799-cu ildə Fətəli şah təhlükəsizliyi qorumaq üçün şahzadə Abbas Mirzə komandasında bir İran ordusunu Şirvan, Gürcüstan və Dağıstan sərhədlərinə göndərmişdi [2, HAT, 6721 b]. Şahzadə Abbas Mirzənın bölgədə olmasının əsl məqsədi Rusiyanın real bir hücumuna qarşı hazırlıqlı olmaq idi [15, s.447-462].

Ümumi düşmən faktoru isə nəinki öz hakimiyyətlərini güzəştə getmək istəməyən və kiçik kəndlər uğrunda öz aralarında qanlı müharibələr aparan xanları, eləcə də bir araya gələ bilməyən Qacarlar və Osmanlı dövlətini də ciddi narahat etməmiş, baş verə biləcək işğal hadisəsinə qarşı ciddi addım ata bilməmişlər.

Qacarlar dövlətinin o dövrdəki mövqeyini araşdıran İ.Berkok qeyd edir ki, bu dövlət Cənubi Qafqaza qarşı adətən pusquda dayanırdı. Osmanlı dövlətinin hər hansı bir səhlənkarlığını və Rusiyanın zəifliyini hiss edər-etməz dərhal Cənubi Qafqaza hücum edirdi. İranın bu hərəkəti Cənubi Qafqazın İrandan soyumasına, hətta başqa bir tərəfdən yardım almayınca Rusiyaya yaxınlaşmasına zəmin olmuşdur. Osmanlı dövlətinin fəaliyyətindən bəhs edən müəllif yazır ki, bu dövlət indiyə kimi Qafqaza ciddi və əməli bir yardım etməməklə yanaşı, Qafqaz naminə işləmək istəyənlərin Osmanlı dövləti torpaqlarında olmalarına və lazımi fəaliyyət göstərmələrinə icazə vermişdir [3, s.429].

Xanlıqların Osmanlı və Qacarlar dövləti ilə münasibətlərinə gəlincə, onu da qeyd edək ki, bu vəziyyət də elə də ürəkaçan deyildi. Məlumdur ki, xanlıqların Qacarlardan asılı olmadıqları Türkiyə tarixşünaslığında da qəbul edilən bir faktdır və bunu arxiv sənədləri də sübut etməkdədir. Belə ki, Fətəli şah Şuşa, Gəncə və Azərbaycanın digər xanlıqlarına məktublar göndərərək, həmin xanlardan onun hakimiyyətini qəbul etmək tələb olunurdu. Digər tərəfdən, 1800-cü ilin yayında şah tərəfindən göndərilən oğlu Abbas Mirzə və Süleyman Sərdarın əsas vəzifəsi Azərbaycanda vəziyyəti nizama salmaq idi [2, HAT, 6686].Osmanlı dövləti ilə xanlıqlar arası əlaqələrdə də işlər rəvan

getmirdi və çiddi əlqələrdən danışmaq mümkün deyildi. Əlbəttə bunun əsas səbəblərindən biri də Osmanlı dövlətinin getdikcə zəifləməsi və qonşu dövlətlərlə üz-üzə gəlmək istəməməsi idi. Bununla yanaşı müəyyən mənada bu əlaqələr baş verməkdə idi. Tarixçi T.Mustafazadə yazır ki, Qarabağ, Şəki, Şamaxı, Xoy xanlıqları Osmanlı dövləti ilə daha sıx əlaqə saxlayırdılarsa, Rusiya ilə yaxın məsafədə yerləşdiyi üçün ondan çəkinən Quba xanlığı müəyyən zamanlarda Osmanlı dövləti ilə münasibətlərini ya pərdələməli, ya da soyutmalı olurdu [10, s.125-126].

Bölgədəki Rusiya maraqlarından bəhs edən tarixçi Ş.Yanar qeyd edir ki, bunlar əsasən, İran və Türkiyə ilə daimi bir ticarətin cazibəsi, ipək, pambıq, mis kimi yerli xammal qaynaqları və seyrək əhalisi olan torpaqların kolonistləşdirilməsi arzusu idi. Ancaq hamısından vacibi Transqafqaza keçidin strateji önəmi idi [17,s.575-562].Tarixçi C.Gökçe artıq 1800-ci ildə Rusiyanın Tiflis, Şuşa, Gəncə tərəflərində İrana qarşıfəallaşdığını qeyd edir [6, s.188]. Rusiya, Osmanlı və Qacarların bölgədəki mövqelərinə toxunan M.Saray göstərir ki, burada vəziyyət Rusiyanın xeyrinə idi. Belə ki, Osmanlı dövləti ilə İranın daxili işlərlə məşğul olduğu bir dövrdə başlayan rus işğalı, həm Azərbaycan xanlıqlarını, həm də iki müsəlman dövlətini qəfil yaxalamışdır [14,s.17]. Eyni düşmənə qarşı müharibə İran və Osmanlı dövlətinin yaxınlaşması üçün bir zəmin olmuş, hətta iki dövlətin birgə hərbi əməliyyatlarını təşkil etməyə cəhd göstərilmiş [10, s.125] və Osmanlı Dövləti İranı Rusiyaya qarşı açıq şəkildə dəstəkləməyə başlamışdır" [14, s.64].Lakin bu yaxınlaşmalar müvəqqəti xarakter daşımış və baş verən hadisələrə ciddi maneə törətmək iqtidarında olmamışdır. Belə demək mümkünsə Rusiya Qacarlar İranı ilə Osmanlı Türkiyəsinin birləşməsinə imkan verməmiş, onları ayrı-ayrılıqda məğlub etməyi daha münasib bilmişdir. Bu da düşmən siyasətinin daha uzaqgörən olduğunu deməyə imkan verir.

Tarixçi M.S.Bilge belə hesab edir ki, Gürcüstanın ilhaqı, Rusiyanın Qafqaza yerləşməsində keçid nöqtəsini təşkil edir. Gürcüstanı ilhaq etməklə Qafqazdakı müstəmləkəçi idarənin təməlini qoyan ruslar bölgədəki mövqelərini gücləndirmək üçün şərqdə Qafqaz geopolitik sahəsində Xəzər dənizi və cənubda Araz çayına qədər irəliləməyi özlərinə hədəf seçmişdilər [4, s.299; 16, s.28-29]. Tarixçi N.İpekin fikrincə Gürcüstanın ilhaqı ilə Rusiyanın sərhədləri Türkiyə və İran torpaqlarına çatmışdı [7, s.273-313]. Fəqət rus işğalı kiçik bir ordu ilə olmasına baxmayaraq olduqca sürətli və uğurlu şəkildə baş vermişdir [14, s.17].

Əslində Rusiyaimperiyası həmin dövrdə Qafqaza çoxsaylı qoşun toplamış, yerli xristinları da bu işə cəlb etmişdi. Yəni, M.Sarayın dediyi kimi kiçik bir ordudan söhbət belə gedə bilməzdi. Ən əsası isə birliyin olmaması və ya buna imkan verilməməsi baş verən fəlakətlərin kökündə duran əsas səbəblərdəndir.

**Nəticə.** Göründüyü kimi,Türkiyəli tarixçilər Rusiya işğalı ərəfəsində Şimali Azərbaycanda mərkəzləşmiş dövlətin olmaması və ölkənin kiçik dövlət qurumlarına parçalanmasını arzuolunmaz hal kimi dəyərləndirmiş, Azərbaycan xanlarının bu hadisələrdən lazımı nəticə çıxarmamasının fəlakətə səbəb olduğunu qeyd etmişlər. Nadir şahın ölümündən sonra müstəqil olan Azərbaycan xanlıqları mərkəzləşmiş dövlətdə birləşmək haqqında ciddi qərar verə bilməmiş və hər bir xanlıq müstəqil siyasət yürütməyi üstün tutmuşlar.Şimali Azərbaycanın kiçik dövlət qurumlarına parçalanması,XIX əsrin əvvəllərində daha da güclənən və öz ərazisini genişləndirməyə çalışan çar Rusiyasının ardıcıl işğalçı yürüşlərinə məruz qalmasına bir vəsilə olmuşdur. Hadisələrin bu şəkildə inkişafı Türkiyə lunmaz hal hesab etmiştarixçilərinin də diqqətindən yayınmamış və Şimali Azərbaycanın işğalında xanlıqların birləşməməsinin dəhəlledici rolu olduğunu qeyd etmişlər.

Xanlıqlar arasındakı əlaqələrin zəif olması və öz aralarında baş verən qanlı toqquşmalar, çar Rusiyasının qonşu dövlətlərə qarşı işğalçı siyasəti vəziyyəti kəskinləşdirən əsas amillərdən idi. Digər tərəfdən də, Qacarlar İranının xanlıqlarla münasibətləriinin qaydasında olmadığ və Osmanlı imperiyasının da Cənubi Qafqazda baş verən hadisələrə fəal müdaxilə edə bilməməsi və xanlıqların kömək haqqında müraciətlərini cavabsız qoyması da Şimali Azərbaycanın mövqeyini xeyli zəiflətməkdə idi.

Hadisələri obyektiv dəyərləndirən Türkiyə tarixçilərinin tədqiqatlarının təhlil edilərək öyrənilməsi tariximizin bəzi səhifələrinin işıqlandırılmasına öz töhfəsini verməkdədir.Ümumilikdə, bu halların təkrarlanmaması və dövlətimizin çətin vəziyyətdə qalmaması üçün bu hadisələrdən lazımi ibrətin götürülməsi gələcək taleyimiz həllində mühüm əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Aydın M. Üç Büyük Gücün Çatışma Alanı Kafkaslar. İstanbul: Gökkubbe, 2005, 266 s.
2. Başbakanlıq Osmanlı Arşivleri (BOA)
3. Berkok İ. Tarihte Kafkasya.İstanbul: İstanbul Matbaası, 1958, 526 s.
4. Bilge M.S. Osmanlı Çağınd Kafkasya(1454-1829), Kitabevi Yayınları, İstanbul 2015, 689 s.
5. Çay A. Iran Tarihinde Azerbaycan ve Azerbaycanlılar // Azerbaycan Birinci Uluslararası Sempozyumu Bildirileri, Ankara: 2002
6. Gökçe C. Kafkasya ve Osmanlı İmparatorluğunun Kafkasya Siyaseti. İstanbul: Şamil Eğitim ve Kültür Vakfı, 1979, 253 s.
7. İpek N. Kafkaslar'daki Nüfûs Hareketleri // Türkiyat Mecmuası F. 18, s.273-313

8. Keykurun,N. Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920). Ankara: İlke Kitabevi Yayınları, 1998, 217s.
9. Kurat A.N. Türkiye Ve Rusya. Ankara: Kültür Bakanlığı, 1990, 735 s.
10. Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm 2002, 177 s.
11. Oktay H. Kafkaslarda Rus Yayılması Karşısında Osmanlı-Kaçar Faktörünün Harekete Geçirilme Teşebbüsü (Ağustos-Eylül 1811) // VAKANÜVİS- Uluslararası Tarih Araştırmaları Dergisi/ Yıl 2017, sayı 2. Kafkasya Özel Sayısı, s.379-392
12. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914, I kitab Ankara: Osmanlı Arşivi Yayınları, 1992, 427s.
13. Saray M. Yeni Türk Cumhuriyetleri Tarihi, Ankara:Türk Tarih Kurumu, 2014, 514 s.
14. Saray M. Azerbaycan Türkleri Tarihi. İstanbul: İstanbul Matbaası, 1993, 149 s.
15. Temizkan A. Rusya Ve Osmanli Devleti'nin Kafkas-Ötesinde Nüfuz Mücadelesi // Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies, Cilt: VI, Sayı 2, Sayfa: 447-462, İzmir 2006.
16. Umudlu, V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğai olunması və müstəmləkəçilik əleyhinə mübarizə. Bakı: Elm, 200, 183 s.
17. Yanar Ş. Azerbaycanda Ebülfez Elçibey Döneminde Türk Kimlik Oluşumu // Avrupadan Asyaya Sorunlu Türk Bölgeleri, İstanbul: İG Kültür Sanat Yayınçılık, 2005, s.579-638
18. Yıldız M. Dünden Bugüne Kafkasya, İstanbul: Yitik Hazine Yayınları, 2006, 384 s.
19. Yücel C. Dış Türkler, Hun Yayınları, İstanbul 1976, 174 s.

# "NAXÇIVAN MƏSƏLƏSİ" MOSKVA VƏ QARS MÜQAVİLƏLƏRİNDƏ

***Məmmədov Xəqani Məmməd oğlu***
Azərbaycan Dövlət Pedaqoji Universiteti
prof.khaqani.mammadov@gmail.com

**Açar sözlər:** *Azərbaycan Sovet hökuməti, Türkiyə Cümhuriyyəti, Nəriman Nərimanov, Mustafa Kamal, "Naxçıvan məsələsi", Moskva danışıqları, Qars müqaviləsi*

*Sovet işğalının ilk dövrlərində Sovet Rusiyası Dərələyəz və Zəngəzuru Ermənistana hədiyyə etdi. Naxçıvanın bağışlanmasına yerli əhali və Türkiyə dövləti kəskin etiraz etdi. 1921-ci ilin yanvar ayında Naxçıvan bölgəsində yerli əhali arasında keçirilən rəy sorğusunda əhalinin 90 faizi Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika olmasına səs verdi. 1921-ci ildə imzalanan Moskva və Qars müqavilələri Naxçıvanın Azərbaycan SSR-in tərkibində muxtar respublika olmasını təsbit etdi. Moskva və Qars müqavilələrinin imzalanması Türkiyə və Azərbaycan dövlətlərinin böyük diplomatik uğuru oldu.*

# «НАХИЧЕВАНСКИЙ ВОПРОС» В МОСКОВСКОМ И КАРССКОМ СОГЛАШЕНИЯХ

***Мамедов Хагани Мамедоглы***

**Ключевы еслова:** *Азербайджанское Советское правительство, Турецкая Республика, Нариман Нариманов, Мустафа Кемаль, Нахичеванский вопрос, Московские переговоры, Карсский договор.*

*В первые дни Советской оккупации Советская Россия подарила Армении Даралайаз и Зангезур. Местное население и Турецкое государство решительно протестовали против помилования Нахичевана. Согласно опросу, проведенному среди местного населения в Нахичеванской области в январе 1921 года, 90 процентов населения проголосовализа то, чтобы Нахичеван стала в тономной республикой в составе Азербайджана. В соответствии с Московским и Карсским соглашениям подписанными в 1921 году, Нахичеван был признан автономной республикой в составе Азербайджанской ССР. Подписание*

*Московского и Карсского соглашений стало большим дипломатическим успехом для Турции и Азербайджана.*

## «NAKHCHIVAN QUESTION» IN MOSCOW AND KARS AGREEMENTS

***Mammadov Khagani Mammad***

**Keywords:** *Azerbaijani Soviet government, Turkish Republic, Nariman Narimanov, Mustafa Kemal, Nakhchivan issue, Moscow negotiations, Kars treaty.*

*İn the early days of the Soviet occupation, Soviet Russia presented Daralayaz and Zangazurto Armenia. The local population and the Turkish state strongly protested against the pardon of Nakhchivan. According to a poll conducted among the local population in the Nakhchivan region in January 1921, 90 percent of the population voted for Nakhchivan to become an autonomous republic within Azerbaijan. İn accordance with the Moscow and Kars agreements signed in 1921, Nakhchivan was recognized as an autonomous republic within the Azerbaijan SSR. The signing of the Moscow and Kars agreements was a great diplomatic success for Turkey and Azerbaijan.*

Qədim Azərbaycan yurdu olan Naxçıvan özünün strateji mövqeyi və əlverişli coğrafi məkanda yerləşməsi ilə tarix boyu qonşu dövlətlərin diqqət mərkəzində olmuşdur. Naxçıvan zaman-zaman qonşu dövlətlərin işğalına məruz qalmasına baxmayaraq, həmişə öz qürurunu əzmlə və qətiyyətlə qoruya bilmiş, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi tarixinin bütün mərhələlərində qətiyyətli mövqeyi ilə seçilmiş, siyasi müstəqilliyini və dövlətçilik prinsiplərini qoruyub saxlaya bilmiş, özünün şərəfli ictimai-siyasi tarixini yarada bilmişdi. Şərq ilə qərbin, şimalla cənubun və Böyük İpək Yolunun mərkəzində yerləşən Naxçıvan özünün coğrafi koordinatları və strateji mövqeyi ilə həmişə diqqət mərkəzində olmuş, qonşu ölkələrlə geniş ticarət-iqtisadi və siyasi əlaqələr qurmuşdur. İri dövlətlərin Qafqaz siyasətində Naxçıvan bölgəsi mühüm hərbi-siyasi və strateji əhəmiyyətə malik olmuş, beynalxalq əməkdaşlığın və beynəlxalq rəqabətin mərkəzində durmuşdur. “Naxçıvan məsələsi” daim boyük dövlətlərin müzakirə obyekti olmuşvə dəfələrlə onun barəsində müxtəlif qərarlar qəbul edilmişdir.

Sovet hakimiyyətinin ilk illərində S.Orconikidze, İ.V.Stalin, G.Çiçerin və başqaları“mübahisəli ərazilər” hesab edilən Dağliq Qarabağ,

Naxçıvan,Zəngəzur və Şərur-Dərələyəz qədim Azərbaycan torpaqları hesab edirdilər. S.Orconikidzenin V.İ.Leninə, G.Çiçerinə və Sovet Rusiyasının digər rəhbərlərinə göndərdiyi teleqramlardayazırdı ki, "Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir, məsələnin başqa cür həlli bizim vəziyyətimizi Azərbaycanda laxladar, Ermənistanda isə heç bir şey qazanmarıq" [1;s.32]. Başqa bir teleqramda S.Orconikidze bildirirdi ki, "...Culfa və Naxçıvan rayonları tamamilə müsəlmanların məskunlaşdığı yerlərdir. Həmin yerlər bizim qoşunlar tərəfindən tutulmalı və Azərbaycana birləşdirilməlidir" [1; s.35]. Ancaq sonrakı hadisələr göstərdi ki, bolşeviklər Azərbaycana qarşı ədalətsiz mövqe nümayiş etdirdilər, qədim Azərbaycan torpaqları olan Dərələyəzi və Zəngəzuru Ermənistana "bağışladılar".

1920-ci il aprel işğalından sonra Azərbaycan əslində Moskvadan Bakıya göndərilmişbolşevik və daşnak emissarları- S.Orconikidze, S.Kirov, A.Mikoyan və başqalarıtərəfindən idarə olunurdu. N.Nərimanovun başçılıq etdiyi Azərbaycan hökuməti milli mənafeləri, ərazi bütövlüyümüzü qorumaq iqtidarında deyildi. XI Qızıl Ordu Azərbaycanın Qarabağ, Zəngəzur,Naxçıvan və başqa bölgələrinə daşnak Ermənistanının təcavüzünün və erməni quldur dəstələrinin dinc müsəlman əhalisinə qarşıtörətdiyi qırğınların qarşısını almaq əvəzinə, azərbaycanlıların tərksilah edilməsi ilə məşğul idi. Sovet Rusiyası Azərbaycan SSR-in iştirakı olmadan daşnak Ermənistanı ilə ərasi məsələləri ilə bağlı gizli danışıqlar aparırdı. Sovet Rusiyası ilə Ermənistan arasında 1920-ci ilin avqust ayının 10-da bağlanmış 6 maddəlik sazişlə Azərbaycanın Şərur-Dərələyəz bölgəsinin Ermənistana məxsusluğu təsdiq olunmuş, Zəngəzur, Naxçıvan və Qarabağ bölgələri isə "mübahisəli ərazilər" hesab edilmişdi [3; s.286]. Azərbaycan hökumətinin başçısı N.Nərimanovun bu sazişlə bağlı qəti etirazları Sovet Rusiyasının başçısı V.İ.Lenin və həmin sazişin müəllifi olan G.Çiçerin tərəfindən nəzərə alınmırdı.

Qeyd edilən sazişlə Ermənistanla Azərbaycan arasında münasibətləri nizama salmağa cəhd edilmişdi. Lakin Sovet Rusiyası, necə deyərlər, qaş qayırdığı yerdə vurub göz də çıxartdı, Azərbaycanın iştirakı olmadan onun ərazi məsələlərini müzakirə edərək, onun adından çıxış etdi. Bu isə, Azərbaycanın müstəqil dövlət və Rusiyanın müttəfiqi deyil, müstəmləkəsi olduğunun bariz nümunəsi idi. Saziş bir daha göstərdi ki, Azərbaycan torpağı sanki hərraca qoyulmuşdu, torpaqlarımızın ərazi mənsubiyyəti xalqımızın tarixi hüquqları və mənafeləri baxımından yox, hansısa dövlətə, ideologiya və quruluşa siyasi-strateji baxımdan sərfəli olub-olmaması nöqteyi-nəzərindən həll edilirdi. İ.Stalinin 1920-ci il noyabrın 9-da rəsmi tədbirdə "Zəngəzur məsələsi"nin müzakirəsi zamanı söylədiyi sözləri də fikrimizi sübut edir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa, vermək olar" [2: s.302].

Naxçıvan bölgəsində 1920-ci ilin may ayından yerləşən Veysəl paşanın rəhbərlik etdiyi türk qoşunları Naxçıvanınermәni təcavüzündən qorunmasında həlledici rol oynadı. XI Qızıl Ordu hissələri Naxçıvan bölgəsinə 1920-ci ilin iyul ayında daxil olmuş və iyulun 28-də Naxçıvan SSR yaradılmışdı. Naxçıvan İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz tərkib hissəsi elan etmişdi [3; s.286].

1920-ci il noyabr ayının 30-da, Ermənistanda Sovet hakimiyyətinin qurulmasının ertəsi günü Azərbaycan K(b)P MK Siysi Bürosunun və Təşkilat Burosunun birgə iclasında S.Orconikidze, Y.Stasova, D.Sarkis. Q.Kaminski, V.Yeqorov. N.Nərimanov, M.D.Hüseynov, M.B.Qasımov, Ə.H.Qarayev, A.Serebrovski iştirak edirdilər. İclasda 3-cü məsələ kimi “Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı” müzakirə edilmiş və geniş qərar qəbul edilmişdi. Həmin qərarın “v” bəndində deyilirdi: “Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir”. Qərarın “q” bəndində deyilirdi ki,Zəngəzur və Naxçıvan Ermənistana keçirlər. O biri bəndlərdə yazılırdı: “d) Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; e) Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən neft haqqında göstərilsin)”. J və i bəndlərində isə N.Nərimanova bu barədə Bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı.

Moskvanın Qafqazdakı emissarı, RK(b)P MK-nın Qafqaz Bürosunun üzvü S.Qrconikidzenin təzyiqi və diqtəsi ilə çox tələsik hazırlanmış Bəyanatda deyilirdi: “...Zəngəzur və Naxçıvan qəzalarının ərazısı Sovet Ermənistanının bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılırlar” [4; s.52]. Bəyanatda daha sonra deyilirdi ki, Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin-neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır.

Bakı Sovetinin həmin iclasdakı çıxışında S.Orconikidze bu Bəyanatı “bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt” kimi qiymətləndirmiş və Azərbaycanın mühüm strateji bölgələrinin əhəmiyyətini azaldaraq demişdi ki, “Zəngəzur, Naxçıvan və Qarabağ ruslar üçün heç nə deməkdir; Zəngəzur məhsulsuz dağlardır,taxılı yox, suyu yox, Naxçıvan bataqlıq və malyariyadan başqa bir şey deyildir. Qarabağda da heç nə yoxdur. Və budur yoldaş Nərimanov deyir: “Onları özünüzə götürün. Bu məhsulsuz torpaqları Ermənistan üçün götürün” [2; s.305]. Azərbaycanın əzəli, çox zəngin və məhsuldar torpaqlarını Ermənistana bağışlayan S.Orconikidze sanki Azərbaycanı ağır yükdən xilas edirmiş kimi, xalqımıza hələ böyük minnət də vururdu.

S.Orconikidze 1920-ci il dekabrın 2-də Moskvaya verdiyi məlumatda V.İ.Leninə və İ.Stalinə “Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verildiyini rəsmən bəyan etmişdir” xəbərini çatdırmışdır. Azərbaycan torpaqlarının bu cür təhqiramiz formada parçalanması və bölüşdürülməsi Naxçıvan əhalisinin kəskin narazılığına və hiddətinə səbəb oldu.Türkiyə dövləti və Azəraycan milli-azadlıq hərəkatının liderləri də Naxçıvanın Ermənistana “bağışlanmasına” qarşı öz etirazlarını bildirmişdilər. M.Ə.Rəsulzadə bu münasibətlə yazırdı: “Ermənistanda dəxi bolşevik hökuməti təsis edər-etməz rus siyasəti Nəriman bəyin səxavətkar ağzı ilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını mütəntən bir surətdə Ermənistana hədiyyə etdi” [5; s.72].

Lakin Naxçıvanın azərbaycanlı əhalisinin əksəriyyətinin qətiyyətli mövqeyi və aydın ifadə edilən iradələri Sovet Rusiyasının Cənubi Qafqazdakı emissarlarının və erməni millətçilərinin Naxçıvana olan ərazi iddialarını alt-üst etdi. 1921-ci ilin yanvar ayında Azərbaycan SSR, Ermənistan SSR və RSFSR-in nümayəndələrinin Naxçıvan bölgəsi əlalisinin Azərbaycan və Ermənistan inqilab komitələrininbəyanatlarına münasibəti ilə keçirilən rəy sorğusunda yerli əhalinin 90faizi mahalın muxtar respublika hüququnda Azərbaycan SSR-nin tərkibində qalmasınasəs verdi [5; s.194-195].

Naxçıvan məsələsi o dövrün bir sıra ikitərəfli və beynəlxalq danışıqlarında mühüm yer tuturdu. Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Yusif Kamal, Əli Fuad Cebesoy və Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti 1921-ci ilin fevral-mart aylarında keçirilən Moskva danışıqlarında Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdi. Moskva danışıqları ərəfəsində Yusif Kamalın Mustafa Kamal Paşa ilə görüşündə “Paşam, Ruslar Naxçıvan üzərində israr edərlərsə, nə yapalım?”- sualına Mustafa Kamal Paşa: “Naxçıvan türk qapısıdır. Bunu xüsusi nəzərə alaraq əlinizdən gələni yapınız”-cavabını vermişdi. Moskva danışıqlarında Naxçıvana dair müzakirələr xeyli uzanmış, İ. Stalin: “Naxçıvan üzərində nə üçün bu qədər israr edirsiniz?”- sualına “Orası türk qapısıdır, ondan” cavabını almışdı [2; s.343].

1921–ci ilin fevral ayında TBMM Əli Fuad Cebesoy, Yusif Kamal və Rza Nurdan ibarət nümayəndə heyətini Sovet Rusiyası rəhbərləri ilə görüşmək və müqavilə bağlamaq üçün Moskvaya göndərdi. Mustsafa Kamal Paşa nümayəndə heyətinə əvvəlcə Bakiya gedib Nəriman Nərimanov ilə görüşməyi tövsiyə etdi. Görüş zamanı Nəriman Nərimanov nümayəndə heyətinə bildirdi ki, Şərq siyasətində ardıcıl səhvlərə yol verən və erməni daşnaklarının Azərbaycana və Türkiyəyə dair ərazi iddialarını, 1915-ci ildə guya baş verən soyqırım aktına görə erməniləri müdafiə edən G.Çiçerin nümayəndə heyəti üçün problem yaratmağa çalışacaq. Onun müavini L.Qaraxan da Türkiyə ilə müqavilə imzalanmasının əleyhinə idi və bu istiqamətdə Çiçerinə müəyyən təsir göstərmək imkanlari var idi. Nəriman Nərimanov RK(b)P MK-nın Siyasi

Bürosunun üzvləri arasında İ.Stalinin daha güclü mövqeyə malik olduğunu bildirir,onunla görüşməyi məsləhət bilirdi. O, nümayəndə heyəti ilə görüşdükdən sonra V.İ.Leninə bu xüsusda məktub yazmağı və nümayəndə heyəti ilə birlikdə Behbud Şahtahtinskini də Moskvaya göndərməyi qərara aldı. Məktubda yazılırdı ki, G.Çiçerin ermənilərin söylədiklərinə daha çox inanır, “Biz nəyin bahasına olursa-olsun, Türklərlə sağlam bir müqavilə bağlamalıyıq.” [7; s.307.]

Moskva danışıqlarında Türkiyə nümayəndə heyəti Naxçıvan üzərindəki himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razı olduqlarını bildirdilər. Məhz Türkiyə nümayəndə heyətinin ciddi səyləri nəticəsində Moskva danışıqlarında Azərbaycanın ərazi bütövlüyü qismən də olsa qorunmuş, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi və onun hüquqlarının Azərbaycandan başqa heç bir dövlətə verilməməsi razılaşdırılmışdı.

G. Çiçerinin kəskin müqavimətinə baxmayaraq, 1921-ci il mart ayının 16-da Sovet Rusiyası ilə Türkiyə arasında “Dostluq və qardaşlıq haqqında” müqavilə imzalandı. Müqavilənin 2-ci maddəsinə görə Türkiyə Batum limanını və şəhərini Gürcüstana güzəştə gedirdi. Bununla yanaşı, Türkiyə Batum limanında azad ticarət hüququ əldə edirdi. Bu müqavilənin 3-cü maddəsinə əsasən Naxçıvan vilayəti “Azərbaycanın qəyyumluğu (protektoratı) altında muxtar ərazi olurdu, bu şərtlə ki, Azərbaycan bu qəyyumluğu başqa dövlətə güzəştə getməyəcəkdir” [2; s.305.] Müqaviləyə görə,Türkiyə Batumun Gürcüstana güzəştəgedilməsi istisna olmaqla, 23.6 min kv.km. ərazisi, 572 min əhalisi olan torpaqları özünə qaytardı, Qafqazda 1829-cu il sərhədlərini bərpa etdi [ 8; s.369.]

Azərbaycanın maraqları, Türkiyənin təhlükəsizliyi baxımından Naxçıvan məsələsinin ədalətli həlli Mockva konfrasında türk diplomatiyasının və Azərbaycan diplomatiyasının böyük qələbəsi idi. Moskva danışıqlarında Azərbaycanın təmsilçisi B.Şahtaxtinski 1921-ci il martın 1-də V.İ.Leninəgöndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ mahallarının milli tərkibi və coğrafiyasına dair arayışları əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Martn 7-də V.İ.Leninin dərkənarıilə müzakirə üçün Siyasi Büroya göndərilən həmin məktuba İ.Stalinin, G.Çiçerinin və b. iştirakı ilə baxılmış, Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili haqqında qərar qəbul edilmişdi. Moskva müqaviləsinin imzalanması Azərbaycanda böyük əks-səda doğurdu. Azərbaycan SSR-nin xalq xarici işlər komissarı M.D.Hüseynov Türkiyənin Bakıdakı diplomatik nümayəndəsi Memduh Şövket bəyə, Şərq Cəbhəsinin komandanı Kazım Qarabəkir Paşayagöndərdiyi teleqramlarda Moskva müqaviləsini yüksək qiymətləndirir və Sovet Azərbaycanı hökumətinin inqilabi Türkiyəyə ilk yardımı kimi, Bakı-Tiflis-Qars marşrutu ilə 30 sistern neft, 2 sistern benzin və 8

sistern kerosin göndərildiyini bildirirdi. Mart ayının 14-də Azərbaycan SSR XKS-nin sədri Nəriman Nərimanovun təntənəli şəkildə Bakı-Tiflis-Batum neft kəmərini açması Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında mühüm rol oynamalı idi [8; s.370].

Moskva müqaviləsini imzalamaqla Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı. Türkiyə Naxçıvan bölgəsi üzərində Azərbaycanın hüquqlarının təmin edilməsi sahəsində öz şərəfli missiyasını böyük uğurla yerinə yetirdi. Moskva müqaviləsinin 1921-ci il martın 20-də RSFSR Mərkəzi İcraiyyə Komitəsinin, həmin il iyulun 21-də Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqlənməsi ilə Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı, yəni Azərbaycanın xeyrinə həll edildi. Türkiyə diplomatları Ankaraya döndükdən sonra Mustafa Kamal Paşaya müraciətlə "Naxçıvan üzəridə əldən gələni yapdıq" dedikdə, o, "Qapımız mövcudiyyətini mühafizə edin, bizim üçün mühüm olanı budur" demişdi [2; s.347].

Moskva müqaviləsi imzalandıqdan sonra Bakıya gələn Türkiyə nümayəndə heyəti Azərbaycanla siyasi-iqtisadi məsələlərə dair ikitərəfli müqavilələr imzalamağa çalışırdı. Lakin, Rusiyanın təzyiqləri bunaimkan vermədi.Türkiyə nümayəndə heyəti Bakıya gələn günü, aprel ayının 8-də Azərbaycanın xarici işlər komissarı M.D.Hüseynov onlarla hər hansı bir danışıqlar aparmamaq haqqında G.Çiçerindən telefonoqramma aldı. G.Çiçerin yazırdı ki, Bakili yoldaşlar digər Qafqaz respublikaları ilə razılaşmadan türklərlə danışıqlara başlamasınlar. O, xəbərdarlıq edirdi ki, "Qafqaz respublikaları RK(b)P MK-dan xəbərsiz türklərlə hər hansı müqavilə bağlaya bilməzlər" [8; s.378].

Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında 1921-ci il oktyabr ayında Rusiyanın iştirakı ilə keçirilən Qars danışıqlarında Türkiyə Azərbaycanla bağlı müzakirə edilən məsələlərdənən mühümüsayılan Naxçıvanla bağlı məsələyə yenidən qayıtdı. Kazım Qarabəkir paşa Moskva müqaviləsinə uyğun olaraq, Naxçıvan məsələsinin Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalanacaq müqaviləyə daxil edilməsində təkid etdi. Uzun mübahisələrdən sonra tərəflər Naxçıvan məsələsinin Qars müqaviləsində öz əksini tapmasına razılaşdılar.

Türkiyə ilə Cənubi Qafqaz respublikalari arasında qarşılıqlı münasibətləri özündə əks etdirən Qars müqaviləsi 1921-ci il oktyabr ayının 13-də Rusiyanın iştirakı ilə imzalandı. Müqavilənin beşinci maddəsinə görə, "Türkiyə hökuməti, Azərbaycanvə Ermənistan respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirdilər" [8; s.436]. Bu maddə ilə Ermənistan Naxçıvanın Azərbaycanın himayəsinə verildiyini, Azərbaycan isə bu himayəni qəbul etdiyini təsdiq edirdi.

Qars müqaviləsi Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olmasını bir daha təsdiq etdi, Türkiyənin daxili və beynəlxalq vəziyyətini xeyli möhkəmləndirdi. Mustafa Kamal paşanın dediyi kimi, "Bu müqavilə ilə Şərqdə hüquqi şəkil alan indiki vəziyyətimiz Sevr müqaviləsinin tətbiqinin qeyri-mümkün olduğunu göstərən reallıqlardan biridir... Erməni məsələsi deyilən məsələ Qars müqaviləsi ilə ən doğru həllini tapdı" [2; s.441]. Bu müqavilə ilə daşnak və bolşevik siyasətinin hədəfinə çevrilmiş Naxçıvan Azərbaycan ərazisi olaraq beynəlxalq status qazandı. Ermənistanın sovetləşməsindın sonra Naxçıvanla bağlı yaranmış siyasi böhran Qars müqaviləsi ilə birdəfəlik aradan qaldırıldı.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, "Naxçıvan Azərbaycan torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini,dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük əvəzi olmayan sənəddir" [9; htts://www.facebook.com]. Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət stasunun qorunub saxlanmasında Qars müqaviləsi müasir dövrümüzdə də çox böyük tarixi əhəmiyyətə və beynəlxalq statusa malik olan, beynəlxalq hüquq normalarına əsaslanan, Azərbaycanın dövlətçilik fəaliyyəti tarixində çox mühüm bir mərhələni təşkil edən sənəddir.

## ƏDƏBİYYAT

1. К истории образовании НКАО Азербайджанской ССР (1918-1925 гг.) Документы и материалы. Баку, Азернешр, 1989, 334с.
2. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində hərbi-siyasi vəziyyət xarici dövlətlərin siyasəti. Bakı, BDU nəşriyyatı, 1996. 385s.
3. Azərbaycan tarixi. Bakı, BDU nəşriyyatı, 2019, 407s.
4. Məmmədov X.M., Məmmədov N.Z. Türkiyədəvə Azərbaycanda erməni millətçilərinin cinayətləri. Bakı, Elm nəşriyyatı, 2006,215s.
5. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
6. Azərbaycan tarixi. 7cilddə. VI cild, 568s.
7. Adıgözel H. Neriman Nerimanov. Hayatı ve mücadelesi. 2 baskı, İstanbul,
8. Həsənli C.P. Sovet dövründə Azərbaycanın xarici siyasəti. (1920-1939). Bakı, Adiloğlu, 2012,656s.
9. htts://www.facebook.com

# NADİR ŞAH ƏFŞARIN BARIŞIQ SİYASƏTİNİN MAHİYYƏTİNƏ DAİR

***Xeyirbəy Qasımov***
***Dilavər Əzimli***

**Açar sözlər:***Azərbaycan, imperiya, barışıq siyasəti, İslam, Səfəvilər dövləti, Osmanlı imperiyası, Rusiya imperiyası, Nadir şah Əfşar, Əfşarlar dövləti*

*Təqdim olunan məqalədə Nadir şah Əfşarın (1736-1747) irəli sürdüyü barışıq siyasətinin mahiyyətindən, bu siyasətin uğursuzluğa düçar olmasının başlıca səbəblərindən bəhs olunur. Məqalə müəllifləri belə bir nəticəyə gəlmişlər ki, Nadir şah Əfşarın barışıq siyasətinin uğursuzluğa düçar olmasının başlıca səbəbi Osmanlı siyasi və dini dairələrinin tutduğu barışmaz mövqeyi, Şərqdə şəksiz hökmranlıq mövqeyi qazanmaq istəyi olmuşdur. Təbiidir ki, Nadir şah Əfşar da həmin siyasətin uğurla nəticələnəcəyi halda bu mövqeyi qazanmağa can atırdı.*

## О СУЩНОСТИ ПОЛИТИКИ ПРИМИРЕНИЯ НАДИР-ШАХА АФШАРА

***Хейирбек Гасымов***
***Дилавер Азимли***

**Ключевые слова:***Азербайджан, империя, примиренческая политика, Ислам, государство Сефевидов, Османская империя, Российская империя, Надир-шах Афшар, государство Афшаров*

*В представленной статье говорится о сущности политики примирения, выдвинутой Надир-шахом Афшаром (1736-1747), об основных причинах неудачного исхода этой политики. Авторы статьи пришли к мнению о том, что основной причиной неудачи примиренческой политики Надир-шаха Афшара стала непримиримая позиция политических и религиозных кругов Османской империи, которые сами стремились занять преобладающую позицию в странах Востока. Следует отметить и то, что Надир-шах Афшар в случае успеха своей политики стремился занять на Востоке ту же позицию.*

# ON THE ESSENCE OF THE POLİCY OF RECONCİLİATİON OF NADİR SHAH AFSHAR

***Kheyirbek Gasimov***
***Dilaver Azimli***

**Keywords:** *Azerbaijan, empire, reconciliation policy, Islam, Safavid state, Ottoman Empire, Russian Empire, Nadir Shah Afshar, Afshar state*

*The presented article talks about the essence of the policy of reconciliation put forward by Nadir Shah Afshar (1736-1747), about the main reasons for the unsuccessful outcome of this policy. The authors of the article came to the conclusion that the main reason for the failure of the conciliatory policy of Nadir Shah Afshar was the irreconcilable position of the political and religious circles of the Ottoman Empire, which themselves sought to occupy a dominant position in the countries of the East. It should be noted that Nadir Shah Afshar, if his policy was successful, strove to take the same position in the East.*

**Giriş.** Nadir şah Əfşarın (1689-1747) hərb sahəsindəki uğurları, onun əzəmətli sərkərdəlik istedadı təqribən 3 əsrə yaxındır ki, dünya tarix elminin diqqət mərkəzindədir. XVIII əsrin ilk onilliklərində Azərbaycan Səfəvi sülaləsinin son hökmranları (Sultan Hüseyn, II Təhmasib və III Abbas) əski, əzəmətli Qızılbaş (Səfəvi) imperiyasının bir çox ərazilərini itirmişdilər. Təşəbbüsü ələ almış Rusiya və Osmanlı imperiyaları xeyli zəifləmiş bu dövlətin müxtəlif bölgələrində separatçılıq ocaqlarını gücləndirmək, Azərbaycan dövlətçiliyinə son qoymaq ərəfəsində idilər. Nadir məhz bu böhranlı məqamda öncə hərb, sonra isə siyasət meydanına çıxmalı oldu, əcnəbi təcavüzkarların mübarizə əzmini qırdı, yeni bir imperiya yaratdı. O, tarixə yalnız görkəmli dövlət xadimi, diplomat və istedadlı sərkərdə kimi deyil, habelə İslam dini sahəsində islahatçı kimi daxil oldu. Nadir şah Əfşarın dini siyasətinin öyrənilməsi bizə onun planlarının miqyaslarını dərk etmək imkanı verir.

Öncə o, türk-müsəlman dünyasında aparıcı mövqe tutmağa, sonra isə dünya hökmranlığına can atırdı. Nadir şah özünün əzəmətli planlarının gerçəkləşdirilməsi sayəsində İslam aləmində mövcud olan parçalanmaya, Azərbaycan və Osmanlı imperiyası arasındakı məzhəb ayrılığına, dini ziddiyyətlərə son qoymaq istəyirdi. Nadir şah İslam Şərqinin gələcək inkişaf meyllərini yaxşıca duyur, Səlcuqlu imperiyasının süqutundan sonra türk-islam dünyasında baş vermiş parçalanmanın əsas səbəblərini anlayırdı. Sünni-şiə parçalanması, hərbi-siyasi və ideoloji qarşıdurma Şərqin türk və müsəlman

xalqlarının yaxınlaşması yolunda ən böyük əngəl idi. Səlcuqlu imperiyasının süqutundan təqribən 300 il sonra yaranmış Osmanlı imperiyası (1453-cü ildən) və Azərbaycan Səfəvi dövləti (1501-1736) İslam məzhəbi baxımından bir-birinə əks olan mövqelər tutdular. Nadir şah Əfşar bu kəskin problemin həlli məqsədilə "Cəfəri" məhzəbinin "beşinci məhzəb" qismində Osmanlı imperiyası tərəfindən tanınması məsələsini qaldırdı. Lakin Osmanlı din xadimləri anladılar ki, Osmanlı sarayının "Cəfəri" məzhəbini "beşinci məzhəb" qismində tanıması Nadir şah Əfşarın digər İslam məzhəbləri arasında aparıcı mövqeyə çıxarılmasına səbəb ola bilər. Buna görə də Osmanlı sarayı Nadir şah Əfşarın bu təklifini qəbul etməkdən – "Cəfəri" məzhəbini tanımaqdan qəti şəkildə imtina etdi.

Nadir şah Əfşar Azərbaycan dövlətçiliyi tarixinə həm parlaq dövlət xadimi, diplomat, həm də din sahəsində islahatçı kimi daxil olmuşdur [1;2;3;6;7;8;9;10;11;12;13;15;16;17]. O, əvvəllər sərkərdə kimi Səfəvi şahları II Təhmasibə (1722-1732) və azyaşlı III Abbasa (1732-1736) sədaqətlə xidmət etmiş, Səfəvi dövlətinin qonşu dövlətlər tərəfindən işğal olunmuş ərazilərini azad edərək bu dövləti tam iflasdan xilas etmiş, uğurlu hərbi-siyasi fəaliyyəti sayəsində bölgədə böyük nüfuz və şöhrət qazanmış, 1736-ci ilin yanvar ayının 13-də özünün Muğan düzündə - Cavad keçidi yaxınlığında yerləşən hərbi düşərgəsinə gəlib çıxmışdı. "Nadirin əmrinə əsasən bu düşərgədə 100 min nəfər insan və İranın (yəni Səfəvi dövlətinin–X.Q.və D.Ə.) bütün fəxri şəxsləri onu gözləyirdilər... Əyanlar arasında bir aydan artıq davam etmiş uzun mübahisələrdən sonra, 1148-ci (1736-cı) ilin fevral ayının 26-da Nadir İran (şahlıq – X.Q. və D.Ə.) taxtına çıxdı. Bu təntənəli yığıncaqda Nadir şah bütün ruhani şəxslərə öz iradəsini bəyan edərək onları şiə və sünni məzhəblərini bir-birindən ayıran bəzi ehkamları öz aralarında uzlaşdırmağa (razılaşdırmağa) və bununla da müsəlman aləmində sakitliyi bərqərar etməyə səslədi. İran ruhaniləri Nadir şahın bu təklifini nəzərdən keçirərək, bu təkliflə razılaşdıqlarını ifadə etdilər. Lakin türklər (osmanlılar – X.Q. və D.Ə.) bu təklifi qəzəblə rədd etdilər. Halbuki, farslar (təklifi irəli sürmüş Əfşar dövləti – X.Q. və D.Ə.) onu (bu təklifi) icra etməyə dəfələrlə cəhd göstərmişdilər" (15, s. 145).

Bəzi Türkiyə tədqiqatçıları 1736-cı ilin fevral ayının 26-da keçirilmiş Muğan qurultayında qəbul edilmiş və Osmanlı sarayına təklif olunmuş dini barışıqla bağlı olan qərarına xüsusi diqqət yetirmişlər [8;9;10;11;12;13]. Məsələn, Recep Albayrak qeyd edir ki, "Nadir xan Qırxlı Muğan qurultayında iştirak edənlərə müraciət edərək" demişdi: "Üç maddədən ibarət olan bu əhdnamə qurultay iştirakçıları tərəfindən qəbul olunacağı halda o, şah səlahiyyətlərini öz üzərinə götürəcək. Bu razılığın mətnindəki ikinci maddə müsəlmanların dini birliyi işinə xidmət edirdi. Bu maddədə müsəlman aləmindəki fitnə-fəsadların, çəkişmələrin və kütləvi qətllərin səbəbi, mənbəyi olmuş Ömərin və Osmanın lənətlənməsindən də imtina edilirdi" [8, s. 43].

Muğanda keçirilmiş qurultayın iştirakçıları Osmanlı sultanı I Mehmetə (1730-1754) ünvanlanmış məktubun da tərtib olunmasında iştirak etdilər. Bu məktubda qeyd olunurdu ki, İslamda parçalanma və ziddiyyətlər şah I İsmayıl Səfəvinin (1487-1524) taxta çıxmasından (1501) və yüksəlişindən sonra baş vermişdir, "həmin tarixi məqamda müsəlmanlar arasında məzhəblərin amansız qarşıdurmasını isə aradan qaldırmaq mümkündür". Bu məktubda hətta o da göstərilirdi ki, "əgər biz bu qarşıdurmanı və əngəli aradan qaldıra bilməsək, Məhşər günündə bizə ünvanlanacaq suallara cavab verə bilməyəcəyik". Bu məktubun sonunda qeyd olunmuşdu: "Ulu Yaradanın özü işlərin nizama salınması və müsəlmanların müşkül məsələlərinin həlli üçün bizə Nadiri göndərmişdir. Buna görə də İran (keçmiş Səfəvi dövləti – X.Q. və D.Ə.) cəmiyyətinin və sənətkarlarının Muğan qışlağında toplanmış nümayəndələri onu Türkman ölkəsinin şahı seçmişlər" [9, s. 31; 10, s. 27-34; 4, s. 9-62].

Nadir şah Əfşar atacağı addımların mümkün arzuolunmaz nəticələri haqqında da düşünürdü. Nadir şah Əfşar hər şeydən öncə öz dövlətinin hərbi qüdrəti barəsində düşünür, lakin bu dövlətin sərhədləri daxilində yaşayan xalqların mənəvi-ideoloji inkişafına, bu inkişafın digər istiqamətlərinə də xüsusi diqqət yetirirdi. O, fanatik şiəliyin zəiflədilməsi məsələləri haqqında da düşünürdü. Çünki fanatik şiəlik artıq XVIII əsrin ilk onilliklərində daxili, xarici və hərbi siyasətin mühüm, təxirəsalınmaz, kəskin problemlərindən birinə çevrilmişdi. Yeni, Əfşar dövlətinin də metropoliyasında – Azərbaycanda (xüsusilə ölkənin cənub bölgələrində) fanatik şiəliyin çoxəsrlik, dərin kökləri var idi. Nadir şah Əfşar Azərbaycan və böyük region miqyasında məzhəblər arasındakı münasibətlərin sabitləşdirilməsi, müsəlman ümmətinin bütövlüyünün, vəhdətinin təmin olunması məqsədinə nail olmaq üçün Osmanlı dövlətinin rəsmi dairələri ilə intensiv diplomatik danışıqlara başladı, öz dövlətinin Osmanlı imperiyası ilə məzhəb baxımından yaxınlaşmasına dair əməllər, tədbirlər planını qarşı tərəfə təqdim etdi [12, s. 33].

Qeyd etmək lazımdır ki, Səlcuqlu imperiyasının mövcudluğu dövründə (1055-1157) türkman (türk) tayfaları vahid mədəni, siyasi və coğrafi məkanda, vahid dövlətin hüdudlarında yaşamışlar. XVI əsrin əvvəllərində isə bu tayfalar İslamın müxtəlif məzhəblərinə cəlb olundular. Bu məsələyə diqqət yetirmiş Türkiyə tarixçisi Faruk Sümer qeyd edir: "Səfəvi sülaləsinin yaratdığı şiə dövləti Osmanlı imperiyası və Orta (Mərkəzi) Asiya arasında "dəmir pərdə"yə çevrildi və Səfəviləri İslam aləmindən təcrid etdi. Aşkar surətdə sünniliyə meyl edən Nadir şah Əfşar Səfəvilərin İslam dünyasından təcrid olunmasına son qoymağa cəhd edərək, Səfəvi, Osmanlı və Orta (Mərkəzi) Asiya türklərini bir-birinə yaxınaşdırmaq naminə məzhəb sahəsində islahat keçirməyə cəhd göstərdi" [13, s. 154-155, s. 292].

Bu məqamda Faruk Sümer Nadir şah Əfşara münasibətində müəyyən diqqətsizliyə, yanlışlığa yol vermişdir: Nəzərdən keçirdiyimiz dövrün ilkin

qaynaqlarında "Nadir şah Əfşarın sünniliyə meyl etdiyini" təsdiqləyən məlumatlar yoxdur. Qeyd etmək zəruridir ki, bu cür ifadələr Türkiyə tarixşünaslığına Avropa qaynaqlarından keçmişdir və məhz həmin qaynaqlar üçün səciyyəvidir. Avropa ölkələrinin tarix elmində belə bir yanlış fikir mövcuddur ki, "Nadir şah Əfşar şiəliyə münasibətində daha barışmaz idi və daha çox sünniliyə meyl edirdi". Əslində isə Nadir şah Əfşar öz zəmanəsinin gerçəklikləri ilə hesablaşmağa məcbur idi, yaranmış mürəkkəb vəziyyətdən yeganə çıxış yolunu sünni və şiə məzhəblərinin barışında görürdü. O, öncədən bunu da görürdü ki, ali Osmanlı ruhaniliyi iki türk dövlətinin barışığı işinə ciddi əngəllər yaradacaqdır.

Kembric universitetinin professoru olmuş tarixçi L.Lokkartın bu məsələyə münasibətdə tutduğu qeyri-müəyyən mövqe də həmin mürəkkəb elmi problemin müsbət surətdə həllini mürəkkəbləşdirir: "Nadir şah Əfşarın şiəliyə və yaxud sünniliyə mənsub olduğunu müəyyən etmək qeyri-mümkündür. İş burasındadır ki, Nadir şah Əfşar öz həyatının sonunda müəyyən dini keyfiyyətlərə malik deyildi. Nadir şah Əfşarın bir çox qüsurları var idi, lakin o, din təəssübkeşi deyildi. O, şiəliyə bir qədər barışmaz yanaşırdı, lakin bu münasibət onun siyasi məqsədləri ilə bağlı olmuşdur" [17, s. 332-333].

L.Lokkart daha sonra mövzu ilə bağlı olan bir məqama da öz münasibətini bildirmişdir: "Nadir şah Əfşarın şiəliyi və sünniliyi birləşdirmək cəhdindən çox yazmışdır... Nadir şah Əfşar zorla öz təbəələrini etiqadlarından imtina etməyə məcbur etmişdi. Nadir şah Əfşarın dini siyasəti şah I İsmayılın və onun xələflərinin dini siyasətinə zidd olmuşdur... Nadir şah Əfşar öz baxışlarına görə millətçi olmaqdan daha çox beynəlmiləlçi idi... O, öz hakimiyyətini Səfəvi imperiyasının sərhədlərindən kənara genişləndirməklə bütün müsəlman aləmini birləşdirməyə və bütün müsəlmanların başçısı, hökmdarı olmağa can atırdı" [17, s. 333].

Digər ingilis tarixçisi C.Hanvey də qeyd edir ki, "Nadir şah Əfşar ona şah taxtına əyləşməyi təklif edənlər qarşısında bir şərt qoymuşdu: şiə və sünni məzhəblərinə mənsub olan müsəlmanlar arasında mövcud olan problemləri həll etsinlər" (14, s.343). Gördüyümüz kimi, hətta Qərb tarixçiləri arasında Nadir şah Əfşarın din sahəsindəki siyasətinə dair vahid fikir yoxdur. Azərbaycan tarixçisi A.A.Bakıxanovun (1794-1846) fikirləri həmin uzaq dövrün tarixi gerçəkliklərini tam əks etdirir: "İran (Səfəvi – X.Q. və D.Ə.) ruhaniləri Nadir şah Əfşarın təklifini nəzərdən keçirərək öz razılığını bildirdilər, lakin türklər (osmanlılar) bu fikri, təklifi qəzəblə rədd etdilər" [15, s.145]. Beləliklə, A.A.Bakıxanovun bu fikri təsdiq edir ki, Azərbaycan din xadimləri Nadir şah Əfşarın İslamda beşinci məzhəb – "Cəfərilik" haqqındakı fikri ilə tam həmrəy olmuşlar.

Nadir şah Əfşarın hərbi, siyasi, diplomatik fəaliyyəti, bu fəaliyyətin nəticələri təsdiq edir ki, "Cəfəriliyi" irəli sürmüş yeni dövlət xadimi daha

genişmiqyaslı iddialarını, məqsədlərini güdürdü. Nadir şah Əfşarın müqəddəs "Quran"dan gətirdiyi iqtibaslar da bunu təsdiqləyir. Nadir şah Əfşar gözəl anlayırdı ki, İslamda yeni – beşinci məzhəbin qəbul olunması digər müsəlman məzhəblərinin (hənəfiliyin və şafeiliyin) "Cəfəri" məzhəbi ətrafında cəmləşməsinə, birləşməsinə yardım edə bilərdi. Bu minvalla da o,öz arzusuna çata, dünya hökmranlığına nail ola bilərdi. Nadir şah Əfşar bu ən müqəddəs, gizli arzusuna can atırdi: Bu məqsədlə o, şafei alimi, Şeyx Abdullah əl-Şuveydini öz dövlətinin paytaxtı olan Tehran şəhərinə dəvət etdi. Nadir şah bu şeyxlə söhbəti zamanı ona dedi: "Siz bilirsinizmi ki, mənim dövlətim iki hissədən ibarətdir: Türküstandan; Əfqanistan və İrandan. Dövlətimin bu iki hissəsində yaşayan təbəələrim bir-birini "kafir" (yəni "dinsiz") adlandırırlar. Səni öz vəkilim (nümayəndəm, müvəkkilim) təyin edirəm. Mənim əvəzimə təbəələrimlə görüşərsən və bu cür fikir ayrılığına son qoyarsan" [11. s.52]. Burada Nadir şah Əfşarın mövqeyi tam aydınlaşır.

Abdullah Şuveydi çox müdrik və uzaqgörən din xadimi idi, buna görə də din xadimlərinin əksəriyyəti onu nüfuzlu, mötəbər şəxs kimi qəbul edirdi. Nadir xan Əfşar şahlıq taxtına çıxdıqdan sonra öncə öz məqsədlərini gerçəkləşdirməyə başladı: öz səfiri Abdulbaqi xanı həmin məqamda Tiflisdə olan Osmanlı səfiri Gəncəli Paşa ilə görüşə göndərdi. Həmin görüş 1149-cu hicri ilinin şəvval ayında (1736-cı ilin mart ayında) keçirildi.Bu görüş zamanı iki türk dövlətinin səfirləri 1639-cu ildə Səfəvi və Osmanlı dövlətləri arasında imzalanmış Qəsri-Şirin müqaviləsinin şərtlərini nəzərdən keçirdilər. Əfşar dövlətinin nümayəndələri Osmanlı tərəfinə bu müqaviləyə Nadir şah Əfşar tərəfindən hazırlanmış bir sıra maddələrin artırılmasını təklif etdilər.

Nadir şah Əfşarın 1639-cu ilin Osmanlı-Səfəvi sülh müqaviləsinə əlavə olunmasını nəzərdə tutduğu həmin təkliflər, maddələr arasında aşağıdakılar da vardı: "Cəfəri" məzhəbinin İslamın beşinci məzhəbi qismində qəbul edilməsi; "Məscidül-haram"da olan sütunlardan birinin "Cəfəri" məzhəbinin imamlarına aid olduğunun elan edilməsi; İran (Əfşar – X.Q. və D.Ə.) zəvvarları üçün normal şəraitin yaradılması; əsir düşmüş şəxslərə xüsusi münasibət göstərilməsi; hər iki dövlətin rəsmi saraylarında səfirliklərin normal fəaliyyəti üçün şəraitin yaradılması və bu fəaliyyətin təmin edilməsi [11, s. 53; 9, s. 31; 10, s. 35, s. 36-42; 13, s. 308, s. 309].

Osmanlı Sultanı I Mehmet Nadir şah Əfşarın dostyana, səmimi əməlini müsbət qarşıladı. Hər iki dövlətin nümayəndələri qarşılıqlı münasibətlərin normal məcraya salınması məqsədilə 8 dəfə görüşdülər. Dövrün mənbələrindən və mövzu ilə bağlı olan elmi ədəbiyyatdan məlum olur ki, İstanbuldakı Mühsinzadə sarayında baş tutmuş müzakirələrdən sonra barışığın Nadir şah Əfşarın təklif etdiyi üç şərti üzrə razılaşma əldə edildi. Siyasi və dini ziddiyyətlər ucbatından "Cəfəri" məzhəbi və mehrabı ilə bağlı olaraq müzakirə edilmiş məsələlər özünün müsbət həllini tapmasa da, bu məsələlərin Əfşar

dövlətində müzakirəsinin davam etdirilməsi üçün Osmanlı səfir heyətinin tərkibinə ilahiyyatçılar da daxil edildilər. Nadir şah Əfşar Osmanlı səfir heyətini böyük səmimiyyətlə qarşıladı. Nadir şah Əfşar təklif etdiyi üç şərtin Osmanlı Sultanı I Mehmet tərəfindən qəbul edilməsinə nail olsa da, o, "Cəfəri" məzhəbi və mehrabı ilə bağlı olan məsələlərin həll olunmasından narazı qalmışdı. Həll olunmamış problemlər Nadir şah Əfşarı daim narahat edirdi və onun İstanbula gələn səfirləri həmin məsələləri yenidən müzakirə obyektinə çevirməyə can atırdılar. Osmanlı Sultanı I Mehmetin fəaliyyətinin öyrənilməsindən məlum olur ki, o da "məzhəblərə dair məsələnin" müsbət həll olunmasında maraqlı idi.

Nadir şah Əfşar "məzhəblərə dair məsələ"nin müsbət həllinə çox ciddi surətdə yanaşırdı. Onun Bağdad valisi (canişini) Əhməd Paşaya ünvanlandığı məktubunda qeyd edilmişdi: "Əgər bu məsələ həll olunmasa, iki dövlət arasında müharibə baş verə bilər".Bununla yanaşı Nadir şah Əfşar "məzhəb problemi"nin həll olunması məqsədilə öz dövlətinin sərhədləri daxilində ən qəti tədbirlər gördü. Onun Bağdad canişini Əhməd Paşaya ünvanladığı məktubunda qeyd edilirdi ki, o, "xütbələrdə (müsəlmanlara müraciətdə - X.Q. və D.Ə.) "mömin xəlifələrin" – Əbubəkrin, Ömərin və Osmanın adlarının xatırladılması haqqında fərman vermişdir". Bundan başqa Nadir şah Əfşar oxunan xütbələrdə "Əliyyən vəliyullah" ("Əli Allahın valisidir, canişinidir" – X.Q. və D.Ə.) cümləsinin ifadə olunmasını qadağan etdi, belə bir göstəriş verdi ki, "Əli"nin adı əski "raşidi xəlifələrinin" adları ilə yanaşı, eyni səviyyədə xatırladılsın [18, s. 73].

Özünün dini islahatını həyata keçirməyə cəhdlər göstərən Nadir şah Əfşar Nəcəf şəhərində nüfuzlu sünni və şiə ilahiyyatçı-alimlərinin müşavirəsini çağırdı. O, Bağdad canişini Əhməd Paşaya təklif etdi ki, həmin müşavirəyə nüfuzlu sünni ilahiyyatçı-alimini göndərsin və bu alim müzakirələrə rəhbərlik etsin, şiə və sünni alimləri arasında kəskin mübahisələr meydana çıxacağı hallarda barışdırıcı, hakim rolunda çıxış etsin.

Nadir şah Əfşarın Bağdaddakı canişini belə bir qənaətə gəldi ki, Bağdad paşalığında rəhbər din xadimlərindən biri olan şafei alimi Şeyx Abdullah əl-Şuveydi belə bir şəxs ola bilər [2, s.41; 17, s. 278-279]. Nadir şah Əfşarın əmrinə əsasən Orta (Mərkəzi) Asiyanın və Əfqanıstanın sünni nümayəndələrindən ibarət olan heyət Nəcəf şəhərinə gəldi. Orta (Mərkəzi) Asiya və Əfqanıstan nümayəndə heyətlərinin tərkibinə Hadi Xacə, Buxara qazisi, Molla Həmzə və digər tanınmış din xadimləri daxil idilər. Şeyx Abdullah əl-Şuveydinin "Vəqayinameyi Nadir şah dər məzahibi şiiyye-cəfəriyyə" ("Nadir şah dövrünün şiiyyə və cəfəriyyə məzhəbləri ilə bağlı olan hadisələri") əsərindən bu da məlum olur ki, 1156-ci hicri ilinin şəvval ayının 24-də (1743-cü miladi ilinin noyabr-dekabr ayında) İslam dininin birliyini arzulayan Nadir şah Əfşar İslam aləminin alim-ilahiyyatçılarının cəmləşməsinə və müşavirəsinə nail oldu. Həmin müşavirə Nəcəf yaxınlığındakı Muğan

səhrasında keçirildi. Həmin əsərdən o da məlum olur ki, Bağdad canişininə tabe olan Nəcəf və Hillə alimləri müşavirədə, mübahisələrdə iştirak etmiş İran, Türküstan və Əfqanıstan alim-ilahiyyatçıları ilə razılığa gəldilər və 1743-cü ilin dekabr ayının 11-12-də dörd sənəd (vəsiqənamə) tərtib edib, bu barədə bəyanat verdilər. Həmin sənədlərdən görmək olar ki, bu müşavirədə iştirak etmiş əks tərəflər şiələr və sünnilər arasında meydana çıxan mübahisəli, münaqişəli məsələləri müsbət surətdə həll etmək istəyirdilər. Halbuki, Şeyx Abdullah əl-Şuveydi-əfəndinin əsərində bütün "raşidi xəlifələrinin" tanınmasından, "səhabələrin" təhqir olunmasının qadağan edilməsindən, bu sənədlərdə "raşidi düşüncəsi" ifadəsinin qadağan olunmasından bəhs olunmur.

Müşavirə iştirakçılarının İstanbula – Osmanlı Sultanı I Mehmetə göndərdikləri müraciətində belə bir faktın vacibliyi qeyd edilmişdir ki, "Cəfəri" məzhəbi Əfşar dövlətinin hüdudlarında artıq əsas məzhəb qismində qəbul edilmişdir, habelə bu məzhəbin ali Osmanlı ruhaniliyi tərəfindən də İslamda beşinci məzhəb qismində qəbul olunmasının vacib olduğu da danılmaz gerçəklikdir. 1743-cü ildə Nəcəf müşavirəsində qəbul olunmuş sənədlər əsasında şiə müsəlmanlar sünni xəlifəsindən (yəni Osmanlı sultanından – X.Q. və D.Ə.) Məkkə ziyarətgahında öz dini ayinlərini gerçəkləşdirmək üçün ayrıca bir sütun tələb etmək hüququ əldə edir.Bununla da Şafei sütununun müştərək sahibinə çevrilirdilər. Şiə-müsəlmanlar Nəcəf müşavirəsinin qəbul etdiyi sənədlər əsasında ilk üç xəlifənin (Əbubəkrin, Ömərin və Osmanın) "həqiqiliyini" ("raşidi" olduğunu – X.Q. və D.Ə.) qəbul edir, Bağdad paşalığının və Orta (Mərkəzi) Asiyanın ilahiyyatçı-alimləri isə Cəfər əs-Sadiqin "müqəddəsliyini" etiraf edirdilər. Həmin dini sənədlər Bağdad müftisi Yasin Əfəndinin möhürü ilə təsdiq edildi [12, s. 2; 2, s. 41; 17, s. 278-279]. Qeyd edək ki, Nadir şah Əfşar bütün hakimiyyəti dövründə israrla "Cəfəri" məzhəbinin Osmanlı imperiyası tərəfindən tanınmasına can atmış, lakin hər dəfə Osmanlı sultanından mənfi cavab almışdı.

Kəskin dini məsələni həll etdikdən sonra Nadir şah Əfşar dünya hökmdarı olmaq arzusunda idi. O, öz təbəələrinə - xristianlara çox səmimi və istiqanlıqla yanaşır, xristianların dini həyatına müdaxilə etmirdi. Nadir şah Əfşar əcnəbi missionerlərin öz imperiyasının hüdudlarına daxil olmasına maneçilik törətmirdi. Onun hakimiyyəti dövründə İsfahan şəhərində yezuitlər və karmelitlər müstəqil fəaliyyət göstərirdilər. Məsələn, həmin dövrün ilkin qaynaqlarına əsaslanmış L.Lokkart yazmışdır: "Nadir şah Əfşarın Hindistana hərbi yürüşü göstərdi ki, o, dünya imperatoru olmaq niyyətindədir. Məhz bu hərbi yürüş zamanı onu müqəddəs "Quran"ın 48-ci ("Fəth") surəsinin 29-cu ayəsi maraqlandırmışdı" [17, s. 334]. Nadir şah Əfşar "İncil"in, "Tövrat"ın və "Quran"ın tərcümə olunması haqqında fərman vermişdi. O, həmin müqəddəs kitabların tərcümələri əsasında belə bir nəticəyə gəlmişdi ki, dünyada bir Allah mövcuddur, habelə bir Peyğəmbər olmalıdır, son, daha mükəmməl din İslamdır.

Beləliklə, Nadir şah Əfşar dünya imperatoru olmaq üçün özünün dini siyasətini müəyyənləşdirmişdi.

Nadir şah Əfşarın İslamın birliyinə, vəhdətinə yönəlmiş islahat cəhdləri uğurla nəticələnmədi. Buna Osmanlı imperiyasının ali müsəlman ruhaniliyi və məmurlar kütləsi maneçilik törətdi. Osmanlı imperiyasının ali siyasi dairələri, habelə sultanların əzəmətli iddiaları da Nadir şah Əfşarın istəkləri qarşısında əngəl oldu. Osmanlı sultanları da dünya hökmdarı olmağa can atırdılar. Nadir şah Əfşar da özünü "Əmir Teymurun varisi" hesab edirdi. O da "sələfi" kimi tək-müsəlman imperiyasını yaratmağa, sonra isə dünya hökmranlığına can atırdı. Tezliklə Osmanlı imperiyası özünün qürub çağına daxil oldu. Ömrünün əsas hissəsini hərbi yürüşlərdə, müharibələrdə, onun hakimiyyətinə qarşı çıxmış üsyanların, qiyamların yatırılmasında keçirmiş Nadir şah Əfşar isə saraydaxili qəsd nəticədində öldürüldü... Avropanın qabaqcıl, məqam, fürsət gözləyən müstəmləkəçi dövlətləri bu "əlverişli imkandan" istifadə edərək tezliklə Asiyanın və Afrikanın müxtəlif bölgələrində əsaslı surətdə möhkəmləndilər...

## Ədəbiyyat


1. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı: Elm, 1999, 584 s., s. 347-391.
2. Gözəlova N.R., Bağırov Ə.D. XVIII əsrin 30-40-cı illərində Nadir şah Əfşarın Bağdada hərbi yürüşləri. Bakı: Elm və təhsil, 2008, 152 s.
3. Hüseynov E.İ. Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə. Bakı: Elm, 2013, 224 s. s. 17, s. 26
4. Quran. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov və V.V.Məmmədəliyev. XVII nəşr. Bakı: Nurlar, 2015, 610 s.
5. Mahmudov Y.M., Mustafazadə T.T. Nadir şah Əfşar: Tarixin gedişini dəyişdirən dahi sərkərdə. Bakı: Turxan NPB, 2019, 248 s.
6. Nadir şah Əfşar. Diplomatik yazışmalar. Elmi redaktoru: R.Ə.Mehdiyev. Bakı: Şərq-Qərb, 2015, 224 s.
7. Süleymanov M.C. Nadir-şah. Tehran: 2010, 740 s.
8. Albayrak Recep. Türklərin İranı. II cild. Türkcədən çevirən: Ramiz Əsgər. Bakı: Mütərcim, 2016, 628 s.
9. Babek Şahed. Dürrü-Nadiriiye göre Nadir şah ve dönemi. Tercüme ve değerlendirme. Yeksek lisans tezi. Ankara: 2016, 400 s.
10. Mahmud – Nadir şah Mektublaşmaları. Numaralı Name-i Hümayun Defteri (Transkripsiyon Tıpkıbasım. İstanbul: Bion Matbaaçılık, 2014, 367 s.
11. Osmanlı Arşiv kaynakları işığında Nadir şah. Y. Mahmut Ehli Sünnet-şii diyaloğlu. Hazirlayan Saim Arı. Doktora İslam Mezhepleri Tarihi Bilim Dalı. Şanlıurfa: 2001, 172 s.

12. Özer Alaettin. Vekayi name-yi Nadir Şah dər məzahib-i Şiəyye-i Caferiyye. Yeksek Lisans tezi. İstanbul: 1990, 111 s.
13. Sümer Faruk. Oğuzlar (Türkmenler). Tarihleri – Boy teşkilatı – Destanları. İlavelerle III Baskı. İstanbul: Milli Eğitim Basımevi, 1980, 701 s.
14. Hanway J. An historical account of the British trade over the Caspian Sea: with the autors jornal of travels from England through Russia into Persia and back through Russia, Germany and Holland. Vol. II. London: Publishing house: Osborne (u.a.), 1754, 524 p.
15. Аббас-Кули-Ага Бакиханов. Гюлистан-и Ирам. Редакция, комментарии, примечания и указатели академика АН Аз. ССР З.М.Буниятова. Баку: Элм, 1991, 304 с.
16. Гёзалова Н.Р. Вопросы истории Азербайджана XVIII века (на основе сведений англоязычных источников и историографии). М.: «ИРИС ГРУПП», 2010, 244 с.
17. Локкарт Л. Надир-Шах. Критическое исследование на основе первоисточников (Лондон - 1938). Перевод с английского Н.Р.Гёзаловой. Баку: Ганун, 2004, 396 с.
18. Flor Wilm. Nadir şahın hökuməti Holland mənbələrində və hekayətlərində. Fars dilinə tərcümə Əbülqasimindir. I nəşri. Tehran: “Tes” nəşriyyatı, 1368 (1989), 259 s. (fars dilində).

**UOT 94**

# XV-XVI ƏSR SƏFƏVİLƏR DÖVRÜNDƏ TACLI BƏYİMİN İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ

***Zəhra Məhərrəm qızı Qəniyeva.***
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
zehra.qeniyeva@mail.ru

**Açar sözlər:** *qadın, Taclı, Osmanlı,Səfəvi, tarix, Çaldıran*

*Azərbaycan qadınları hələ qədim dövrlərdən dövlətin ictimai-siyasi həyatında, həmçinin, mədəni, iqtisadi və digər sahələrdə çox mühüm rol oynayıblar. Məqalədə XV-XVI əsrlərdə yaşayıb-yaratmış, Azərbaycan tarixində əvəzsiz rolu olan Taclı bəyimin ictimai-siyasi fəaliyyətindən bəhs olunur. Taclı xanım bəzi mənbələrdə "Bigə xanım" olaraq da qeyd edilir. Taclı bəyim Şah İsmayılın sarayının idarə edilməsində böyük nüfuza malik idi. Araşdırmalar göstərir ki, Taclı Bəyim həm də döyüşçü bir qadın olub. Bunu onun Çaldıran döyüşünə könüllü getməsi və döyüşdə yer alması da təsdiq edir.Taclı bəyimin vəsiyyətinə görə, bütün varidatı xeyriyyə qurumlarına bağışlanıb. O, Şah İsmayılın vəfatından sonra siyasi səhnədə olmuş və Səfəvi dövlətində müxtəlif xeyriyyə aksiyaları təşkil etmişdir.Həmçinin, mübahisəli məsələ olan onun "əsir alınması" iddiasının absurd fikir olduğuna aydınlıq gətirilir.*

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ АКТИВНОСТЬ ТАДЖЛЫ БЕИМА В ПЕРИОД СЕФЕВИДОВ XV-XVI ВЕКОВ

***Захра Магеррамгызы Ганиева***

**Ключевые слова:** *женщина, Таджлы, Сефеви, Османлы, история,Чалдыран*

*Азербайджанские женщины с древнейших времен играли очень важную роль в общественно-политической жизни государства, а также в культурной, экономической и других сферах. В статье рассказывается о общественно-политической деятельности Таджлы Бейима, жившего в XV - XVI веках и создавшего свою незаменимую роль в истории Азербайджана. Таджлы Бейим также упоминается в некоторых источниках как «Biga Lady». У Таджлы Бейим была великая власть в управлении Дворцом Шаха İsmayıl. Мы знаем из исследований, что Таджли Бейим - боевая женщина. Это подтверждает его добровольный*

*поход против Чалдырана и участие в битве. По завещанию правительницы всё наследство было подарено благотворительным учреждениям. Тот факт, что Таджли Бейимпосле смерти Шаха Исмаила находится на политической сцене и организует различные благотворительные акции в государстве Сефеви, доказывает, насколько абсурдно его требование «плена», что стало спорным вопросом. Тот факт, что Таджли Бейим после смерти Шаха Исмаила находится на политической сцене и организует различные благотворительные акции в государстве Сефеви, доказывает, насколько абсурдно его требование «плена», что стало спорным вопросом.*

## SOCIO-POLITICAL ACTIVITY OF TAJLA BEIM DURING THE SAFAVIDS OF THE XV-XVI CENTURIES

***Zahra Ganiyeva***

**Key words:***woman, Tajli, Osmanli, Safavi, history,Chaldyran*

*Since ancient times, Azerbaijani women have played a very important role in the socio-political life of the state, as well as in cultural, economic and other spheres. The article talks about the socio-political activities of Tajli Beim, who lived in the XV-XVI centuries and created his irreplaceable role in the history of Azerbaijan. The TajliBeim is also referred to in some sources as "Biga Khanum". The Tajli Beim had great authority in the management of the İsmayıl Shah Palace. We know from research that Tajli Beim is a fighting woman. This confirms his voluntary campaign against Chaldyran and participation in the battle. According to the will of the ruler, the entire inheritance was donated to charitable institutions. The fact that Tajli Beim after the death of Shah İsmail is on the political scene and organizes various charity events in the state of Safavi proves how absurd his demand for "captivity" is, which has become a controversial issue.*

Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər imperiyasının banisi Şah İsmayıl Xətainin xüsusi yeri vardır. Şah İsmayıl Xətai 1487-ci il iyun ayının 23-də Ərdəbil şəhərində anadan olmuşdur. Onunbabalarından biri Şeyx Cüneyd, atası isə Şeyx Heydər idi. O, ana tərəfdən də köklü bir ailəyə məxsus olub. Anası Aləmşahbəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi.Ömrünün 38-ci ilində vəfat edən Şah İsmayıl Azərbaycanla bağlı arzularından və istəklərindən ayrılmalı olur. Şah İsmayılın bu mübarizəsi vahid Azərbaycan dövləti yaratmaq istəyindən irəli gəlirdi. O, Azərbaycan - türk dilini dövlət

dilinə çevirmiş, ölkənin siyasi, ictimai, iqtisadi və mədəni inkişafında inanılmaz dərəcədə böyük işlər görmüşdür [3].

Məqalədə görkəmli dövlət xadimi, şair Şah İsmayıl Xətaidən deyil, onun cəsur, vəfalı, dəyanətli həyat yoldaşından-16 il Səfəvilər dövlətinin Şahbanusu olmuş Taclı bəyimdən (1488, Ərdəbil – 1540, Şiraz) bəhs edəcəyik. Əsil adı Şahbigə olan bu xanımın sonradan dövlət xadimi və şairi Xətai tərəfindən verilən yeni ismi, daha doğrusu ləqəbidir.

Bir qədər tarixə ekskurs edək: Bütün dövrlərdə Azərbaycan xalqının tarixi elə ciddi örnəkləri irəli sürür ki, bu nümunələr əsasında Azərbaycan qadınlığının tarixini, onun keçdiyi ağır və məşəqqətli, eyni zamanda böyük, şərəfli yolu dünya ictimaiyyətinə təqdim etmək böyük bir başucalığıdır. Azərbaycan gerçəkliyində, ictimai-siyasi həyatında həqiqətən də qadına və anaya yüksək qiymət verilmişdir. Cəmiyyətin idarə olunmasında, dövlətin formalaşmasında, eyni zamanda, gənc nəslin tarixi ənənələr və müqəddəs amallar əsasında tərbiyə olunmasında qadının yüksək rolu danılmaz olmuşdur [2].

Qadın məsələsi, qadın anlayışı həmişə böyük araşdırmalar, tədqiqatlar tələb edən mövzu olmuşdur. Hələ qədim zamanlardan bu dövrə qədər bu mövzu ətrafında geniş söhbətlər açılmış, əsərlər, kitablar yazılaraq oxuculara təqdim edilmişdir.

Tariximizin hər dövründə qadınlar öz gözəlliyi, ləyaqəti ilə yanaşı, həm də cəsurluğu, idarəetmə işlərində göştərmiş olduqları şücaətləri, dahiyanə fikirləri ilə seçilmiş, kişilərlə eyni hüquqa malik olduqlarını həmişə xatırlatmışlar. Təsadüfi deyil ki:

“Qadın Günəş, çocuq Ay,nuru Ay Günəşdən alır,
Qadınsız ölkə çapuq,məhv olur, zavallı qalır.
Qadın gülərsə şu issız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək!” – deyə dahi Hüseyn Cavid qadını vəsf etmişdir.

Yer üzündə bütün istək, arzu, məhəbbət qadının varlığı iə üzə çıxır. Həyatın da, incəsənətin də gücü məhz bundadır. Qadın və onun gözəlliyi ilham mənbəyi, yaradıcılıq eşqi olduğu üçün dünya mədəniyyəti, incəsənəti yüksək səviyyəyə çatmışdır. Bu gün Avropanın, Amerikanın müzeylərinə, şəkil qalereyalarına baxanda nə qədər gözəl qadın surətləri, qadın fiqurlarına rast gəlirik. Bu əsərlərdəki qadınların duruşunda və simasındakı nəciblik və gözəllik estetik zövqümüzü oxşayır, qadınlığa, onun bəşər sivilizasiyasındakı böyük roluna məhəbbətimizi artırır. Həyatın başlanğıcı, məhəbbətin özülüdür – qadın [6].

IX-XVIII əsrlər, həmçinin ayrı-ayrı orta əsr Şərq dövlətlərindəki müsəlman renessansı dövründə görkəmli müsəlman qadınlarının fəaliyyətinin işıqlandırılması ilə maraqlıdır. Məhz bu qadınlar da, daha doğrusu, hökmdar

qadınlar da həmin dövrlərdə mənsub olduqları dövlətlərin idarə edilməsində, xalqın taleyi üçün mühüm qərarların alınmasında yaxından iştirak etmişlər. İslam dininin yayılması ilə qadın müəyyən hüquqlara malik olmuşdur.

Yavuz Sultan Səlim və Şah İsmayıl arasında reallaşan Çaldıran döyüşünün vacib, eləcə də mübahisəyə səbəb olan müzakirə mövzularından biri Şah İsmayılın həyat yoldaşı və ya həyat yoldaşlarının Osmanlılar tərəfindən əsir götürülüb-götürülmədiyi məsələsidir. Şah İsmayılın hamısı hamilə olan üç həyat yoldaşının olduğu və bunlardan Taclı bəyim (Taclı xatun) və Bəhruzə adlı həyat yoldaşlarının Osmanlılar tərəfindən əsir götürüldüyü dövrün mənbələrindən başa düşülür. Ancaq bu günə qədər bir çox tədqiqatçının yaxından araşdırdığı bu mövzu tam aydınlaşdırılmamışdır. Bunda dövrün tarixçilərinin verdiyi məlumatları dəstəkləyən başqa sənədlərin olmaması və ya tapılmamasının da böyük təsiri vardır.

Şah İsmayılın həyat yoldaşları arasında yer alan Taclı Bəyimin hansı ailəyə mənsub olması mövzusunda bəzi fikir ayrılıqları mövcuddur. Bu məsələnin müzakirə mövzusu olmasından daha çox onun Çaldıran döyüşünə qatılıb-qatılmadığı və döyüşdən sonra Osmanlılar tərəfindən əsir götürülüb-götürülməməsidir. Səfəvi mənbələri Taclı bəyimin Çaldıran döyüşünə qatıldığını və iki günlük itkin düşməsindən başqa Şah İsmayılın yanından heç ayrılmadığını yazır. Taclı bəyim Şah İsmayılın yaralandığını bilən kimi döyüşə qatılmış, döyüş meydanından qaçması deyiləndə ortadan itmişdir. Döyüşün sonunda Səfəvi qüvvələri böyük qarışıqlıq içinə düşmüş və qoşunların hər biri ayrı bir tərəfə qaçmışdır. Döyüşdə məğlub olandan sonra Çaldırandan ayrılan Şah İsmayıl Təbrizdə Taclı xanımı axtarmış, və bir-iki gün sonra, tapılan Taclı xanım Şahın yanına gətirilmişdir.

Salnaməçilərin yazdığına görə Taclı bəyim Mosullu tayfasından olan Həmzə bəy Bektaşlının oğlu Mihmad Bəyin qızı olub. Başqa bir tədqiqatda da guya Şah İsmayıl onu əsirlərin içində görərək bəyənib. Onlar evlənəndə Taclı bəyimin 14-15 yaşı olub. Təəssüf ki, bu xanımın fəaliyyəti, həyatı, övladları, bir sözlə taleyi ilə bağlı söylənilən fikirlər bəzən bir-birinə uyğun gəlmir, bəzən də mübahisəli, məntiqsiz görünür [5].

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixində mühüm bir dövr təşkil edən Səfəvi dövlətinin quurulması, ən görkəmli zamanı Şah İsmayılın adı ilə bağlıdır. Azərbaycanın məşhur qadınlarından, tarixdə Taclı Bəyim adı ilə tanınan Şah İsmayılın həyat yoldaşının taleyi barədə qaranlıq məqamlara toxunaraq onun portretini müzakirə etmək mühüm məsələlərdən biridir. Tac işarəsi bu günə qədər gəncliyimiz üçün fədakar, cəsur və həyat yoldaşının döyüş dostu kimi güclü bir məqamdadır. Çoxsaylı tarixi mənbələr Taclı xanımın bu savaşda Osmanlılar tərəfindən bir yolla ələ keçirildiyini göstərir. Səfəvilər dövləti tarixində "ən böyük məğlubiyyət" kimi xatırlanan dəhşətli Çaldıran döyüşü haqqında məlumat verən Osmanlı mənbələri təəssüf ki, Taclı

bəyimin ələ keçirilməsini geniş, hətta şişirdilmiş şəkildə bir neçə versiyada təsvir etsələr də, Səfəvi mənbələri bu hadisə barədə susmağa üstünlük verdilər. Osmanlı tarixçiləri, Çaldıranda Şah İsmayılın tacı ilə birgə həyat yoldaşı Taclının da ələkeçdiyini və daha sonradan Sultan Səlimin yaxın əyanlarından olan Cəfər Çələbi ilə Taclı bəyim arasında bir evlilik qurduqlarını qeyd edirlər [1].

Səfəvi müəllifləri, bunun əksinə, şahın sevimli xanımının ömrünün sonuna qədər onun yanında olduğunu iddia edir; Çaldırandan sonrakı illərdə gördükləri təmir və xeyir-sədəqə işlərini göstərməklə, bu iddianı belə gücləndirirlər. Bu mənbələrin əksəriyyətində Taclı xanımın dövlət işlərində yaxından iştirak etdiyi və hətta Şah İsmayılın qəzəbinə tuş gələnlərin ona sığındığı barədə məlumatlar da vardır. Bundan əlavə, bəzi Səfəvi mənbələri onun əsir götürüldüyünü təsdiqləsə də, əsirliyin yalnız bir gün davam etdiyini və Taclı Bəyimin üzərindəki qiymətli zinət əşyalarını verərək Osmanlıların əlindən qurtulduğunu bildirirlər. Bu vəziyyətdə Çaldırandan sonrakı iki günlük boşluğu nə Osmanlı, nə də Səfəvi tarixçiləri doldura bilmədiyi üçün, bu şübhələr, ən əsası, əks fikirlər yaradır. Şah İsmayılın xanımı Taclı Bəyimin soykökü, həyatı, Çaldırandan sonrakı taleyi, eləcə də, fars və türk mənbələrinə əsaslanaraq onun dövlət işlərinə qatılmağı, təmir və xeyriyyə işlərində iştirakı haqqında məlumatlar vardır.

Əsl adı Şahbigə olan Taclı xanım, Qaraqoyunlu Mosullu tayfasındandır. Avropalı tarixçilər (məsələn, ingilis tarixçisi R.M.Savori) venesiyalı səyyah Angiolellonun verdiyi məlumata əsaslanaraq, Taclı bəyimin Ağqoyunlu sultanı Yaqubun qızı və ya nəvəsi olduğunu qeyd edirlər. Taclı xanım bəzi mənbələrdə “Bigə xanım” olaraq da qeyd edilir. Bu sözün qədim türkcə “big/beg” (bəy) sözündən yarandığı məlumdur. “Taclı” isə onun ləqəbi idi. Bu ləqəb ona I Şah İsmayılla evləndikdən sonra verilmişdir. Mənbələr ondan “Taclı xanım”, “Taclı Bəyim” və “Şah Bigə xanım” kimi bəhs edirlər. Hürşah ibn Qubad əl-Hüseyni Səfəvilərin tarixinə dair bir mənbə hesab olunan “Tarix-i Elçi-yi Nizamşah” adlı əsərinin “Dinin pənahı Həzrəti Şahın dəyərli inci Taclı xanımla zifafının zikri” bölümündə “Taclı xanımın şərhi-halı belədir ki, o, Mosullu tayfasının görkəmli xanımlarından biri idi” yazılır. Eyni zamanda, bu mənbə Bigə xatun haqqında ən geniş məlumat verən mənbədir. Budaq Münşi Qəzvini Cəvahirül-Əhbarda Taclının Mosul türkmənlərindən olduğunu qeyd etmişdir. Naməlum müəllif “Tarix-i Aləm-Arayi Şah İsmayıl” adlı əsərdə Taclının Şamlı türkmənlərindən Abidin xanın qızı olduğunu bildirir [4].

Sadəddin Əfəndi və Baş hakim Əhməd Dədə kimi bəzi Osmanlı tarixçiləri Şah Təhmasibin anası olan Taclının Şah İsmayılın nigahlı yoldaşı olmadığını, məşuqəsi olduğunu iddia etsə də, əksəriyyət onun həyat yoldaşı olduğunu sübut edir. Yenə Budaq Münşi,onların evlilikləri haqqında bunları söyləyir: “Şah İsmayıl 909\1504-cü ildə Farsa getdi və..... Gül Xəndan,

Firuzkuh, Asta, Har, Dəmavənd qalalarının fəthinə başladı. Türkmənlər bu qalalara sığınmışdılar.... Sıra Asta qalasına gəlmişdi. Qalanın suyu tükənmiş, nəhayət təslim olub və Hüseyn Kiyay Çələbi tutulmuşdur. Bigə Mosuldan gələn tibb bacısı ilə şahın hərəminə gəlmişdi. Gözəllik və lətafətdə şöhrət qazanmış, buna görə dəTac adı ilə adlandırılmışdır. Şahın ömrünün sonuna qədər iffət və əzəmət pərdəsi altında yaşamışdır ... [9].

Səfəvi tarixinin önəmli tədqiqatçısı, Avropa yazıçılarından biri olan Maria Szuppe də Taclı xatunun türkmən olduğunu və “Hanome-mosullu” kimi tanındığını qeyd edir. “Şahın da türkmən arvadları var idi. Bunlardan biri Şah Bigə xanım olmuşdur ki, (1540-cı ildə vəfat etmişdir) o da Taclı xanım adı ilə məşhurdur. O, həyat yoldaşının ən əsas məsləhətçisi olmuş və sonralar oğlu Şah Təhmasibin taxtının arxasında dayanan güc idi.

Digər bir mənbə Taclı xanımın Şah İsmayılın sarayının idarə edilməsində çox böyük nüfuzu olduğunu, hətta sonradan qızı Məhin Banu “Şahzadə Sultan” ilə (1561-62-ci illərdə vəfat etmişdir) oğlu Şah Təhmasibə diqqət mövzusunda yarışdığını yazır.

Səfəvi tarixini araşdıran Maria Szuppe belə yazır: “I Şah İsmayılın həyat yoldaşı Taclı xanımın Mərkəzi İranın müxtəlif türbələrinə vəqf olaraq hədiyyə etdiyi əkin sahələri, üzüm bağları və kəndləri var idi. O, Ərdəbildə Səfəvi şeyxlərinin məqbərəsinin bəzək işlərini və Miyanədəki Dohter körpüsünü yenidən inşa etdirmişdir. O dini qurumların yaradılmasını təşviq etməklə məşhur idi[12].

Səfəvi Səltənətgahı: Memarlıq, Din və Güc Müasir dövr İran müəllifi Kişvar Rizvişu qeyd edir ki, Şah İsmayılın məqbərəsi Şeyx Səfi türbəsinə yaxın kiçik bir yerdə inşa edilmişdir. Əhəmiyyətli olan budur ki, Şah İsmayılın dəfn məsrəflərini onun dul həyat yoldaşı Taclı xanım adı ilə tanınan Şah Bigə bəyim qarşılamışdır. Taçlı xanım memarlığın ən aktiv və ən önəmli maliyyə dəstəkçilərindən biri idi. Vəqf sənədləri və tarixi xronologiyalara görə Taclı xanım Ağqoyunlu sülaləsindən zəngin və tərbiyəli olması, xeyriyyəçiliyi ilə tanınanbir xanım idi. Qazi Əhməd Gummi onun öz mülklərinin böyük bir hissəsini Qumdakı Fatimə Məsumə türbəsinə vəqf olaraqhədiyyə etdiyini yazır. Buna əlavə olaraq Şah İsmayılın Ərdəbildəki Cennetsara türbəsinin binası üçün də çox pul xərcləmişdir. Qısaca bunu demək olar ki, 1524-cü ildə Şah İsmayılın vəfatından sonra Taclı xatun İran memarlığının əsas dəstəkçisi idi.

Osmanlı tarixində Taclı xanım kimi türk qadını barədə yaranmış səhv müddəalar sonrakı dövrlərdə də təkrarlanmışdır. Belə ki, ruslar da Gəncə xanı Cavad xanın həyat yoldaşı Sərvinaz xanımı əsir aldıqları haqqında yalançı şayiə yaymışdılar. Məhz bu da osmanlıların da Çaldıran döyüşündən sonra Şah İsmayılın zövcəsini əsir götürdükləri uydurması ilə oxşarlıq təşkil edir. Sərvinaz xanım da bir sıra hökmdar xanımları kimi rusların yürüşü başlayan kimi əyninə döyüş paltarını geyinib həmişə Cavad xanla bərabər vuruşmağa atılırdı. Cavad

xan iki dəfə qaladan çıxıb rusların sıralarını əzəndə, o, ərinin yanında olmuşdur [7,s. 74].

Seyidağa Onullahi "Taclı xanım" adlı məqaləsində onun haqqında tam obyektov və dürüst məlumatı vermişdir [10]. Eləcə də İran tarixçisi, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə üçcildlik "Xeyrati-həsan" əsərində yazır ki,: "Taclı xanım Şah İsmayıl Səfəvinin məhbubəsi olmuş, Çaldıran müharibəsində qaçarkən Məsih Paşazadəyə əsir düşmüş, lakin öz qiymətli yaqut sırğalarını verərək xilas olmuşdur [8].

Qərbdə aparılan bəzi Səfəvi araşdırmalarına baxdıqda nə yaxşı ki, onlar da Taclının Çaldırandan sonrakı müddətdə gördüyü xeyir işlərini nümunə göstərərək, birmənalı olaraq əsirliyi inkar edirlər. Məsələn, Andrew J. Newman "Rebirth of a Persian Empire" (İran İmperatorluğunun yenidən doğuşu") adlı əsərində aşağıdakı qənaətə gəlir: "Çaldırandan sonra İsmayılın Mosullu arvadı Taçlı xanım (1540-cı ildə vəfat etmişdir) Səfəvilərin on iki imam təriqətinin tanınmasında mühüm rol oynadı. 1522-ci ildə Varamin, Qum və Qəzvin ətrafındakı tarlalar, bağlar və kəndləri səkkizinciİmamın (İmam Rza(ə) bacısı Fatimənin Qumdakı türbəsinə vəqf olaraq bağışladı. Bununla yanaşı, o digər dini qurumların yaradılmasını da təşviq etmişdir. O, Şərqi Azərbaycan əyalətindəki körpünü yenidən bərpa etdirmiş; həyat yoldaşının hökmdarlıqla yanaşı Səfəvi sufi təriqətinin lideri olduğunu uca tutaraq İsmayılın Ərdəbildə inşa etdiyi düşünülən türbəsinin vacib hissələrinin inşası üçün maddi dəstək vermişdir [9].

Taçlı bəyim Şifahi Xalq Ədəbiyyatının dastan qəhrəmanına çevrilmişdir; "Tarixi Vaqiətül-Şah Xətai" (Şah Xətainin Dastanı; Prof. Məhəmmədhüseyn Təhmasib, Şah İsmayıl və Taclı bəyimhaqqında olan bu əsər belə adlandırılır) də vardır. Yuxarıda göstərilən mənbələr sırasına Şah İsmayılın lirik bir şeiri diqqəti cəlb edir.

"Dəmbədəm yol gözlərəm sevgili yarım gəlmədi,
Qalmışam qış möhnətində növbaharım gəlmədi.
Xeyli müddətdir ki mən ta ayrı düşdüm yarımdan,
Görmək üçün həddən ötdü intizarım, gəlmədi.
Xəstədir, misgin Xətai, bir misalında deyib,
Hüsn bağında cəmali gülüzarım gəlmədi.

Bir sıra Osmanlı tarixçiləri və digər müəlliflər Xətainin yuxarıda verilən lirik şeirinin məhz Taclı xanımın əsir düşdüyü günlərinə həsr etdiyi fikrinə gəlmişlər. Mənbələrin məlumatına əsasən, Taclı xanımın sarayda böyük nüfuzu olub. O, Şah İsmayılın qəbul etdiyi qərarlara təsir edə bilirmiş. Qəzəbini yumşalda bilirdi, ölüm fərmanının ləğvini bacarırmış. Çox mərhəmətli və əliaçıq bir xanım olmuşdur. Yaşayıb-yaratdığı müddət çərçivəsində daima insanlara kömək etmiş, qiymətli hədiyyələr ərməğan etmişdir. Mərd və qorxmaz

Taclı xanım həddən artıq gözəl və vəfalı olub. Mənəvi zənginliyi ilə xarici gözəlliyi bir-birini tamamlayırmış.

Tədqiqatlardan belə bəlli olur ki, onların bu evlilikdən iki oğlu, bir qızı olub: Övladları Təhmasib Mirzə, Bəhram Mirzə və Məhin Banu. Doğrudur, bu məsələ də dəfərqli fikirlər mövcuddur. Əksəriyyət təşkil edən bu məlumat daha inandırıcıdır.

Bigə xanım 16 il oğlu Təhmasibin adından Səfəvilər dövlətini təkbaşına idarə etmişdir. Lakin, ana ilə oğu larasında münasibətlər 1539-40-cı illərdə pozulmuşdur. Mənbələrə görə, bu tarixdə Təhmasib anasını zəhərləyib öldürtmək istəmişdi. Bunda Təhmasibin xanımlarının və qızlarının rolu olduğu ortaya çıxır. Ehtimal ki, onlar hərəmdə Taclı Bəyimin hakimiyyətindən narazı idilər [12].

Tarixi faktlara əsasən, Taclı Bəyimin 1540-cı və ya 1541-ci ildə vəfat etdiyi bildirilir. Xronoloji ardıcıllığa diqqət yetirsək, Taclı Bəyimin Şah İsmayılla 14-15 yaşında evləndiyini, o zaman onun 1488-89-cu ildə anadan olduğunu, 50-51 yaşında isə vəfat etdiyini aydınlaşdırmış oluruq. Vəsiyyətinə görə, bütün varidatı xeyriyyə qurumlarına bağışlanmışdır.

Beləliklə, bu araşdırmamızda Taclı xanım adı ilə tanınan Bigəbəyim haqqında bəzi məsələləri araşdırmağa çalışdıq. Onun həyatı, fəaliyyəti haqqında məlum olan, hətta məlum olmayan bəzi faktları belə müxtəlif alim və tarixçilərin fikirlərinə əsaslanaraq aşkar etməyə səy göstərdik.Və ən önəmlisi, Taclı Bəyimin Şah İsmayılın vəfatından sonra siyasi səhnədə olması və Səfəvi dövlətində müxtəlif xeyriyyə aksiyalarını təşkil etməsi faktı mübahisəli məsələyə çevrilən onun "əsir alınması" iddiasının nə qədər absurd olduğunu isbat edir.

## Ədəbiyyat

1. Akademik Tarih ve Düşünce Dergisi. Cilt:1/Sayı:4/Aralık/2014

2. Azərbaycan qadını ensiklopediyası.Bir cilddə. "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 404 səh. Şəkilli, Bakı, 2002. S-5)

3. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı. ―Elm‖. 2007. 504 səh. + 48səh. illüstrasiya

4. El-Hüseyni Hurşah bin Gubad. Tarih-iİlçi-yiNizamşah. Tarihi-Safeviyyeez Agaz ta Sali 972 hicrikameri, (Haz: Muhammed RızaNasiri-Koiçi Haneda), Tahran, 1379. s.27-28)

5. Flora Xəlilzadə "Hökmdar qadınlar" Vektor Beynəlxalq Nəşrlər Evi, Bakı 2019. 120 səh.

6. Gəncəli Məmmədov Sabir. Qadın, gözəllik və ülviyyət. (Ensiklopedik toplu). – Bakı, "Azərbaycan" nəşriyyatı, 2001 – 336 səh, s 322)

7. Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli. Gəncə. “Elm”. 2020. 255 səh.
8. Marağalı Məhəmmədhəsən xan Etimadüs səltənə Xeyrati-həsan, Bakı, “Nurlan”, 2009, 115 səh
9. Mir Caferi Hüseyin. TaclıHanım Zen-iSetihende-iÇaldıran, Neşriyye-iDanişkede-iEdebiyatveUlumiİnsani, Tebriz, sayı 112, 1353, s.472
10. S.M.Onullahi. Taclıxanım–Azərbaycan SSR EA Xəbərləri. Ədəbiyyat, Dil, İncəsənət, 1981 №1, s. 44-51
11. Uzunçarşılı İsmail Hakkı. Osmanlıtarihi. TDK, Ankara 1998, II. cilt, s. 265
12. http://anl.az/down/meqale/turkustan/2017/fevral/531002.htm

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2021, 2 (32), s.109-119**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ SUMQAYIT ŞƏHƏR ƏHALİSİNİN ETNİK VƏ SOSİAL TƏRKİBİNDƏKİ TƏKAMÜLƏ DAİR

***Gülnar Həmid qızı Bəşirova***
Azərbaycan hərb tarixi muzeyi
e-mail: gulnar.bsirova@mail.ru

**Açar sözlər:** *Sumqayıt, əhali, şəhər, sənaye*

*Müasir dövrdə Sumqayıt şəhərinin əhalisinin etno-sosial xüsusiyyətlərində müxtəlif dəyişikliklər özünü göstərir. Bu, açıq şəkildə şəhər əhalisinin dinamikasında, etnik və sosial quruluşunda özünü göstərir. XX əsrin sonlarında Sumqayıt şəhərinin etno-mədəni vəziyyətinin dəyişməsinə təsir edən amillər arasında 80-cı illərin sonlarından etibarən erməni separatizminin və 1988 -ci il Sumqayıt hadisələrinin güclənməsini qeyd etmək olar.*

*Sumqayıt şəhəri bütün sosial təbəqələrin nümayəndələrinin iştirak etdiyi bir məkandır. Eyni zamanda, bu şəhər çoxmillətli əhali ilə xarakterizə olunur. Fərqli millətlərdən olan insanlar burada özlərini yaxın bir ailənin üzvü kimi hiss edirlər.*

*Araşdırmalar sübut edir ki, nəzərdən keçirilən dövrdə Sumqayıt şəhəri Azərbaycan xalqının daha sıx birliyində, etnik və sosial həyatında kifayət qədər ciddi rol oynayıb.*

## ОБ ЭВОЛЮЦИИ ЭТНИЧЕСКОГО И СОЦИАЛЬНОГО СОСТАВА НАСЕЛЕНИЯ ГОРОДА СУМГАИТ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

***Гульнар Гамид гызы Баширова***

**Ключевые слова:** Сумгаит, население, город, промышленность

*В современный период произошли различные изменения в этносоциальных особенностях населения города Сумгаит. Это ярко проявляется в динамике численности городского населения, его этнической и социальной структуре. Среди факторов, повлиявших на произошедшие в конце XX столетия изменения в этнокультурном положении города Сумгаит, можно отметить усиление армянского сепаратизма начиная с конца 80-х годов, и сумгаитские события 1988 года.*

*Город Сумгаит является местом, где присутствуют все представители социальных слоев. В то же время этот город*

*характеризуется многонациональностью населения. Люди разных национальностей чувствуют себя членами дружной семьи.*

*Исследования доказывают, что в рассматриваемом периоде город Сумгаит сыграл достаточно серьёзную роль в более тесном единении, этнической и социальной жизни азербайджанского народа.*

## EVOLUTION OF THE ETHNIC AND SOCIAL COMPOSITION OF THE POPULATION OF SUMGAIT CITY DURING THE PERIOD OF INDEPENDENCE

***Gulnar Hamid gizi Bashirova***

**Keywords:** *Sumgayit, population, city, industry*

*Modern times there have been various changes in the ethnosocial composition of the population of the city of Sumgait. This clearly manifests itseef in the dynamics of the urban population, its ethnic and social structure. Among the factors that influenced the changes in the ethnocultural situation of the city of Sumgait at the end of the 20th century, one can note the strengthening of Armenian separatism, starting from the end of the 80s, and the Sumgait events of 1988.*

*Sumgait city is a place where all representatives of social strata are present. At the same time, this city is characterized by a multinational population. Peoples of different nationalities feel like members of a friendly family.*

*The investigations prove that the city of Sumgait has played a significant role in the closer unification, ethnic and social life of the Azerbaijani people in the considered period.*

Məlumdur ki, XX yüzilliyin sonlarında qazanılmış dövlət müstəqilliyinin ilkin illərində iqtisadiyyatın tənəzzülü və təsərrüfatın dağılması, siyasi hərc-mərclik və idarəçilik sisteminin iflic vəziyyətə düşməsi əhalinin müəyyən qisminin xarici ölkələrə miqrasiyasına səbəb oldu. Sumqayıtda da yaxşı mütəxəssislərin müəyyən hissəsi şəhəri tərk etdi. Sənaye müəssisələrinin öz fəaliyyətini dayandırması minlərlə insanı işsiz qoydu. Kütləvi işsizlik bütün şəhəri bürüdü. İllər boyu yığılıb qalan sosial problemlər əhalinin əsasən Bakıya axınına gətirib çıxartdı. Ulu Öndər Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində bazar iqtisadiyyatına keçidlə yanaşı özəlləşdirmənin aparılması, sahibkarlığın inkişafına kömək siyasəti nəticəsində insanların bir hissəsi yenidən iş yerləri tapdılar.

Əcnəbi şirkətlərin şəhərə gəlməsi və sənaye sahələrinə investisiya qoyması iqtisadiyyatın müəyyən qədər canlanmasına, yeni iş yerlərinin açılmasına səbəb oldu. Qloballaşma və dünyaya inteqrasiya bir çox yeni peşə və sənətlərin idxalına şərait yaratdı. Əvvəllər mövcud olmayan sosial qruplar meydana gəldi və s.

Bütövlükdə götürüldükdə XX əsrin son onilliyində Sumqayıt şəhərinin etnomədəni durumunda baş vermiş dəyişikliklərə təsir göstərən amilləri belə müəyyənləşdirmək olar: 80-ci illərin sonlarından başlayaraq erməni separatizminin güclənməsi, sovetlərin dağılması ilə əlaqədar olaraq 1988-ci il Sumqayıt hadisələri və rusların şəhərdən getməsi, şəhər əhalisinin sosial strukturunun formalaşmasına öz təsirini göstərən milli tərkibdə digər millətlərin azalmasını görmək mümkündür. Digər tərəfdən Ermənistandan kütləvi deportasiya olunan azərbaycanlıların müəyyən hissəsi Sumqayıt və onun ətraf ərazilərindən hesab olunan Sarayda məskunlaşdı. Onlar şəhərdə əhalinin say miqdarının saxlanılmasına və işçi qüvvəsinin balanslaşdırılmasına nail oldular. 1990 – cı illərdə Dağlıq Qarabağın işğalı nəticəsində məcburi köçkün ordusunun bir hissəsi şəhər və onun ətraf ərazilərində məskunlaşdı. Bunun ardınca iqtisadiyyatın tənəzzülü və təsərrüfatın dağılması, siyasi hərc-mərclik və idarəçilik sisteminin iflic vəziyyətinə düşməsi, peşəkar mütəxəssislərin şəhəri tərk etməsi, sənaye müəssisələrinin öz fəaliyyətini dayandırması, kütləvi işsizlik ordusunun yaranması, bazar iqtisadiyatına keçid, özəlləşdirilmənin aparılması, əcnəbi şirkətlərin müxtəlif sənaye sahələrinə investisiya qoyması, yeni iş yerlərinin açılması, iqtisadiyyatın sürətli inkişafı şəhərdə sosial təbəqələşmənin müxtəlifliyinə şərait yaratdı. Əvvəllər mövcud olmayan sosial qruplar meydana gəldi.

Məlumdur ki, Sumqayıtın əsasını qoymuş inşaatçılar 1955-ci ilin əvvəlindən keçən 4 ayda ümumi sahəsi 7 min 372 $m^2$ olan ya□ay□ş evlərini tikib istifadəyə vermişdilər. Onlar 1 may bayrami ərəfəsində 1635 $m^2$ sahəsi olan 4 yaşayiş binasini, 1 uşaq bağçasi və 1 orta m□kt□b binasini tikib qurtarm□şd□lar [10, s.3]. Həmçinin şəhərin energetika işçilərinin yaşadiqlari qəsəbədə mədəniyyət və istirahət parki salinmiş, burada mindən artiq ağac əkilmişdi. Onlarla küçənin ətrafi yaşillaşdirilmişdi. Şəhərdə fəhlələrin fərdi yaşayiş evlərindən ibarət olan energetiklər qəsəbəsində eyni tipli layihə əsasinda 150-dən artiq yaşayiş binasi inşa edilmişdi.1955-1957-ci illərdə corat qəsəbəsində 150-dən çox fərdi ev tikilmişdi. Köhnə evlərin yerində yeni yaşayiş binalarinin əsasi qoyulmuş, minlərlə bəzək ağaci əkilmiş, 10 hektardan çox üzüm baği salinmiş, qəsəbə tam elektrikləşdirilmişdir [17, s.1]. Şəhərdə əhali üçün yaşayiş evləri ilə bərabər ictimai və inzibati idarələr üçün də binalarin tikintisin□ diqq□t artirilmi□di. Sumqay□t şəhər icraiyyə komitəsinin 1955-ci il 1 sentyabr tarixli qərari ilə şəhərin 3-cü məhəlləsində yeni mehmanxananın inşasına başlanmışdır [2, s.101].

Yaşayış binalarının, mədəni-məişət obyektlərinin tikilməsi buraya gələn gənc miqrantların böyük əksəriyyətinin Sumqayıtda qalıb yaşamasına və çalışmasına, ailə həyatı qurmalarına səbəb olmuşdu. Buraya İttifaqın müxtəlif şəhər və kəndlərindən gələn gənclər müxtəlif təbəqələrə və sosial qruplara, millətlərə və xalqlara aid idi. Sumqayıta gələnə qədər müxtəlif təbii şəraitlərdə yaşayan bu insanlar eyni adət-ənənələrə, xarakterə və psixologiyaya malik deyildilər. Yeni adamlarla rastlaşan, çoxmillətli istehsal kollektivlərinə düşən, şəhər həyat tərzi və ritminə öyrəşən, yeni birgə yaşayış qaydaları ilə, müxtəlif adət və ənənələrlə rastlaşan adamlar – miqrantlar bütün bu amillərin təsirini öz üzərlərində hiss etməyə başlayırdılar [18, s.65].

Məlumdur ki, sovet dövründə Sumqayıtda məskunlaşan qeyri-azərbaycanlı əhalinin əksəri inzibati-idarəetmədə və xalq təsərrüfatı müəssisələrində əsasən yüksək vəzifələrdə və aparıcı işlərdə çalışırdılar. Onlar “beynəlmiləl Sovet Sumqayıtı”nın bir parçası idilər və şəhərin sosial-iqtisadi, mədəni həyatında mühüm rol oynayırdılar. Onların şəhəri tərk etməsi həmin dövrün “beynəlmiləl şəhər harmoniyası”na öz mənfi təsirini göstərdi. 1989-cu ilə qədər Azərbaycanda yaşayan 392 min nəfər rusdan 1989-cu ildə 46 mini, 1990-cı ildə isə 136 mini ölkəni tərk etdi [16, s.23]. 180 minə yaxın erməni əhalinin isə əksəriyyəti bu müddətdə Bakı və Sumqayıtdan köçdü [19, s.70].

Sumqayıt əhalisinin sosial təbəqələşməsi müxtəlif forma və məzmuna malikdir. Təbii ki, bu formaları olduğu kimi götürüb konkret məkana aid etmək də olmaz. Sumqayıt etnoqrafik baxımdan tarixən formalaşan məkandır və spesifik etnososial xüsusiyyətlərə malik olduğundan burada baş verən proseslər də ümumi inkişaf fonunda daim müəyyən dəyişikliklərlə müşayiət olunmuşdur. Sovetlər dövründə şəhərin milli tərkibinin xeyli dərəcədə müxtəlifləşməsi, eyni zamanda buna baxmayaraq yerli əhalinin mühafizəkarlığı, ənənəvi təsərrüfatın saxlanması (balıqçılıq, dəvəçilik, bağçılıq) və inkişaf etdirilməsi həmin özünəməxsusluğun leytmotivlərindəndir. Yeri gəlmişkən, “sosial strukturlaşmaya və demoqrafiyaya təsir göstərən amillərdən biri də kadr ehtiyatının yaranması prosesidir” [8, s.56]. Müharibədən sonra Sumqayıta komsomol göndərişi ilə gələn gənc oğlan və qızlar şəhərin tikintisi ilə sənaye müəssisələrinin bünövrəsini qoymaqla bərabər, həm də onun ictimai-siyasi və mədəni həyatında da fəal iştrak edərək, şəhərin sürətli inkişafına səbəb olmuş, bu da kadr ehtiyatının yaranmasına kömək etmişdir. Məhz bunun nəticəsində şəhərdə əhalinin sıxlığı ilə yanaşı, sosial təbəqələşmənin də müxtəlif aspektlərdə inkişafını görürük

1970-ci ildə “Sumqayıt” adlı digər bir kitabçanın müəllifi, o zaman Şəhər Sovetinin sədri vəzifəsində işləmiş Axundov yazırdı: “Gənclik şəhərinin 20 yaşı bu yaxınlarda təntənə ilə qeyd edilmişdir. İyirmi il tarixən bir o qədər də uzun vaxt deyildir. Lakin qısa müddətdə şəhər misilsiz dərəcədə inkişaf etmiş, simasını dəyişmişdir. İndi Sumqayıt şəhəri yüzillik tarixi olan şəhərlərlə yarışa

bilər. O vaxt şəhərin bünövrə daşları qoyularkən çoxlarının ağlına belə gəlməzdi ki, gələcəkdə Sumqayıt respublikamızın ikinci böyük sənaye mərkəzi kimi tanınacaq, xalqımızın fəxri olacaqdır” [1, s.3].

Sumqayıtın yaxın tarixini vərəqləyəndə görürük ki, onun qaynar, yaradici inkişaf dövrü ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövründə – 1969-1982-ci illərdə olub. Bu zaman hər il iki məktəb və bir körpələr evi tikilib istifadəyə verilmişdi. Ümumi nəticə isə belə idi: 1969-1982-ci illərdə Sumqayıtda 2 mln. 130 min kvadrat metrlik mənzil tikilmiş, 30 min ailə yeni mənzillə təmin olunmuşdu. Eyni zamanda 30 min 545 şagird yeri olan 27 müasir ümumtəhsil məktəbi, 1500 yerlik mədəniyyət sarayi, 6 mədəniyyət evi, 6 kitabxana, 129 çarpayılıq xəstəxana kompleksi tikilib sumqayitlilarin istifadəsinə verilmişdir [5, s.5].

Sumqayıtın inkişafında Ulu öndər, çağdaş Azərbaycan respublikasının banisi Heyd□r □liyevin xidmətləri çox böyükdür. O heç vaxt bu gənc şəhəri diqqətindən kənarda qoymamişdir. Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə Sumqayıtda bir çox sənaye müəssisələri, o cümlədən böyük kompressorlar zavodu, üst trikotaj fabriki, xovlu ipliklər fabriki, müasir üslubda kimyaçılar mədəniyyət sarayı tikilib istifadəyə verilmişdir. Diqqəti cəlb edən hal odur ki, iri sənaye müəssisəsi olan kompressorlar zavodu Ulu öndər H.Əliyevin təşəbbüsü və qətiyyəti nəticəsində sumqayitda tikilmişdir. Çünki bu zavodu SSRI-nin başqa bir regionunda tikmək planlaşdırılmışdır. Lakin Heydər Əliyevin prinsipiallığı bütün maneələri dəf etmiş və bu böyük zavod Sumqayıtda tikilmişdir.

Sumqayıtda metallurgiya sənayesinin inkişafı da dahi rəhbərin diqqətindən kənarda qalmamışdır. Sovet Azərbaycanına rəhbərliyi dövründə Ulu Öndər beş dəfə Boru-prokat zavodunda olmuş, bu zavoda bir sıra keçmiş sovet rəhbərlərinin gəlişini təşkil etmiş, nəticədə Boru-prokat zavodu inkişaf edərək nəhəng sənaye müəssisəsinə çevrilmişdir. Heydər Əliyevin göstərişinə əsasən insan sağlamlığı üçün zərərli olan 30-a yaxın istehsal sahəsinin istismarının dayandırılması şəhərdə mövcud olan ekoloji gərginliyin aradan qaldırılmasına xidmət etmişdir [4, s.1].

Keçid dövrü başqa Azərbaycan şəhərlərində olduğu kimi Sumqayıt şəhərinin əhalisinin etnik tərkibində və sosial strukturunda mühüm dəyişikliklərin baş verməsi ilə səciyyələnmişdir. Bu dəyişikliklər nəticəsində on minlərlə əmək qabiliyyətli insan fəaliyyət və məşğuliyyət sahələrini dəyişməyə və həyat şəraitini təmin etmək məqsədi ilə müxtəlif vasitələrə əl atmağa məcbur olmuşdur. Bir çox hallarda bu vasitələr insanların ixtisas-peşə fəaliyyətinin dəyişilməsinə səbəb olur. Bundan başqa yeni iqtisadi sistemə keçidlə əlaqədar olaraq çoxlu yeni fəaliyyət sahələri yaranmışdır. Müasir dövrdə Sumqayıt şəhərində formalaşan sosial təbəqələrin başlıca xüsusiyyətlərindən biri onların amorfluğudur. Keçid mərhələsini yaşayan bir çox şəxslər və sosial qruplar hər

an digər təbəqənin nümayəndəsinə çevrilə bilərlər. Bazar iqtisadiyyatının tam hökmranlıq edə bilmədiyi və vətəndaş cəmiyyəti quruculuğunun ləng getdiyi bir şəraitdə siniflərin və sosial stratifikasiyanın da bərqərar olması uzun çəkəcəkdir [9, s.15].

Sovet dövründə Sumqayıt şəhərində əhalinin etnik və sosial tərkibi əsasən sabit idi və çox az dəyişikliyə məruz qalırdı. Cüzi keyfiyyət və kəmiyyət dəyişmələri getdikcə təhsilin və savadın yüksəlməsi, texnologiyanın inkişafı ilə əlaqədar idi. Lakin bu da etnososial tərkibin inqilabi dəyişikliyinə səbəb ola bilməzdi. Fəhlə sinfinin get-gedə azalmasına baxmayaraq, Sovet şəhərlərinin mühüm sosial qüvvələrindən hesab olunurdu. Qərb alimlərinin yaratdığı Sovet cəmiyyətinin sosial strukturunun modelinə əsasən burada bir necə əsas sosial təbəqə mövcud olmuş və bu təbəqələrin formalaşmasının avanqardı kimi: Birinci qrupa elita - partiya və hökumət rəhbərləri, ali rütbəli hərbiçilər və yüksək çinli məmurlar, ikinci qrupa ziyalıların yüksək təbəqəsi - alimlər, incəsənət və ədəbiyyat xadimləri daxil edilmişdir. Üçüncü qrupa fəhlə sinfinin aristokratiyası, zərbəçilər, yüksək ixtisaslı fəhlələr, dördüncü qrupa ziyalılar, orta və kiçik müəssisələrin rəhbərləri, diplomlu mütəxəssislər, zabitlər və s., beşinci qrupa "ağyaxalıqlılar", mühasiblər və dəftərxana işçiləri, xidmətçilər və s. aid edilirdi. Altıncı qrupda qabaqcıl və milyoner kolxozların işçiləri və kənd qabaqcılları, yeddinci qrupda isə orta və aşağı ixtisaslı fəhlələr yerləşdirilmişdi. Daha sonrakı qruplararası yerdə qalan kəndlilər, əmək düşərgələrində işləyənlər və məhkumlar daxil edilirdi [12, s.65]. Məhz bunun nəticəsi olaraq, 1970-80-ci illərdən başlayaraq etnoqrafiya elmində həm Sovet miqyasında, həm də respublikalar səviyyəsində müxtəlif sosial qrupların və onların məişətinin öyrənilməsi geniş yayılmışdı. Bir sıra tədqiqatlarda şəhər əhalisinin müxtəlif təbəqələri və onların mədəni-məişəti və əhalinin etnososial strukturunun dəyişməsinin xüsusiyyətləri tədqiq edilmişdir .

Bəzi tədqiqatlardan aydın olur ki, yalnız kəndliləri çıxmaqla yerdə qalan təbəqələr əsasən şəhərlərdə formalaşmışdır. Doğrudur, ziyalıların, məmurların, xidmətçilərin müəyyən hissəsi də kəndlərdə, əyalətlərdə yaşayır və fəaliyyət göstərir. Lakin bütövlükdə götürdükdə onlar kəndlərdə çox az idi və xüsusi təbəqə əmələ gətirmirdilər. Şəhərdə isə bu fərqlər nisbətən aydın nəzərə çarpırdı. Sovet Azərbaycanının ən iri şəhərlərindən biri olan Sumqayıt şəhəri göstərilən sosial təbəqələrin bütün nümayəndələrinin mövcud olduğu məkan idi. Şəhər olmasına baxmayaraq, burada ənənəvi kənd təsərrüfatı ilə məşğul olan və hətta onu inkişaf etdirən əhali təbəqəsi Sovet Azərbaycanını müxtəlif regionlarından toplanmışdı və indiki dövrdə də özlərini əsl "sumqayıtlılar" hesab edirlər. Bu baxımdan, həmin bölgünü Sovet Sumqayıtı üçün də məqbul hesab etməklə yanaşı, eyni zamanda lazım gələrsə ondan müqayisə məqsədi ilə istifadə etmək olar. Vaxtilə, amerikalı alim P.A.Sorokin cəmiyyətin təbəqələşməsinin üç başlıca tipini ayıraraq göstərirdi ki, buraya birinci olaraq

iqtisadi münasibətlərdən aslı olaraq varlı – kasıb təbəqə daxildir. Daha sonra ixtisas-peşə yönümünə uyğun olaraq yüksək nüfuzlu sosial status, yaxud aşağı sosial statusa malik qruplar aid edilir. Üçünçü təbəqə isə siyasi, yəni hakim-idarəolunan və cəmiyyəti idarə edən sosial qruplardan ibarətdir [20, s.304].

Bizim cəmiyyətin təbəqələşməsində birinci və ikinci tiplər xüsusilə dəyişikliyə məruz qalmışdır. Üçüncü tipdə əsaslı dəyişiklik baş vermir. Bu təbəqələşmə tarixən formalaşmışdır və orada yalnız siyasi qüvvələrin nisbəti dəyişə bilər. Tarixi təcrübə göstərir ki, bütün dövrlərdə əksəriyyət idarəolunan təbəqədir və dövlət quruluşundan asılı olmayaraq uzun müddətdə belə olaraq qalacaqdır. Təbəqələşmənin əvvəlki tipləri isə dinamik olaraq dəyişir və yeniləşir. Azərbaycanın keçid dövrü üçün birinci tip təbəqələşmə xüsusi populyarlıq qazanmışdır və bu bölgüdən istifadə edərək istənilən şəxsin hansı qrupa aid olduğunu asanlıqla müəyyən etmək olar. Lakin ikinci tipə münasibətdə bunu iddia etmək çətindir. İkinci tipə aid təbəqələşmə ilk növbədə insanların fəaliyyətinin funksional bölünməsi ilə ölçülür. Buraya insanların istehsal fəaliyyətinin növləri, ev təsərrüfatı, təhsil səviyyəsi, istirahət və asudə vaxtın təşkili sahələri, əhalinin hərəkəti və s. kimi mühüm fəaliyyət sahələri daxildir. Müasir dövrdə xeyli insan ixtisasına və peşəsinə tam müvafiq işlərdə yox, tapa bildiyi işlərdə çalışır. Məsələn, Sumqayıtda çox adi haldır ki, kənd təsərrüfatı mütəxəssisi maliyyə sahəsində çalışsın və ya ali təhsilli hüquqşünas xırda ticarətlə məşğul olsun. Lakin bu problemin konkret rəqəmlərlə ifadə olunması hələlik mümkün deyildir, çünki nə rəsmi statistika idarələri, nə də sorğu təşkilatları belə bir hesablama aparmamışdır. Müşahidələr göstərir ki, belə insanların sayı minlərlə ölçülə bilər. Nəticədə ixtisas-peşə baxımından əhali təbəqələşməsində keçid dövründə bir xaos yaranmışdır və yalnız son vaxtlarda getdikcə həmin sahədə bir aydınlaşma nəzərə çarpır. Belə ki, rəqabətin inkişaf etdiyi bir şəraitdə şirkətlərin konkret ixtisas və peşə sahibinə ehtiyacı artır və bu tələbatı ödəmək üçün ən yaxşı peşəkarlar seçilir. Bu da insanların müəyyən ixtisasa yiyələnməsini və peşəkar hazırlığın səviyyəsinin yüksəlməsini stimullaşdırır. Bu proses həm də müasir şəhər həyat tərzini özündə cəmləşdirən sosial qruplar, qruplararası münasibətləri tənzimləyir [11, s.1].

Beləliklə, Sumqayıt sənaye rayonunun yaranması və şəhər əhalisinin sosial strukturunun formalaşması proseslərini bir neçə mərhələyə bölmək olar; birinci mərhələ 1935 – 1940 – cı illəri əhatə edir. Bu dövr Sumqayıtda sənaye müəsisələri və yaşayış qəsəbələrinin inşası, şəhər ərazisinin təşkili mərhələsi kimi dəyərləndirilir; ikinci mərhələ 1940 – 1948 –ci illəri əhatə edir ki, bu illərdə yeni sənaye obyektləri yaradılmış, əhalinin say dinamikası artmış, buraya axışıb gələn kişilərin, qadınların, gənclərin işə düzəlməsi imkanları yaxşılaşmış, əhalinin tərkibi stabilləşməyə başlamışdı; üçüncü mərhələdə Sumqayıt qəsəbə tipli yaşayış məntəqəsindən (1938-49-cu illər) inkişaf edərək

şəhər statusu hüququ almaq mərhələsinə daxil olmuş, əhalinin tərkibi respublikanın şəhər və kəndlərindən, habelə digər respublikalardan gələnlər hesabına artmışdı. O dövrdə Sumqayıt şəhərində yaşayan əhalinin orta yaş həddi 24-25 idi. Bu illərdə artıq əhalinin sosial və etnik strukturu formalaşmışdır; dördüncü mərhələ 1988 – ci ildən sonrakı və müstəqillik dövrünü əhatə edir ki, bu dövrdə şəhər əhalisinin etnososial xüsusiyyətlərində müxtəlif dəyişikliklər baş verir. Məhz bu zamanlarda şəhərin əhalisinin say dinamikasında, etnik və sosial strukturunda bir sıra dəyişikliklər yaranır [11,s.1].

Məhz buna görə də, şəhəri Azərbaycan zəhmətkeşləri böyük sevgi və məhəbbətlə Xəzər sahilində - Komsomolsk adlandırıblar. Burada hər şey yenidir. Respublikada kimya, qara və əlvan metallurgiya sənayesinin ilk məhsulları məhz burada istehsal edilmişdir. Şəhərdə digər yerlərdən fərqli olaraq, xalqlar dostluğunun böyük qüdrətini daha qabarıq hiss edirsən. Sumqayıtı ölkənin 45 millətinin nümayəndələri ucaldır" [13, s.4]. İl ərzində Sumqayıtda işləmək üçün 8-10 min nəfər adam gəlmişdir. Onların əksəriyyətini gənclər təşkil edirdi. Sumqayıtda əhalinin çoxmillətli olması heç də yeni bir hal deyildir. Azərbaycanda müxtəlif millətlərin olmasının çoxəsrlik tarixi vardir. Sumqayıtda yaşayan adamlar arasında milliyətindən asılı olmayaraq ümumbəşəri, əsl insani sosial münasibətlər formalaşmışdı. Müxtəlif millətlərdən olan insanlar elə dostlaşmış, doğmalaşmışdır ki, onlar hər cür milli ayrı-seçkilik duyğularından azad olmaqla, özlərini bir mehriban ailənin üzvləri kimi hiss edirlər. Burada ön plana mənəvi və əxlaqi dəyərlər çəkilir, müxtəlif millətlərdən olan adamların bir-biri ilə rəftarları əxlaqi stimullarla idarə olunur. Məsələn, bunun bariz nümunəsi milliyətcə ukraynalı çilingər A. Kriyenkonun damarlarında müxtəlif millətlərdən olan adamların qanı axmasıdı. Zavodda ağır xəsarət alan çilingərin ilk donorları S.Mustafayev, Qazarov, O.Qolubev və başqaları olmuşlar [14, s.96].

XX əsrin 80-ci illərində Sumqayıtın sənaye obyektlərində, şəhər təsərrüfatında və mədəni-maarif ocaqlarında 83 millətin və xalqın nümayəndələri olan 30 minə yaxın komsomolçu və 45 mindən çox bitərəf gənc çalışmışdı. O vaxt SSRİ-nin müxtəlif regionlarından gəlib şəhərin kimya sənayesində çalışan komsomolçuların sayı 5 mini ötüb keçmişdi. Bu şəhərdə yaşayan digər millətlərlə yanaşı ermənilərin də burada məskunlaşması 1930-cu illərin sonu-40-cı illərin əvvəllərinə təsadüf etmişdi.Sumqayıtın inkişafında Ümummilli liderimiz Heydər Əliyevin xidmətləri danılmazdır. O, Sumqayıtda 16 dəfə olmuşdur: on dəfə Azərbaycan KP MK-nin birinci katibi olduğu 1969-1982-ci illərdə, altı dəfə isə müstəqillik dövründə - 1993-2003-cü illərdə. Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə Sumqayıtda bir çox sənaye müəssisələri, həmçinin müasir üslubda Kimyaçılar mədəniyyət sarayı tikilib istifadəyə verilmişdir[2, s.178].

1969-1982-ci illərdə Sumqayıt şəhəri öz iqtisadi potensialına görə keçmiş SSRİ-də tanınmağa başlamışdı. Ümummilli liderin şəxsi qətiyyəti və bilavasitə dəstəyi sayəsində kimya kompleksinin inkişafı üçün əsas xammal bazası olan EP-300 qurğusunun Sumqayıtda inşası barədə qərar qəbul edilmişdi. Məhz bu uzaqgörən siyasət nəticəsində 1980-ci illərin sonlarına doğru Sumqayıtın sənaye müəssisələri istehsal gücünü artırmış və bu dövrdə respublikanın sənaye istehsalında şəhərin sənaye müəssisələrinin payı 10-12 faizədək yüksəlmişdi. Sumqayıtın ölkə həyatında özünəməxsus yer tutması təkcə onun yaranma tarixi, respublika iqtisadiyyatında mühüm rolu ilə kifayətlənmir. Bu şəhəri fərqləndirən əsas cəhətlərdən biri və bəlkə də başlıcası burada formalaşan təkrarsız mühitdir. Cavan şəhər üçün çox tipik olan mühüm bir cəhət də odur ki, qonşular, istehsalat və əmək kollektivlərinin üzvləri, müxtəlif millətlərdən olan insanlar hər hansı bədbəxt hadisə baş verdikdə dərhal bir-birinin köməyinə çatırlar [13, s.94].

Sumqayıt şəhəri azərbaycanlıların milli və mənəvi simasını özündə real əks etdirən, çətin və ağır vəziyyətlərdə ləyaqət və şərəfini qoruyub saxlayan insanların şəhəridir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, "Sumqayıt bütün Azərbaycanı təmsil edir. Azərbaycanın hər yerindən bu şəhərdə yaşayanlar var. Sumqayıt kiçik bir Azərbaycan kimidir. O Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşəsidir". H.Əliyev tərəfindən Sumqayıta verilən bu yüksək qiymət, əlbəttə ki, ilk növbədə onun ləyaqətli zəhmətkeş əhalisinə verilən qiymətdir. Çünki şəhərin ilk bünövrəsini də onlar qoymuşlar [3, s.129].Sumqayıtın inşasında zəhməti olan keçmiş sovet respublikalarının və onların vətəndaşlarının da zəhməti H.Əliyev tərəfindən yüksək qiymətləndirilərək bildirilmişdir ki, bu gün biz bütün qardaş xalqlara xüsusi minnətdarlıq hissi ilə demək istəyirik ki, Sumqayıtı bütün ölkə tikmişdir.

Heydər Əliyev Azərbaycana həsr olunmuş bir ömür yaşadı. Bu ömrün Sumqayıt səhifələrini vərəqlədikcə həqiqətən Sumqayıtın inkişafının Heydər Əliyevin adı ilə bağlı olduğunu bir daha düşünürsən. Onun bilavasitə tapşırığı ilə qeyri-adi memarlıq üslubunda inşa olunaraq 1985-ci ildə istifadəyə verilmiş mədəniyyət sarayı (memar Ədalət Xanlarov) Sumqayıtın istər ictimai-siyasi, istərsə də mədəni həyatına baxış məkanıdır [6, s.141].

Beləliklə, Abşeron yarımadasında sənayeləşmənin, bütövlükdə urbanlaşmanın iqtisadi və sosial nəticəsi kimi ucalan Sumqayıt şəhəri Azərbaycan xalqının daha da sıx birləşməsində, möhkəmlənməsində, etnik və sosial baxımdan yekdil olmasında və formalaşmasında xüsusi əhəmiyyəti olan yeni bir mərhələ olmuşdur [13, s.158].

Şəhərdə müxtəlif sosial qruplarla yanaşı etnik azlıqlarda fəalliyət göstərirdi. Onlardan biri də şəhərin sosial-siyasi həyatında mühüm fəaliyyət göstərən yəhudilər idi. Yəhudilər  XVI əsrdə İrandan gəlib bu ərazilərdə

yaşamışdılar. Onların yeganə varisləri olan dağ yəhudiləri təkcə Quba rayonundakı Qırmızı Qəsəbədə kompakt halında, Oğuz rayon mərkəzində və Bakıda yaşayırlar. Dağ yəhudilərinin ənənəvi məşğuliyyəti əkinçilik, xırda ticarət, toxuculuq və sənətkarlıq olmuşdur. Azərbaycanda, əsasən Qusar, Quba, Xaçmaz rayonları ərazisində kompakt halında, eləcə də Bakı, Gəncə, Sumqayıt və Mingəçevir şəhərlərində, Qəbələ, İsmayıllı, Ağsu, Göyçay, Ağdaş rayonlarında yaşayan ləzgilər isə Azərbaycanda yaşayan azsaylı xalqlar arasında ön yerlərdən birini tuturlar. Qeyd edək ki, ləzgilər Azərbaycan əhalisinin 2,2 faizini təşkil edir. Onların əksəriyyəti islam dininə etiqad edir. 1993-cü ildən başlayaraq ləzgi dilində dərsliklər çap edilməyə başlanmışdır. Onlar sıx yaşadıqları Quba-Xaçmaz iqtisadi rayonunun iqtisadi inkişafında mühüm rol oynayırlar [8, s.7].

Beləliklə, aparılmış araşdırmalar sübut edir ki, II Cahan savaşından sonra sürətlə inkişaf edərək sənaye nəhənginə çevrilmiş Sumqayıt şəhərinin əhalisi müstəqillik illərində etnik və sosial baxımdan ciddi dəyişikliklərə məruz qalmışdır. Bəzi etnik təbəqələr şəhəri tərk etsə də, əhalinin beynəlmiləlçi tərkibi əsasən qorunub saxlanılmış, sosial sahədə iri nailiyyətlər əldə olunmuşdur.

## Ədəbiyyat


1. Axundov H. Sumqayıt. Bakı, Azərnəşr nəşriyyatı, 1970, 51 s, s.3
2. Alıyev H.A. Sumqayıt şəhərinin tarixi.Bakı, Elm və təhsil nəşriyyatı, 2011, 544 s.
3. Alıyev H.A. Sumqayıt şəhərinin sosial-iqtisadi və ictimai-siyasi tarixi. Bakı, Elm və təhsil nəşriyyatı, 2015, 256 s.
4. Алиев В. Сумгаит-живой памятник идеи свершениям Гейдара Алиева. (55-летие Сумгаита) // газ. «Бакинский рабочий», 2004, 28 декабря, №38
5. Ализаде М. Молодежь Азербайджана активный строитель коммунизма. Баку, 1960, 153 с.
6. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin Sumqayıt Filialı (ARMDASF). Fond №2, siyahı №2, iş№1213, 292 vərəq.
7. Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu (metodik vəsait)//tərt. ed. S.Quliyeva; ixtis. red. və bur. məs. K.Tahirov, red. G.Səfərəliyeva, M.F.Axundovadına Azərbaycan Milli Kitabxanası,Bakı, 2012, 45 s.
8. Демиденко Э.С. Демографические проблемы и перспективы больших городов. М.: Статистика, 1980, 231 с.
9. Фатуллаев Э. Социально-культурные факторы развития национального самосознания молодых рабочих Азербайджана. Автореф. дис. канд. ист. наук. Баку: 1992, 20 с.

10. Hüseynov K. Sumqayıt şəhərində // “Kommunist” qəz., 1955, 1 may, s.3
11. İbrahimov S. Sumqayıtın yeni tarixi yazılır // “Xalq qəzeti”, 2003, 30 aprel, №18 .
12. Комаров М. С. Социальная стратификация и социальная структура // Социологические исследования, Москва, 1992, №7, с. 62-73.
13. Məmmədov Ə. “Sumqayıt”. Bakı, Azərnəşr, 1957, s. 87
14. Məmmədov R.S., Sadıqov H.Ş. Sumqayıt: tarixdən səhifələr(1930-2000). Sumqayıt: “Zərdabi” nəşriyyat-poliqrafiya MMC, 2010, 240 s.
15. Məmmədova S.D. Keçid dövründə şəxsiyyət problemlərinin sosioloji aspektdən təhlili // fəlsəfə elmləri üzrə fəlsəfə doktoru almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı: “Elm və Təhsil” 2004, 24 s.
16. Мирзазаде Л. Ф. Эмиграционные процессы в Азербайджане. Баку: «Издательство Бакинского Университета», 2005, 187 с.
17. Rəfiyev C. Sumqayıt şəhəri // “Kommunist” qəz., 1957, 27 iyun, s.1
18. Садыхов Г. Ш., Мамедов Р.С. Армяне в Сумгаите. Книга первая. Краткий историко-социологический очерк. (1938-1994 гг.).Баку,Шур, 1994, -192 с.
19. Sərdarov M. Qloballaşma və miqrasiya siyasəti. Bakı, Təknur nəşriyyatı, 2010, 123 s.
20. Сорокин П. А. Человек, цивилизация, общество. М.: Политизад, 1992, 542 с.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2021, 2 (32), s.120-128

# XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ YENİ MƏRHƏLƏ: GƏDƏBƏYDƏ SON ARAŞDIRMALARIN NƏTİCƏLƏRİ

***Tükəzban Göyüşova***
***Abbas Seyidov***
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
goyuchova72@mail.ru
abbas.seyidov@gmail.com

**Açar sözlər:** *Xocalı-Gədəbəy mədəniyyəti, Son Tunc və Erkən Dəmir dövrü, Gədəbəy bölgəsi, arxeoloji qazıntı, kurqan, daş qutu qəbir*

*Məqalədə Azərbaycanın abidələrlə zəngin olan Gədəbəy bölgəsinin qədim tarixinin öyrənilməsindən bəhs olunur. E.ə. II minilliyin ikinci yarısını və e.ə. I minilliyin əvvəllərini (e.ə. XIV-VIII əsrlər) əhatə edən Son Tunc və Erkən Dəmir dövrü əvvəlki mərhələlərdən bir çox əlamətləri ilə kəskin fərqlənir. Arxeoloji abidələrin tədqiqi göstərir ki, e.ə. II minilliyin ikinci yarısından başlayaraq bütün Azərbaycan və Cənubi Qafqaz ərazisində yaşayan tayfaların sosial-iqtisadi və mədəni həyatında böyük dəyişikliklər baş vermiş, öz tərkibində bir neçə tayfanı birləşdirən əzəmətli və güclü tayfa ittifaqları yaranmışdır. Məhsuldar qüvvələrin sürətli inkişafı cəmiyyət daxilində gedən sosial və əmlak bərabərsizliyini dərinləşdirmişdir. Bütün bunlar sənətkarlığın yeni sahələrinin meydana çıxmasına şərait yaratmış, hələ əvvəlki dövrlərdə formalaşan yaylaq maldarlığı geniş vüsət almışdır.*

*Göstərilən proseslərin izlənilməsində Gədəbəyin bu dövr abidələrinin tədqiqi və onlardan tapılmış arxeoloji materiallar mühüm rol oynayır. Bölgənin tarixi hər zaman xaricilərin diqqətini çəkib. Gədəbəyin Son Tunc və Erkən Dəmir dövrü abidələrinin öyrənilməsinə XIX əsrin ikinci yarısından başlanıb. XX əsrin 20-ci illərinədək bölgədə qeyri peşəkarların apardığı arxeoloji işlərin məqsədi diyarın tarixini öyrənməkdən daha çox öz maraqlarını təmin etmək olub. Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr ilk dəfə ixtisasca arxeoloq olmayan, müxtəlif peşə sahibləri - həvəskar insanlar tərəfindən qazılıb. Sovet hakimiyyəti illərində bölgənin arxeoloji abidələrində peşəkar azərbaycanlı alimlər arxeoloji qazıntı və tədqiqat işləri aparıblar. Azərbaycanın müstəqillik qazandığı son 30 ildə dövlət qayğısı nəticəsində bu işlər daha da genişlənib, Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin tədqiqində yeni mərhələ başlanıb.*

# НОВЫЙ ЭТАП В ИЗУЧЕНИИ ПАМЯТНИКОВ ХОДЖАЛЫ-ГЕДЕБЕКСКОЙ КУЛЬТУРЫ: РЕЗУЛЬТАТЫ НОВЕЙШИХ ИССЛЕДОВАНИЙ В ГЕДЕБЕКЕ

***Тюкезбан Гёюшова***
***Аббас Сеидов***

**Ключевые слова:** *Ходжалы-гедебекская культура, эпоха поздней бронзы и раннего железа, гедебекский район, археологические раскопки, курган, могила каменного ящика.*

*В статье рассматривается вопросы изучения древней истории богатой памятниками Гедебекского региона Азербайджана. Эпоха поздней бронзы и раннего железа, охватывающая вторую половину II тыс. до н.э. и начало I тыс. до н.э. (XIV-VIII вв. до н.э.), во многом резко отличаются от предшествующих периодов. Изучением археологических памятников установлено, что со второй половины II тыс. до н.э. в социально-экономической и культурной жизни племен, проживающих на всей территории Азербайджана и Южного Кавказа, произошли большие изменения. На этой территории сформировались могущественные и сильные племенные союзы. Быстрое развитие производительных сил усугубило социальное и имущественное неравенство в обществе. Все это создало условия для появления новых направлений ремесла, широкое распространение получило сложившееся еще в более ранние периоды скотоводство.*

*Изучение памятников этого периода Гедебека и обнаруженные в них археологические материалы играют важную роль в отслеживании этих процессов. История этого края всегда привлекала внимание иностранцев. Изучение памятников эпохи поздней бронзы и раннего железа Гедебека началось во второй половине XIX века. Непрофессиональные археологические работы, проведенные в регионе до 1920-х годов, поощряли скорее личные интересы, чем изучение истории региона. Памятники ходжалы-гедебекской культуры были впервые раскопаны любителями. В советское время азербайджанские ученые проводили профессиональные археологические раскопки и исследовали археологические памятники в регионе. За последние 30 лет, в годы независимости Азербайджана, в результате государственной заботы эти работы еще больше расширены, и начался новый этап в изучении памятников культуры Ходжалы-Гедебека.*

# A NEW STAGE IN THE STUDY OF THE MONUMENTS OF THE KHOJALY- GADABAY CULTURE: RESULTS OF LATEST STUDIES IN

***Tükezban Göyüshova***
***Abbas Seyidov***

**Keywords:** *Khojaly-Gadabay culture, The Late Bronze and Early Iron Age, area of Gadabay, archaeological excavations, barrow, stone grave.*

*The article includes the study of the ancient history of the Gadabay area of Azerbaijan, which is rich in monuments. The Late Bronze and Early Iron Age that covers the second half of the 2nd millennium BCE and the beginning of the 1st millennium BCE (14th-8th centuries BCE), in many aspects sharply differs from the previous periods. Investigation of the archaeological sites established that as of the second half of the 2nd millennium BCE major changes have taken place in the socio-economic and cultural life of the tribes living in the territory of Azerbaijan and the South Caucasus. Powerful tribal alliances were formed ın this territory. The rapid development of productive workforces has aggravated the social and property inequality in society. All these created conditions for the emergence of new directions of the craft and spread cattle breeding which was already formed in earlier periods.*

*The study of the monuments of this period of Gadabay and the archaeological materials found in them play an important role in tracing these processes. The history of this region has always attracted the attention of foreigners. The study of the monuments of the Late Bronze and Early Iron Age of Gadabay began in the second half of the 19th century. Non-professional archaeological works, carried out in the region up to the 1920s, were of personal interest rather than the study of the history of the region. The monuments of the Khojaly-Gadabay culture were first excavated by amateurs. During the Soviet period, Azerbaijani scientists carried out professional archaeological excavations and investigated archaeological sites in the region. Over the past 30 years, during the years of independence of Azerbaijan, as a result of state care, these works have been further expanded, and a new stage in the study of cultural monuments of Khojaly-Gadabay has begun.*

Gədəbəy bölgəsi Azərbaycanın ən səfalı guşələrindən biri olmaqla yanaşı, həm də tarixi, arxeoloji və mədəniyyət abidələri ilə zəngindir. Ərazinin zəngin yeraltı və yerüstü sərvətləri, gur sulu bulaqları, yaşıl oymaqları, təmiz havası – bir sözlə əsrarəngiz təbiəti qədim tayfaların bu yerlərdə eramızdan çox

əvvəllər yaşaması üçün şərait yaradıb. Eramızdan əvvəl XIV-VIII yüzillikləri əhatə edən Son Tunc və Erkən Dəmir dövründə yuxarıda sadaladığımız şərtlər əsas olmaqla, bölgədə məskunlaşma prosesi genişlənib. Azərbaycan ərazisində bu dövrə aid bir neçə arxeoloji mədəniyyətə rast gəlinir ki, onların sırasına Xocalı-Gədəbəy mədəniyyəti,Talış-Muğan mədəniyyəti və Naxçıvan mədəniyyəti daxildir. Biz bu yazımızda Xocalı-Gədəbəy mədəniyyətindən bəhs edirik. Bu mədəniyyət həm də Gəncə-Qarabağ mədəniyyəti kimi tanınır.

Son zamanlar apardığımız tədqiqatlardan məlum olur ki, bu mədəniyyətin yayılma arealı daha geniş olub. Xocalı-Gədəbəy mədəniyyətinin izlərinə Naxçıvan Muxtar Respublikasının dağlıq və dağətəyi bölgələrində də rast gəlinir [1, s.40-42].

Bu dövr bir sıra xüsusiyyətlərinə görə Tunc dövrünün ilk və orta mərhələlərindən fərqlənir. Belə ki, təsərrüfatın bütün sahələrində, sənətkarlıqda canlanma baş verir. Əhalinin sayı artır. Tayfalararası münasibərlərdə gərginlik çoxalır. Sinifli cəmiyyətə keçid güclənir. İnsanın insan tərəfindən istismarı yeni mərhələyə qədəm qoyur. Qonşuluqda yerləşən güclü dövlətlərdən qorunmaq üçün əhali dağlıq ərazilərdə, təbii, əlçatmaz yüksəkliklərin ətrafında istehkamlar tikməklə, özlərinin müdafiə qüdrətini artırmaq haqqında düşünməyə başlayır. Belə yerlərdən biri, haqqında söhbət aşdığımız Gədəbəy bölgəsidir. Bunu sübut etmək üçün əlimizdə kifayət qədər dəlil vardır. Belə ki, rayonun ərazisində biri-birinin yanında salınmış onlarla nekropol, yaşayış yeri, ətrafı iri daşlarla bərkidilmiş siklop tikililəri - müdafiə istehkamları vardır.

Azərbaycanın çox yerində olduğu kimi bu dövrə aid yaşayış yerləri üç qrupa bölünür:

birinci qrup yaşayış yerlərinin əksəriyyətində tunc dövrünün əvvəlki mərhələlərində də insanlar məskunlaşıb. Bu abidələrdə əhali oturaq həyat keçirdiyindən, kifayət qədər mədəni təbəqəyə rast gəliniz;

- ikinci qrup yaşayış yerləri qala tiplidir. Onlar əsasən Son Tunc və Erkən Dəmir dövründə müdafiə məqsədi ilə təbii yüksəkliklər üzərində ətrafına iri daşlardan hasar çəkilmiş qalalardır. Belə yaşayış yerlərinin (müdafiə tikililərinin) meydana çıxması cəmiyyətin sosial həyatında meydana gələn dəyişikliklər və xarici işğal təhlükəsi ilə bağlı olub ki, onların da ətrafı müdafiə istehkamları ilə əhatələnib. İri çay vadilərində yerləşən birinci qrup abidələrdən fərqli olaraq, belə yaşayış yerləri dağlıq zonalarda salınıb. Bu tip abidələrə dünyanın bir çox yerlərində rast gəlinir. Onlar ən çox Cənubi Qafqazda, Krım yarımadasında, Şimali Qafqazda, Sibirdə, Aralıq dənizi hövzəsində, İranda və digər ölkələrdə (Peru) qeydə alınıb [2, s. 561; 3, s. 45, 224, 230; 4, s. 51-59];
- üçüncü tip yaşayış yerləri mövsümi xarakterli olub. Qışda arana, yayda yaylaqlara. Belə yaşayış yerlərində həyat daimi yox, müvəqqəti olub. Bu dövrdə yaylaq maldarlığı genişləndiyi üçün, ilin müxtəlif vaxtlarında dağlıq və dağətəyi zonalarda müvəqqəti yaşayış yerləri meydana çıxıb.

Gədəbəyin tarixi-arxeoloji abidələri hər zaman xaricilərin diqqətini çəkib. Ərazinin Son Tunc və Erkən Dəmir dövrü abidələrinin öyrənilməsinə (əgər belə demək mümkünsə) XIX əsrin ikinci yarısından başlanıb. XX əsrin 20-ci illərinədək bölgədə qeyri peşəkarların apardığı arxeoloji işlərdə məqsəd diyarın tarixini öyrənmək deyil, daha çox öz maraqlarını təmin etmək olub. Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr ilk dəfə ixtisasca arxeoloq olmayan müxtəlif peşə sahibləri tərəfindən qazılıb. Bu insanlar abidələrin tədqiqində çoxlu qüsurlara yol veriblər. Hətta, ermənilərin yaşından qədim olan bu abidələrdə erməni izlərini axtaranlar da olub. Gədəbəydəki Siemens qardaşlarının misəritmə zavodunda elektrotexnik işləyən Valdemar Belk (1862-1932) bu işdə əsas yerlərdən birini tutub. O, Almaniyada elmdə və siyasətdə böyük nüfuz sahibi olan antropoloq Rudolf Virxovun (1821-1902) maliyyə yardımına və "Siemens" şirkəti tərəfindən dəstəklənməsi hesabına Gədəbəy rayonu ərazisində 1888-1891-ci illər ərzində 300-dən artıq abidəni [5, s.9] (qəbiri) dağıtmış, onlardan əldə etdiyi materialları gizli şəkildə Tiflis üzərindən Almaniyaya göndərmişdir. V.Belk arxeoloji materialların elmi təhlilini verə bilməmiş, əslində qədim abidələri dağıtmaqla, orada olan nadir sənət əsərlərini toplamaqla məşğul olmuşdur. Onun bu artefaktların Almaniyanın Hamburg, Münhen, o zamankı Danziq (hazırda Polşa ərazisindədir) və başqa muzeylərə göndərilməsində əli olmuşdur [6, s.56].

1891-ci ildə Rusiya Arxeoloji Komissiyası V.Belkə arxeoloji qazıntı işləri aparmağı qadağan etdikdən sonra, onun tərəfindən həvəsləndirilən Şuşa Realnı Məktəbinin alman dili müəllimi Emil Rösler (?-1907) 1892-1906-cı illər arasında bir neçə abidədə qazıntı işləri aparır. Təkcə 1900-cü ilin mart-noyabr ayları ərzində o, 30 qəbir abidəsi və 22 kurqan qazır [6, s.65]. Göründüyü kimi, bir abidəni belə bu müddət ərzində elmi cəhətdən tədqiq etmək mümkün olmadığı halda, 50-dən artıq qəbir abidəsi necə gəldi qazılmış, arxeoloji materiallar talan olunmuş, heç bir elmi nəticə çıxarılmamışdır.

1896-cı ildə A.A.İvanovski Gədəbəydə Qarabulaq, Qaramurad və Qalakənd ərazilərində bir ildə Xocalı-Gədəbəy mədəniyyətinə aid 72 ədəd daş qutu tipli qəbir açmışdır [6, s.27]. Azərbaycanda Sovet hakimiyyəti qurulanadək digər əcnəbi "arxeoloqlar" da Gədəbəy rayonu ərazisində tədqiqatlar aparmışlar.

1920-1991-ci illəri əhatə edən sovet dövrü ərzində Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin öyrənilməsində dəyişikliklər baş verir. Azərbaycanda yaranmış yeni cəmiyyət və komitələrin səyləri nəticəsində İshaq Cəfərzadə, Cabbar Xəlilov, Güllü Əbilova, Hətəm Kəsəmənli, Təvəkkül Əliyev, Qələndər Aslanov və digərləri Gədəbəy rayonu ərazisində arxeoloji qazıntı işləri aparıblar. Həmin qazıntıların nəticələri elmi nəşrlərdə işıq üzü görüb.

Müstəqil Azərbaycan Respublikasının mövcud olduğu müasir dövrdə (1991-2021) dövlət qayğısından bəhrələnən və ruhlanan arxeoloqlarımız müasir

texnoloji üsullardan istifadə etməklə, daha geniş, planlı, elmi əsaslara söykənən arxeoloji qazıntı işlərini davam etdirirlər. 15 ilə yaxındır ki, Gədəbəy arxeoloji ekspedisiyasına rəhbərlik edən Tükəzban Göyüşovanın rəhbərliyi altında rayonun ərazisində yeni-yeni abidələr aşkara çıxarılır. Onların bir qismində arxeoloji tədqiqat və qazıntı işləri aparılır [7, s.146-152; 8, s.204-211]. Bizim də iştirak etdiyimiz bu ilki qazıntılar daha səmərəli olub.

Rayonun Böyük Qaramurad kəndində yerləşən Böyük Qalaça adlı Son Tunc-Erkən Dəmir dövrünə aid siklop tikili ilə əhatələnən abidədə aparılan arxeoloji qazıntılar zamanı məlum olub ki, yaşayış yeri üç cərgə qala divarları ilə möhkəmləndirilib. Burada mədəni təbəqənin qalınlığı 1 metr 90 sm-dən artıqdır. Bu da onu göstərir ki, həyat uzunmüddətli olub. 280 $m^2$ ərazidə otaqlar aşkara çıxarılıb və təmizlənib. Qalanın mərkəzi hissəsində yonulmamış iri daşlardan qurulmuş divarların hündürlüyü relyefdən asılı olaraq 3 metr 10 sm hündürlüyündə qalır.

Qazıntıdan əldə edilən saxsı məmulatı əsasən e.ə.II minilliyinin sonu - I minilliyinin əvvəllərinə aiddir. Onlar məişətdə və təsərrüfatda istifadə olunan müxtəlif formalı iri təsərrüfat küpü, nehrə, qazan, küpə, bardaq, kuzə, xeyrə, cam və kasa tipli qablardan, iy başlıqları və ocaq altlığından ibarətdir. Qablar əsasən tünd boz, boz, açıq qəhvəyi rəngli olmaqla, əsasən dulus çarxında hazırlanıb. Əsasən ilgək və lent formalı olan qulplar qabların ağzına bitişikdir. Onlar azlıq təşkil edir. Bardaq, kuzə, dolça tipli qablar bir qulpa malikdir. Zoomorf formalı qablar çox azdır. Qablar üzərindəki naxışlar kəsmə, çərtmə, cızma, yapma, daraqlanma üsulu ilə işlənmiş, əsasən, dalğa, batıq kanal, üçbucaq, buğdavari, torvari, sünbül, hörük və s. ibarətdir. Naxışlar əksər vaxtlarda əsasən qabın gövdə hissəsini əhatə edir. İy başlıqları dairəvi və bikonik formalıdır. Qabların gilinin tərkibində qum və çınqıl qarışığı vardır. Leşkər qalaçası yaşayış yerindən tapılmış saxsı məmulatının xarakterik xüsusiyyətlərindən biri də onların əksəriyyətinin tərkibində pirit qarışığının olmasıdır. Bu fakt yerli xammalla bağlıdır. Belə ki, Gədəbəy rayonu ərazisində kifayət qədər pirit süxuru yataqları vardır.

Daş alətlər əsasən dən daşı, sürtgəc, bülöv və döyməclərdən ibarətdir. Dən daşları əsasən qayıqşəkillidir. Qazıntı sahəsindən aşkar edilən unikal materiallardan biri də üzərində dişli işləməsi olan daş alətlərdir. Formaca qayıqşəkilli, dördkünc, oval formalı olan bu alətlər dən daşları formasında hazırlanıb. Bu tip alətlər siklopik tikililərdən ilk dəfədir ki aşkar edilir. Üzərində dişli işləməsi olan bu daşlardan ehtimal ki, dənli bitkilərin emal olunmasında istifadə olunub. Obsidian parçaları çoxsaylı fraqmentlərlə təmsil olunur. Onların bəziləri plastik lövhələrdən, böyük əksəriyyəti isə qəlpələrdən ibarətdir. Metal əşyalar azlıq təşkil edir.

2021-ci ilin ən unikal tapıntılarından biri Xocalı-Gədəbəy mədəniyyəti üçün xas olan şəbəkə başlıqlı xəncərlərin hazırlanması üçün istifadə olunan daş

qəlibin aşkar olunması və metaləritmə işində yararlanan gil butənin tapılmasıdır. Bu haqda gələcək yazılarımızda ətraflı məlumat verəcəyik. Qeyd edək ki, keçən əsrin 60-cı illərinin sonunda arxeoloq Qələndər Aslanovun təsadüfi tapıntıları sırasında Qalaçadan təbərzin baltaların hazırlanması üçün istifadə olunan daş qəlib də olub [9].

Gədəbəy rayonu ərazisində arxeoloji qazıntı və kəşfiyyat işləri davam etdirilir. Daha uğurlu tapıntıların sorağındayıq.

## Ədəbiyyat


1. Seyidov A.Q. Xocalı-Gədəbəy mədəniyyətinin izləri Naxçıvan ərazisində. “Qarabağın arxeoloji irsi” adlı Beynəlxalq Elmi Konfransın Materialları, Arxeologiya və Etnoqrafiya İnstitutu, Bakı, 28-30 noyabr, 2016, s. 40-42.
2. Большая Советская Энциклопедия в 30 томах. Изд.-3-е, М., Советская Энциклопедия, 1978, т. 28, 616 с., с илл.
3. Искусство стран и народов мира. Краткая художественная энциклопедия. М., Советская энциклопедия, 1981, т. 5, 717 с.
4. Kleiss W. Bericht uber Erkundungbahrlen in Iran in Yahre 1970. — AMI, 4, 1971, pp. 51-59.
5. Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, Azərnəşr, 1960, 238 s.
6. Qədirova N.G. Avropa muzeylərində Qafqaz arxeoloji kolleksiyaları. Bakı, “Ol” npkt, 2016, 452 s.
7. Göyüşova T.N. Gədəbəy arxeoloji ekspedisiyasının Gədəbəy rayonu ərazisində 2013-2014-cü illərdə apardığı arxeoloji tədqiqatlar. “Azərbaycanda arxeoloji tədqiqatlar” jurnalı, Bakı, 2015, s.146-152.
8. Göyüşova T.N. 2015-2016-cı illərdə Gədəbəy arxeoloji ekspedisiyasının Gədəbəy rayonunda apardığı arxeoloji tədqiqatların yekunlarına dair. “Azərbaycanda arxeoloji tədqiqatlar” jurnalı, Bakı, 2015, s.204-211.
9. Асланов Г. О литейной форме из Кедабекского района. МСПИАИ 1970 г. в Азербайджане. Баку. 1972.







Şəkil 1. Son Tunc - Erkən Dəmir dövrünə aid qala divarları





Şəkil 2. Son Tunc - Erkən Dəmir dövrünə aid arxeoloji materiallar

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2021, 2 (32), s.129-138

**UOT 39**

# MÜSƏLMAN MƏDƏNİYYƏTİNDƏ XƏTTATLIQ SƏNƏTİ VƏ ONUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİNƏ DAİR

***Tural Mirzəli oğlu Şiriyev***
Milli Azərbaycan Tarixi Muzeyi
tural.shiriyev@mail.ru

**Açar sözlər:** *İslam mədəniyyəti, yazı sənəti, xəttatlıq, kalliqrafiya, kalliqram*

*Məqalə orta əsrlərdə müsəlman ölkələrində geniş yayılmış sənət sahələrindən olan xəttatlığın inkişaf tarixinə həsr edilir. Bu sahədə xeyli tədqiqat işlərinin aparılmasına baxmayaraq, bu gün də bir çox xətt növlərinin meydana gəlməsinin əsasları və müsəlman mədəniyyətində onun əsas istifadə təyinatı ətrafında araşdırmalar davam edir. Məqalədə müxtəlif elmi ədəbiyyatlardan istifadə edilməklə bu sənət sahəsinin formalaşmasının tarixi xronikası, onun inkişafına zəmin yaradan siyasi-mədəni amillər tədqiq edilir. Məlum olur ki, islam dini qəbul edildikdən sonra Şərq ölkələrində sürətlə yayılan ərəb əlifbası və onun əsasında formalaşan kufi, nəsx, süls, nəstəliq, mühəqqəq, reyhani, tövqi və riqa kimi qrafik yazılar özünün əsas funksiyası olan yazı işlərində istifadə edilməklə yanaşı, eyni zamanda sənətkarlıq işlərində, müxtəlif tikililərin, dekorativ konstruksiyaların bəzədilməsində də mühüm rol oynamışdır. Tədqiqat nəticəsində aydın olur ki, ilk xətt növü hesab olunan kufi xəttindən sonra formalaşan digər xətt növləri rahat yazılmaq və aydın oxunmaq tələbindən irəli gələrək meydana gəlmişdir.*

# ON THE ART OF CALLIGRAPHY IN MUSLIM CULTURE AND THE PECULIARITIES OF ITS DEVELOPMENT

***Tural Shiriyev***

**Key words:** *Islamic culture, writing art, calligraphy, calligram*

*The article is devoted to the history of the development of calligraphy, which is one of the areas of art that was widely developed in Muslim countries in the Middle Ages. Despite a significant amount of research work in this area, the study of the origins of many types of graphics and the main purpose of their use in Muslim culture continues to this day. In this article, based on various*

*scientific literature, the historical chronology of the formation of this kind of art is presented, the political and cultural factors that determined its development are investigated. It becomes clear that after the dissemination of Islam, Arabic alphabet which became widespread in the Eastern countries and its graphic styles of kufi, naskh, suls, nastalig, muhaggag, reikhani, tovgi and riqa, formed on its basis, played an important role in the craft, decorating buildings, decorative structures, in addition to performing the main function as a letter. As a result of the study, it turns out that the other types of graphics that formed after the Kufi script arose from the need for ease of writing and clarity of reading.*

## ОБ ИСКУССТВЕ КАЛЛИГРАФИИ В МУСУЛЬМАНСКОЙ КУЛЬТУРЕ И ОСОБЕННОСТЯХ ЕГО РАЗВИТИЯ

***Турал Шириев***

**Ключевые слова:** *исламская культура, искусство письма, каллиграфия, каллиграмма*

*Статья посвящена истории развития каллиграфии, являющейся одной из областей искусства, получивших широкое развитие в мусульманских странах в средневековье. Несмотря на значительное количество исследовательских работ в этой сфере, по сей день продолжается изучение истоков возникновения многих разновидностей графики и основного назначения их применения в мусульманской культуре. В данной статье, опираясь на различную научную литературу, представлена историческая хронология формирования этого рода искусства, исследованы политико-культурные факторы, обусловившие его развитие. Выявлено, что, быстро распространившийся в странах Востока после принятия ислама арабский алфавит и сформированные на его основе графические стили куфи, насх, сульс, насталиг, мухаггаг, рейхани, товги и рига, помимо выполнения основной функции в качестве письма, играли важную роль в ремесле, украшении строений, декоративных конструкций. В результате исследования выясняется, что сформировавшиеся вслед за куфическим письмом другие разновидности графики возникли из потребности в удобстве написания и ясности прочтения.*

Xəttatlıq orta əsrlərdə müsəlman Şərqində ən çox inkişaf etmiş sənət sahələrindən olmuşdur. Müsəlman Şərqində sürətlə yayılan ərəb əlifbası və onun əsasında formalaşan müxtəlif qrafik yazılar yazı işlərində istifadə edilməklə yanaşı, sənətkarlıqda və dekoratik konstruksiyaların bəzədilməsində də mühüm rol oynadı.

Türkiyəli sənətşünas Mahmud Bedreddin Yazır ərəbcədən alınma "xətt"/ خط istilahının yazı deyil, cizgi mənasını daşıdığına diqqət çəkərək qeyd edir ki, hər cizgini xətt olaraq, hər xətti də cizgi kimi qəbul etmək olmaz [28, s.14]. Haqqında müxtəlif fikirlərin [19, s.65] mövcud olduğu ərəb qrafik yazısının meydana gəlməsi tarixi ilə bağlı geniş tədqiqat aparmaq məqsədimiz olmadığı üçün yalnız bunu qeyd etməklə kifayətlənirik ki, "hüsn-i xətt"in qədim arami mənşəli nabati yazısı əsasında formalaşması mülahizəsi daha əsaslı hesab edilməkdədir [2, s.19]. S.Nemətzadə də amerikalı şərqşünas Ş.Bleirin "İslam xəttatlığı" əsərinə istinad edərək yazır ki, hələ islamaqədərki dövrdə meydana gələn ərəb yazı sistemi Aralıq dənizi regionu və Qərbi Asiyada mövcud olan dillərin yazıya köçürülməsində istifadə olunan arami yazı növündən yaranmışdır [20, s.12]. Belə ki, 22 hərfdən ibarət olan və sağdan sola doğru yazılan nəbati yazısına 6 hərf əlavə edilməklə, ərəb əlifbası formalaşmışdır [15, s.141]. Cahiliyyət dövründə nəbati yazısının "cəzm" və "məşq" adlandırılan iki üslubu isə islamdan sonrakı əsr ərzində təkmilləşərək, "hüsn-i xətt" səviyyəsinə yüksəlmiş [20, s.11] və bu dövrdən etibarən ərəb yazısı bütün müsəlmanların ortaq yazı sistemi kimi "islam xətti" adlanmağa başlamışdır [11, s.54].

İslamda mühüm rol oynayan çox sayda əl təsvirlərindən başqa, əsasən, şiə etiqadlı ölkələrin təsviri sənətində xeyli insan, hətta xəlifə şəkillərinə rast gəlmək mümkündür. Oksford Universitetinin professoru C.Allan yazır ki, bu, şiələrə İmam Əlinin və onun varislərinin surətini çəkmək caiz edildiyi üçün mümkün oldu [31]. A.İçetovkinaya görə isə həmin qadağanın aradan götürülməsi İmam Əlinin xələflərinin VII əsrdə apardığı mübarizənin yad edilməsinə olan təəssübkeşliyin nəticəsi kimi başa düşülməlidir [33, s.312].

Beləliklə, görürük ki, təsviri sənət islam dinində, əsas etibarilə, çox yayılmamış, əksər hallarda ən azı tənbeh edilib, ifrat yanaşmada isə ağır günah sayılmışdır. Belə münasibət mühüm dini ehkamlara, habelə müsəlman dünyagörüşünə əsaslanırdı. Lakin bu da bir həqiqətdir ki, bir çox müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da orta əsrlərdə təsviri sənət sahələri xeyli inkişaf etmişdir. Şəriət qaydalarının hakim olduğu Səfəvilər dövrü və ondan sonrakı dövrlərə aid bizə gəlib çatan miniatür və müxtəlif rəsm nümunələri göstərir ki, dini etiqadda qadağalar insan və digər canlıların təsvir edilməsinin qarşısını ala bilməmişdir. Buna baxmayaraq, bəzi müəlliflər hesab edir ki, xəttatlıq islam dininin təsviri sənətlərə qoyduğu qadağaların nəticəsi kimi meydana gəlmişdir [33, s.311; 28, s.48]. Başqa sözlə, islamda təsviri sənətə olan belə münasibət müsəlman mədəniyyətini araşdıran əksər alimlərin

mövqeyinə görə, orta əsrlərdə xəttatlıq sənətinin inkişaf etməsinə şərait yaradan başlıca amilləri surət təsvirinə qoyulan qadağalarla şərtləndirmişdir. Halbuki, "ərəb hərfləri həndəsi formalı olmadığına və cismlərin kompozisiyasının təsvir edilməsində əlverişli quruluşuna" [6, s.299] görə hələ cahiliyyət dövrü ərəb şairlərinin kalliqramlarında (yazı rəsmlər) tətbiq edilmişdir ki, bunu xəttatlığın islamaqədərki dövrdə də mövcud olduğuna əsas kimi qəbul etmək olar [24, s.428].

İslamın meydana gəlməsindən sonrakı dövrdə isə ərəb xəttatlığı, əsasən, Qurani-Kərimin qüsursuz bir gözəlliklə yazılmasına yönəldi [23, s.127]. Quranın Allah kəlamına layiq bir şəkildə yazılması xətt ustalarında işə olan məsuliyyəti artırdı və ilahi mesajın qəlblərə bir növ sənət yolu ilə çatdırılması inancını yaratdı [19, s.18]. Odur ki, müqəddəs sənət sayıldığı üçün keçmişdə xəttatların cənnət əhlindən olduğuna inanılırdı [23, s.127]. Akademik R.Hüseynov orta əsrlərdə hüsnxəttin tərbiyə sistemindəki rolunu önə çəkərək yazır: "Orta çağdan yaranmış "mirzə" peşəsi yalnız savadsızların müraciət edərək məktublarını, yazılarını onlara qələmə aldırması üçün deyildi. Çox vaxt xətti lazımınca səliqə-sahmanlı olmayanlar yaraşıqsız xətli məktubu kiməsə yollamağı həmin adama hörmətsizlik saydıqlarından, mətləblərini xətti gözəl, savadı kamil mirzələrə yazdırırdılar... gözəl xətli mirzələrlə əlyazma kitablarını yaradan xəttatlar arasında böyük fərq var idi. Çünki xəttatlıq sadəcə yazmaq, üzünü köçürmək yox, həm də bir sənət sahəsi idi" [16, s.79].

Bu sənət sahəsi çox vacib məşğuliyyətə çevrildiyi üçün məktəblərin yaranmasına, risalələrin yazılmasına səbəb oldu. Yazı sənətinə dair zəmanəmizə gəlib çıxan ən erkən əlyazma XIV-XV əsrlərə aid olan "Rəsm ustaları əxi icmasının nizamnaməsi (risaləsi – *T.Ş*)" idi. Ən məşhur ustadların – Sultan Əli Məşhədi, Dost Məhəmməd və Qazı Əhməd Mirmünşi əl-Hüseyninin risalələri XVI-XVII əsrlərə aiddir [32, s.229]. Bu əsərlərdə ustadlar şagirdlərinə yazı qaydası və ənənələrini öyrədir, əlyazma kitabların tərtibat üsullarından bəhs edirlər.

İslamiyyətin ilk dövründə ərəblərdə qədim xəttatlıq mərkəzləri olan Məkkə, Mədinə, Kufə və Bəsrə şəhərlərində xüsusi xətt nümunələri – müvafiq olaraq, "xatt-i-Məkki" (Məkkə xətti), "xatt-i Mədine" (Mədinə xətti), "xatt-i Kufi" (Kufi xətti) və "xatt-i Bəsri" (Bəsrə xətti) olmaqla, dörd xətt növü formalaşmaqda idi. İslamı qəbul edən xalqların mənimsəmiş olduğu ərəb əlifbası və dili fütuhatdan sonra artıq bütün müsəlman xalqların ortaq ədəbi dilinə çevrildiyi üçün ərəb qrafik yazıları bir çox ölkələrdə "islam xətti" adlanırdı [27, s.54]. Bu dövrlərdə ərəb yazısı həm qrafik baxımdan, həm də ərəb dilinin leksik xüsusiyyətlərini təsbit və ifadə edə biləcək bir yazı sistemi olaraq çox ibtidai səviyyədə idi [29, s.50]. Miladi 638-ci ildə Kufə şəhərinin salınmasından və xəlifə Əlinin (656-661) buranı siyasi və elmi mərkəzə çevirməsindən sonra yazı sənəti burada inkişaf etməyə başladı. Bu inkişafda

İraqda yaşayan və sonralar islamı qəbul edən süryani hüsnxət sənətkarlarının da böyük rolu oldu [3]. Beləliklə, müəyyən qrafik qaydalarla tənzimlənən və "kufi" (xatt-i kufi) adı ilə yaranıb inkişaf edən xətt yazısı müsəlmanlar arasında xəttatlığın bir sənət sahəsi kimi, məhz bu dövrdən etibarən formalaşmasına şərait yaratdı.

İslamdan öncəki dövrdə, əsasən, abidə yazısı kimi istifadə edilən "makuli" xətt növünün müəyyən ölçülərdə yuvarlaqlaşdırılıb, yumşaldılması ilə formalaşan kufi xəttinin belə adlanmasının səbəbi Kufə şəhərində çox istifadə edilməsi ilə bağlı idi [28, s.79]. Hərəkələri olmadığı üçün çətin oxunan kufi xətti daha çox dəri üzərinə yazılan böyük ölçülü Quran nüsxələri üçün istifadə edilirdi [23, s.127]. Digər tərəfdən, kufi xəttin çətin oxunuşu ərəb fütuhatından sonra islamı qəbul edən müxtəlif əcnəbi xalqların ərəb dilindən istifadə edərkən mətnləri və şifahi dili təhrif etmələrinə səbəb olurdu. Ona görə də xəlifə Əlinin göstərişi ilə Əbul-Əsvəd əd-Duəli tərəfindən ərəb dilində sait səsləri göstərmək üçün hərflərin üzərinə və ya altına qoyulan diakritik işarələr – hərəkələr qrafik yazı sisteminə əlavə edildi [8, s.281]. Yazıda hərflərin hərəkələnməsi, qrafik quruluşu oxşar olan ayrı-ayrı fonetik vahidlərin fərqləndirilməsinin əcəm xəttatlığında yaratdığı çətinliyin də aradan qaldırılmasına kömək etdi [26, s.21].

VIII-X əsrlərdə hazırlanmış Quran mətnlərində kufi xətti ilə yazılmış hərflərin bucaqlı quruluşunun və onların birləşməsi ilə yaranan yazının yaratdığı çətinliklərin aradan qaldırılması üçün Abbasi sarayının vəziri, tanınmış xəttat İbn Müqlə (886-940) tərəfindən islahatlar aparılmış və yazıya müəyyən quruluş və ölçü qaydaları gətirilmişdir [9, s.9]. Beləlikə, "islam yazısı"nın sənətləşmə yolundakı bu böyük islahatın nəticəsi olaraq bir-birindən fərqlənən və "əqləmi-sittə" adını alan altı xətt növü – süls, nəsx, mühəqqəq, reyhani, tövqi və riqa xəttləri formalaşdı [30, s.102]. "Əqləmi-sittə"yə daxil olan yazı növlərinin necə formalaşdığını və hansı xəttin daha qədim olduğu problemini geniş araşdıran M.Yazıra görə ilkin olaraq kufi xəttindən törəyən əqləmi-sittədə "əqləm" (ərəbcə "qələm" – *T.Ş.*) istilahının işlədilməsinin səbəbləri yazıda qələmdən istifadə edilməsi və hər bir xəttin/"qələm"in özünəxas cəhətləri, alt mənaları ilə bağlı olmuşdur [28, s.88-100). S.Nemətzadə isə professor M.Serinə istinad edərək yazır ki, əqləmi sittə xətləri tövqi – riqa, mühəqqəq – reyhani, süls – nəsx kimi ikili qrup halında olmaqla, əslində eyni qrafik şəkillərə malikdirlər. Onları ayıran başlıca cəhət ölçü baxımından fərqlilikdir [20, s.15].

Mühəqqəq xətti – öz quruluşu baxımından kufi xəttindən ilk ayrılan yazı növlərində biri olmuşdur [4, s.320]. Xüsusi olaraq Quranın yazılmasında istifadə edilən bu xəttə İbn əl-Bəvvab və onun ardıcılları tərəfindən geniş yer verilmişdir [19, s.21]. Səlcuqlar dövründə daha çox istifadə edilən mühəqqəq xəttinin mövqeyi, artıq XVI əsrdən etibarən bütün müsəlman ölkələrdə süls xətti ilə əvəz olunmağa başladı [4, s.320]. Lakin bəzi müəlliflər Səlcuqlar

dövrünü mühəqqəq xəttinin tənəzzülü dövrü olduğunu və süls xətti ilə məhz bu dövrdə əvəz olunduğunu qeyd edirlər [29, s.54].

Reyhani xətti – Əbülfəzl ibn Hazin tərəfindən mühəqqəq əsasında tərtib edilmişdir [12, s.85]. Reyhani mühəqqəqlə oxşar qaydalara bağlı, lakin onun üçdə bir kiçikliyində olan xətt növü idi [4, s.320]. Bu xətt növü Müshəfi-şərifin yazılmasında kufinin yerini tutsa da, sonrakı dövrlərdə müshəf və kitab yazılmasında sürətlə yayılan süls və nəsx xətləri ilə əvəz olunaraq, XVI əsrdən sonra, demək olar ki, istifadə edilməmişdir [25, s.10].

Süls xətti – əqləmi-sittənin əsas qollarından biridir. Lüğəvi mənası "üçdə bir" anlamında olan süls xəttinin əsas fərqli cəhəti hərflərinin üçdə iki hissəsinin düz, üçdə birinin isə yuvarlaq olması ilə bağlı olmuşdur. Yazılışındakı bu qaydanın bütün dövrlərdə qorunması da bunu bir daha təsdiq edir [17, s.56]. Kufidən sonra formalaşan ilk xətt növü olduğu üçün süls yazısına "ümmül-xutut" ("xətlərin anası") da deyilirdi [12, s.81]. Özünə xas gözəl olması və hüsnxətdə geniş istifadə edilməsinə görə xəttatlıq sənətinə yiyələnən şəxslər ilk olaraq süls xəttini öyrənməyə çalışırdılar [28, s.50]. Bunun digər bir səbəbi süls xəttinin nisbətən çətin yazı növü olması idi. Qədim xəttatlar hesab edirdilər ki, sülslə yaza bilən biri asanlıqla digər xətlərdə də yaza bilər. Çünki xətlərə mükəmməl yiyələnmək vərdişlərini daha çox süls xətti tələb edirdi [1, s.20].

Nəsx xətti – adını ərəbcə "aradan aparmaq", "qüvvədən salmaq" mənalarını daşıyan "nəsx" kəlməsindən almışdır. Daha əvvəlki dövrlərdə nəsx xəttilə yazılmış tarixi sənədlərin mövcud olduğu məlum olsa da, bu xəttin kufi, yaxud süls əsasında ilk tərtibçisinin İbn Müqlə olduğu şübhəsizdir [14, s.36]. Əli Bəvvab isə onun işlərini inkişaf etdirərək, nəsx yazısını daha da təkmilləşdirmişdir [22, s.667].

Nisbətən dolğun və rahat oxunuşlu olduğundan daha geniş yayılmış və orta əsrlərdə kitabların yazılmasında, əsasən, bu xətt növündən istifadə edilmişdir [13, s.21]. Q.Darabadi nəsxin bilavasitə kufi xəttinin əsasında yarandığını qeyd etdiyi halda [10, s.15-16], bəzi mütəxəssislər onun süls yazısının incəldilməsi ilə ortaya çıxması fikrini qəbul etməkdə qərarlıdırlar [29, s.52]. A.Yıldız bəzi tədqiqatçılara istinadən nəsx xəttinin kitabların yazılmasında digər xətlərdən daha çox istifadə edildiyinə, yaxud süls xəttinin üçdə ikisini "nəsx etdiyinə" (dəyişdiyinə) görə belə adlandırıldığını yazır [29, s.52].

Şərq ölkələrində nəsx xətti əsasında sünbüli, süls, icazət, reyhani, nəsx, divani, devaneyi-cəli, təliq, nəstəliq və şikəstə kimi xətt növlərinin meydana gəldiyini yazan Q.Darabadiyə görə İranda bu xətlərdən ən çox yayılanı "nəstəliq" və "şikəstə" olmuşdur [10, s.16].

Tövqi xətti – əqləmi-sittəyə daxil olan altı növ xətlərdən biri saylır. Lüğəvi mənası "tuğra, dövlət nişanı, padşah fərmanı" anlamında olan "tövqi" süls əsasında formalaşmış və dövlət sənədləri, fərmanlar, məhkəmə qərarları və

s. rəsmi yazılarda istifadə edilmişdir [12, s.85]. Tövqi xəttini sülsdən fərqləndirən əsas cəhət yazıda bitişə bilən əlif [ا], ra [ر], vav [و] kimi hərflərin ayrı yazılmaması idi [4, s.321].

Riqa xətti – sürətli yazılışı ilə seçilən və bu səbəbdən hərflərin bitişik yazıldığı xətt növü olmuşdur. Riqa kəlməsi lüğətdə "kiçik səhifə", "məktub" mənalarını daşıyır. Riqa xəttinin yaradıcısının Əbülfəzl Hazim olduğu qeyd edilir [29, s.53]. Əsasən xüsusi yazışmalarda, məktublaşmalarda istifadə edilən [5, s.29] riqa xətti XIX əsrdə də gündəlik məişətdə və rəsmi yazılarda geniş şəkildə istifadə edilmişdir [20, s.16].

Orta əsrlərdə əqləmi-sittədən başqa bir sıra xətt növlərindən də istifadə edilmişdir. XIV əsrin sonlarında İran xəttatı Salman İsfani [1, s.21], S.Müstəqimzadəyə görə isə təbrizli Mir Əli tərəfindən tərtib edilən belə xətlərdən biri təliq xətti idi. İranda meydana gəldiyi üçün digər ölkələrdə buna "əcəm" yazısı da deyilirdi [29, s.13]. Bu xətt növünün tövqi və riqa xətləri əsasında yaradıldığı və nəstəliq xəttinin ilkin forması olduğu qeyd olunur [19, s.81]. Elmi ədəbiyyatda qeyd olunur ki, təliq xətti Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, əsasən, rəsmi yazılarında istifadə edilmişdir. Fateh Sultan Mehmetin Ağqoyunlu Uzun Həsəni məğlub etdikdən sonra İstanbula gətirdiyi İranlı xəttatlar burada təliq yazı üslubunu da özləri ilə gətirmiş və beləliklə bu yazı növü Osmanlı dövlətində də intişar tapmışdır [7, s.63]. Təliqi digər xətlərdən fərqləndirən əsas elementlərdən biri də hərflərin üstdən aşağı yazılması [1, s.21], əyri və bir növ asılı şəkildə görünməsidir [6, s.66].

XIV əsrin sonunda nəsx və təliq xətlərinin sintezi nəticəsində məşhur xəttat Mirzə Əli Təbrizi tərəfindən yaradılan nəstəliq XV – XVI əsrlərdə Yaxın Şərqdə, xüsusilə də İran və Azərbaycanda geniş yayılaraq, əsasən kitabların üzünün köçürülməsində, məktub və sənədlərin yazılmasında və qitələrin hazırlanmasında geniş tətbiq olunmuşdur. XVIII əsrdən isə nəstəliq xətti, əsasən, memarlıq abidələri, məzar daşlarının və başqa abidələrin üzərindəki kitabələrdə tətbiq edilmişdir [29, s.59]. Eyni dövrlərdə daha geniş yayılmağa başlanan nəstəliq xətti gümüş, bürünc və digər qiymətli metallardan, habelə saxsıdan hazırlanan qabların və s. bəzək əşyalarının tərtibatında, habelə adi gündəlik yazılarda da istifadə olunmuşdur [1, s.21]. XV əsrdə Osmanlıların Qaraqoyunlu və Ağquyunlularla olan siyasi münasibətləri nəstəliq xəttinin Türkiyədə tanınmasına şərait yaradırdı. Bu dövrdə əlyazmaların əldən-ələ dolaşması, xüsusilə ədəbiyyat sahəsində İranla yaxın əlaqələr, Fateh Sultan Mehmetin dövründə sərhədlərin genişlənməyə başlaması və müsəlman dünyasında İstanbulun xüsusi maraq kəsb etməsilə əlaqədar Osmanlı sarayında İran (o cümlədən Azərbaycan – *T.Ş.*) sənətkarlarının üzünə qapıların açılması bu xətt növünün ölkə ərazisində geniş yayılmasını şərtləndirən əsas amillər idi. Bu dövrdə tanınmış Azərbaycan və İsfahanlı xəttatların bir qismi İstanbula

gələrək, burada yerləşdilər və sonralar Osmanlı saraylarında fəaliyyətə cəlb olundular [3].

Divani xətti – Nəstəliq xəttinin iranlı xəttatlar tərəfindən ixtirasından sonra iranlı xəttatlarla Osmanlı xəttatları arasında əsl rəqabət başlanır. Türk xəttatları nəstəliq xəttini dəyişdirərək yeni – divani xəttinin əsasını qoyurlar. “Divani” – termin olaraq, “hökmdarın əmrlərini, fərmanlarını qələmə almaq üçün istifadə edilən yazı” anlamına gəlir. Mənbələrə görə divani Sultan Fateh Mehmetin dövründə daha geniş istifadə olunmuşdur. Bu xətt növü yaradıldıqdan sonra bir çox müsəlman ölkələrində yayılmış, Osmanlı dövlətində pul vəsiqələri, verilən hökm, əmr və fərmanlar, habelə məktub və digər yazılı sənədlər məhz divani xətti ilə yazılmağa və çap olunmağa başlanmışdır [1, s.21]. Sonralar divani təkmilləşdirilərək özünün hazırkı mükəmməl görünüşünə çatdırılmışdır. Osmanlı xəttatları yazının İran üslubunu dəyişərək, onun yazılması və oxunuşunu xeyli asanlaşdırırlar [24, s.16]. Hazırda divaninin iki növü – qəliz divani və qırma divani mövcuddur. İslam memarlığı və inşaat Qırma divanidən fərqli olaraq qəliz divani növündə özündən sonrakı hərflərlə birləşməyən əlif, dəl, zəl, ra və vav hərfləri əyri xətlərlə özündən sonrakı hərflərlə birləşdirilir, xəttin oxunuşunu həm qəlizləşdirir, həm də ona özünəməxsus gözəllik vermiş olur [1, s.22].

XVI əsrdə Azərbaycanda xəttatlıq sənəti öz inkişafının yüksək mərhələsinə çatdı. Bu dövrdə, hətta Səfəvi hökmdarları da xəttatlıqla məşğul olurdular. Onların arasında I Şah İsmayıl və Şah Təhmasibin də adları çəkilir [18, s.205]. Prof. Əli Alparslan I Şah İsmayılın nəvəsi İbrahim Mirzənin (ö.984/1576) nəstəliq xəttində gözəl yazdığını, eyni zamanda IV Səfəvi şahının (Məhəmməd Xudabəndə – T.Ş.) nəstəliq və nəsx xətləri ilə məşğul olduğunu yazır. Müəllif daha sonra bu ənənənin Qacarlar dövründə də davam etdiyinə diqqət çəkərək, Fətəli şah Qacarın nəvəsi Məhəmməd Mirzə Qacarın (ö. 1290/1873) nəstəliq xəttində sənətkar olduğunu qeyd edir. Azərbaycan xəttatlarının bir çoxu tərtib etdiyi əlyazma mətnlərini miniatürlərlə də bəzəyirdilər [34, s.183]. Təbrizdə, Ərdəbildə, Marağada və Şamaxıda kalliqrafların toplandığı kitabxanalar vardı. Lakin Təbrizdəki kalliqrafiya məktəbi ümumşərq əhəmiyyətinə malik idi. Kalliqrafiya memarlığa, metalişləmə sənətinə, toxuculuğa [21, s.108-109] və xalçaçılığın inkişafına güclü təsir göstərirdi. Təsadüfi deyildir ki, ən mahir kalliqraflar Təbriz məktəbinin yetirmələri idi. Abdulla Qazı Xoylu, Ətiq Ordubadi, Sadıqbəy Əfşar, Şəmsəddin Məhəmməd Təbrizi, Seyid Məhəmməd, Şah Mahmud Nişapuri XVI əsrin ən məşhur xəttatları olmuşlar [18, s.290]. Kitab çapı olmadığına görə Azərbaycanda xəttatlıq bu dövrdə də zəruri və kütləvi sənət növü idi. Xəttatlığın bir çox incəsənət sahələrinə güclü təsiri XVII əsrdə və daha sonrakı əsrlərdə də aydın nəzərə çarpırdı. Mir Abdulbaqi Danişmənd, Əli

Rza Təbrizi (Abbasi), Mir İmad Qəzvini və Məhəmməd Mömin Təbrizi bu dövrün ən məşhur xəttatları olmuşlar [18, s.234].

Beləliklə, ilk dövrlərdə, əsasən, Qurani-Kərim, hədis və digər kitabların üzünün köçürülməsində istifadə edilməklə məhdudlaşan xəttatlıq, təxminən XIV-XV əsrlərə qədər, həm də müxtəlif xətt növlərinin formalaşması dövrü kimi xarakterik olmuşdur. Sonrakı dövrlərdə daha da inkişaf edərək bir xalq sənəti kimi memarlıq abidələrində, o cümlədən dini abidələrdə, minarə, mehrab və məzar daşlarının üzərindəki kitabələrin yazılmasında, eləcə də qapı və pəncərələrin tərtibatında, divar bəzəkləri və məişətdə istifadə edilən müxtəlif növ metal qablar üzərində yazıların yazılmasında tətbiq edilmişdir.

## ƏDƏBİYYAT

1. Abasov A. İslam memarlığı və inşaat / A.X.Abasov, E.A.Abasov, E.N.Hüseynova; elmi red.: P.Qurbanov, T.Məmmədova; red.: V.Kərimov, F.Şahin. Bakı, Qərb Universiteti, 2010.
2. Alparslan A. Osmanlı Hat Sanatı Tarihi, İstanbul, 2004.
3. Alparslan A. Türk Dünyasında Hat Sanatı. / Elektron resurs: https://www.tarihtarih.com.
4. Alpaslan K. Hat Sanatımız ve Hattat, Kallgrafist, Yazı Tasarımcısı ve Eğitimeisi Emin Barın. C.Ü. İlahiyat Fakültesi Dergisi XI/2- 2007, s.317-328.
5. Baltacı C. İslam Paleografyası. Marmara Üniver. İlahiyat Fakültesi Vakfı Yay., İstanbul, 1989.
6. Baltacıoğlu İ.H. Buradaki Elif İnsandır, He de Bir İnsan Başıdır. Sanat Dünyamız Yaratıcı Osmanlılar, sayı 73. İstanbul, YKY, 1999.
7. Berk S. Hat Sanatı, İstanbul Büyükşehir Belediyesi Sanat ve Meslek Eğitim Kursları (İSMEK) Yay., İstanbul, 2006.
8. Çağatay N. 100 Soruda İslam Tarihi. İstanbul, “Gerçek” Yayınevi, 1972.
9. Çağman F., Aksoy Ş. Osmanlı Sanatında Hat, T.C. Kültür Bakanlığı, Anıtlar, Ankara, 1998.
10. Darabadi Q.A. Kalliqrafiya. Bakı, “ADU” nəşriyyatı, 1953.
11. Derman M.U. “Türk hat sanatı: İncelikleri ve Bedii değerleri”. Arış, Yıl 1, Sayı 3, 1997.
12. Eminoğlu M. Osmanlı Vesikalarını Okumaya Giriş. Türkiye Diyanet Vakfı Yay. Ankara, 2010.
13. Ergin M. Osmanlıca Dersleri. İstanbul, 1962.
14. Gökbilgin M.T. Osmanlı paleografya ve Diplomatik ilmi. İstanbul, 1992.
15. Hancıoğlu T. Kufı Yazı Üzerine. Gazi Eğitim Fakültesi Dergisi, C. I, Sayı 1, 1985.

16. Hüseynov R. İmzamız. Sənət düşüncələri. Bakı, 2012.
17. Kütükoğlu, M. Osmanlı Belgelerinin Dili, İstanbul, 1994.
18. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, "Aspoliqraf", 2008.
19. Muhittin S. Hat Sanatı ve Meşhur Hattatlar, Kubbealtı Akademisi Kültür ve Sanat Vakfı, İstanbul, 2003.
20. Nemətzadə S. Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər. "Elm və Təhsil", Bakı, 2017.
21. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (Sosial-iqtisadi tarixi). Bakı, Elm, 1982.
22. Pakalın M.Z. Osmanlı tarih deyimleri ve terimleri sözlüğü. M.E.B. II, İstanbul, 1993.
23. Schimmel A. Doğu-Batı Yakınlaşmaları – Avrupa'nın İslam Dünyasıyla Karşılaşması. Almancadan Çeviren: Hüseyin Ağuiçenoğlu. İstanbul, "Avesta Yayınları" 2012.
24. Schimmel A. İslamın Mistik Boyutları. Çev.: E.Kocabıyık. İstanbul, Kabalcı Yay., 2004.
25. Subaşı H. Yazıya giriş. İstanbul, 1987.
26. Şinasi A.M. Türk hat sanatı (Araç gereç ve formlar), İstanbul, 1999.
27. Uğur D.M. Türk Hat Sanatı: incelikleri ve Bedii Değerleri. Arış, Yıl 1, Sayı 3, 1997.
28. Yazır M. B. Medeniyet Aleminde Yazı ve İslam Medeniyetinde Kelem Güzeli. I Kısım, Diyanet İşleri Başkanlığı, Ankara. 1972.
29. Yıldız A.V. Osmanlılarda yazı çeşitleri. Harran Üniversitesi İlahiyat Fakültesi Dergisi, Yıl: 17, Sayı: 28, Temmuz – Aralık 2012.
30. Zeydan C. Medeniyet-i İslamiyye Tarihi. III, Çev.: Z.Megamiz, Üçdal Neşriyat, İstanbul, 1976.
31. Джекман Дж. Культура в ожидании двенадцатого имама. / Электронный ресурс: http://www.theartnewspaper.ru/posts/42/.
32. Зверев, А. С. Искусство ислама / А. С. Зверев. – М.: ООО «ГК ИТЛ», 2007.
33. Ичетовкина А.Д. Ислам и искусство: от запрета изображений к сакрализации каллиграфии / Религия иили повседневность материалы IV Междунар. науч.-практ. конф., Минск, 16-18 апр. 2015 г. - Минск РИВШ, 2015.
34. Кулизаде З.А. Закономерности развития восточной философии XIII-XVI вв. и проблема Запад-Восток. Баку, Элм, 1983.

# AZƏRBAYCAN MÜSTƏQİLLİYİN BƏRPASI YOLLARINDA: GÜCLÜ LİDER, QÜDRƏTLİ DÖVLƏT

***A.Q.Seyidov***
Az.DİU-nun "Humanitar fənlər" kafedrası
**abbas.seyidov@gmail.com**

**Açar sözlər:***Azərbaycan Xalq Cümhuriyyəti, Müstəqil Azərbaycan Respublikası, Heydər Əliyev, dövlət müstəqilliyi*

*Məqalədə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası istiqamətində görülən işlərdən bəhs olunur. Hər bir xalqın ən böyük arzusu mənsubu olduğu dövlətin müstəqilliyidir. Müstəqilliyə qovuşmaq üçün iki şərt əsasdır: - tarixi şəraitin yetişməsi və güclü, xalqı arxasınca aparmağı bacaran liderin olması. Azərbaycan xalqı 1918-ci ilin may ayında yaranan Azərbaycan Xalq Cümhuriyyəti ilə dövlət müstəqilliyinə nail olsa da, 1920-ci ilin aprel ayında yenidən sovetlərin təsiri altına düşdü.*

*XX əsrin 80-ci illərinin sonuna yaxın sovet imperiyası çökməyə başladı. Artıq tarixi şərait yetişirdi. Xalqı arxasınca apara bilən güclü liderə ehtiyac duyulurdu ki, bu nəhəng sima, Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu olan Heydər Əlirza oğlu Əliyev idi. Məhz onun 1990-1993-cü illərdə Naxçıvanda dövlət müstəqilliyinin bərpası istiqamətində həyata keçirdiyi tədbirlərin, 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti kimi müstəqilliyimizin qorunması yollarında gördüyü işlərin nəticəsi kimi bu il 30 illik yubileyimizi qeyd edirik.*

## ПУТИ К ВОССТАНОВЛЕНИЮ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА: СИЛЬНЫЙ ЛИДЕР, МОГУЩЕСТВЕННОЕ ГОСУДАРСТВО

***А.Г.Сеидов***

**Ключевые слова:***Азербайджанская Демократическая Республика, Независимая Азербайджанская Республика, Гейдар Алиев, государственная независимость*

*В статье рассматриваются труды, проделанныедля восстановления государственной независимости Азербайджанской Республики. Самым заветным желанием каждого народа является независимость*

*государства, которому он принадлежит. Есть два условия обретения независимости: (1) развитие исторических условий и (2) наличие сильного лидера, способного вести за собой толпы. Хоть и добился азербайджанский народ государственной независимости в мае 1918 года, создав Азербайджанскую Демократическую Республику, она была вновь утрачена в апреле 1920 годапод давлением Советского Союза.*

*К концу 1980-х советская империя утратила свое былое могущество. Таким образом, сложились исторические условия. Нужен был сильный лидер, которым, неслучайно,оказался Гейдар Алирза оглу Алиев – основоположники архитектор независимой Азербайджанской Республики. Именно благодаря мерам, предпринятых им в Нахчыване в 1990-1993 годах для восстановления государственной независимости, и усердному труду для ее сохранения, проделанному им на посту президента Азербайджанской Республики в 1993-2003 годах, мы отмечаем свое 30-летие в этом году.*

## THE WAYS OF RESTORATION OF THE INDEPENDENCEOF AZERBAIJAN: STRONG LEADER, POWERFUL STATE

***A.G.Seyidov***

**Keywords:***Azerbaijan Democratic Republic, Independent Azerbaijan Republic, Heydar Aliyev, state independence*

*The article discusses the work done to restore the state independence of the Republic of Azerbaijan.The greatest desire of every nation is the independence of the state to which it belongs.There are two basic conditions for independence:- the development of historical conditions and the presence of a strong leader who is able to lead the people. Although the people of Azerbaijan achieved state independence with the Azerbaijan Democratic Republic, which was established in May 1918, in April 1920 it was again under the influence of the Soviets.*

*Towards the end of the 1980s, the Soviet empire began to collapse.Historical conditions were already ripe.There was a need for a strong leader who could lead the people, this great figure was Heydar Alirza oglu Aliyev, the architect and founder of the Independent Republic of Azerbaijan. This year we celebrate our 30th anniversary as a result of the measures taken by him in 1990-1993 to restore state independence in Nakhchivan, and the work*

*he did as President of the Republic of Azerbaijan in 1993-2003 to protect our independence.*

Hər bir xalqın ən ümdə arzusu onun mənsubu olduğu dövlətin müstəqil, azad suveren olmasıdır. Təbii ki, tarix boyu bu şərəfhər xalqa qismət olmayıb. Bu gün də öz istiqlalına qovuşmaq arzusunda olan çox sayda xalq, dövlət vardır. Azadlığa, müstəqilliyə qovuşmaq üçün çox şərt olsa da, onlardan ikisi əsasdır:

1. tarixi şəraitin yetişməsi;
2. güclü, xalqı arxasınca aparmağı bacaran liderin olması.

Azərbaycan xalqı XX əsrdə iki dəfə dövlət müstəqilliyinə nail olub. 1918-ci ilin may ayında yaranan Azərbaycan Xalq Cümhuriyyəti öz istiqlalının dadını çıxarmamış, 1920-ci ilin aprel ayında yenidən Qırmızı imperiyanın əsarəti altına düşdü. Respublikamızın işğal planı Sovet Rusiyasının rəhbəri V.İ.Lenin tərəfindən qabaqcadan hazırlanmış və təsdiqlənmişdi. 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə AXC-nin parlamenti hakimiyyəti Müvəqqəti İnqilab Komitəsinə təhvil verdi. 70 minlik XI Qırmızı Ordu, öndə "III İnternasional", daha 3 zirehli qatar və 300 nəfərdən ibarət piyada desant olmaqla, Samur çayı üzərindəki körpünü keçdi. Bu, faktiki olaraq, işğalçı rus-sovet qoşunlarının müstəqil Azərbaycan Cümhuriyyətinin ərazisinə təcavüzü idi. AXC-nin dövlət strukturlarında çalışanlar nə qədər inadkarlıq göstərsələr də, Birinci Dünya müharibəsindən (1914-1918-ci illər) sonra yaranan tarixi şərait, siyasi mühit buna imkan vermədi. Rusiyada baş verən 1917-ci ilin oktyabr inqilabı və ondan sonrakı dövrdə hakimiyyəti ələ keçirən sovetlərin Bakı neftinə və bütövlükdə vətənimizin yeraltı, yerüstü sərvətlərinə olan marağı Azərbaycan xalqının müstəqillik ideyalarının üstündən xətt çəkdi. Cəmi 23 ay mövcud olan, Şərqdə qadınlara ilk seçki hüququ verən, dövrünə görə bir sıra mühüm islahatlar həyata keçirən Azərbaycan Xalq Cümhuriyyəti azadlığın nə olduğunu xalqımıza dadızdıraraq, tarixin səhifələrinə qovuşdu.

Ancaq çox sınaqlardan çıxmış xalqımız heç də sınmadı. Həqiqət olanı dərindən dərk edərək, bu işğalla barışmadı, öz müstəqilliyi və azadlığı uğrunda əsl ölüm-qalım savaşına başladı. İlk antisovet üsyanı Tərtərdə baş verdi. 1920-ci il mayın 26-31-də olmuş Gəncə üsyanı Azərbaycanın işğal edilməsinə, onun dövlət müstəqilliyinə son qoyulmasına qarşı xalqın ən kütləvi və mütəşəkkil müqaviməti idi. Mayın 31-də XI Qızıl ordu hissələri şəhərə nəzarəti ələ keçirdi. Düz üç gün Gəncədə terror və qarət həyata keçirildi. Gəncə döyüşləri zamanı "qırmızılardan" 8800, üsyançılardan isə 13000 nəfər öldürüldü. Üsyan yatırıldıqdan sonra Azərbaycan ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitan, ştabskapitan, poruçik və podporuçiki, 146 praporşiki, 267 digər hərbi qulluqçusu bolşeviklər tərəfindən güllələndi [1, s.197; 2, s.396]. Qarabağda - Ağdam və Şuşada, 1920-ci il iyunun 5-də baş vermiş silahlı etiraz

çıxışlarının davamıhəmin ilin yay və payızında Zaqatala, Şəmkir, Dəvəçi və Qusar dairələrində, Zəngəzurun Xanlıq dairəsində, Lənkəran, 1920-1923-cü illərdə Cavanşir, Qəbələ, Kürdəmir, Göyçay, Xaçmaz, Ordubad, Şərur və digər qəzalarda baş vermiş, qaçaqçılıq geniş yayılmışdı. Ümumiyyətlə, 1924-cü ilə kimi Azərbaycanda sovet hökmranlığına qarşı 60-dan çox silahlı çıxış olmuşdur [3,s.385, 444, 447].

1930-cu illərin repressiyaları azadlıq ideyası ilə ürəyi döyünən azərbaycanlıların həyatı bahasına başa gəldi. İkinci Dünya müharibəsi bitdikdən sonra, bir müddət insanların başı dünyadan köçənlərə, dağılmış şəhər və infrastrukturların bərpasına qarışdı.1920-ci il işğalından keçən 70 il ərzində SSRİ adlanan dövlətin tərkibində yaşasaq da, xalqın uzaqgörən ziyalıları həmişə azad, müstəqil, suveren Azərbaycan haqqında düşünmüş, siyasi nöqteyi-nəzərdən yeni tarixi şəraitin yetişməsini gözləmişlər. Tanrı Azərbaycan xalqına əsrin sonunda ikinci dəfə dövlət müstəqilliyinin bərpasını təmin etmək üçün yol açdı.

Hələ Rusiya zamanında "xalqlar həbsxanası" adlanan, SSRİ dönəmində guya ki, 15 suveren, müstəqil respublikanın "könüllü" birləşməsindən yaranan Sovet imperiyası XX əsrin 80-ci illərinin ikinci yarısında çökməyə başladı. Artıq müstəqilliyə aparan əsas yollardan biri - tarixi şərait yetişmişdi. Sadəcə, xalqı arxasınca apara bilən, hadisələri düzgün qiymətləndirməyi, məntiqi qərarlar çıxarmağı bacaran güclü liderə ehtiyac duyulurdu ki, bu nəhəng sima Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ümummilli lider Heydər Əlirza oğlu Əliyev idi.

Hələ sovetlər dönəmində - ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycana birinci rəhbərliyi dövründə(1969-1982) Heydər Əliyev SSRİ adlanan imperiyasının tezliklə tənəzzülə uğrayaraq dağılacağını görür, ölkəsininqarşıdakı illərdə müstəqil olacağını hiss edirdi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasına gedən yolu bu illərdən başlayır. Düzdür, o zamanlar sovet ittifaqının güclü olduğu bir dövrdə bunu açıq-aşkar söyləmək və ya hər hansı bir hərəkət etmək mümkünsüz idi. Amma, H.Əliyev gördüyü işlərlə, əməlləri ilə Azərbaycanın iqtisadi, hərbi qüdrətini gücləndirmək yolunda bir sıra mühüm addımlar atırdı. Çoxları bunu anlamayaraq, yalnız SSRİ-nin inkişafı üçün atılan addımlar kimi başa düşsə də, ümummilli liderin ürəyinin dərinliyində gələcək müstəqil Azərbaycan dövlətinin konturları cızılırdı. Ulu öndəringələcəyə hesablanan ən mühüm üç istiqamətə - hərbi, iqtisadiyyat və təhsil sahəsinə diqqət yetirək:

1971-ci ildə Azərbaycan KP MK Bürosunun qərarı ilə hərbi təmayüllü "İxtisaslaşdırılmış internat məktəbi" yaradılır. 24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə internat məktəb C. Naxçıvanski adına Hərbi Lisey adlandırılır. Azərbaycan Kommunist Partiyasının birinci katibi Heydər Əliyev bu təntənəli mərasimdə iştirak edir və

geniş məzmunlu nitq söyləyir. O zamanlar müttəfiq respublikalardan birində hərbi məktəb açmaq böyük cəsarət tələb edirdi. Bunu ancaq H.Əliyev edə bilərdi. Çünki, 1971-ci ildə SSRİ-də Naximov və Suvorov adına hərbi təmayüllü iki internat məktəbi var idi. H.Əliyevin bu addımı ilə çoxları razılaşmır, haradasa, alternativ hərbçilər hazırlayan tədris ocağı görürdülər.Bu gün Heydər Əliyevin uzaqgörənliklə hələ 50 il bundan əvvəl yaratdığı bu məktəbin yetirmələri müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin əsas dayağıdır. Hərbi Liseyin yetirmələrindən 8 nəfəri Azərbaycan Respublikasının Milli Qəhrəmanı fəxri adına layiq görülüb [4].

1969-1982-ci illərdə ölkə iqtisadiyyatının bütün sahələrində istehsalın sürətlə artması nəticəsində ölkənin iqtisadi və sosial inkişafının ümumiləşdirici göstəricisi olan milli gəlir 2,5 dəfə artmışdır. 1982-ci ildə tək sənayedə 1969-cu ildə istehsal edilmiş milli gəlirin həcmindən 36,6 faiz çox xalis məhsul istehsal edilmişdir. Kənd təsərrüfatı və tikinti sahələri inkişaf etmiş, ölkə iqtisadiyyatının mühüm aparıcı və böyük potensiala malik olan sənaye sahəsində yüksək nailiyyətlər əldə edilmişdir. Respublikada tikinti kompleksinin inkişafına sağlam münasibət və mövcud istehsal potensialından səmərəli istifadəyə başlanmışdır. Göstərilən dövrdə Naxçıvan Muxtar Respublikasının ərazisində 13, ölkənin iri sənaye şəhərlərindən olan Bakıda 28, Gəncədə 7, Sumqayıtda 6, Mingəçevirdə 5 və Şirvanda 3 mühüm əhəmiyyəti olan yeni sənaye müəssisələri tikilib istifadəyə verilmişdir [5]. Söz yox ki, iqtisadiyyatın bütün sahələrində inkişaf olmuşdur ki, onları sadalamaqla bitirmək olmaz. Bütün bunlar gələcəkdə Azərbaycanın dövlət müstəqilliyinə hesablanan addımlar idi.

Heydər Əliyev cəmiyyətin tərəqqisinin yeganə yolunu təhsildə, elmdə və mədəniyyətdə gördüyü üçün, onun Azərbaycanda siyasi rəhbərliyə gəlməsi ilə elmin və ali təhsilin inkişafı, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması dövlət siyasətinə çevrilir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə bu sahələrin tərəqqisi üçün çox sayda qərar və qətnamələr qəbul edilib [6]. Statistikadan görünür ki, 1970-1982-ci illərdə elmlər doktorlarının sayı 652 nəfərdən 921 nəfərə, elmlər namizədlərinin sayı isə 5346 nəfərdən 8725 nəfərədək artıb [7, s.274]. Elmi işçilər arasında azərbaycanlıların sayının artımına xüsusi diqqət göstərilib. Elmlər Akademiyasının nəzdində Naxçıvan və Gəncə Elm Mərkəzləri (1972), Şəki Regional Elmi bazası (1972) təşkil olunub. 1970-1980-cı illərdə Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi ali təhsil strategiyası nətıcəsində iqtisadiyyatın yüksək ixtisaslı kadrlarla təmin edilməsi ölkənin inkişafında yeni mərhələ açıb. Bu illərdə SSRİ-nin 50-dən çox şəhərində Azərbaycan SSR üçün 17.000-dən çox mütəxəssis hazırlanıb. Ziyalıların sayca artması ilə yanaşı, onun tərkibində keyfiyyət dəyişikliyi də baş verirdi [7, s.269]. Bu gün respublikamızda fəaliyyət göstərən təhsil

müəssisələrinin geniş şəbəkəsinin əsasının təməli Heydər Əliyevin rəhbərliyi altında məhz o illərdə qoyulub [8, s.4-9].

Heydər Əliyev güclü lider kimi, çoxdan arzuladığı Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasına aparan yollarda yorulmadan xalqın xahişi və təkidi ilə bu məsuliyyətli və ağır yükü öz çiyinlərində daşıdı. Ümummilli liderin 1990-cı il iyul ayının 22-də Naxçıvana olan tarixi səfəri əsrlər boyu insanların qəlbində yaşayacaq.Vətənimizin, xalqımızın ictimai-siyasi həyatına qızıl hərflərlə yazılan bu "səfər" və bununla başlayan milli dövlətçiliyimizin, müstəqilliyimizin əsasının qoyulması daima xatırlanacaq. Bu səfərdən sonra hadisələr tam başqa axarda cərəyan etməyə başladı. O çətin günlərdə ümummilli lider doğulduğu Naxçıvan şəhərində xalq ilə birlikdə yaşadı.

Heydər Əliyevin Naxçıvana gəldiyi gün şəhərin Azadlıq meydanında 80 min nəfərdən çox adamın iştirakı ilə keçirilən mitinqdə ümummilli lider çıxış etdi. Bu, sadə bir çıxış deyildi. Heydər Əliyevin hər bir cümləsi Azərbaycanı müstəqilliyə doğru aparan çox çətin, lakin şərəfli bir yolun qısa, mükəmməl tezisləri idi.

Heydər Əliyev 1990-cı il sentyabrın 30-da Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçildi. Onun sədrliyi ilə keçirilən muxtar respublika Ali Sovetinin 17 noyabr tarixli ilk sessiyasında qəbul edilən qərarlar təkcə Azərbaycanın ayrılmaz guşəsi olan Naxçıvanın yox, bütövlükdə Azərbaycanın ictimai-siyasi həyatında tarixi dönüş yaradan bir hadisə oldu. İclasda "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" tarixi qərarlar qəbul edildi. Naxçıvan MSSR adından "Sovet Sosialist" sözləri çıxarıldı, Ali Sovetin adı dəyişdirilərək "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi" adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edildi və bu bayrağın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qanunvericilik təşəbbüsü ilə çıxış edildi [9, s.34-38]. Bütün bunlar Azərbaycanın müstəqilliyinin məhz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlamasının göstəriciləridir.

Heydər Əliyev 02 sentyabr 1991-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sədri seçildikdən sonra demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı mühüm qərarlar və daha böyük tədbirlər həyata keçirilməyə başladı. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan MR Ali Məclisi tərəfindən "Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən silahlı qüvvələrin statusu haqqında", "Naxçıvan MR-in müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında", "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında SSRİ Qanunu barədə" qərarlar qəbul edildi. 07 sentyabr

1991-ci il tarixli qərarla Naxçıvan MR Dövlət Milli Müdafiə Komitəsi yaradıldı. Sovet qoşun hissələrinin Naxçıvan ərazisindən çıxarılmasına başlanıldı ki, sonuncu rus əsgəri 29 sentyabr 1992-ci ildə ərazini tərk etdi. Elə həmin ilin 28 mayında Naxçıvanla qardaş Türkiyə Respublikası arasında Araz çayı üzərində tikilən "Ümid körpüsü" açıldı. Heydər Əliyevin 22-26 avqust tarixlərində İran İslam Respublikasına səfəri və orada imzalanan sənədlər qonşu dövlətlə gələcək münasibətlərin inkişafında böyük rol oynadı. Dekabrın 3-də İran İR ilə Naxçıvan MR arasında Araz çayı üzərində Şahtaxtı-Poldəşt üzən körpüsü istifadəyə verildi [9, s.38-59].

1991-ci il dekabr ayının 16-da keçirilən Ali Məclisinin sessiyasında "Sərhəd hərəkatı"na Heydər Əliyev tərəfindən siyasi və tarixi qiymət verildi. Elə həmin gün 31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik günü elan olunmaqla, hər il bayram edilməsi və həmin günün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi.

1992-ci ilin noyabrın 21-də Naxçıvanda keçirilən YAP-n təsis Konfransında partiyanın yaranması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

1993-cü ilin iyununda Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda dövlət müstəqilliyi möhkəmləndirildi və bugünkü hərtərəfli inkişafın əsası qoyuldu.

Göründüyü kimi, 1990-cı ildə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Naxçıvanda əsası qoyulan dövlət müstəqilliyinin bərpası Azərbaycan Ali Sovetində aparılan müzakirələrdən sonra 18 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə başa çatır.

Bu gün Azərbaycanın müstəqilliyi çox möhkəm əllərdədir. Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri, Silahlı Qüvvələrin Ali Baş Komandanı, 44 günlük Vətən müharibəsinin Qəhrəmanı İlham Heydər oğlu Əliyevin rəhbərliyi altında respublikamız günü-gündən öz dövlət müstəqilliyini möhkəmləndirir. Ümummilli Liderin söylədiyi kimi: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir".

30 yaşın mübarək, Müstəqil Azərbaycan Respublikası!

## Ədəbiyyat

1. Nəzirli Ş. Cümhuriyyət generalları. Bakı, Hərbi bilik, 1995, 312 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyatı", 2004, 440 s.
3. Süleymanov Mehman. Azərbaycan ordusu (1918-1920). Bakı, "Hərbi nəşriyyat", 1998, 488 s.

4. https://mod.gov.az/az/c-naxcivanski-adina-herbi-lisey-200/
5. (https://www.stat.gov.az/source/others/H.Aliyev/Pdf/14-21.pdf).
6. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar, 2 cilddə, I cild, Bakı, Turxan NPB, 2013, 668 səh.
7. Heydər Əliyev, İki cilddə, 1-ci cild, Bakı, Turxan NPB, 2013, 500 səh.
8. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar, 2 cilddə, II cild, Bakı, Turxan NPB, 2013, 640 səh.
9. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı. Sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, 2011, “Əcəmi” NPB, 272 səh.

## MÜNDƏRİCAT

**Агаева Натаван.** ВЛИЯНИЕ ОБРАЗОВАНИЯ НА ФОРМИРОВАНИЕ ТУРЕЦКОЙ ИНТЕЛЛИГЕНЦИИ В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА……………………………………………………3-10

**Ənvər Fəttah oğlu Məmmədov.** 1920-ci İLLƏRDƏ AZƏRBAYCAN SSR-DƏ HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ KURSUN RESPUBLİKANIN DAXİLİ HƏYATINA TƏSİRİNƏ DAİR.......................................................11-17

**Əzət Nazim qızı Dadaşova.** AZƏRBAYCAN SSR-DƏ NEFT SƏNAYESİ (1946-1950-Cİ İLLƏR)..........................................................................18-25

**Məmmədli Günay Xəqani qızı .**XƏZƏR HÖVZƏSİNİN ENERJİ RESURSLARININ İSTİFADƏSİ AZƏRBAYCAN-TÜRKMƏNİSTAN MÜNASİBƏTLƏRİ KONTEKSTİNDƏ.........................................................26-31

**Leyla Rüstəmova.** AZƏRBAYCAN ƏRAZİSİNDƏ ERKƏN METALLURGİYA VƏ METALİŞLƏMƏNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ..........................................................................................32-38

**Məhərrəm Əhmədov.** XƏZƏR-RUS MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN...........................................................................................39-49

**Мамедова Илаха Магеррам гызы.** МЕСТО И РОЛЬ АЗЕРБАЙДЖАНА В СОВЕТСКО-ИРАНСКИХ СВЯЗЯХ В 1970- НАЧАЛЕ 1980-Х ГОДОВ…50-60

**Əzizova Rübabə Yasin.** AZƏRBAYCANDA DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI ƏRƏFƏSİNDƏ İTTİFAQ RƏRBƏRLİYİNİN XALQ HƏRƏKATINA QARŞI MÜBARİZƏSİ………………………………….....61-73

**Vidadi Umud oğlu Umudlu.** RUSİYA İŞĞALI ƏRƏFƏSİNDƏ ŞİMALİ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA……………………………………………..74-81

**Məmmədov Xəqani Məmməd oğlu**. "NAXÇIVAN MƏSƏLƏSİ" MOSKVA VƏ QARS MÜQAVİLƏLƏRİNDƏ............................................82-89

**Xeyirbəy Qasımov, Dilavər Əzimli.** NADİR ŞAH ƏFŞARIN BARIŞIQ SİYASƏTİNİN MAHİYYƏTİNƏ DAİR.......................................................90-99

**Zəhra Məhərrəm qızı Qəniyeva**.XV-XVI ƏSR SƏFƏVİLƏR DÖVRÜNDƏ TACLI BƏYİMİN İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ ...............................100-108

**Gülnar Həmid qızı Bəşirova.** MÜSTƏQİLLİK DÖVRÜNDƏ SUMQAYIT ŞƏHƏR ƏHALİSİNİN ETNİK VƏ SOSİAL TƏRKİBİNDƏKİ TƏKAMÜLƏ DAİR.......................................................................................109-119

**Tükəzban Göyüşova, Abbas Seyidov.** XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİ ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ YENİ MƏRHƏLƏ: GƏDƏBƏYDƏ SON ARAŞDIRMALARIN NƏTİCƏLƏRİ................................................ 120-128

**Tural Mirzəli oğlu Şiriyev.** MÜSƏLMAN MƏDƏNİYYƏTİNDƏ XƏTTATLIQ SƏNƏTİ VƏ ONUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİNƏ DAİR ...................................................................................................129-138

***A.Q.Seyidov.*** AZƏRBAYCAN MÜSTƏQİLLİYİN BƏRPASI YOLLARINDA: GÜCLÜ LİDER, QÜDRƏTLİ DÖVLƏT..................................................139-146

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstərimədir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2021, 2 (32)*

***Çapa imzalanmış 18.08.2021-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 8***
***Sifariş 75, sayı 100***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***